# HƏKİMLƏRİN SÖZ DÜNYASI

*(Həkim-yazarların yaradıcılıq toplusu)*

II
KİTAB

**Əfrahim Hüseynli**
**(*Tərtibatçı*)**

# HƏKİMLƏRİN SÖZ DÜNYASI

(Həkim-yazarların yaradıcılıq toplusu)

**II KİTAB**



**"Elm və təhsil"**
**Bakı-2019**

**İdeyanın**
**ilk təşəbbüskarı**: **Afaq Şıxlı**
*Həkim, şair. Azərbaycan, Rusiya və Avrasiya Yazarlar birliklərinin üzvü*

**Redaktor:** **Əfrahim Hüseynli**
*AYB-nin üzvü, həkim, şair*
**Ön söz:** **Bilal Alarlı**
*filologiya üzrə fəlsəfə doktoru, AYB-nin üzvü*
**Məsləhətçilər:** **Musa Urud**, *millət vəkili, həkim, şair*
**Hümbət Quliyev,** *həkim, yazıçı*
**Paşa Qəlbinur,** *professor, həkim, şair*
**Tofiq Nurəli**, *həkim, şair*
**Fəxrəddin Ziya,** *həkim, şair*
**Şahin Musaoğlu,** *bəstəkar, həkim, şair*
**Azadə Taleh**, *həkim, şair, QMİB-nin sədri*
**Qalib Şəfahət,** *şair, nasir, həkim-kardioloq*
**Nazilə Gültac**, *həkim, şair*

Materialların toplanmasına dəstək olduqlarına görə **Nurəddin Ədiloğluna** *(filologiya üzrə fəlsəfə doktoru)*, **Rəşad Kərimlyə, Qüdsiyə Yusifqızına** minnətdarlığımızı bildiririk.

**Əfrahim Hüseynli (*Tərtibatçı*)**
**Həkimlərin söz dünyası**
(*Həkim-yazarların yaradıcılıq toplusu)* **II KİTAB.**
**Bakı, "Elm və təhsil", 2019, 456 səh.**

**ISBN 978-9952-8305-2-1**

**© «Elm və təhsil», 2019**

# BİTMƏYƏN SÖZ XƏZİNƏSİ
**(*Tərtibatçıdan)***

Ədəbiyyatımızın keçdiyi yola nəzər saldıqca, bu qibtəolunası yolun asan olmayan, zaman-zaman çətinliklərlə üz-üzə qalan bir yol olduğunu açıq-aydın görürük. Bu uzun-uzadı yolun tarixi orta əsrlərə qədər gedib çıxır. Bütün çətinliklərə baxmayaraq, zamanın ələyindən, imtahanından keçə-keçə həmin dövrlərdən indiyə kimi yazarlarımız təkcə Azərbaycan ədəbiyyatına deyil, eləcə də dünya ədəbiyyatına misilsiz töhfələr vermiş, öz əsərləri ilə tarixə möhürlərini vurmuşlar. Şahların, hökmdarların, xanların təqib və təsirləri ilə, bir sözlə dövrün çətinlikləri ilə üz-üzə qalsalar da, yazarlarımız haqqsızlığın nə deməк olduğundan tutmuş haqqın ölməzliyinə qədər, vətənsevərlikdən tutmuş insan aliliyinə qədər nə varsa, öz əsərlərində zaman-zaman qələmə almışlar.

Əsrləri adlayıb ölməzlik, əbədiyaşarlıq qazanan əsərləri oxuduqca ədəbiyyatımızla fəxr etmək haqqımızın da əbədiliyini görürük. Dünya ədəbiyyatı içərisində fərqlənən, ölçüyəgəlməz bu bitməyən söz xəzinəsini yaradan yazarlarımızı tarixdən heç bir qüvvə silə bilməyib. Tarixi vərəqlədikcə bu söz qüdrətinin qarşısında bəylərin, xanların, hökmdarlar aciz qaldıqlarının, məğlub olduqlarının şahidi oluruq. Mən həmişə deyirəm, bu söz xəzinəsi haqda günlərlə, aylarla danışsaq bitib - tükənməz.

Ədəbiyyatımza həkim-yazarlarımızın da bəxş etdiyi əsərlər saysızdır. **Saib Təbrizidən** tutmuş **Əkmələddin Naxçıvaniyə** kimi, **Mirzə Əli Xan Ləlidəndən** tutmuş **Abbas Səhhətə** qədər, **Tağı Şahbazidən** tutmuş çağdaş ədəbiyyatımızda olan neçə-neçə qələm əhlinə qədər zamanın ələyindən keçərək ədəbiyyatəmızı öz əsərləri ilə zənginləşdirən həkimlərimiz də az olmayıb...

Elə bu qeyd etdiyim amillərə görə həmişə çalışmışam ki, klassik, eləcə də çağdaş ədəbiyyatımızda yer alan həmkarlarım olan yazarların yaradıcılığına dərindən bələd

olum. Və, bələd ola-ola həkim-yazarlarımızı bir daha ədəbiyyatsevərlərə, el-obaya tanıtmağı özümə mənəvi borc bildim. Bu məqsədlə də ilk dəfə internet məkanında "Həkim-yazarlar" səhifəsini yaratdım. Səhifənin ətrafında birləşən həkimlərimizin sayı günbəgün artmağa başladı...

Sonralar tanınmış şair, gözəl qələm sahibi Afaq Şıxlı mənimlə söhbətində həkim-yazarların yaradıcılığı haqda toplu tərtib etməyi irəli sürdü. Nəhayət, 2016-cı ildə tərtib etdiyim "Həkimlərin söz dünyası" adlı həkim-yazarların ilk yaradıcılıq toplusunu oxucuların ixtiyarına verdik. Qısa zamanda kitab geniş oxucu auditoriyası qazandı. Hətta tanınmış ədəbiyyat adamları bu toplunun təkcə oxucular üçün deyil, həm də ədəbiyyatımıza əvəzsiz bir ərməğan olduğunu qeyd etdilər.

Etiraf edim ki, bizdən asılı olmayan bəzi səbəblərə görə topludan kənarda qalanlar da oldu. İlk toplumuzun təqdimat mərasimində bütün müəlliflər, başda tanınmış şair, alim, siyasi xadim **Musa Urud** olmaqla bu işin davam etdirilməsinin vacibliyini qeyd etdilər. Elə o gündən həkim-yazarlarımızın yaradıcılığını daha dərindən araşdıra-araşdıra, çağdaş ədəbiyyatımızda olan yazarların yaradıcılıqlarını izləyə-izləyə bu toplu ərsəyə gəldi. Ümidvaram ki, bu kitab ədəbiyyatımıza, elimizə gərəkliyi ilə heç də birinci toplumuzdan geri qalmayacaq. Bu toplunun ədəbiyyatsevərlərə, eləcə də ədəbiyyatımıza gözəl bir töhfə olacağına tam əminliklə inanıram.

Bu kitabın, əlbəttə, qiymətini oxucular verəcək. Dəyərli oxucular, indi söz sizlərindir!..

Bu layihənin ərsəyə gəlməsində əasalandığımız mənbə müəlliflərinə, dəyərli məsləhətlərini verənlərə, eləcə də bu layıhəyə qoşulanlara dərin minnətdarlığımızı bildiririk. Onu da qeyd edim ki, bu yönümdə fəaliyyətimizi davam etdirəcəyik...

**Əfrahim Hüseynli,**
*AYB-nin üzvü, həkim-şair*

# ESKULAPIN VƏ YEVTERPANIN İZİ İLƏ
*(İdeya müəllifindən)*

*"Hər birimiz bir şam işığı qədər işıq verə bilsək,*
*planetimizin günəşə ehtiyacı qalmaz"*
***Mustafa Topçubaşov***

Tarix boyu, təbiət elmlərilə məşğul olan böyük şəxsiyyətlərin əksəriyyəti incəsənətə, ədəbiyyata aşina olmuşlar. Onların bu qarşısıalınmaz sevgisi, yeni-yeni sənət əsərlərinin yaranmasına, xalqın mədəni irsinin zənginləşməsinə səbəb olmuşdur. Bu sıradan, həkim-yazarların ədəbiyyata verdikləri əvəzsiz töhfələr sayılmaqla qurtarmaz.

Hələ bizdən çox-çox əvvəl, bu iki sahə - ədəbiyyatla həkimlik arasında "qan bağı"nın olduğu görülmüşdür. Tibb universitetində müəllimim olmuş professor Qəhrəmanov həmişə deyərdi ki, həkimin əlləri – zərgər əlləri, ürəyi – şair ürəyi olmalıdır.

Adları dünya ədəbiyyatı tarixinə qızıl hərflərlə yazılmış bir çox məşhur yazarlar tibb elminin sirlərindən vaqif insanlar olmuşlar. Onlar təbabət aləmində topladıqları kamil bilikləri, təcrübələri, yaşadıqları hiss və duyğuları vərəq üzərində yazılı şedevrlərə çevirmişlər.

Ədəbiyyat adamları arasında həkim-yazarlar çoxluq təşkil edirlər. Onlardan sonra ikinci yerdə hüquqşünas-yazarlar durur ki, bu da təbabət və hüquq sferalarının təfəkkürün inkişafı üçün eyni dərəcədə əlverişli mühit yaratmalarının sübutudur.

Ədəbiyyat böyük qüvvədir! Hər bir peşədən, hətta tam ayrılaraq, söz dünyasına atılanlar çox olub, lakin geriyə keçid olmayıb. Çünki ədəbiyyat planetinin cazibə sahəsindən çıxmaq qeyri-mümkündür. Bu baxımdan, həkimlər - həm təbabət allahı Asklepinin, həm də poeziya ilahəsi Yevterpanın əlində istedad dolu badələri nuş etmişlərdir, seçilmişlərdir...

Təbabət həmişə xasiyyətlərin, xüsusiyyətlərinin, insani münasibətlərin və fərdlərin dərk edilməsində əhəmiy-

yətli rol oynamış, təxəyyülün dərin və geniş imkanlarına yol açmışdır. Şair - ruha şəfa verən bir həkimdir, incə həkim işi isə özü də bir poeziyadır. Böyük Hippokrat təbabətə olan sevginin – bəşəriyyətə olan sevgiyə bənzədirdi. Ədəbiyyatın da ən böyük fəziləti də elə bəşər sevgisidir!

Həkim-yazarlar arasında şairlər, nasirlər, dramaturqlar, fantastlar, satiriklər, tarixi, detektiv və macəra romanlarının (məs: Ejen Syu, Artur Konan Doyl) və eləcə də tibbi trillerlərin (Robin Kuk, Maykl Krafton) müəllifləri vardır.

Qəsidə, rübai, qəzəl və tibbi, filosofik traktatlar (məs: "Təbabət haqqında poema") ustası İbn Sina (980-1037), "İlahi komediya"nın müəllifi Dante Aliqyeri (1265-1321), "Qarqantua və Pantakrueli"i dünyaya tanıdan və tanınan Fransua Rable (1493–1553), məşhur "Quldurlar" dramının müəllifi Fridrix Şiller (1759–1805), romantik şair Con Kits (1795–1821), fransız yazıçısı Lui Bussenar (1847–1910), britaniyalı Somerset Moem (1874–1965), rus ədəbiyyatının klassikləri: Nikolay Leskov (1831–1895), Anton Çexov (1860–1904), Vikentiy Veresayev (1867–1945), Mixail Bulqakov (1891–1940), Vasiliy Aksyonov, Qriqoriy Qorin və başqaları sonsuz nöqtələrdə kəsişən təbabət və ədəbiyyat dünyalarının görkəmli simalarıdır.

Azərbaycan təbabətinin tarixi eramızdan əvvəl IV əsrə təsadüf edir. Ağdam rayonunun yaxınlıında, eneolit dövrünün yaşayış məntəqələrindən biri sayılan Çalağantəpə deyilən yerdə, arxeoloqlar ustalıqla trepanasiya olunmuş kəllə aşkar etmişlər. Təbii ki, bunu yalnız, ibtidai olsa belə, öz vaxtının təbibi və ya belə desək cərrahı edə bilərdi.

Həqiqətən də, Qarabağ, Naxçıvan, Lənkəran, Gədəbəy zonalarının iqlimi, orada bitən nadir dərman bitkiləri – Azərbaycan ərazisində həkimliyin inkişafına təkan verirdi. Zamanla, zərif, mistik və çox gərəkli loğmanlıq sənəti daha da püxtələşir, xalq ədəbiyyatının xüsusi tematik janrlarından birinə çevrilirdi...

Ən müxtəlif elmlərin sirrindən agah olan, bir çox dillərdə səlist danışan və çeşidli əsərlər yazan Мирза Ка-

фиаддин Омар ибн Османдan, Əkmələddin Naxçivanidən, böyük mütəfəkkir Əli bəy Hüseynzadəyə (Əli Turan), Lermontovu, Puşkini, Krılovu, Qorkini, Viktor Hüqonu, Müsseni və s... yüksək keyfiyyətlə tərcümə edən Abbas Səhhətə qədər - hər bir həkim-yazar ədəbiyyat tarixinə öz təkrarolunmaz möhürünü vurmuşdur. Buraya dövrümüzün bənzərsiz nümayəndələri: Fəxrəddin Ziya, Tofiq Nurəli, Sərdar Kərimli, Əfrahim Hüseynli, Ramiz Əkbər, Musa Urud, Şahin Musaoğlu, Qənirə xanım Paşayeva və b. da daxildir. Onlar oxunmağa, tanınmağa və unudulmamağa layiqdirlər!

...Çox zaman biz, həyatın gedişinin tam olaraq öz əlimizdə olduğuna inanırıq. Lakin unutmaq olmaz ki, hansı əsrdə yaşamağımızdan asılı olmayaraq, insanları uzaqdan-uzağa izləyən, yox yerdən dahilər yaradan, say-sız-hesabsız təbiət qanunlarını kəşf etməkdə onlara yardım edən, bizi qoruyan, yönləndirən, mükəmməlləşdirən yüksək qüvvələr mövcuddur. Mistik olsa belə, mən bu qüvvələrin varlığına inanıram. Və inanmağım üçün səbəblər də az olmayıb...

2015-ci ilin dekabr ayının son günləri idi. Gecə yuxuda mavi rəngli, yenicə çapdan çıxmış nəfis bir kitab verdilər əlimə, və qeybdən gələn səs bunun həkim-yazarların kitabı olduğunu söylədi. Qəribə də olsa, yuxudan ayıldığımda belə bir kitab mütləq mövcud olacağına tam əmin idim. Sabah açılar-açılmaz, ilk növbədə, həmişə inandığım və dərin hörmət bəslədiyim qələm dostum, həkim həmkarım Əfrahim Hüseynliyə zəng etdim və bu yuxumu ona danışdım. Əfrahim müəllim, təəccübsüz və tərəddüdsüz, əlindən gələni edəcəyinə söz verdi. Və etdi. 2016-cı ilin baharında, möcüzəli səma rəngli kitabımız işıq üzü gördü...

Əziz dostlar, əlinizdə tutduğunuz bu kitab – həkim-yazarlar toplusunun 2-ci hissəsidir. Biz bütün ədəbiyyatsevərləri sağlamlığımızın və ruhumuzun keşiyini çəkən uca insanların yaradıcılığı ilə tanış olmağa çağırırıq.

Qədim yunanıstan əsatirlərindən birində deyilir ki, əfsanəvi həkim Asklepi (Eskulap) insanlara olan sevgisinə, xoş və xeyirxah əməllərinə görə sonunda ölümsüzlüyə qovuşur və ilahi bir qüvvəyə çevrilir.

Məncə hər bir əfsanənin bir həqiqət başlanğıcı var. – Həkimlər onsuz da ürəkləri fəth edərək ölümsüzləşirlər. Yəqin ki, bu ölümsüzlüyün bir səbəbi də onların yaddaşlardan silinməyəcək əsərləri olacaqdır!

**Afaq Şıxlı,**
*həkim, şair, tərcüməçi*

# AĞRILARIN DƏRMANI SÖZ

(Kitab haqqında ön söz)

Azərbaycan ədəbiyyatında həkim yazarların xüsusi yeri var. Həm klassik, həm çağdaş ədəbiyyatda sözə məlhəm kimi yanaşılmış, xoş sözün müalicəvi əhəmiyyəti, insan ovqatına, insan ruhuna müsbət təsiri ayrıca qeyd olunmuş, eyni zamanda söz yarasını da heç bir dərmanın sağaltmadığı, bunun da əlacının yenə söz olduğu dönə-dönə vurğulanmışdır. Bəlkə də buna görədir ki, təbabət elmi sözü həkimin ən güclü və təsiredici dərmanı sayır. Sözün bu çalarlarına dərindən bələd olan həkimlər xoş ovqat yaradan, ruh yüksəldən şeirə, sənətə biganə qalmamış, yeri düşdükcə özləri də yazıb-yaratmışlar. Həkim yazarların "Həkimlərin söz dünyası" adlı ilk poetik toplusunda (2016) Nizami Gəncəvi, Saib Təbrizi, Məsihi, Məhəmməd Hüseyn, Mirzə Əlixan Ləli, Əli bəy Hüseynzadə, Nəriman Nərimanov, Abbas Səhhət, Mirzə Saleh Axundov, Simurğ, Şəhriyar, Həkim Qəni, Nadir Həkim, Xanımana Əlibəyli, Sərdar Kərimli, Rafiq Tağı, Yusif Əhmədov, Cabir Umud, Mirkazım Aslanlı, Ramiz Duyğun, Tamella Şəfəq, Ramiz Mövsüm, Fəxrəddin Davud, Paşa Qəlbinur, Tofiq Nurəli, Fəxrəddin Ziya, Rafiq Vəlizadə, Əfrahim Hüseynli, Fəzail İsmayıl, Musa Urud, Mirəfsəl Təbibi, Eldar Təbib, Məmmədyar Məmmədyarlı, Şahin Musaoğlu, Azadə Taleh, Afaq Şıxlı, Nazilə Gültac, Qalib Şəfaət, Habil Vəliyev, Pərvin Abbaslı və başqalarının yaradıcılığından söhbət açılmış, şeir və hekayələri oxuculara təqdim olunmuşdur. Birin-ci kitabın təqdimat mərasimi, həmçinin bu nəşrin oxucular arasında doğurduğu rezonans ənənəni davam etdirməyə zərurət olduğunu üzə çıxardı. Doğrudan da, həkimlərin söz dünyası o qədər zəngindir ki, oxuduqca adamın ruhu xoş ovqatla qidalanır və təmizlənir. Oxucuların istəyini və ehtiyacı nəzərə alan həkimlər ikinci toplunun tərtibinə önəm verdilər. İstedadlı şair, həkim-terapevt Əfrahim Hüseynlinin təşəbbüsü ilə yeni toplu daha dolğun, daha zəngin şəkildə nəşrə hazırlandı.

“Həkimlərin söz dünyası” toplusunun ikinci kitabında əsasən  Mirzə Əlixan Ləli, Əlibəy Hüseynzadə, Nəriman Nərimanov, Abbas Səhhət, Qantəmir, Tağı Şahbazı Simurğ, Məhəmmədhüseyn Şəhriyar, Mir Kazım Aslanlı Sarəng, Həkim Qəni, Xanımana Əlibəyli, Nadir Həkim, Ramiz, Yusif Əhmədov, Tamilla Şəfəq, Ramiz Mövsüm, Zakir Ağdamlı, Rafiq Tağı, Paşa Qəlbinur, İntiqam Bağırov, Tofiq Nurəli, Fəxrəddin Ziya, Rafiq Vəlizadə, Manafağa Feyzullayev, Sərdar Kərimli, Cabir Umud, Əfrahim Hüseynli, Asif Kəngərli, Rəfiqə Qasımqızı, Firdovsi Ələmoğlu, Hümbət Quliyev, Ramiz Əkbər, Şahnaz Şahin, Malik Xəlil Ağagüloğlu, Süleyman İsmayıl, Hafizə Məmmədova, Musa Urud, Süleyman İsmayıloğlu, Məmmədyar Məmmədyarlı, Zəkiyyə Elruh, Şahin Musaoğlu, Azadə Taleh Abbas, Elman Rüstəmov, Xasay Bayram, Rəna Hacıyeva, Xatirə Kərimova, Afaq Şıxlı, Nazilə Gültac, Qalib Şəfahət, Habil Vəliyev, Qənirə Paşayeva, Pərvanə Məmmədova, Rərvin Abbaslı, Solmaz Həsənova və Dilşad Zülfüqarovanın  yaradıcılıq nümunələri yer almışdır. Sıralanma doğum tarixinə görə verilmişdir. Əlbəttə, bu, Azərbaycan həkim yazarlarının tam siyahısı deyil və çox güman ki, növbəti nəşrlərdə bu iki kitaba düşməyən peşəsi həkim olan, həmçinin söz-sənət aləmində də nüfuzu ilə tanınan qələm adamlarına müraciət olunacaq. İstər birinci kitab, istərsə də ikinci kitab ədəbi mühitdə ən böyük təşəbbüslərdən biri sayılmalıdır. Yazarların peşə prinsipinə görə bir topluda yer alması ilk təşəbbüsdür və bu işin davam etdirilməsi təşəbbüsçülərin yanılmadığını nümayiş etdirir. Bu toplu əslində gələcəkdə aparılacaq daha fundamental tədqiqat işinin xammalıdır. Bu toplu həm də göstərdi ki, Azərbaycan ədəbiyyatında həkim yazarların xüsusi çəkisi var.

Klassik ədəbiyyatda həkim yazarların fəaliyyəti əsasən şeirlə məhdudlaşır. Buna baxmayaraq, həkim yazarlar öz dövrünün görkəmli ədəbiyyat xadimi kimi tanınırdılar. Azərbaycan poeziyasının inkişafında həkim yazarların rolu böyükdür. İstər klassik, istərsə də çağdaş ədəbiyyatda

***şeir yazan həkimlər*** ədəbi proseslə ayaqlaşmış, hətta aparıcı mövqe tutmuşlar. Bunlardan biri Mirzə Əlixan Ləlidir. Mirzə Əlixan Ləli yaradıcılığını mövzu rəngarəngliyi fərqləndirir. O, klassik qəzəl janrının ən yaxşı nümunələrini qələmə ala bilmiş, Füzuli lirikasının ahəngini öz qəzəllərində qoruyub saxlamışdır:

Qəzəllərindən birində dövrünün ədəbi tələblərinə uyğun gözəl lirik lövhə yaratmışdır:

**Gətirdi nəşeyi-mey, saqiya, nə şurə məni,**
**Ki, şövqi-arizi-canan çəkib hüzurə məni...**

"Həkimlərin söz dünyası" toplusunda yer alan ikinci böyük sənətkar Əli bəy Hüseynzadədir. *Əli bəy Hüseynzadənin* ədəbi fəaliyyəti haqqında ətraflı şəkildə araşdırmalar aparılmış, istər onun maarifçilik fəaliyyəti, istərsə də söz yaradıcılığı layiqincə dəyərləndirilmişdir.

Əli bəy Hüseynzadənin yaradıcılığında və ictimai-siyasi fəaliyyətində millət sevgisi aparıcı mövqedədir. Eyni ideologiyanı şeirlərində də təbliğ edir:

**Ey xar görən bizləri, bizlər nücəbayız,**
**Meydani-həmiyyətdə ələmdari vəfayız.**
**Turanlılarız, sahibi-şanü şərəfiz bız**
**Əslafımızın naibi xeyrül-xələfiz biz!**

Şeirləri ilə ürəkləri fəth edən həkim şairlərdən biri *Abbas Səhhətdir*. Abbas Əliabbas oğlu Mehdizadə həkim, şair, dramaturq və tərcüməçi kimi tanınmışdır. "Vətənim", "Yay səhəri", "Quşlar" kimi şeirləri məktəb yaşlı uşaqların ən çox sevdiyi və tez əzbərlədiyi nümunələrdir. "Yay səhəri" şeiri isə kənd həyatının gözəl mənzərələrini obrazlı şəkildə əks etdirir. İndiki yeniyetmə nəsil Abbas Səhhətin "Vətənim" şeirinin aşıladığı vətənpərvərlik ruhunda böyüyür:

**Məni xəlq eyləmiş əvvəlcə Xuda,**
**Sonra vermiş vətənim nəşvü-nüma...**

A.Səhhətin belə əsərləri əsasən şeirləri öz tərbiyəvi əhəmiyyəti ilə seçilir, gənc nəslin bədii və mənəvi-əxlaqi cəhətdən formalaşmasında mühüm rol oynayır.

Güney Azərbaycanda dərmanından çox sözü dərdə dəva olan həkim şairlər yetişmişdir. Bunların ən görkəmli

nümayəndəsi Məhəmmədhüseyn Şəhriyardır. O, yaradıcılığında Azərbaycan dilinə önəm vermiş, ən yaxşı əsəri olan "Heydərbabaya salam" poemasını bu dildə qələmə almışdır. Həm Güney, həm də Quzey Azərbaycanda bu poemaya çoxlu nəzirələr yazılmışdır.

Şeirlərində Şəhriyarın qələminin tamını yaşadan şairlərdən biri Sarəngdir. Onun şeirlərində həkim peşəsi ilə bağlı müşahidələr üstünlük təşkil edir. Hətta şeirlərindən birində “Ey həkim, olsaydım yerinə sənin” deyib, bu gözəl peşə sahibini öz xəstələrini musiqi ilə sağaltmağa çağırır:

**Ey həkim, olsaydım yerində sənin,**
**Musiqi olardı adı nüsxəmin...**
**Birinə yazardım mən “Şəbi-hicran”,**
**Birinə yazardım “Sevgili canan”...**

Şeirdə belə bir misra var: “Birinə Sarəngdən yüz rəng yazardım”. Şair burada həm təxəllüsünün mənasını açır, Sarəngin “yüz rəng” anlamına gəldiyini bildirir, həm də rəng sözünün çalarlarından möhtəşəm bir obraz yaradır. Ən maraqlısı isə rəngin musiqi parçası anlamına gəlməsi və insanı (şeirdə xəstəni) rəngdən rəngə, yəni haldan hala salmasıdır.

Şairin “Dəmbəlov şikəstəsi”, “Aşiqin son nəğməsi”, “Sarı bülbül fantaziyası”, “Müxəmməs”, “Masallı masalları” kimi əsərləri indiyədək yetərincə araşdırılmamışdır. Yeri gəlmişkən, qeyd edim ki, Sarəng Cənub bölgəsinin folklor nümunələrini toplayıb, Hüseyn Cavidin oğlu Ərtoğrul Cavidə təqdim etmişdir. Həmin folklor nümunələri Ərtoğrul Cavidin AMEA Əlyazmalar İnstitutu tərəfindən nəşr olunan külliyatının içərisində özünə yer almışdır.

*Həkim Qəni* də Sarəng kimi çoxlu peşə sahibi olan şairlərdən biridir. Həkim Qəninin yaradıcılığında qəzəl, qoşma, gəraylı, hətta bayatı aparıcı yer tutmuşdur. Həyat yoldaşı şairə Solmaz Şirinlə şeirləşməsi Həkim Qəninin çağdaş ədəbi prosesin tələblərinə uyğun gözəl şeirlər yazdığını da sübut edir. Lakin Həkim Qənini daha çox tanıdan bu gün də müğınnilərin dilindən düşməyən və müxtəlif muğam şöbələri üstündə oxunan qəzəlləridir:

**...Əqlin, hissin, şüurun, dirliyin fəlsəfəsi,**
**Qəni, insaniyyətin əsasıdır muğamat.**

Peşəsi həkim olub, şair kimi tanınan *Xanımana Əlibəyli* uşaq yaşlarında ikən şeir yazması ilə diqqəti çəkmişdir. Onun şeirləri uşaqlara ətraf aləmi tanımaqda yaxından kömək edir. Bir çox uşaq şeirlərinə musiqi bəstələnmişdir. İndiki yaşlı nəsil Xanımana Əlibəylinin uşaq şeirlərinə yazılmış musiqini sədaları altında boy atmış, onun şeirlərinin ruhu ilə tərbiyə almışdır. "Günəş olaram mən də" şeirini hamı yaxşı xatırlayır. "Yol" şeiri isə uşaqlara ən düzgün yolu göstərir:

**Bir yol var ki, dünyada**
**Onu getmirsən hədər…**
**…Bax, uşaqla doludur, –**
**O, məktəbin yoludur.**

**A**zərbaycan ədəbiyyatında uşaq dramaturgiyası 60-cı illərdə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Uşaq dramaturgiyasının mövzu dairəsi genişlənmiş, onun gənc nəslin tərbiyəsində rolu artmışdır. X.Əlibəylinin «Aycan» və «Dovşanın ad günü» pyesləri uşaqların sevə-sevə baxdıqları tamaşalardır. Təmsil-pyes janrında yazılan bu əsərlər azyaşlı uşaqları daha çox maraqlandırır.

**Dünyasını dəyişən həkim yazarlardan,** əsasən qoşmalar yazan Nadir Həkimin şeirləri aşıqların repertuarını bəzəyir.

Rafiq Tağının şeirlərində həyat həqiqətləri sanki başayaqdır, bu həqiqətləri dərk etmək üçün şeirlərin alt qatına enmək bacarığı tələb olunur. Belə demək mümkünsə, bu şeirlər kütləvi oxucu üçün deyil və salon alqışları üçün nəzərdə tutulmayıb. Bu şeirlər oxuyub düşünənlər üçündür:

**Tarixdən üç alan**
**bir kəndçi**
**qızı alıb**
**on uşaq atası oldu.**
**Universitet qurtardı amma**
**tarixdən beş alan –**
**indiyəcən subaydı…**

*Sərdar İsa oğlu Kərimli* istedadlı şair, ədəbiyyatçı, publisist, dövlət xadimi kimi tanınmışdır, xeyirxah əməlləri və vətənsevərliyi ilə yaddaşlarda yaşayır. Onun şeirləri olduqca sadə və sadə olduğu qədər düşündürücüdür:

**Nadanı sındırar - hünərsiz eylər,**
**Gödəldər dilini, kəsərsiz eylər.**
**Namərdə divanı xəbərsiz eylər**
**Yamanın gözünə batar yaxşılıq.**

*Cabir Umud oğlu Hüseynovun* əsərlərində əsasən Vətən həsrəti, yurd itkisi özünə yer alıb. Cabir Umudun "Qəm dəyirmanı", "Bu daş, bu tərəzi", "Dərdim varsa tək deyiləm", "Bayatı yağmuru" adlı şeir kitabları çap olunub. Cəmiyyəti narahat edən məsələlərə poetik münasibət bildirən şairin şeirlərində ibrətamiz, müdrik fikirlər yer alıb:

**...Fani sevgilərin yolu,**
**Həsədlə, pisliklə dolu,**
**...Ey azmış nəfsinin qulu,**
**Kəfənin cibi olmur.**

**Çağdaş ədəbi prosesdə** sanballı sözü ilə seçilən həkim yazar *Ramiz Duyğun* on beşdən artıq kitabın müəllifidir. Bundan başqa publisistik yazıları və ədəbi tərcümələri vardır. Ramiz Duyğun haqlı olaraq yazır ki:

**Elə yaşamışam, məndən**
**İnciyib küsən olmayıb.**
**Tutduğum işə, əmələ**
**Bir dodaq büzən olmayıb.**

Ramiz Duyğunun "Başını dik saxla", "Azərbaycan ordusu", "Qana qan", "Yolun yarısında" və başqa şeirləri bayrağımızın, milli ordumuzun, vətənimizin qüdrətinə həsr olunub.

Ramiz Duyğundan fərqli olaraq, *Tamilla Şəfəq* məhəbbət şairidir. Şeirlərindəki gənclik ehtirası Tamella xanımın poetik ruhunun yüksək olmasına dəlalət edir:

**Tərlanım uzaqdan baxdı, nə baxdı,**
**Sandım çiçəklərə qısqanır məni...**

Vətənpərvərlik mövzusunda şeirləri ilə diqqət çəkən *Ramiz Mövsümün* (Əliyev Ramiz Mövsüm oğlu) yeddidən çox kitabı işıq üzü görüb:

**Yerin üstdə donub ağac, buzlayıb daş da,**
**Yerin altda tükənməyən hərarət vardır.**
**Qarabağa qonaq gəlir payız da, qış da,**
**Amma onun ürəyində hər vaxt bahardır!**

Digər bir ağdamlı həkim şair *Zakir Ağdamlı* həm də ictimai xadimdir. Şeirləri dövrü mətbuatda, ədəbi orqanlarda və ədəbi toplularda çap olunur. Zakir Ağdamlının "Bayrağım", "Ağdam", "Ocaq daşım yurd yerim", Doğma yurdum Azərbaycan", "Şuşa harayı", "Bülbül" və başqa şeirləri vətənpərvərlik mövzusundadır. O, doğma yurdu Ağdama şeirlər həsr edib:

**"Ağdam Qarabağın toy otağıydı",**
**Mən elə bağlıydım əzələ, Ağdam!**
**İgidlərin saymaq ilə qurtarmaz,**
**Bənzər bir qənirsiz gözələ, Ağdam!..**

"Gözlər" adlı ilk şeri ilə 13 yaşında ədəbiyyata gələn Paşa Qəlbinurun şeirlərində dünya, həyat, işıq, torpaq, bir sözlə, hər şey haqqında gözəl poetik fikirlər var. Amma bu şeirlərin hamısından işıq seli bir qırmızı xətt kimi keçir:

**...Yanır bir ilahi şam.**
**Allah, sənin ətəyin –**
**İşıqdı**
**Ətəyindən tutmuşam...**

Həkimlərin bədii yaradıcılığında şikayət motivli şeirlərə də rast gəlirik. Bu şikayətlərin mövzusu klassik ədəbiyyatdakı giley-güzarla, dünyanın vəfasızlığı kimi motivlərlə səsləşir. "Nə gücüm qalmayıb, nə də taqətim, Çıxam ağuşundan, qoca dünyanın". Bu misralar *İntiqam Bağırovun* "Qoca dünyanın" şeirindəndir. Həkim yazarın şeirlərində ədəbi qəhrəmanın daxili narahatlığı daha çox qabardılır:

**Günəş asta-asta qüruba enir,**
**Xəyal qoşununu çəkir üstümə.**

**Nalələr, fəryadlar imdada yetmir,**
**Gecə qılıncıyla durur qəsdimə.**

Hər gün bir az Nəsimidən kömək istəyən, dərisi soyulmağın necə olduğunu bilmək istəyən həkim, şair və nasir *Tofiq Nurəlinin* poetik dünyası daha heyrətamizdir. Tofiq Nurəlinin ən təsirli dərmanı sözdür:

**Bizim biletimiz o qataraymış-**
**Bu gələn qatardan gözlərini çək,**
**Bu qatar bizləri götürən deyil,**
**Bizim biletimiz yanıb, əzizim...**

Belə kövrək misraların müəlliflərindən biri həkim, şair və publisist Fəxrəddin Ziyadır. Rus və fars dillərini mükəmməl bilən, "Qayıt məni qınamağa", "İl ayrıcında", "Zaman, səndən hara qaçım", "Mənim şair anam", "Yazıçılar", "Bu da bir istəkdi", "Şeiriyyətim, şeirim" və sair poetik topluları nəşr olunan *Fəxrəddin Ziya* həm də çoxlu sayda mahnı mətnlərinin müəllifidir. Onun şeirləri ibrətamizdir, düşündürücüdür:

**Bütün ölçülərin başında durar**
**haqqı əzəmətlə ölçülən kişi.**
**Gözündən od yağar, çöhrəsindən nur**
**yüz kişi içində seçilən kişi...**

*Rafiq Vəlizadənin* şeirlərində təbiət, cəmiyyət və həyat probleminin poetik həlli özünəməxsus tərzdə axtarılır. Rafiq Vəlizadənin "İndi məni tanımadı" mahnısı uzun müddətdir ki, müğənnilərin repertuarından düşmür:

**İllərlə sevib-seçdiyim,**
**Peyman edib, and içdiyim,**
**Yolunda candan keçdiyim**
**İndi məni tanımadı...**

*Manafağa Səmədağa oğlu Feyzullayev* tələbəlik illərindən şeir yazır. Onun şeirlərindən biri xalatla ömürlük ülfət bağlayıb evlərə təbəssüm paylayan həkim haqqındadır: "Şirin yuxusunu doğma ana tək xəstə yuxusuna calayır həkim". Manafağa Seyfullayevin insanlar arasında etik münasibətlərə həsr olunan şeirləri də çoxdur:

**Xəbərsiz-ətərsiz, yad qonaq kimi**
**Qapının zəngini çalar şübhələr.**
**Uşağı, böyüyü, qoca-cavanı**
**Fikir dəryasına salar şübhələr...**

Şeir poetik səviyyəsinə görə emosional, emosional-intellektual və intellektual olur. Emosional şeirlər hissləri ifadə edir. Emosional-intellektual şeirlər düşündürüb hissləri tərpədir. İntellektual şeirlər düşündürür. Ahəngdən, ritmdən müdrikliyə doğru inkişafı müasir poeziyada müşahidə etmək çətin deyil. İntellektual şeir abstrakt, ağ, sərbəst pillələrdən keçir. Daha çox emosional-intellektual şeirlər yazan *Əfrahim Hüseynli* istedadlı şair olmaqla bərabər, həm də insanların rəğbətini qazanmış bir həkimdir... Onun həyat yolunu özünün qələmə aldığı "Atamdan sonra" şeiri daha yaxşı ifadə edir:

**...Bir vaxt sındırardı bar ağacları,**
**Torpağı öpərdi nar ağacları.**
**İndisə, əyibdi qar ağacları,-**
**Budanmır budağı atamdan sonra.**

*Rəfiqə Qasımqızının* şeirləri əsasən məhəbbət mövzusundadır. Lakin onun elə ağrılı şeirləri var ki, hamının qəlbini titrədir:

**Ürəkdə göz yaşı bitirər kədər,**
**Çayır tək kökləri gedər dərinə...**

"Mənim bircə dünyam var, o da mənim içimdə" deyən *Firdovsi Ələmoğlunun* "Vətən, vətən olarmı heç?!", "Bircə məhəbbəti alma əlimdən", "Bu dünya heç kimindir", "Çiçəklən, çiçəklən, Azərbaycanım!", "Demə məhəbbət də saxta olarmış", "Deyirsən gedirəm", "İlk sevgi", "Kökündə axtar" və başqqa şeirlərində vətənpərvərlik və məhəbbət hissləri poetik şəkildə ifadə olunub. Şair şeirlərindən birində haqlı olaraq deyir ki:

**...Məhəbbət gələndə heç yaşa baxmır.**
**Məhəbbət elə bir fırtınadır ki,**
**Gələndə enişə, yoxuşa baxmır.**

*Hacı Malik Xəlil Ağagüloğlunun* ilk qələm təcrübəsi "Əmək" şeiridir. Onun müxtəlif məzmunlu şeirləri içəri-

sində “Təbib qardaşım, təbib bacım” şeiri xüsusilə fərqlənir:

**...Səndə tapılır yenə hər dərdimə əlacım,**
**Mənim təbib qardaşım, ey mənim təbib bacım .**

“Neçə əzablar doğulur, ölür içimdə” deyən *Şahnaz Şahin* də oxşar üslubda yazır:

**Daha heç nə qalmadı,**
**İndi nədən danışaq?!**
**Küsülü də deyilik,**
**Külək əsə, barışaq...**

Şahnaz Feyzulla qızı Nəsirova-Babayevanın zəngin poetik dünyası var. O, öz fikirlərini özünəməxsus şəkildə ifadə edir. “Lap hərdən təklikdən gizlənib yazıram sənə məktub, Ona namə, özümə mesaj” misraları şairin narahat duyğularını ifadə edir.

*Süleyman İsmayılın* da şeirləri mətbuatdda tez-tez işıq üzü görür. “İtən nəğmələr”, “Son yarpaqlar” və “Ötən ilin buludları” adlı şeir kitabları, “İgid yarasız ölməz” publisistik kitabı çap olunub. Şeirləri yüksək poetik səviyyəsinə görə seçilir. Bunu Süleyman İsmayılın yaradıcılığından gətirdiyimiz nümunələr də təsdiq edir. “Bu dünya mən deyən deyil” şeirindən:

**...Hanı o nağıllı, noğullu dünya?**
**Hanı o sən deyən ağıllı dünya?**
**Bu dünya dəlidir, sən deyən deyil.**
**Hər sirri bəllidir, mən deyən deyil...**

Şair, həkim, tibb elmləri üzrə fəlsəfə doktoru, millət vəkili *Musa Urud* on beşə yaxın şeir, poema, bədii, elmi və siyasi publisistika kitablarının müəllifidir.

Doğma yurdu elliklə tərk etmək məcburiyyətində qalan şairin poeziyasında vətən həsrəti, didərginlik taleyi, el dərdi, müharibə ağrı-acıları aparıcı motivləri təşkil edir:

**...Adımı üzümə rübənd eylədim,**
**Ömrümü arzuma kəmənd eylədim.**
**Haqq sözü cır işə peyvənd eylədim,**
**İçimdə bir şair öldü, bilmədim.**

*Süleyman İsmayıloğlunun* (İsmayılov Süleyman İsmayıl oğlu) da şeirlərinin mayasında əsasən Vətən həsrəti motivləri dayanır:

**Hər gecəm, hər gündüzüm gözlərim hey yol çəkir,**
**Qələbə müjdəsi ilə imza atır, qol çəkir...**

*Zəkiyyə Elruh* da şeirə gətirən vətən həsrətidir. Pənahova Zəkiyyə Həsən qızının şeirləri ədəbi toplularda dərc olunub. Beş kitablı işıq üzü görüb. Zəkiyyə Elruhun dərdi yurd dərdidir:

**Allah, məni külə döndər,**
**Hara gəldi əsə bilim.**
**O dağlara, dərələrə,**
**Düzlərə tələsə bilim...**

Qərbi Azərbaycandan olan digər həkim şair xanım *Nazilə Gültac Hüseynzadədir*. Beş şeirlər, povest və hekayələr kitabının müəllifidir. Nazilə Gültac da şeirlərini qürbətdə qalmış Vətən eşqiylə yazır:

**Olanım, olmazım pərən-pərəndi,**
**Nəğmələr dilimdə "Yanıq Kərəmdi",**
**Vüsalı, hicranı bəndi-bərəmdi,**
**Gəlsə, dəli sevdam onda ovunar...**

*Məmmədyar Məmmədyarlı* da doğma yurdundan didərgin düşmüş həkim şairdir. Şeirləri müxtəlif ədəbi toplularda işıq üzü görüb. Dörd şeir kitabının və müxtəlif publisist yazıların müəllifidir. Yurd sevgisi, Vətən həsrəti, el-oba yanğısı misralarını oda qalayır:

**Yağılar başıma oyun açıbdi,**
**Ev-eşik yanıbdı, divar uşubdu,**
**Qırılan qırılıb, qaçan qaçıbdı,**
**Kimsəsiz bir viran elə dönmüşəm.**

Çağdaş ədəbiyyatda vətənpərvərlik mövzusundan söhbət edərkən birinci növbədə *Şahin Musaoğlu* yada düşür. Onun yazdığı və nəğmə kimi oxuduğu şeirlər dillər əzbəridir. "Qərib Karvan", "Birinci Batalyon", "Cənab Leytenant" və sair mahnıları ona şöhrət qazandırır. Onun "İgid əsgər, möhkəm dayan", "Vətən çağırır" və "Bozqurd harayı" audio kassetləri, "Öncə Vətəndir", "Cənab Leyte-

nant", "Şahin Musaoğlunun müəllif mahnıları" adlı kompakt diskləri Azərbaycanda və Türkiyədə geniş yayılıb.

Şahin Musaoğlunun şerləriində vətən sevgisi hər misradan boylanır. "Vətən oğullar üstədi" şeirindən:

**...Biz gedərik, yurd qalacaq,**
**Yurddan ocaq-od qalacaq.**
**Ərənlərdən ad qalacaq,**
**Vətən oğullar üstədi...**

Şahin Musaoğlunun "On altı ilin savaş hekayəsi" essesi Ziqmund Freyd və onun bütün cəmiyyətlər tərəfindən birmənalı qarşılanmayan ideyaları haqqındadır.

"Mən bu yurdun şairiyəm" deyən şair, publisist, pedaqoq *Azadə Taleh Abbas* çoxlu sayda bədii və elmi kitabın müəllifidir. Könlündə sevgidən çiçəklər açan şair xanım sözü müqəddəs

**...Şerim sözüm müqəddəsdir.**
**Mən şan şöhrət istəmirəm,**
**Məni xalqım sevsin müdam**
**Bu məhəbbət mənə bəsdir.**

*Xasay Bayram* lal sükutu dinləyib, özünü, sözünü unudan, tənhalığın əlindən tutub ömrünün son payızına gedən şairin duyğuları oxucunu ağuşuna ala bilir:

**Qayğılı- qayğısız günlər ötüşüb,**
**Ayların, illərin naxışı sınar.**
**Sənin yaddaşında necə var qalıb**
**Gedirəm ömrümün son payızına...**

*Rəna Fərrux qızı Hacıyevanın* ilk yaradıcılıq nümunələri əsasən "Kredo" qəzetində çap olunan Rəna Hacıyeva müxtəlif mövzularda şeirlər, esselər qələmə alır. Onun poetik duyğuları ovqata köklənir:

**Ovqatı qarışan fəsillər kimi**
**Gah qışda qaliram, gah yaz oluram...**

Həkim kimi ali təhsil alıb, ədəbi yaradıcılığından qalmayan *Afaq Şıxlı* həm də tərcüməçilik fəaliyyəti ilə məşğuldur. Azərbaycandan kənarda yaşamasına baxmayaraq, öz şeirlərində ana dilimizin şirinliyini qoruyub saxlayan Afaq Şıxlı bədii gözlənilməzlikləri ilə oxucusunu

təəccübləndirə bilir. Hansı mövzuya müraciət edirsə, bu mövzuda deyilənlərə yekun vurur və yenilik axtarışına can atır. Bu yenilik fikir yeniliyi, ifadə yeniliyi, deyim yeniliyidir. Ana haqqında çox yazılıb, bu mövzuda yeni fikir demək çətindir, amma Afaq Şıxlı özündən əvvəlki şairlərdən fərqli bir Ana obrazı yarada bilir:

**Analar**
**qucaqlarında özümüzü,**
**qəlblərində qəm yükümüzü daşıyırlar.**
**Analar**
**kişi qeyrəti çəkib**
**qadın ömrü yaşayırlar...**

Həsrət, intizar gizli şəkildə olsa da, qürbət ömrü yaşayan Afaq Şıxlının şeirlərinə sığal çəkir. Bəlkə də buna görə, şair xanım "Həyat məni dalğa kimi sahillərə çırpa-çırpa təmizləyir", deyir. Amma bu hisslərdən qaçmaq o qədər də asan deyil, çünki insanın Vətəndən uzaqlarda həyatla "əlbəyaxa çarpışımda ümidləri qaralır".

Qürbətdə yaşayıb-yaradan həkim yazarlarımızdan biri də Solmaz Qəribeldir. Solmaz xanım deyir ki, iki dəfə vətənsiz qaldığına görə, əvvəl Ağdərədən, sonra isə doğma Azərbaycandan uzaq düşdüyü üçün özünə Qəribel təxəllüsünü götürüb. Solmaz Qəribelin "Məni məndən alan dünya" adlı şeirlər kitabı çap olunub. Solmaz Qəribelin şeirlərində sevgi və vətən həsrəti aparıcı mövqedədir. Bu da onun qürbətdə yaşaması və işləməsi ilə bağlıdır. Həkim və şair Solmaz Qəribel şeirlərində də qərib kimi görünür. "Ömrü bir ağac kimi kökündən qopan" şair xanımı zaman yalan vədləriylə "körpə uşaq kimi ağladır":

**Daşan sellər, sular yudu, apardı,**
**Çırpdı qayalara qalan ömrümü.**

*Vəliyev Habil Çərkəz oğlunun* "İki duyğu arasında" adlı kitabı çap olunub. Dünyasını dağıdıb, yenidən qurmaq istəyən Habil Vəliyev doğma yurda dönəndə doğmalarının yoxluğundan səksənir, sönmüş ocağı, suyu sovulmuş həyəti görüb, "Açın bu qapıları!" deyir, amma səsinə səs verən olmur. Onun şeirlərində metaforik ifadələr boldur:

**Sıxıb dişini dişinə,**
**Buludların təri çıxıb.**
**Neçə gündür yağış yağır,**
**Bu dünyanın kiri çıxıb...**

Tanınmış jurnalist, həkim, yazıçı, Milli Məclisin üzvü *Qənirə Ələsgər qızı Paşayeva* çoxlu sayda ədəbi və publisistik kitabın müəllifidir. "Mənim yaralı atam, mənim bəlalı anam, Qarabağ!" deyib haray çəkən, "Ruhuma vətənsən, gözümə torpaq", deyib doğma torpağa səcdəyə gələn Qənirə Paşayeva şeirlərində daha üsyankar görünür:

**...Sənsiz bizə haram olsun**
**bu gen dünya!**
**Dönəcəyik sənə bir gün,**
**Qarabağım!**
**Qaram, ağım**

Həkim yazarların ən gənc nümayəndəsi *Pərvin Abbaslı* (Abbasova Pərvin Elçin qızı) on bir yaşından şeirlər yazır, mənsur seirlər, esselər və mənalı sözlər səklində poetik duyğularını ifadə edir. Pərvin Abbaslının "Rəngarəng həyat" adlı ilk poetik toplusu 2015-ci ildə işıq üzü görüb. Pərvinin peşəsi və işi dərdini danışmağa adam gəzən xəstələrlə bağlıdır. Pərvin dünyanı və insanları alt qatdan, kimsənin görə bilmədiyi və görməyə can atmadığı bir aləmdən müşahidə edir. O, kövrək bir şair qadın kimi insanların dərdini çəkib öz dərdi eləyib. Onu duymaq, başa düşmək üçün qafiyələrinin tarazlığını, yaxud taraz olmadığını qabartmağa ehtiyac yoxdur. Sadəcə, bu şeirlərin və esselərin daxilindəki ağrıları görmək kifayətdir.

**İllər ürəyimdə qalan yaradır,**
**Hərdən xatirələr onu qanadır...**

Moskvada yaşayan həkim *Zülfüqarova Dilşad İlqar qızı* tələbə olsa da, yaradıcılıq nümunələri diqqət çəkir. O, şeirlərini rus dilində yazır. Ulduzları saya-saya Simurq kimi alovlardan keçən Dilşad xanımın şeirlərini Azərbaycan oxucularına Afaq Şıxlı təqdim edir:

**Sevgi gizli dəfinəyə bənzəyər,**
**Nişanıdır o, günəşin, həm ayın.**

**Sevənlərə körpə kimi göz dəyər,**
**Sevginizi dilə-dişə salmayın...**

Həkimlər ***nəsr yaradıcılığı sahəsində*** də Azərbaycan ədəbiyyatı üçün böyük işlər görmüşlər. Yazıçı həkimlər maarifçilik ideyalarının aparıcı simaları olmuş, ictimai-siyasi əhəmiyyət daşıyan əsərlər yaratmış, uşaqlar üçün maraqlı hekayə və povestlər yazmışlar. Onların qələmindən zamanın social problemlərini qabardan pyeslər çıxmışdır. İxtisasca həkim olan yazıçıların ədəbi fəaliyyəti peşə fəaliyyətini tamamlamışdır. Həkim, yazıçı, publisist, dövlət xadimi olan *Nəriman Nərimanov* (1870 -1925) "Bahadır və Sona" əsəri ilə Azərbaycan milli romanının əsasını qoymuş, "Nadir şah" dramı ilə ilk tarixi faciəni yaratmışdır.

Yazıçı *Qantəmir* (1888-1944) də həkimlikdən çox ictimai fəaliyyəti ilə tanınır. Qantəmir "Molla Nəsrəddin" ədəbi məktəbinin ənənələri əsasında satirik hekayələr yazmış, satirik nəsrin davametdiricilərindən biri olmuşdur. Kəskin yazılarına görə Qantəmir repressiyaya olunmuşdur.

*Tağı Şahbazi Simurğ* (1892-1937) yazıçı-publisist, həkim, ictimai xadim kimi tanınmışdır. Bədii yaradıcılığa inqilabdan əvvəl başlamış, «Quşlar kimi azadə», «İyi aləm», «Südçü qız», «Aclar» və digər hekayələrində dini fanatizm, istismar dünyası, xalqa yad «ziyalılar» tənqid olunmuşdur. «Haqsızlıq dünyası», «Hacı Salman», «Ağanın kənizi», «Məşədi Qədimin evində bədbəxtlik», «Azadlıq üçün cinayət», «Zərifə», «Küləkli bir axşam» və digər hekayələri zamanın haqsızlıqlarına güzgü tutur. Simurğun «Düşmənlər» povesti kollektivləşmə dövründə kənddə gedən sinfi mübarizəyə həsr olunub.

Həkim *Yusif Yaqub oğlu Əhmədovun* (1939 – 2012) ədəbi fəaliyyət dairəsi janr etibarı ilə genişdir. Yusif Əhmədov nəsrlə məşğul olmuş, dram əsərləri və şeirlər yazmışdır. İlk kitabı "Əfqan hekayələri" adı ilə Düşənbə şəhərində fars dilində çap olunmuşdur. Onun "Ələkeçməzlər", "Qara yelkənli qırmızı gəmilər", "Dnepr üzərində şəfəq", "Ruhların qayıtması", "Məxmər yuxuların mahnısı",

”Əzablı yollarla” “Torpağa tökülən qan”, “Topxana meşəsində görüş”, “Zülmətdən işığa doğru”, “Torpağa tökülən qan” və digər roman, povest və hekayələrində çağdaş ictimai-siyasi durum, etik münasibətlər durur.

Ədəbi fəaliyyəti ilə diqqət çəkən nasir həkimlərdən biri *Asif Kəngərlidir*. Asif Kəngərlinin ilk qələm təcrübəsi 2002-ci ildə yazdığı “Bəla” pyesidir. Onun bədii əsərləri ilə yanaşı, təbabətə dair kitabları da işıq üzü görüb. “Bəla” və “Zəhrimar”(2015) əsərləri Azərbaycan Milli Radiosunda radiotamaşa şəklində dinləyicilərə təqdim olunub. “Bəla” radiomuzun Qızıl Fonduna daxil edilib.

Əsərləri daha çox sözün qüdrətinə, ibratamiz, əxlaqi dəyərlərə söykənən təssürat xarakterli yazıçı-həkim *Hümbət Quliyev* (Quliyev Hümbət Həsən oğlu) ixtisası ilə bağlı müxtəlif rəhbər vəzifələrdə çalışıb. “Statisman” adlı müdrik sözlər, esselər, publicist yazılardan ibarət kitabın müəllifi olan Hümbət Quliyev əsərlərini fərqli üslubda yazır, həyat hadisələrinə, əşyalara mahiyyətinə obrazlı şəkildə yanaşmaqla münasibət bildirir, oxucusunu təəccübləndirə və düşündürə bilir. Onun “Güzgü haqqında”, “Yazı haqqında həqiqət”, “Buludlar haqda”, “Qəhrəmanlıqlarımız haqda”, “Allah verdi, Allah da aldı”, “Kəpənək xoşbəxtliyi”, “Simbioz”, “Abşeron möcüzəsi”, “Ssenarist” yazılarında həyat həqiqətləri, reallıqlar və inanclar, onlara münasibətlər, cəmiyyətin və fərdin fərqli baxışları sadə, inandırıcı bir dillə verilir. Müəllifin yekun sözü, çıxardığı nəticələr də maraqlıdır. Məsələn, “Buludlar haqqında” yazısındakı son iki cümlə belədir: “Əsas odur ki, özünüzə qapanmayın, ətrafa açıq olun. Problemləri birgə həll etmək daha asandır” və s

Həkim *Ramiz Əkbər* isə yazıçı-dramaturq kimi tanınır. Ramiz Əkbərin yaradıcılıq fəaliyyəti də zəngindir. Ramiz Əkbərin hekayələrində gözəl obrazlar yaradılıb. Hekayələrdə fikirlər fərqlənən, müəllifin özünə məxsus deyimləri ilə oxucunu öz tilsiminə sala bilir. Əsas ədəbi uğurlardan biri elə budur...

Yazıçı *Hafizə Mirqədir qızı Məmmədova* gənclik illərindən nəsrlə məşğul olur. Hekayələri tez-tez mətbuatda işıq üzü görür. Hafizə Məmmədovanın hekayələrində günümüzün ailə-məişət problemlərindən danışılır. Əslində bu problemlər cəmiyyəti narahat edən məsələlərdir. “Sevinc” tortu” adlı hekayədə ailəsinin istəklərinə görə kredit altında olan ata obrazı yaradılıb. Hekayədə müəllif gözəl deyimlərlə ailə qayğısının maddi uçurumlara yuvarlatdığı atanın bu sözləri ilə oxucunu düşünməyə vadar edir...

*Elman Rüstəmov* şeirlər yazsa da, əsasən nəsrlə məşğul olan həkimdir. Onun hakayələri müxtəlif dillərə tərcümə edilmiş, Səkkiz kitabı çap olunmuşdur. Elman Rüstəmovun “Kremlin qülləsi” novellası gözlənilməz bir sonluqla bitir. Anket suallarını dostundan köçürən ədəbi qəhrəman dostunun şəklini yanlış anlayır və bu yanlışlıq əslində dostunun hisslərinin məhsulu olduğundan onu da pis vəziyyətdə qoyur: “Şəkil hamının xoşuna gəlməyinə gəlmişdi, ancaq şəklin aid olduğu sualda bir balaca anlaşılmazlıq olubmuş, sən demə… Sualda «Çeqo nenavidiş?», yəni «nəyə nifrət edirsən?» yazılmışmış. Bədbəxt «dostum» isə öz qırılmış barmaqları ilə müharibəyə nifrətini bildirmək üçün oraya uzaqmənzilli raket şəkli çəkibmiş. Mən isə raketi Kremlin qülləsinə oxşatmışam və anketdə həmin sualın cavabında Kremlin qülləsini çəkmişəm, sən demə”... Müəllif kiçik hekayələrdə böyük həyat həqiqətlərini verməyə çalışır.

Həm nəsr yaradıcılığı, həm də şeirləri ilə oxucularının qəlbini ovsunlayan qələm adamlarından biri *Qalib Şəfahətdir*. Onun “Qızıl inək” və “Çəmən xala” hekayələri həm mövzu baxımından, həm də gerçəkliklərin ifadə olunması baxımından çox uğurludur. Müəllifin ifadə tərzi oxucunu dağa-daşa salmır. Çox rəvan deyimlər hekayələrin oxunaqlı olmasının əsas amilidir...

Xatirə Rəhimova topluda “Bir dəniz əfsanəsi” və “Taxta qaşığın hekayəsi” hekayələri ilə təmsil olunur. “Bir dəniz əfsanəsi” hekayəsi alleqorik üslubda qələmə alınıb.

“Taxta qaşığın hekayəsi” də eyni dillə nəql olunur. Bu alleqorik hekayənin də tərbiyəvi əhəmiyyəti böyükdür.

Pərvanə Məmmədovanın topluda “Vətənin başlandığı yerdə” və “Amal” hekayələri yer alıb. “Vətənin başlandığı yerdə” hekayəsinin qəhrəmanı Elman sərhədçi olmaq qərarına gəlir. Yaralı əsgərə tez-tez baş çəkməyə gələn Elman həkim məntəqəsində tibb bacısı ilə tanış olur və onu sevir. Günlərin bir günü Elman özü də yaralanıb huşsuz vəziyyətdə həkim məntəqəsinə düşür. Gözlərini açanda başı üstə sevdiyi tibb bacısı Şəhlanı görür. Onun “Bəs sən daimi iş yerinə getməmişdin?” sualına Şəhla belə cavab verir: “Mən artıq daimi iş və yaşayış yerindəyəm - qəhrəmanların, cəsur sərhədçilərin yaşadığı yerdə, Vətənin başlandığı yerdə. Öz seçimimdə də qərarlıyam”... Hekayədə tibb bacısı obrazının məhəbbətlə təsvir olunması müəllifin özünün bu peşənin sahibi olmasından irəli gəlir. Yazıçı ədəbiyyatımızı zənginləşdirən daha bir həkim obrazı yaradır. Onu da deyim ki, bu hekayə vətənpərvərlik ruhuna görə mükafata layiq görülüb.

Göründüyü kimi, Xatirə Kərimovanın bədii üslubu Pərvanə Məmmədovanın yaradıcılıq kredosundan kəskin şəkildə fərqlənir. Həkim yazıçılardan biri tərbiyəvi mövzuya üstünlük verir və öz fikirlərini oxucusuna alleqorik şəkildə çatdırır. Digəri isə vətənpərvərlik mövzusuna üstünlük verir, obrazların daxili dünyasını açmağa çalışır. Demək, bu iki nasiri birləşdirən onların həmyerli olmasıdır. Bir də qələmə biganə qalmamaları, yəni yazıçı olmaları!

Hakim yazarların yaradıcılığı haqqında olan bu xülasə xarakterli ön söz bir daha təsdiq edir ki, çağdaş ədəbi prosesdə peşəsi həkim olan şair və yazıçılar xüsusilə fərqlənirlər və onların hər birinin ədəbi fəaliyyəti ayrıca araşdırılmağa layiqdir.

**Bilal ALARLI (Hüseynov),**
*ADPU Cəlilabad filialının müəllimi,*
*Azərbaycan Yazıçılar Birliyinin üzvü,*
*filologiya üzrə fəlsəfə doktoru*

# MİRZƏ ƏLİXAN LƏLİ
(1845– 1907)




**Mirzə Əlixan Ləli** və ya Mirzə Əlixan İrəvani-Azərbaycanlı şair, . 1845-ci ildə Təbrizdə dünyaya gəlib. Ata-anası əslən irəvanlı olub. Təbriz mədrəsələrində təlim-tərbiyə alıb. Ərəb və fars dillərini öyrənib. Təbrizdə əttarlıq dükanı açıb və bir müddət ticarətlə məşğul olub. Sonra o dövrün məşhur həkimlərindən təbabət elmini öyrənib. Bu sahədə biliklərini təkmilləşdirmək üçün Tehrana gedib. Sonra Təbrizə qayıdaraq həkimlik etməyə başlayıb. Öz bilik və təcrübəsini artırmaq üçün Misirə, İstanbula, hətta Avropanın bəzi şəhərlərinə səfərlər edib. İranın ən məşhur həkimlərindən biri sayılıb.

Ləlinin hikmətli sözləri dillərdə əzbər olub və zərbi–məsəllərə çevrilib. Şair– həkim bir sıra həcvlər də qələmə almışdır. Mirzə Əlixan Ləliyə "Şəmsül– hükəma" ləqəbi Müzəffərəddin Şahın Təbrizdə vəliəhd olduğu vaxtlarda tanınmış xəstələrindən birini müalicə edib sağaltdığı üçün verilib. Bundan başqa, o, bacarıqlı həkimliyinə görə aparıcı vəzifələrdən birinə də təyin edilib.

Məddahlıqla arası olmayan, hürriyyət və azadlıq sevən şair o dövrdə yüksək mənsəb sahiblərinin qüsurlarını öz həcvlərində yazıb. Vaxtının çoxunu səyahətlərdə keçirib. Əsasən Tiflisə və İstanbula səfərlər edib.

Mirzə Əlixan Ləli 1907-ci ildə Tiflisdə dünyasını dəyişib.

Şeirlərinin çoxu Azərbaycan türkcəsindədir. Qəsidələri, qəzəlləri, dübeytləri və növhələri vardır.

PS. Çox təəssüf ki, dahi şairin şəklini əldə edə bilmədik.

## QƏZƏLLƏR

***

Gətirdi nəşeyi-mey, saqiya, nə şurə məni,
Ki, şövqi–arizi–canan çəkib hüzurə məni.

Cəmali– şahidi– qeyb istərəm Kəlimasa,
Amandı tez yetirin cilvəgahı-Turə məni.

Zəmirim olmadı biganə məşrəbindən saf,
Qıl aşina genə bir sağəri–bülurə məni.

Həvayi–arizin, ey afitabi–aləmtab,
Gətirdi zərrəsifət, ərseyi–zühurə məni.

Qüsuri–əql yoxumdur mənim bu aləmdə,
Ki, vaiz, eyləmə məftun cəmali–hurə məni.

Hanı təraneyi–mey–mütrüba, ki, mahi–siyam,
Gətirdi təngə məsaciddə həmd–surə məni.

Könüldən olmuşam aşiq o xali–məğrurə,
Həvayi–nəfs salıb gör necə qürurə məni!

Cahanda xosrovi–əhli–sükut idim, Ləli!
Xəyali–söhbəti–Şirin gətirdi şurə məni.

*******

Xalından uçdu mürği–xəyalım ləb üstünə,
Qismət çəkib gətirdi nə xoş məşrəb üstünə.

Könlüın xəyali–zülfi–pərişanda cəm idi,
Birdən dağıldı xalü xətü ğəbğəb üstünə,

Eylər silahi–hüsni–rüxun aləmi xərab,
Zülfun açılsa pərçəmi, bu məvkəb üstünə.

Qaşındı bu ki, guşəsi zülf üstə meyl edib,
Ya Zülfüqardır, əyilib Mərhəb üstünə.

Bu siminab üzarını simab tək ərəq,
Bir aya bənzədir, düzülə kövkəb, üstünə.

Övc etdi çahidən mehi–nəxşəb, vəli, çıxıb
Çahi–zənəx, üzündə məhi–nəxşəb üstünə.

Cövlan edəndə hər tərəfə, can şikar edər,
Kimdir bu şəhsüvar, çıxıb mərkəb üstünə?!

Piçidə olma zülfünə çox, busədən danış,
Çox tul vermə bu sözə, keç mətləb üstünə!

Tök sinəm üstə zülfünü, zülfün çalıb məni,
Əqrəb çalan yerin qoyulur əqrəb üstünə.

Canan ki, bircə busəsinə nəqdi–can alır,
Ləli, bu candan əl götü, qoy ləb, ləb üstünə.

***

Qaşların kamanilə sən ox vurdun qəlbimə,
Sinəmdən keçib batdı yaralı qəlbimə.

Halaldır badə içmək adama yar yanında,
Dolu qədəh əlində, dodağı dodağında.

Məst olmuşduq ikimiz, həm dilbər, həm də ki, mən
O, badə içməyindən, mən nərgiz gözlərindən

Mən tövbə sındırmışdım, günah alım özümə,
Badə içdik, tövbə də sındı öz–özünə.

Boyun saldım zəncirə, baş verdim qılıncına,
Qara zülflər düşəndə qaşlarının küncünə.

Sənin fərağında mən əl çəkdim varlığımdan,
Ölüm mənə yaxşıdır sənin ayrılığından.

Əhsən o ləl dodağınla əfsunladın Ləlini,
Bir kəlmə söyləməklə qıfılladın dilini.

(Mənbə: "İrəvanda məktəbdarlıq və maarifçilik". Ziyəddin Məmmədov.)

# ƏLİ BƏY HÜSEYNZADƏ
(1864–1940)



**Əli bəy Hüseynzadə** (Əli Hüseyn Turan - Azərbaycan ədibi, həkim, filosof və ədəbiyyat tənqidçisi) 1864-cü il 24 fevralda Salyanda anadan olmuşdur. Tiflis gimnaziyasını bitirmiş (1875-1885), uşaqlıq və tələbəlik illərində türk, fars, ərəb, alman və rus dillərini öyrənmişdi. Əli bəy Hüseynzadə babası Şeyx Əhməd ilə onun dostu Azərbaycan dramaturgiyasının banisi, ictimai xadim Mirzə Fətəli Axundzadənin (1812-1878) söhbətlərindən faydalanmış və onların tərbiyəsi altında zamanının ədəbi çevrəsini tanımışdı.

1885-ci ildə Sankt-Peterburq Universitetinin riyaziyyat fakültəsində təhsil almışdır. Sonralar Ə.Hüseynzadə İstanbula gəlir və burada darülfünunda əsgəri-tibbiyyə fakültəsində tədris almaqla dermatoloq ixtisası və yüzbaşı hərbi rütbəsi qazanır.

Əli bəy Hüseynzadə 1940-cı ildə İstanbulda vəfat edib.

## HALİ–VATAN

Ucundadır dilimin,
Həqiqətin böyüyü.
Nə qoydular deyəyim,
Nə kəsdilər dilimi.

Bilirmisən cühəla
Nə etdilər Vatana?
Nə qoydular uyuya,
Nə qoydular oyana.

Durur bila–hərəkət,
Rəvamı bir diriyə?
Nə getmədə iləri,
Nə dönmədə geriyə.

Ədu qırır qapıyı,
Biz evdə bixəbəriz.
Nə başqa başqalarız,
Nə ittihad edəriz.

Ayıltmadı qələmim
Şu türk ilə əcəmi.
Nə qoydular yazayım,
Nə qırdılar qələmi.

***

Sizlərsiniz ey qövmi–Macar, bizlərə ixvan
Əcdadımızın müştərəkən mənşəyi Turan.
Bir dindəyiz biz, həpimiz hakpərəstan;
Mümkünmü ayırsın bizi İncil ilə Quran?
Çingizləri titrətdi şu afaqı sərasər,
Teymurları hökm etdi şahənşahlara yeksər.
Fatehlərinə keçdi bütün kişvəri–kaysər...

Hərçənd düçari–möhnəti–əhli cəfayız,
Hərçənd bu əyyamda pabəndi–bəlayız.
Ey xar görən bizləri, bizlər nücəbayız,
Meydani–həmiyyətdə ələmdari vəfayız.
Turanlılarız, sahibi–şanü şərəfiz bız
Əslafımızın naibi xeyrül–xələfiz biz!

Ey zülmü cəhalət, həzər et göz yaşımızdan,
Dur olmalısın torpağımızdan, daşımızdan,
Bu yolda məməd bizlərə məsləkdaşımızdan,
Hürriyyət üçün vaz keçəriz can, başımızdan.
Turanlılarız, sahibi–şanü şərəfiz biz,
Əslafımızın naibi xeyrül–xələfiz biz.

***

Vəhy ilə səmadan enmədir Quran.
Quranla pestidən yüksəlir insan.
Məhəmmədin ruhu pür məalidir
Meraca məzhərdir o ruhi–zişan.

Nicatı sidqdə ara, sadiq ol;
Adil ol, batildən haqqı fariq ol,
Alnında iffətin nuru parlasın,
Rızayı Heydərə talib, aşiq ol.

Qadınlığa şərəf vermişdir Zəhra,
O nuri–dideyi Həbibi–Xuda.
Etmişdir analıq vəzifəsini
Xaneyi–Heydərdə bihəqqin ifa.

## NƏRİMAN NƏRİMANOV
(1870–1925 )



**Nəriman Nərimanov** (Nəriman Kərbəlayi Nəcəf oğlu Nərimanov, həkim, yazıçı, publisist, dövlət xadimi) 14 aprel 1870 - ci ildə Tiflisdə (Gürcüstan) anadan olmuşdur. 1890-cı ildə Qori seminariyasını, 1908-ci ildə Novorossiysk (Odessa) Universitetinin tibb fakültəsini bitirmişdir.

Artıq 1917-ci ildə N.Nərimanov "Hümmət" Təşkilatı Mərkəzi Komitəsinin sədri və RSDF(b)P Bakı Komitəsinin üzvü, "Hümmət" qəzetinin baş redaktoru idi.

1918-ci ilin martında N. Nərimanov Bakı Sovetində şəhər təsərrüfatı üzrə xalq komissarı təyin olunur. N. Nərimanov 1919-cu ildə Moskvaya çağırılaraq RSFSR Xalq Xarici İşlər Komissarlığında (XİN) Şərq məsələləri üzrə Xalq komissarının müavini vəzifəsinə təyin edilir.

28 aprel 1920-ci ildə N. Nərimanov Azərbaycan SSR Müvəqqəti İnqilabı Komitəsinin Sədri və Xalq Komissarları Sovetinin Sədri vəzifəsini tutur. 1922-ci ildə SSRİ yarandıqdan sonra SSRİ Mİ-nin sədri seçilir(1922-1925).

N.Nərimanov 1925-ci ildə dünyasını dəyişmiş və Moskvada Kremlin divarları yaxınlığında dəfn edilmişdir.

"Nadir Şah", "Bahadır və Oğlu", "Qonaqlıq", "Bahadır və Sona (pyes)", "Şamdan bəy (pyes)", "Pir (pyes)" kimi məşhur əsərlərin müəllifidir.

## BİR KƏNDİN SƏRGÜZƏŞTİ
(Hekayədən bir hissə)

...Doğrudan da sabahı gün Əmi şəhərə getdi. Alver edib kəndə qayıtdı. Qubernatoru nəinki görmədi hətta qorxusundan qubernator olan küçədən də keçmədi…. Məhəllə adamı Əminin şəhərdən gəldiyini eşidib bir–birinə dəydilər. Xalq Əminin evinə töküldü. Nə oldu? Nə dedi? Suallarını Əmiyə bir–bir verdilər. Əmi bunlara cavab verərək dedi:

–A kişilər, siz bilmirsinizmi mən ölənədək varımı, yoxumu sizin yolunuzda qoymağa hazıram. Pul görən işi heç bir şey görməz. Nə olacaq, lazımınca pul xərc etdim. Hamı işləri düzəltdim. İndi kəndxudanın atasına od vuracağam. Siz gediniz, arxayın yerinizdə oturunuz, işin aqibətini gözləyiniz." Biçarə məhəllə adamı da gözləyə–gözləyə qaldı. Axırda N. məhəlləsindən bir neçə adam qazamata düşdü….

İ. məhəlləsinin adamı bu ittifaqlardan sonra belə bir ayaq aldı ki, daha o məhəllənin qorxusundan, axşamçağı Naməlsəm məhəlləsinin adamı evdən çıxa bilməzdi.

Getdikcə, bu məhəllənin halı fənalaşdı. Kəndxuda isə N. məhəlləsinin hünərini görüb heç qorxmazdı və bacardığı yerədək İ. camaatına kömək edərdi, sözlərinə qulaq asardı, şikayətlərinə artıq dərəcədə diqqət edib lazımınca sərəncam çəkərdi. Nə üçün də etməyəydi? Kəndxuda dünyagörmüş, ağıllı bir adam idi…. Bilirdi ki, İ. camaatının şəhərdə yaxşı işbilən, oxumuş adamları vardır. Bunu da anlamışdı ki, bir iş olanda şəhərə xəbər gedir, adam göndərirlər və nə ki, lazımdır işlərini düzəldirlər.

Bilirdi ki, bunlara yavıqlıq etsə, qulluq işləri də yaxşı gedəcəkdir. Həqiqət kəndxuda olmayan işləri N. məhəlləsinin başına gətirdi, bununla belə şəhərdə naçalnik, qubernatorun yanında hörməti günbəgün artırdı.

Bəli, vaxt oldu ki, şəhərdə pristavlıq yeri açıldı. Daşdəmir koxanı oraya təyin etdilər. Bu xəbər kəndə çatdı. İ. camaatı nəhayət dərəcədə qəmgin oldu. N. camaatı isə əh-

valatı eşidib şadlıq etdilər: atıldılar, düşdülər. Kəndxudanın getməyindən bir gün müqəddəm Əmi öz məhəlləsinin adamlarını yığıb gülə–gülə onları təbrik edib dedi: Ay camaat, sizə məlumdur ki, bu zalım balası başımıza nə oyunlar gətirdi. İndi biz gərək öz koxamıza göstərək tainki bilsin ki, biz ondan narazıyıq, ona görə də mən məsləhət edirəm: o yola düşəndə heç kim onu ötürməyə çıxmasın. Onunla salamlaşmasın. Fəqət bir mənim getməyim məsləhətdir. Tainki gedəndə bir neçə söz demək lazımdır: bilsin, düşünsün ki, biz də varıq….

Camaat buna razı oldu.

Səhər İ. camaatı hamılıqla kəndin kənarına çıxıb kəndxudanı ötürməyə hazırlaşdılar. N. məhəlləsindən isə Əmidən başqa bir adam yox idi. İ. məhəlləsindən vəkillər bir–bir qabağa yeriyib kəndxudanı alqışladılar, nitqlər söylədilər, hətta bir neçəsi ağladı.

Bu halda Əmi də qabağa yeriyib dedi:

–Sevgili, mehriban kəndxuda, sizi N. məhəlləsinin tərəfindən səmimi qəlbdən təbrik edirəm. Biz çox heyfsilənirik ki, sizi bizdən ayırdılar. Allah sizi bizə çox görməsin. Sizi özümüzə ata bilirdik….

Hətta yalandan dodağını da büzdü ki, guya ağlamaq istəyir….

Həqiqət, halda isə N. camaatının bu yığıncaqda olmamağını kəndxuda heç bilmədi və hiss etmədi. Çünki o heç vaxt camaatı görməmişdi. Camaatın əvəzinə həmişə Əmi söylərdi o da ki, burada.

Bəli, kəndxuda getdi. Kənddən ayrıldı. Ayrıldı, amma ürəyində açılmaz düyün qaldı. Kəndxuda gedə–gedə öz aləmində fikir edirdi: “N. məhəlləsinin camaatı qəribə bir camaatdır. Bunlar ya çox yaxşı adamlardır, ya da ki, çox axmaq.

# ABBAS SƏHHƏT
(1874–1918)



**Abbas Səhhət** (Abbas Əliabbas oğlu Mehdizadə, həkim, şair, dramaturq, tərcüməçi) 1874- cü ildə Şamaxıda ruhani ailəsində dünyaya gəlmiş, ilk təhsilini elə burada almışdır. 1900- cü ildə Tehran Universitetinin tibb fakültəsini bitirən və rus, ərəb, fars və fransız dillərini mükəmməl bilən gənc, 1901-ci ildə Şamaxıya qayıdır və həkimliklə yanaşı məktəblərdə Azərbaycan dilindən dərs deyir. Məhz bu dövrdən etibarən ədəbi fəaliyyətə başlayır və artıq 1903- cü ildən məqalələri Şərqi–Rus qəzetində çap olunur. 1905-ci ildə "Yeni poeziya necə olmalıdır?" adlı məqaləsi, daha sonra "Poetik nitq", "Azadlığa mədhiyyə", "Oyanışın səsi" şerləri işıq üzü görür.

"Yeni üslublu məktəblər" ideyasının yorulmaz müdafiəçisi olan Abbas Səhhət, professor Əli bəy Hüseynzadənin banisi olduğu Azərbaycan romantik ədəbiyyatı cərəyanına qoşulur (Füyuzat jurnalı, 1906–1907-ci illər). Abbas Səhhət o dövrdə Bakıda nəşr olunan bütün jurnal və qəzetlərdə mütəmadi qaydada çıxış edir. Tərcüməçilik fəaliyyəti ilə də məşğul olan yazıçı o dövr Azərbaycan oxucusunu rus (Lermontov, Puşkin, Krılov, Nadson, Maksim Qorki), fransız (Hüqo, Müsse, Sülli–Prüdom) şair və yazıçılarının əsərləri ilə tanış edir. 1912-ci ildə şairin şerlərindən ibarət "Sınıq saz" və Avropa şairlərindən tərcümə etdiyi "Qərb günəşi" adlı şerlər toplusu işıq üzü görür. Bir qədər sonra "Əhmədin şücaəti" adlı poeması, 1916- cı ildə isə "Şair, muza və şəhərli" adında romantik poeması nəşr olunur.

Abbas Səhhətin yaradıcılığına Şərqin Nizami, Hafiz, Sədi kimi şairlərin böyük təsiri olmuşdur. O, türk

xalqlarının ədəbiyyatları ilə də yaxından maraqlanmış, xüsusilə Tofiq Fikrət yaradıcılığına diqqət göstərmişdir.Abbas Səhhət Azərbaycanda liberal burjuaziya ideyasını müdafiə etmiş, İslam dəyərlərindən imtinaya qəti etiraz edərək, əsərlərində "ümummüsəlman qərbçiliyi" ideyasını dəstəkləmişdir. Şair 1908-ci ildə baş vermiş İran inqilabına ən gözəl əsərlərini həsr etmişdir. O, uşaqlar üçün yazılmış "Yay", "Ata və oğul", "Quşlar" və onlarla başqa şeir və mahnıların müəllifidir

Abbas Səhhət 1918-ci ildə Gəncədə vəfat etmişdir.

## VƏTƏNİM

Könlümün sevgili məhbubu mənim,
Vətənimdir, vətənimdir, vətənim.

Məni xəlq eyləmiş əvvəlcə Xuda,
Sonra vermiş vətənim nəşvü–nüma.

Vətənim verdi mənə namü–nəmək
Vətəni məncə unutmaq nə deмək?!

Anadır hər kişiyə öz vətəni,
Bəsləyib sinəsi üstündə onu.

Südüdür ki, dolanib qanım olub,
O mənim sevgili cananım olub.

Saxlaram gözlərim üstə onu mən,
Ölərəm əldən əgər getsə vətən.

Vətənin neməti nisyan olmaz,
Naxələflər ona qurban olmaz.

Vətən əcdadımızın mədfənidir,
Vətən övladımızın məskənidir.

Vətənin sevməyən insan olmaz,
Olsa da ol şəxsdə vicdan olmaz!

## YAY SƏHƏRİ

Od tutub qırmızı atəşlə yenə yandı üfüq,
Şəfəqin qırmızı rəngilə işıqlandı üfüq.
Bir qədər çaydan uzaq, od qalamış dağda çoban,
Oyadır öz sürüsün otlaya yaylaqda çoban.

Yumuşaq göy çəmənin üstə düşüb şeh gecədən,
İsti yoxdur, hələ var bir balaca meh gecədən.
Ağ dumanlar ucalır göy üzünə dağlardan,
Çox sərindir havası, keçmə bu yaylaqlardan.

Gün çıxır, göydə bulut qırmızı rəngə boyanır,
Kəndlilər çox yorulub, uykudan indi oyanır.
Pəyədən mal–qaranı bəzi çıxardır qırağa,
Bəzi səhrayə gedir işləməyə, bə'zi bağa.

## MƏKTƏB ŞAGİRDİ

İştə bir tərbiyəli, aqil bir uşaq,
İştə bir zirək, ayıq, kamil uşaq,
Geyinib məktəbli formasını,
Götürüb qoltuğuna çantasını,

Məktəbə şövqi–tama ilə gedir,
Keçməsin vaxtı deyə sürət edir.
Gecə–gündüz çalışır mərdanə,
İstəyir sibqət edə ərqanə.

Könlünün arizuyla–yektası:
Vətənü millətinin ehyası.
A çocuq, get sənə haq yar olsun.
Cümlə halında mədədkar olsun.
Elm təhsili əziyyətli isə,

Qışda yol getməyi zəhmətli isə,
Qorxma qeyrətlə çalış, əlbəttə,
Biləcəksən, oxusan tez vəqtə–
Ki, cahan içrə böyük insanlar,
Nə qədər zəhmətə düşmüş onlar.

Sinfi–ədadini təkmil eylə,
Məktəbi–alidə təhsil eylə.
Səy elə, sən də böyük insan ol,
Doğruluqla bu ada şayan ol!
Qoy cahan elm ilə pürnur olsun,
Vətən o sayədə məmur olsun.

# QANTƏMİR
(1888–1944)



**Qantəmir** (Əfəndiyev Qafur Sədrəddin oğlu – həkim, nasir, publisist, 1934- cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü) 1888-ci ildə Azərbaycanın Göyçay mahalının Potu kəndində doğulub. İbtidai təhsilini mədrəsədə, orta təhsilini dövrün mütərəqqi fikirli maarifpərvər ziyalılarından İbrahim Həqqinin yeni üsulda açdığı rus–müsəlman məktəbində alıb. Ağdaş, Göyçay rayonlarında müəllimlik edib. Bir müddət Göyçayda "İqbal" məktəbinin müdiri olub, məhz həmin vaxtlar "Tazə həyat", "Tərəqqi" və s. qəzetlərdə elmi–pedaqoji məqalələrlə çıxış edib. M.Ə.Sabir və A.Səhhətlə şəxsən tanışlığı və görüşü onun yaradıcılığına ciddi təsir bağışlayıb. Türkiyənin İstanbul Universitetinin tarix–filologiya fakültəsini bitirib (1911–1914). 1916- cı ildə "Nəşri–maarif"" cəmiyyətinin dəvəti ilə Qubaya gedib yeni üsullu məktəbin açılmasında iştirak edib, həmin məktəbdə əvvəlcə müəllim, sonra direktor vəzifəsində çalışıb. Bakı Ali Pedaqoji İnstitutunun nəzdində fəaliyyət göstərən "Şaiq Nümunə Məktəbi"nə rəhbərlik edib.

Sovet hakimiyyəti qurulduqdan sonra Bakıda ADU–nun tibb fakültəsində təhsil alıb (1924–1929). "Molla Nəsrəddin" ədəbi məktəbinin ənənələri əsasında satirik hekayələr qələmə almaqla Azərbaycan sovet satirik nəsrinin təşəkkülünə müəyyən təsir göstərmişdir.

Müəllim və yazıçı olan Qantəmir diş həkimi kimi də həmvətənlərinə xidmət göstərib. Bütün fəaliyyəti müddətində əsl vətəndaş yanğısı ilə xalqın maariflənməsinə çalışan Qantəmir həm də millətin mənəvi və fiziki sağlamlığı yolunda da öz töhfəsini əsirgəməyib.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra da xalq maarifi sahəsində işləmiş, Göyçayda müəllim hazırlamaq üçün qısamüddətli pedaqoji kurslar təşkil etmişdir. Sonralar

Bakıda Ali Pedaqoji İnstitutun nəzdində təşkil edilmiş Abdulla Şaiq adına ikinci dərəcəli nümunə məktəbində direktor vəzifəsində çalışmış, 1937-ci ildə Ağsu rayonuna köçüb diş həkimi işləmiş, 1939- cu ildə həbs olunaraq, Orta Asiyaya sürgün edilmişdir.

Sağlığında bir neçə kitabı işıq üzü görən Qantəmir ölkəni bürümüş repressiyalardan çəkdiyi mənəvi əzablar nəticəsində 1944- cü ildə 56 yaşında dünyasını dəyişib.

Ağıl dəryası (hekayələr, 1930), Şarlatanlar (hekayələr, 1934), Kolxozsatan (1935), Seçilmiş əsərləri (1964), Seçilmiş əsərləri (1972) və s. kitabları işıq üzü görüb.

Qantəmirin demək olar ki, bütün əsərlərində el–obaya biganə olanları, ictimai tərəqqiyə mane olan köhnəlik və azadlıq düşmənləri kəskin satira atəşinə tutulur.

## QONAĞIMIN SƏYAHƏTNAMƏSİ

(Hekayədən bir parça)

Sözün başını siz itirməyin. Mən burada bir müqəddimə yazmalıyam. Söz yox ki, işlər çox dəyişib və daima dəyişmək üzrədir.

Əski səyahətnamələrlə indikilər arasında çox ayrılıqlar var. Çox fikirləşdim. Bu ayrılığın dərəcəsini göstərən bir ölçü tapa bilmədim. Əlbəttə, çox ölçü xatirə gəlir, amma mən bəyənmirəm məsələni. Qonka ilə tramvayın ayrılığı qədər var. Bu misalı bəyənmirəm. Sonra, pambıq planını artıqlaması ilə dolduran Qaryagin ilə quyruqda sürünən Qaraməryəm arasındakı fərq qədər... Bu misal da xoşuma gəlmədi. Nə isə burada o qədər düşünməyin mənası yoxdur. Gedəlim.

Uşaq vaxtı maraqla qulaq verdiyim nağılların hamısı indi də xatirimdədir. İmamın qırxı çıxandan sonra kəndimizdə qalıb sıra qonaqlığı gəzən mərsiyəxan bir gecə də bizə qonaq olmuşdu. (Ölübsə, Allah rəhmət eləsin, qalıbsa, Allah işinə varsın!) Adı yadımda deyil, ancaq onu bilirəm ki, kişi yaxşı nağıl danışırdı.

Uzun qış gecəsi, sizdən naxoş, plovu yemişdik.

Ocaq, samavar, mərsiyəxan, hər şey və hamı dəmdə idi. Qara Şirazi müştüyünün ucuna taxdığı papirosunun uzanan

külünü külqabına boşaltdı. Təsbehini də döşəkçənin altından çıxarıb əlinə götürdü və bu cürə sözə başladı:

"Belə rəvayət edirlər ki, bir gün Şah oğlu Şah Abbas qızıl taxtın üzərində əyləşmişdi. Çox dərin xəyala getmişdi. Birdən fərraşa əmr etdi ki, bu saat vəzir Allahverdixanı hüzuruma çağır. Fərraş "bəçeşm" deyib yeri öpdü və yola düzəldi. Çəkmədi bir saat, vəzir Allahverdi xan hazır olub ərz etdi ki:– Sənə fəda olum! Nə buyurursan?

Padşah əmr etdi ki:

–Ey mənim vəzirim! Səfər tədarükü gör, könlüm səyahət arzu edir.

Vəzir soruşdu:

–Qurbanət şəvəm! Süvarəmi, piyadəmi?

Padşah dedi:

–Vəzir! Piyadə səyahət eləyəcəyik, özü də dərviş paltarında. İki dəmir əsa, iki dəmir çarıq, iki dəmir sərpuş hazır elə. Sabah gün çıxmamış yola düşəcəyik.

Vəzir Allahverdi xan çox ağıllı bir vəzir idi, Dünyaya onun kimi ağıllı adam gəlməyib və gəlməz. Padşah əmr etdiyi şeyləri hazır edib sübh tezdən gətirdi. Şah oğlu Şah Abbas ilə vəzir Allahverdi xan paltarlarını çıxarıb dərviş paltarı geydilər, əldə dəmir əsa, ayaqda dəmir çarıq, başda dəmir sərpuş, gün yerindən çıxmamış yola rəvanə oldular. Az getdilər, çox getdilər, mənzil kəsib, yol getdilər. Gün günorta yerinə çatanda bir şəhərin qapısına yetişdilər. Şah soruşdu:

– Vəzir, hansı şəhərdir?

Dedi:

– Qurbanın olum, bu şəhərdən mənim xəbərim yoxdur. Gedək şəhərin darvazasına, soruşaq, görək hansı padşahın şəhəridir...

Mən bu nağılı axıra qədər yazmayacağam. Elə burada kəsirəm.

Şöhrət və fərasəti ilə İranın axır zaman tarixini dolduran bu Şah oğlu Şah Abbaslar, onların ağıllı vəzirləri, allahverdixanlar bir günorta yol gedir, məsələn, Bakı şəhərindən Maştağaya qədər. Rast olan şəhəri nə padşah tanıyır, nə də vəzir. İndi işlər çox dəyişib deyə adam bu sualı öz–özünə verir. Keçmiş zamanda belə nağıllar sual–cavabsız bitər, həqiqət olaraq qəbul edilərdi...

## TAĞI ŞAHBAZİ SİMURĞ
(1892–1937)



**Tağı Şahbazi Simurğ** (Yazıçı-publisist, həkim, ictimai xadim) 1892-ci il iyulun 2-də Bakıda anadan olub. İbtidai təhsilini mollaxanada alıb. 1902-1905-ci illərdə 9 saylı məktəbdə, sonra rus-tatar məktəbində təhsilini davam etdirib. 1913-cü ildə Xarkov Darülfünunun fizika və riyaziyyat fakültəsinin tibb şöbəsinə daxil olub.

Azərbaycan xalq maarif komissarının müavini (1922-1923), «Maarif və mədəniyyət» jurnalının redaktoru, Azərbaycan MİK-in katibi (1923-1926), ADU-nun rektoru (1926-1929), Azərbaycan xalq səhiyyə komissarının müavini (1930-1937) vəzifələrində çalışıb.

«Quşlar kimi azadə», «İyi aləm», «Südçü qız», «Aclar» və s. hekayələrində istismar dünyası, dini fanatizm, xalqa yad «ziyalılar» tənqid olunub. Sovet dövrü əsərlərində yeni həyat quruculuğu, qadın azadlığı mövzuları əsas yer tutub. Bunlar «Haqsızlıq dünyası», «Hacı Salman», «Ağanın kənizi», «Məşədi Qədimin evində bədbəxtlik», «Azadlıq üçün cinayət», «Zərifə», «Küləkli bir axşam» və s. hekayələrində öz əksini tapıb. 1932-ci ildə yazdığı «Düşmənlər» povesti kollektivləşmə dövründə kənddə gedən sinfi mübarizədən bəhs edir.

Tağı Şahbazi Simurğ 1937-ci ildə repressiya qurbanı olub.

### QAYÇI
*(Hekayədən bir hissə)*

Məhəmməd Zəngəzurun qaçqın yetimlərindən idi...

Səkkiz yaşında Məhəmməd və yeddi yaşında bacısı Zeynəb yaşadıqları evlərdə səhərdən axşamadək çalışır, ev sahiblərinin bütün əmrlərini icra edirlərdi. İndi də Gülca-

han Məhəmmədi meşəyə göndərmişdi...

***

...Odun şələsinin altında ikiqat bükülmüş Məhəmməd Məşədi Salmanın sorğularına cavab verərək yalvarıcı bir baxışla qayçıdan xəbəri olmadığmı bildirdi. Məhəmmədin bu cavabı, Məşədi Salmanın əsəblərini daha da qaldırdı: "Aha, inkar edir, məni aldatmaq istəyir", - deyə fikir edərək, Məşədi Salman çocuğa yaxın gəlib, yenə qayçını sordu.

- Vallah ki, bilməyirəm, əmi!

Bu cavabı eşidər-eşitməz Məşədi Salman odun qarışıq Məhəmmədə bir təpik vurdu. Çocuq şələ ilə bərabər yerə yıxıldı və yıxıldığı vaxt odun parçası üzünü cırdı, bir dəqiqədə Məhəmmədin üzünü al qan bəzədi. Məşədi Salman Məhəmmədin başı üzərində durub:

- İt oğlu, de görüm, qayçı haradadır? Bax, deməsən, bil ki, səni öldürəcəyəm... - deyə çığırdı.

Məşədi Salmanın gözləri həlqəsindən çıxmış, üzü o qədər qabarmışdı ki, tanınmaz bir hala gəlmişdi.

Məhəmməd üzünün yeni yarasından axan qanı çirk əlləri ilə silərək ağladı.

- Vallah ki, xəbərim yoxdur, - deyə yalvarmağa başladı. - Mən oduna getmişdim; bilməyirəm, sən allah, əmi, məni döymə, qayçını görməmişəm. Gülcahan bu əhvalatı görüb yaxın gəldi.

- Ay kişi, yetimdir, elə vurmaq olmaz; doğrudan da, xəbəri yoxdur, - dedi.

- Danışma, vallah səni də ona qataram!..

Gülcahan Məşədi Salmanı yaxşı tanıyırdı. Belə hallarda ona yaxın durmaq mümkün deyildi. Heç bir vasitə ilə onu sakit etmək olmazdı. Məhəmməd Gülcahanı gördükdə, kömək dilər kimi:

- Ay xala, vallah ki, xəbərim yoxdur; qayçını görməmişəm, - dedi. Lakin qayçmın itməsinə Məşədi Salman şərik ola bilməyirdi.

- Hara itəcək? Yəqin ki, oğurlayıb, indi də boynuna almaq istəməyir. - Məşədi Salman Məhəmmədin qolundan

yapışıb qaldırdı və əli ilə onu hədələyərək: - Deyirəm ki, səni öldürərəm, yandıraram, bu saat qayçının yerini söylə, de görüm! - deyə bağırdı.

- Vallah ki, əmi, xəbərim yoxdur.

Məşədi Salman axırıncı dəfə bu cavabı eşitdikdə, Məhəmmədə bir şapalaq vurdu. Məhəmməd qışqırdı, ağladı. Məşədi Salman Məhəmmədin ağlamasına baxmayaraq, qolundan tutub təndirin yanına çəkdi.

Gülcahan Məşədi Salmanın nə edəcəyini düşünməyərək:

- Ay kişi, burax, incitmə, yetimdir, yazıqdır... - deyə yalvarırdı. Təndirin yanında Məşədi Salman Məhəmmədin belindən yapışıb qaldırdı və Məhəmmədi yanar təndirin içinə atdı. Məhəmmədin səsi ərşə çıxdı:

- Vay yandım, aman yandım, öldüm!

Məhəmməd elə çığırdı ki, bütün qonşular eşidib töküldülər. Məşədi Salman bir yana çəkilib durdu. Gülcahan özünü itirib:

- Vaxsey, uşaq yandı, - deyə çığırmağa başladı.

Qonşular Şahpəri ilə Rəcəb kişi hamıdan əvvəl təndirə doğru yüyürdülər və iki tərəfdən Məhəmmədi təndirdən çıxartdılar. Şahpəri mətbəxə yüyürüb xəmir üzərindən yorğançanı alıb çocuğa sarıdı. Beləcə Məhəmmədin odunu söndürdülər. Yenidən yorğanı Məhəmmədə sarıyarkən, yorğanda bir şey cingildədi. Baxdılar - qayçı idi.

- Ay Gülcahan, qayçı yorğanın içində, ala bax! – deyə göstərdilər.

- Vay, yorğanı sırıyanda yaddan çıxıb içində qalıbdır.

- Bunun üçün yazıq uşağı yandırdınız?

Gülcahan Məşədi Salmana baxdı. Məşədi başını aşağı dikmişdi...

## MƏHƏMMƏDHÜSEYN ŞƏHRİYAR
(1906–1988)



**Seyid Məhəmmədhüseyin Behcəti Təbrizi (Məhəmmədhüseyn Şəhriyar)** (Seyid Məhəmmədhüseyin Behcəti Təbrizi) 1906-cı ildə Təbriz şəhərinin Bağmeşə bölgəsində, o zamanın tanınmış hüquqşünaslarından Hacı Mirağa Xoşginabinin ailəsində dünyaya gəlmişdir.

Şəhriyar klassik şeirin bütün şəkillərində yazmış, Azərbaycan ədəbiyyatını yüksək məzmunlu qəzəl, qəsidə, məsnəvi, qitə və rübailərlə zənginləşdirmişdir.

Şəhriyar Təbrizdə orta təhsilini bitirdikdən sonra Tehrana gedərək, əvvəlcə 1921-ci ildə Tehran Darülfünununda, sonra isə Tibb fakültəsində ali təhsil almağa başlamışdır. Lakin fakültənin sonuncu kursunda təhsilini yarımçıq qoyub dövlət qulluğuna girməyə məcbur olmuşdur.

Şəhriyarın ilk şeir kitabı 1931-ci ildə Tehranda üç böyük şair və alimin – Məliküşşüəra Baharın, Səid Nəfisinin və Peyman Bəxtiyarinin müqəddimələri ilə nəşr olunmuşdur.

M.Şəhriyarı XX əsr Azərbaycan poeziyasının nəhəngləri sırasına ucaldan ilk növbədə onun ölməz "Heydərbabaya salam" poeması olmuşdur. Şəhriyar poemanın birinci hissəsini Tehranda, ikinci hissəsini isə Təbrizdə yazmışdır.

M. Şəhriyar 18 sentyabr 1988-ci ildə Təbrizdə vəfat etmişdir. 18 sentyabr hər il İranda "milli şeir günü" kimi qeyd edilir.

Vəsiyyətinə görə Təbrizin Şairlər Məqbərəsində dəfn olunmuşdur.

## GƏLMİŞ İDİ...

(Qəzəl)

Yuxuma dun gecə bir laləüzar gəlmiş idi,
Gənc ikən sevdiyim o incə nigar gəlmiş idi.

Ey könül gülşəni, tufanlı zamanın keçmiş,
Yasəmənli çəmənə tazə bahar gəlmiş idi.

Meh əsib rəqsə gətirmişdi çəmən susənini,
Gül gülür, bülbül o gün gülşənə yar gəlmiş idi.

Eşidirdim fələyin mən əbədi nəğməsini,
Mehri–çöhrəmdə mənim xəndə nisar gəlmiş idi.

Fərhadın tişəsi əfsanə deyib Şirindən,
Xosrovun qarşısına orda şikar gəlmiş idi.

Sərvi–nazım mənə bir an da yaxın düşmədi heç
Qol–budaq atmış idi, üstünə bar gəlmiş idi.

İstədim bir də tutum mən, ətəyindən yapışım,
Yolum üstə mənim o sevgili yar gəlmiş idi,

Çox çağırdım mən uzaqdan, səməri olmadı heç,
Qaçdı ahu kimi yar, yer ona dar gəlmiş idi.

Göz açıb gördüm o gənclik səhərindən yox əsər,
Qocalıq gündüzü axşam kimi tar gəlmiş idi.

Məstliyin dadlığı çöhrəmdə görünmürdü daha,
Ağrı sarmış başımı, dərdli xumar gəlmiş idi.

Ah! Əfsunkar ömür, həsrətə bənzər kimidir,
Kimsə bilməz ki, neçün aləmə xar gəlmiş idi.

Şəhriyar yazdı bu şux incə pərişan qəzəli,
Çünki yar zülfü tək aləm ona tar gəlmiş idi.

## GETMƏ TƏRSA BALASI...

İzn ver toy gecəsi məndə sənə dayə gəlim,
Əl qatanda sənə məşşatə təmaşayə gəlim.
Sən bu məhtab gecəsi seyrə çıxan bir sərv ol,
İzn ver, məndə dalınca sürünüb sayə gəlim.
Mənə də baxdın o şəhla gözlə, mən qaragün,
Cürətim olmadı bir kəlmə təmənnayə gəlim.
Mən cəhənəmdədə baş yastığa qoysam sənlə
Heç ayılmam ki, durub cənnəti–məvayə gəlim.
Nənə qarnında sənlə əkiz olsaydım mən,
İstəməzdim doğulub birdə bu dünyayə gəlim.
Sən yatıb cənnəti röyadə görəndə gecələr,
Mən də cənnətdə quş ollam, ki o röyayə gəlim.
Qıtlıq illər yağışı tək, quruyub göz yaşımız,
Kuye–eşqində gərək birdə müsəllayə gəlim.
Səndə səhrayə marallar kimi bir çıx, nə olur ki,
Mən də bir seydə çıxanlar kimi, səhrayə gəlim.
Allahından sən əgər qorxmayıb, olsan tərsa,
Qorxaram mən də dönüb dini məsihayə gəlim.
Şeyx Sənan kimi donquz otarıb illərcə,
Səni bir görmək üçün məbəde tərsayə gəlim?
Yox sənəm! Anlamadım, anlamadım, haşa mən,
Buraxım məscidimi, sənlə kelisayə gəlim!
Gəl çıxaq ture–təcəllayə, sən ol celveye–tur,
Mən də Musa kimi, o turə təcəllayə gəlim.
Şirdir Şəhriyarın şeri, əlində şəmşir,
Kim deyir mən belə sir ilə dəvayə gəlim.

## AZƏRBAYCAN

Könlüm quşu qanad çalmaz sənsiz bir an, Azərbaycan.
Xoş günlərin getmir müdam xəyalımdan, Azərbaycan.
Səndən uzaq düşsəm də mən eşqin ilə yaşayıram,
Yaralanmış qəlbim kimi qəlbi viran Azərbaycan.

Bütün dünya bilir–sənin qüdrətinlə, dövlətinlə
Abad olub, azad olub mülki–İran, Azərbaycan.
Bisütuni–inqilabda Şirin–vətən üçün Fərhad
Külüng vurmuş öz başına zaman–zaman, Azərbaycan.
Vətən eşqi məktəbində can verməyi öyrənmişik,
Ustadımız deyib “heçdir vətənsiz can”, Azərbaycan.
Qurtarmaqçün zalimlərin əlindən Rey şümşadını
Öz şümşadın başdan–başa olub al qan, Azərbaycan.
Yarəb, nədir bir bu qədər ürəkləri qan etməyin,
Qolubağlı qalacaqdır nə vaxtacan Azərbaycan?!
İgidlərin İran üçün şəhid olub, əvəzində
Dərd almısan, qəm almısan sən İrandan, Azərbaycan.
Övladların nə vaxtadək tərki–vətən olacaqdır?
Əl–ələ ver, üsyan elə, oyan, oyan, Azərbaycan!
Bəsdir fəraq odlarından kül ələndi başımıza,
Dur ayağa! Ya azad ol, ya tamam yan, Azərbaycan!
Şəhriyarın ürəyi də səninki tək yaralıdır,
Azadlıqdır mənə məlhəm, sənə dərman, Azərbaycan!

# MİR KAZIM ASLANLI SARƏNG
(1912–1975)



Böyük bəstəkarimiz Üzeyir bəy Hacıbəylinin tələbəsi olan şair, alim, həkim, bəstəkar, pedaqoq **Mir Kazım Mir İsgəndər oğlu Aslanlı** 1912-ci ildə Masallının axarlı– baxarlı İsi kəndində bəy ailəsində dünyaya göz açmışdı. 2 texnikum, 3 ali məktəb təhsili almışdı. Doğma yurdunu məhəbbətlə sevən Aslanlı XX əsrin sərt döngələrini, keşməkeşlərini yaşamış, 1975-ci ildə Bakıda 63 yaşındaykən dünyasını dəyişmişdir.

Ədəbi təxəllüsü "Sarəng" olan Mir Kazım Aslanlının kim tanımırdı görünür, təxəllüsü də "Dəmbəlov şikəstəsi" kimi yarımçıq qalmış ömrünün qisməti imiş! Deyilənlərə görə, əfsanəvi Səməndər quşu timsallı sarəng adlı balaca nəğməkar bir quş olub; Dəmbəlov dağının döşündən pərvazlanıb, İstisuda çimib, Yanardağda pak vücudu ilə odlara tutuşub və yanaraq nəsli kəsilib...

**Sarəng tək alış, yan, alovun ərşə ucalsın,**
**Can atəşinə qoy isinən millətin olsun!**

Bu, Mir Kazım ömrünün qayəsi – kredosu idi. Bir mənası da "yüz rəng" olan "Sarəng" təxəllüsünün sahibinə tanrı bir neçə istedad bəxş eləmişdi. Belə nadir insanlara dünyada həmişə təsadüf olunmur. Bir neçə sənətin mahir bilicisi olan Sarəngi öz zəmanəsində müasirləri çox yaxşı tanıyırdılar. O, görkəmli alim, cəfakeş həkim, pedaqoq, şair, tərcüməçi, bəstəkar, musiqişünas olaraq geniş şöhrət qazanmışdı. Elə Sarəng ömrünün davamı da onun parlaq istedadından yadigar qalan könül əmanətləridir.

Çox təəssüflər olsun ki, sağlığında olduğu kimi, ölümündən sonra bir müddət elimizin–obamızın bu mənəvi zirvəsi görməməzliyə vurulub.

Bəli, ötən əsrin sərt döngələrini, keşməkeşlərini yaşamış Sarəng–M.K.Aslanlı əhatəsində ömür sürən adamlardan–hətta həmkarlarından, yaxınlarından ağır məhrumiyyətlər görmüş, haqsız sıxışdırılmış, incidilmişdir. Sanki dünyanın on iki millətinin və xalqının dilini bilən bu insani, böyük millət aşiqini öz doğma dilində anlamaq, başa düşmək istəməmişdilər.

Düzdür, şəxsiyyətə pərəstiş dövrünün evlər yıxıb, qapılar bağladığı vədələrdə bəy oğlu Mir Kazım Aslanlının başının üstünü almış qorxunc buludları dahi bəstəkarımız Üzeyir Hacıbəyli dağıtmış, onu müdafiə etmişdir. Ancaq həmişə fitri istedadına paxıllıq, qısqanclıq edənlər dünyasını dəyişən günəcən onu işləmiş, ömrünü qayçılamışdır.

Otuzuncu illərin tamamında Üzeyir bəylə ünsiyyəti, M.Aslanlının konservatoriyada təhsil alması, bəstəçilik və ifaçılıq sənətinə yiyələnməsi ilə sonuclanır. Buna qədər isə o, iki ali məktəb–Azərbaycan Kənd Təsərrüfatı və N.Nərimanov adına Dövlət Tibb İnstitutunu bitirmişdi. Tibb institutunda dərs deyir, Azərbaycan Dövlət Elmi–Tədqiqat Kurortologiya və Fizioterapiya İnstitutunda müalicə metodları ilə məşğul olurdu.

Üzeyir bəy hətta ona – Mir Kazım bəyə piano da bağışlamışdı. Mir Kazım bəyin evində tar, ud, setar, rübab, vialino, qopuz kimi musiqi alətləri var idi və o, bu alətlərdə çox gözəl ifa edərmiş. Onun “Aşiqin son nəğməsi”, “Sarı bülbül fantaziyası”, “Müxəmməs”, “Masallı masalları” kimi əsərləri bu gün də Azərbaycan radiosunun qızıl fondunda saxlanılır.

Tale onu hələ körpəykən sınağa çəkmişdi; doğulduğu 1912-ci ildə atası İsgəndər bəyi itirmişdir. On yaşı olanda yenicə qurulmuş şura hökuməti ona himayədarlıq edən babası Mirabdulla bəyin mülklərini müsadirə edir.

Onu da qeyd edim ki, Mir Kazım bəy Aslanlı 12 dil bilən poliqlot olub... Deyərmiş ki, **"Hər dil qapı açar bir xəzinəyə, dili öyrən, sonra gir xəzinəyə!"**

Təbii ki, hər dövrün vəfasız "dostları" olur. Sarəngin süfrəsinin başında oturan, bir elmi müəssisədə çalışdığı üzdəniraq alimlər onu dədə–babasının bəy olduğuna, özü-nüsə kommunist olmadığına görə qınayır, əslində isə fitri istedadına paxıllıq edirdilər.

**Aşıb–daşacaqdır ellər qəlbində,**
**Mənim gövhərlərim vaxtı gələndə...**

Bu da Mir Kazım bəyin uzaqgörənliyindən soran ve-rən könül təranəsidir. Ona görə – ÖLÜM ömrün sonu de-yil, mənzilbaşıdır:

**Ölüm yoxdur bu aləmdə,**
**Cismim cismə təbəddüldür.**

–deyəndə də Sarəng öz RUHUNUN əbədiyaşarlığına ina-nırdı.

...Bu gün onun əziz ruhunun şad və yad olunmağa böyük haqqı var. M.K. Aslanlı çoxlu epitafiyalar yazmış-ıdır. Vəsiyyətinə görə Masallıda İstisuya gedən yolun ya-xınlığındakı İsi qəbristanlığında dəfn olunub.

Məzar daşına özünün qələmə aldığı epitafiyalardan biri yazılıb:

**Ey yolçu, demə bu məzar kimindir?**
**Ya bir məhkumundur, ya hakimindir?**
**Ölüm qabağına vüqarla çıxan,**
**Sənin tanıdığın bir həkimindir.**

## BU SABAH
(Üzeyir bəyin vəfatına )

Yenə hicran bağını dərdü–qəm almış bu sabah,
Gülşəni tərk edərək, qönçə saralmış bu sabah.

Gül köçüb, baxça solub, bülbül uçub, bağban ölüb,
Dünya bilsən gözlərimdə nə daralmış bu sabah.

Ah, dünən göy görünən alçalı dağlar da yanıb,
Gün vuran zirvələri şaxta, qar almış bu sabah.

Yenə heybətli buludlar doluxub ağlamağa,
Bürümüş hər yanı çən, göy də qaralmış bu sabah.

Üzeyir–xalqımızın dahi, böyük bəstəkarı,
Saralan çöhrəsini çən, qübar almış bu sabah.

İndi bilməm, oyadan ahu–fəğan ilə məni,
Yaralı ceyran imiş, ya ki, maralmış bu sabah.

Olma diltəng, belə Sarəng, yenə yaz güllər açar,
Çox da qəmlər çəməni, bağı sar almış bu sabah.

***23.09.1948, Bakı***

## ÇAY

Gözəlim, dəmlə gətir məxməri çay, fincanda,
Ver o çaydan ki, bitir yurdum Azərbaycanda.

Ver o çaydan ki, onun rənginə tay rəng olmaz,
Nə qızıl lalədə, yaqutda, nə də mərcanda...

Ver o çaydan ki, o ən yaxşı ürək dərmanıdır,
Duyulur ətri–dadı, ləzzəti yorğun canda.

Məsləhət görmüş həkimlər əsəbi halə çayı,
Qəlbi kimsə acıdanda, söz ilə sancanda.

Sən də Sarəng, meyə meyl eyləmə, meydən çaya keç,
Məxməri çay buyururlar ən ağır həyəcanda.

***1960***

## BİLMƏZ

Yalan doğruluğu əsir alanda,
Fitnə həqiqəti dərdə salanda,
Həya, abır, ismət yanda qalanda,
Dovran zəlalətə duşməyə bilməz!

Hiylələr sel olub cıxsa qurşağa,
Aqil mohtac olsa əgər axmağa,
Torpaq borc verərsə odu caxmağa,
Zaman zəlalətə duşməyə bilməz!

Qarğa nəğmə desə, bulbul ağlasa,
Cəhalət tikandan dəstə bağlasa,
Lalənin bağrını xəzan dağlasa,
Reyhan zəlalətə duşməyə bilməz!

Caqqallar dunyada mərama yetsə,
Ceyranlar baş alıb meşədən getsə,
Tulku–mulku gəlib koxalıq etsə,
Aslan zəlalətə duşməyə bilməz!

Sarəng, HƏQİQƏTƏ, haqqa sən yar ol!
Hakəsdən, alcaqdan calış kənar ol!
Ey sənət, ey vətən, ey HAQQ, sən var ol!
Yalan zəlalətə duşməyə bilməz!

## EY HƏKİM, OLSAYDIM YERİNƏ SƏNİN...

Söz var, musiqidir ruhun qidası,
Qəlbin məlhəmidir, eşqin sədası.
Tutmaqla bolluca təkcə dərmana,
Çıxarmaz xəstəni həkim bir yana.
Ey həkim, olsaydım yerində sənin,
Musiqi olardı adı nüsxəmin.
Birinə yazardım mən "Şəbi–hicran",
Birinə yazardım "Sevgili canan".
Birinə yazardım tar dilində "Şur",
Birinə yazardım "Rəng" ilə "Mahur".
Birinə "Humayun", "Şüştər ahəngi",
Birinə "Bayatı", birinə "Cəngi".
Birinə yazardım qəmli "Dügah"ı,
Birinə yazardım şən "Çahargah"ı.
Şirvanın, Muğanın qədim avazı,
"Bayatı Şiraz"ı, "Kürdü şahnaz"ı.
...Birinə Sarəngdən yüz rəng yazardım,
Daha yüz min gözəl ahəng yazardım!
Ey həkim, olsaydım yerində sənin,
Musiqi olardı adı nüsxəmin.
Dərdi əridərdim, tez qocaldardım,
Xəstəmi çalğıyla mən sağaldardım.

## YATIR YATAĞINDA BİR ANA XƏSTƏ

Yatır yatağında bir ana xəstə,
Gözləri yoldadır, qulağı səsdə.
Bayırdan gələndə bir ayaq səsi,
Ananın dayanır bir an nəfəsi.
Fəqət qəlbi yenə aramla vurur,
Ana intizarla oturur, durur...
... Onun dörd oxumuş oğlu, qızı var,
Yaşarlar anadan kənar, bəxtiyar.
Oğlu mühəndisdir, qızları həkim,

Ona qibtə edir bu eldə hər kim...
...Ana can üstədir, gəlmədilər ah,
Övladın ürəyi nə daşmış, Allah:
– Nə böyük qəm–qüssə varmış önümdə,
Ölüm yatağında, bu son günümdə
Nə qızlarım gəlib qapımı açdı,
Nə oğlum yetişib, evə nur saçdı!
Ana bu həsrətlə daldı xəyala,
Yanında bir qarı yandı bu hala.
Anaya bir damla sərin su verdi,
Sərin su elə bil, son yuxu verdi.
Bu qoca dünyanı ana tərk etdi,
Yadların çiynində məzara getdi.

## ƏLİHEYDƏR QƏNBƏR
(1918 – 1991)



**Qənbərov Əliheydər Məmmədtağı oğlu** – həkim, şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1978), Əməkdar həkim (1957), Əmək veteranı (1979).

14 mart 1918-ci il tarixdə Bakı şəhərində fəhlə ailəsində anadan olmuşdur. Burada yeddillik məktəbi və tibb fəhlə fakültəsini bitirərək Azərbaycan dövlət Tibb İnstitutunda təhsil almışdır (1937-1941). Əmək fəaliyyətinə Körgözneftdə ambulatoriya həkimi kimi başlamışdır (1941-1943). Sonra cəbhəyə gedərək Stalinqradda alay tibbi – sanitar dəstə rəisi olmuşdur (1943). Səhhəti ilə başlı ordudan tərxis olunduqdan sonra İmişli, Beyləqan rayonlarında sahə həkimi, poliklinika müdiri (1943-1947), Naxçıvan şəhər xəstəxanasının baş həkim müavini (1947-1974), Bakıda RKX – nın terapiya şöbəsinin müdiri (1974-1981), sonra orda müalicə həkimi (1981-1984), qatroenterologiya şöbəsində müalicə həkimi işləmişdir (1984-1991).

Bədii yaradıcılığa 60-cı illərin əvvəllərində başlamışdır. Lirik və satirik şeirləri ilə "Şərq qapısı", "Azərbaycan", "Kirpi" qəzet və jurnallarına müntəzəm olaraq çıxış etmişdir. 1963-cü ildə "Kirpi" jurnalının keçirdiyi "Sabiranə şeirlər" müsabiqəsinin xüsusi mükafatına layiq görülmüşdür. "Naxşıvan", "Ürək", "Azərbaycanlıyam" və başqa şeirlərinə bəstələnən mahnılar dillər əzbəri olub. "İlan yuvasında fırtına" pyesi Naxçıvan Dram teatrında tamaşaya qoyulmuşdur. On döyüş və yubiley , "Əmək veteranı" medallarına layiq görülüb.

1991-ci il, 5 avqustda Bakıda vəfat etmişdir. Buzovna qəbristanlığında dəfn edilmişdir.

"Ürək" adlı kitabı 1971-ci ildə 5000 tirajla çap olunmuşdur.

**ÜRƏK**

Ürək odu daim yana,
O, odlana, alovlana.
Od vermirsə qəlbə, cana,
Demək o heç ürək deyil,
O heç mənə gərək deyil!

Əgər ki, sevinib gülmür,
Döyüntüsün heç kim bilmir,
Çırpıntısı eşidilmir
Demək o, heç ürək deyil.
O heç mənə gərək deyil.

Vətəniyçün lazım gəlsə
Polad kimi gərilməsə,
Torpağına sərilməsə
Demək o heç ürək deyil.
O heç mənə gərək deyil.

Neyləyirəm o ürəyi-
Yox arzusu bir diləyi!?
Bacarmırsa o sevməyi
Demək o heç ürək deyil.
O heç mənə gərək deyil!

***Qeyd: Yalnış olaraq bu şeir bəzən başqa müəlliflərin adı ilə paylaşılır.***

# HƏKİM QƏNİ
(1918–2008)



**Həkim Qəni** (Hüseynov Qəni Hüseynqulu oğlu, şair, qəzəlxan, füzulişünas alim, tərcüməçi, tibb xidməti polkovniki, prezident təqaüdçüsü) 16 fevral 1918-ci ildə Bakı şəhərində anadan olub. Ali təhsilini Tibb İnstitutunda almışdır (1936-1941). İkinci Dünya Müharibəsində hərbi həkim kimi fəaliyyət göstərmişdir (1941-1945). Uzun illər Azərbaycanın baş nevropotoloqu olub.

Şair Əliağa Vahidin şəxsi həkimi və yaxın dostu olmuşdur. Vahid poeziya evində "Vahid" ədəbi şairlər məclisinə sədrlik etmişdir.

Şairə Solmaz Şirin Həkim Qənin həyat yoldaşı idi.

İlk şerlərini 30-cu illərdə yazmışdır. Yüzlərlə qəzəlin, şeirlərin (qoşmalar, bayatılar və s.), bir neçə dram əsərinin, poemanın, aforizmlərin və s. müəllifidir. Məhəmməd Füzulinin 120 qəzəlinə təxmis yazmış, 100-dən çox qəzəlini rus dilinə tərcümə etmişdir. 12-dən çox kitabı nəşr olunub.

Şərq ədəbiyyatının, o cümlədən, əruz vəznli Azərbaycan poeziyasının kamil bilicisi olmuşdur.

Həkim Qəni 10 iyun 2008-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Həkim Qənin 4 övladı var.

***

***"Ayırdı könlümü bir xoş qəmərüz, canfəza dilbər,***
***Nə dilbər, dilbəri–şahid, nə şahid, şahidi–sərvər"***
***Həsənoğlu***

Alıbdı rahətim yeksər, gül üzlü bir mələkmənzər,
Nə mənzər? Mənzəri–şəngül. Nə şəngül? Şəngülü–əhmər.

Gözəllərdə odur təkcə, özü bir əndəlib ləhcə,
Nə ləhcə? Ləhcəyi tuti. Nə tuti? Tutiyi–şəkkər.
Pərilər içrə ol Xosrov, cəmali bir günəşpərtöv,
Nə pərtöv? Pərtövi–atəş. Nə atəş? Atəşi–Azər.

Könül mülkün edib təsxir, ədayi–eşqdə qadir,
Nə qadir? Qadiri–Fateh. Nə fateh? Fatehi–kişvər.

O ləbqönçə, üzü lalə, salıbdır eşqimə şölə,
Nə şölə? Şöleyi–Zəhra? Nə Zəhra? Zəhreyi–ülkər.

Canımda qalmadı rahət,alıb səbrim o məhsurət,
Nə surət? Surəti–huri. Nə huri? huriyi–dilbər.

Qəni eşqində fərxəndə, sənə bir kəmtərin bəndə,
Nə bəndə? Bəndeyi–aşiq. Nə aşiq? Aşiqi–çakər.

## MUĞAMAT

Əsrlərin İlahi sədasıdır muğamat,
Zamanların naləsi, nidasıdır muğamat

Muğamat, dahilərin kamalının zirvəsi,
Rastın, seygahı şurun nəvasıdır, muğamat.

O, qadir insanların həyata nəzərləri,
Ariflərin gözünün ziyasıdır muğamat

Muğam, müğənnilərin məharət meydanları,
Üslubu, dəsti–xətti, ifasıdır muğamat.

Böyük İbni–Sinanın sözünün fəlsəfəsi
Eşq əhlinin dərdinin dəvasıdır muğamat

Fərhadın Bisütunlar yarıb keçən tişəsi,
Məcnun, Fərhad başının həvasıdır muğamat.

Rudəki, Əbdülqədir, Mirmöhsün Nəvvabların
Ecazı, möcüzəsi, zəkasıdır muğamat.

Əqlin, hissin, şüurun, dirliyin fəlsəfəsi,
Qəni, insaniyyətin əsasıdır muğamat.

## EYLƏMİŞƏM

Bu çəmənzardə mən xeyli şikar eyləmişəm,
Şuru şəhnazi ilə çox bülbülü zar eyləmişəm.

Mənim eşqimdə vəfa nuru, günəşdən çoxdur,
Çox zimistanı belə fəsli–bahar eyləmişəm.

Odlu bir eşq ilə sinəmdə vurub daim ürək,
Bu məta ilə gedib, meyli–nikar eyləmişəm.

Çox görüb sevgili yar əhdə sədaqət məndə,
Xain əfyarı bu minval ilə xar eyləmişəm.

Dost üçün, "yox" sözümü görmədilər aləmdə,
Min əzaba dözərək, mən "yoxu", "var" eyləmişəm.

Canfədalıq edərək sevgili dildarım üçün,
Rəqibin gündüzünü, çox dəfə tar eyləmişəm.

Görmədi sevgili yarım məni bir dəfə dönük
Ömrümü mən də, Qəni, eşqə insar eyləmişəm!

## HƏKİM QƏNİNİN CAVABLARI

*(Şairə Solmaz Şirinlə şeirləşmədə)*

**1.**
“Əlçatmaz sevginin sorağındasan”,
Əlini sevgiyə çatdırım Sənin!
Sevgi dəryasının qırağındasan,
De! Açım üzünə o ağ yelkəni!

Elə sevgi verim ürəkdən Sənə,
Baharı solmasın, yazı solmasın.
Elə sevgi verim, dolsun sinənə,
Payızı olmasın, qışı olmasın!

“Taledir, xoşbəxti, bədbəxti olur”,
Biri gülür isə, biri ağlayır.
Mənim eşqimdədir o dediyim nur,
O nur ki, Səninçün coşur, çağlayır.

“Sevgi istəyirsən röya qanadlı”,
Sevgi verim Sənə röyadan Şirin,
Ondan da ləzzətli, ondan da dadlı.
Sevgi verim Sənə baldan da Şirin,
Sevgi verim Sənə dəryadan dərin!

**2.**
Məhəbbətəm, sevdiciyim,
Gözlədiyin o məhəbbət!
Dərə enib dağ keçmişəm,
Sənə gəlib yetəm, fəqət.

Gec də gəlsəm, tez də gəlsəm,
Şirin Xatın, gəlib çıxdım!
Sən ümid, mən səadətəm,
İntizarı vurub–yıxdım!

Geciksəm də, yazın oldum,
Qaçaq saldım soyuq, qarı.
Qanadınam, gücə doldum,
Bu qanadla uçaq, barı!

İndi mənim cahanımsan,
Demə "cahan mənə dardır"!
Sənin üçün ürəyimdə
Bir də böyük cahan vardır!

## XANIMANA ƏLİBƏYLİ
(1920–2007)



**Xanımana Əlibəyli** (Xanımana Sabir qızı Əlibəyli, həkim, uşaq ədəbiyyatında əvəzsiz rolu olan şair) 20 aprel 1920-ci ildə Bakı şəhərində anadan olmuşdur.

Gənc şairə Bakıdakı 13 nömrəli orta məktəbdə təhsil almışdır. 16 yaşında ikən Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olmuş və 1942-ci ildə İnstitutu bitirən gənc həkim təyinatla Masallı rayonuna göndərilmişdir. 1938-ci ildən etibarən dövri mətbuatda dərc olunmağa başlamışdır. «Balaca həkim» adlı birinci kitabı isə, 1955-ci ildə 30.000 min nüsxə tirajla çap olunmuşdur. 30-dan artıq kitabın müəllifidir.

1953-cü ildə o zamankı uşaq ədəbiyyatımızın görkəmli simalarından olan Mirvarid Dilbazi və Mikayıl Rzaquluzadənin zəmanətləri ilə AYB-nə üzv qəbul edilmişdir.

Dövlət mükafatına, Prezident təqaüdünə və "Əməkdar İncəsənət xadimi" adına layiq görülmüşdür.

Azərbaycan uşaq ədəbiyyatının inkişafında böyük xidmətləri olmuş Xanımana Əlibəyli 7 may 2007-ci ildə dünyasını dəyişmiş, Bakı şəhərində dəfn edilmişdir.

### GÜNƏŞ OLARAM MƏN DƏ

Qışda şaxtada, buzda
Günəş çimir hovuzda.
Bərk istisində yayın,
Çimir suyunda çayın.
Odur ki, par–par yanır,
Hər tərəf işıqlanır.

Qoy gətirim ləyəni,
Su tök yuyundur məni.
Ay ana, böyüyəndə
Günəş olaram mən də.

## İNCİ

Bir körpə gülümsədi,
Elə bil nəsə dedi.
Anasına Sənubər
Bildirdi sevincini,
Göstərdi səhər–səhər
Ağzındakı incini.
Ana dedi: – Şad xəbər!
Qızımın çıxar dişi!
O bizimlə bərabər
Yeyəcəkdir bişmişi.

## YOL

Yollar dünyada çoxdur,
Sayı–hesabı yoxdur.
Bostan yolu, dağ yolu…
Bir yol var ki, dünyada
Onu getmirsən hədər.
Həmişə düşür yada, –
Qoca olana qədər.
Bax, uşaqla doludur, –
O, məktəbin yoludur.

## NADİR HƏKİM
(1935–1980)



**Nadir Həkim (**Nadir Hüseyn oğlu Əliyev) 1935-ci ildə Gədəbəy rayonunun Zəhmət kəndində kəndli ailəsində anadan olmudur. Orta təhsilini Zəhmət və Miskinli kəndlərində almışdir. Sonra N. Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunu bitirdikdən sonra Daşkəsən və Gədəbəy rayonlarında SEM–in və Gəncə Zonalararası Vərəm Dispanserinin Gədəbəy rayonu üzrə baş həkimi, rayon xəstəxanasının həkimi işləmişdir.

Tələbəlik illərində məşhur tarzən Əhsən Dadaşovun diqqətini çəkərək onun ansamblına dəvət almışdır.

Ötən əsrin 60- cı illərindən indiyədək onun şeirləri, xüsusən aşıqlar tərəfindən müxtəlif tədbirlərdə və el şənliklərində oxunmaqda və söylənilməkdədir.

1980-ci ildə vəfat etmişdir.

### DEYƏRLƏR

Olsa cəsarətin Koroğlu qədər,
Bəxtin gətirməsə, yasar deyərlər.
Elm dəryasının qəvvası olsan,
Cibi boş olanda susar, deyərlər.

Bədöy köhlən gərək gələ cövlana,
Yoxsa yabı deyər görənlər ona.
Şikarı olmayan qoca qartala
Ya qarğa deyərlər, ya sar deyərlər.

Adam var sözünü söyləyər qəti,
Soyulsa dərisi, kəsilsə əti.
Nadir, boşboğazın gopdu sənəti,
Xəlvətdə özündən "basar" deyərlər.

## OLASAN

Ağası olunca dilqanmaz kəsin,
Gedib bir qananın qulu olasan.
Namərdin başında papaq olunca,
Bir mərdin atının çulu olasan.

Ağac var kölgəsi, ağac var barı,
Ağac var gülündə oturmaz arı.
Nəyə gərək barsız ağac kolları,
Bir barlı ağacın kolu olasan.

Nadir, bir mənbədən gəlməsə suyu, –
Müdam su tökəsən, su verməz quyu.
Gur yağışın olar ani səs küyü,
Tükənməz çayların gölü olasan.

## OLANDA

Könül yaxşı tanı dostu, tanışı
Əldə şeş gətirən zərin olanda.
Nə təkəbbür olub alma qarğışı,
Nə də yanma, iki birin olanda.

Eşidib yaltağın min cür gopunu,
Bir gün alar zaman onun köpünü.
Axıtma selində saman çöpünü,
Arazın olanda, Kürün olanda.

Fitnə olub demə qəlbin sezilməz,
Hamı bilir mardan şərbət süzülməz.
Haqqı tutsan, Nadir, qəti üzülməz,
Böhtanın olanda, şərin olanda.

# RAMİZ DUYĞUN
(1938)



**Ramiz Duyğun** (Məlikov Ramiz Məmməd oğlu)–həkim, şair, publisist, pedaqoq, 1938-ci il fevralın 10–da Azərbaycanın Əli Bayramlı (indiki Şirvan) rayonundakı Güdəcühur kəndində anadan olmuşdur. Burada ibtidai, Axtaçıda yeddiillik məktəbi bitirmişdir (1945–1952). Bir il kolxozda işləmişdir. Əli Bayramlı şəhərində orta təhsil almışdır (1953–1956). N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunu bitirmişdir (1956–1962). Şimali Qafqaz hərbi dairəsində müəyyən kurs keçdikdən sonra Belorusiya hərbi dairəsində (1962–1971), sonra Zaqafqaziya hərbi dairəsində (1971–1978) xidmət etmişdir.

N. Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun xüsusi hazırlıq kafedrasında müəllim (1978–1985), şöbə rəisi (1985–1990) olmuşdur.

Hazırda ehtiyatda olan tibb xidməti polkovnikidir. Bədii yaradıcılığa kiçik yaşlarından meyl göstərmiş, lakin ilk mətbu şeiri "Yaşa, Azərbaycanım" "Gəncliyin səsi" almanaxında dərc edilmişdir (1959). Bundan sonra dövri mətbuatda, radio və mavi ekranda müntəzəm çıxış edir. "Hünər" televiziya verilişinin müəlliflərindən biri və aparıcısıdır. Gənclərin hərbi vətənpərvərlik tərbiyəsi işində fəal çalışır. Bədii tərcümə ilə də məşğul olur. "Vətən–beşiyim mənim" (1985) oçerklər məcmuəsinin tərtibçilərindən və müəlliflərindən biridir. "Əbədiyyətdən gələn məktub" mənzum pyesi mavi ekranda nümayiş etdirilmişdir (1977). "Ağ atlı oğlanın nağılı (iki hissəli) ssenarisi əsasında sənədli film çəkilmişdir (1985). Azərbaycan Ensiklopediyasında "Xatirə" kitabı redaksiyası rəhbərinin müavini vəzifəsində işləmişdir (1989–1991).

Sovet ordusunda, eləcə də Azərbaycan ordusunda xidmət edərkən fəxri fərmanlarla, bir çox orden və medallarla təltif edilmişdir.

On beşdən artıq kitabın, çox sayda publisiztik yazıların müəllifidir.

1988-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

**BAŞINI DİK SAXLA**
***(Bayrağımıza həsr olunur)***

Dərd içinə quylanma,
Məni qəmə bələmə.
Məyus–məyus boylanma
Kədər, xiffət eləmə.

Gey zər qiyafətini
Tufanlar kimi çağla.
Əymə, düzəlt qəddini,
Başını da dik saxla.

Qoy qamətin şax dursun,
Parıl–parıl çağların...
Qoy Günəşdə bərq vursun,
Qızıl tül saçaqların.

Qoy rənglərin şuxlansın,
Dönsün mavi dənizə.
Düşmənlərin dağlansın,
Qövsi–qüzehə bənzə.

Döyüşə girməliyəm,
Durub yağı qəsdinə.
Alov püskürməliyəm,
Düşmənlərin üstünə.

Bağışla, al saçaqlım,
Qarşnda mən suçluyam.
Əfv et, günəş qucaqlım,
Sənə çox, çox borcluyam.

Haqqın var məni hər an,
Atəşlərə də yaxasan.
Sən Şuşadan nigaran,
Laçın üstündə yoxsan.

Nə zamandır dağların
Üstdə ruhum coşammır.
Qızılı saçaqların
Kəlbəcəri oxşamır.

Özümü yaxır ahım,
Həkərisiz, Xaçınsız.
Günah mənim günahım...
Sən qalmısan Laçınsız.

Ürəyində kam,arzu
Bir milyon adam qalıb.
Camalına tamarzı
Füzuli, Ağdam qalıb.

Yer kürəsi dolanmaz
Sənsiz.... şöhrətlim,adlım.
Sənsiz Vətən olammaz–
Cəbrayılm,Qubadlım.

Süslən,qızıl dan yerim,
Bəğrımdan qan saçacam.
Yaxındadır zəfərim...
Mən səni Kəlbəcərə,
Xan Şuşaya sancacam.

Ötüşər qara bulud,
Artar yurdun işığı.
Sən başını uca tut,
Mənəm başı aşağı.

Oyanar halqa–halqa
Qələbənin zənginə,
Qarabağ dalğa–dalğa–
Boyanar al rənginə,
Bürünər al rənginə...

## AZƏRBAYCAN ORDUSU

Süngün yağıların gözünə batır,
Yarandın haqq eşqi, haqq sevdasından.
Sakit qəzəbində şimşəklər yatır,
Yarandın xalq eşqi, xalq sevdasından.
Azərbaycan ordusu.
Qızıl bayrağında günəşin odu,
Atandır, anandır bu odlar yurdu.
Qarşında daşnaklar lal–mat qurudu,
Azərbaycan ordusu.
Mərhəmət məsləkin, ədalət andın,
Sən ancaq həqiqət eşqilə yandın.
Yağılar önündə dağtək dayandın,
Azərbaycan Ordusu.
Arxanca uzandı dualı qollar,
Qarşında sıldırım çınqıllı yollar.
Sıranda qranit qaya oğullar,
Azərbaycan ordusu.
Sənə yol göstərən cəsarətindir,
Arxanda dayanan mətanətindir.
Zəfər dastanları nəqarətindir,
Azərbaycan ordusu.
Başının üstündə parlar al danın,
Sınaq məktəbidir döyüş meydanın.
And yeri sən Ali Baş Komandanın,

Azərbaycan ordusu.
Bayraqdar hədəfi sərrast tuşlayır,
Yağının səfini əzir, xışlayır.
Qələbə yolların təzə başlayır,
Azərbaycan ordusu.
Önündə titrəyir, əsir dağ–dərə,
Qarşıda Fizuli, Ağdam, Ağdərə.
İmza atmalısan qələbələrə,
Azərbaycan ordusu.
Daşnakı sər yerə sən daraq–daraq,
Səpələ dağlara onu qıraraq.
Başın üstdə Günəş üçrəngli bayraq,
Azərbaycan ordusu.
Susmayıb gurlayır döyüş təbili,
Haqqın dərgahında millətin əli.
Zəfər yollarına güllər səpili,
Azərbaycan ordusu.
Dərələrdən yellən, yarğanları aş,
Kirs ilə tən dayan, Murova yaraş.
Dayanma Laçına, Şuşaya birbaş,
Azərbaycan ordusu.
Atəşi sönməsin qisas odunun,
Əsr–əsr qalxsın alovu onun.
Qəhrəman ordusu Odlar yurdunun–
Azərbaycan ordusu.




## QANA QAN

*Iyulun 4–də erməni faşistləri Füzuli rayonunun Alıxanlı kəndini atəşə tutaraq 18 aylıq körpə Zəhranı və onun nənəsi Sahibəni qətlə yetirdilər.*

Canlı insan qanına
Sən bu qədər susayasan,
Sən bu qədər acasan.
Gəlinciyilə oynayan körpə qıza
Artileriyadan, topdan,
Daha nədən

Belə atəş açasan...
Beşiyini, bələyini
Oda tutub qalayasan.
Yerdən bombalayasan,
Göydən bombalayasan.
Bunu ancaq erməni
Bəşəriyyət düşməni,
İnsanlığın düşməni
Bu cür edə bilərdi.
Ancaq dığa daşnakyan
Bu qərara gələrdi...

Azərbaycan kəndlisi
Evində, eşiyində
əkində, biçindədi.
Daşnaksa yırtıcıdı,
iki ayaqlı maldı,
buynuzu içindədi,
eybəcər, anomaldı...

Qulağı kar, qəlbi kardı.
Yaranışından xain,
Qəddar cinayətkardı.
Satqın, bicdi, yaltaqdı.
Minsifətli qorxaqdı.

Oğru, xain əzəldən
İnsanlığın adına,
Soyadına ağ olar.
Həm də ki, qorxaq olar.
Oğru, yaltaq erməni,
Xain, qorxaq erməni
İki yaşlı Zəhranın
Gəlinciyindən qorxub
Artileriyadan, topdan
Onu atəşə tutub...

Qardaş, başa düş məni,
Oğul, başa düş məni.
Bəşəriyyət düşməni,
Insanlığın düşməni
Dığa daşnakyan artıq
Lap çox uzağa gedib.
Çoxdan özü özünü
Ölümə məhkum edib.
İnsanlığın böyründə
Yaman şişə çevrilib.
Haqq–ədalət naminə,
Tribunala verilib,
Məhkəməyə verilib...

Körpəcə Zəhramızın
Deyin, günahı nəydi?
Deyin, onun kimi var?
Bu torpağın qəlbində,
Bu millətin qəlbində
Dağlar boyda qəmi var.
8Bütün cəhdlər, çabalar
Artıq əbəsdir, əbəs.
Daha bəsdir, bəsdir, bəs!

Gəl yolun kəsəsinə,
Qalx yolun qısasına.
Ordumuz şimşək çaxsın,
Yurdumuz şimşək çaxsın!
Zəhranın qisasına,
Boyük bir ordu qalxsın...

Ayağa qalx, Azərbaycan!
Qana qan!
Q!ana qan!

## YOLUN YARISINDA...

Uzaq yola çıxan qəhrəman əsgər,
Qapı arasında dayanmaq olmaz.
Zəfər dastanıdır yazdığın əsər,
Yolun yarısinda dayanmaq olmaz.
Busat sorağında yarın–yarağın,

Qamətin bükülməz, dizin əyilməz.
Mərmilərlə dolu döyüş darağın,
Sözünü demisən, sözün əyilməz.
Qarımış düşmənin anlayır artıq,

Düşüb əsməcəyə höyüşdür işi.
Qiyafəsi cırıq, dabanı yırtıq
Tüpürdüyü yeri yalamaz kişi.
Sən şah Xətainin layiq nəslisən,

Ulu öndərin pir, ulu tanrın pir.
Qəvi igidlərin özü, əslisən,
Yenilıməz Babəkin, comərd Babəkin,
Kəsik qollarını yadına sal bir...

Ötən hər günümüz tarix anıdır,
Ucadan deyim ki, dünya eşidir.
Mübariz dünənin qəhrəmanıdır,
Bu gün silah səndə söz səninkidir.

Qayıtmaz kamandan sıyrılan bir ox,
Nifrətin zirehlər doğrayan almas,
Geri qayıtmağa hüququmuz yox,
Yolun yarısında dayanmaq olmaz

Namərd daşnaklara verməyək aman,
Tülkü Qarabağda köhlən səyridir.
Dünya sənə baxır bu gün qəhrəman!
Yenilməzlik dəmi, mərdlik yeridir.

Aləm bizə baxır, vallah ayıbdır,
İrəli getməsən yağı basılmaz.
Baban yarı yoldan qayıtmayıbdır,
Yolun yarısından qayıtmaq olmaz.

Sonacan getməkdir oğulun işi...
Bu sözlər şairin döşünə yatmaz:
“Yolun yarısında dayanan kişi,
Heç zaman mənzilin başına çatmaz!”

Bu istək alçağın it qanındadır,
Dünyaya car çəkir əxlaqsız yağı:
“Qarabağ, Xankəndi, Şuşa torpağı,
Əbədi, əzəli Hayastanındır!”

Səbr də, bıçaq da, sümük də yanır,
Sümük yarasında dayanmaq olmaz!
Səbr də, bıçaq da sümükdə yanır,
Yolun yarısında dayanmaq olmaz.

İrəliyə qoşmaq, yurda qovuşmaq,
Sonuncu xanıma, xana, bəyədək!
Alovda, tüstüdə, qorda qovuşmaq,
Qovuşmaq sonuncu qələbəyədək!

Ağdam bu millətin qan yarasıdır,
Qarabağ Vətənin tən yarısıdır.
Şuşa xalqımızın can yarasıdır.
Xalqin yarasında dayanmaq olmaz!
Yolun yarısında dayanmaq olmaz
Yolun yarısında dayanmaq olmaz!...

## OLMAYIB

Elə yaşamışam, məndən
İnciyib küsən olmayıb.
Tutduğum işə, əmələ
Bir dodaq büzən olmayıb.

Əynimə alov geymişəm,
Çörək deyil, od yemişəm.
Elə yerində demişəm, –
Sözümü kəsən olmayıb.

Sözüm Vətənə and olub,
Hecama qızıl qan dolub.
Taleyim tərs–avand olub,
Üstümdə əsən olmayıb.

Neynim belə yaranmışam,
Bahar gəzən...qaranquşam.
Elə dürüst davranmışam, –
Başımda gəzən olmayıb.

Dünya tamam satqı, alqı...
Mən tanrı bilmişəm xalqı.
Duyğun olan yerdə haqqı
Tapdayıb əzən olmayıb.

***17.10.1999.***

# YUSİF ƏHMƏDOV
(1939–2012)



**Yusif Yaqub oğlu Əhmədov**– həkim, yazıçı, dramaturq, şair.

1939-cu ildə fevralın 22–də Füzuli rayonunda anadan olub. 1963-cü ildə Azərbaycan Dövlət Tibb institutunu bitirib.

Onun povest və hekayələrinin mövzusu öz aktuallığı və qaldırılan problemlərin bədii həlli baxımından çox maraqlıdır. İlk hekayələri dövri mətbuatda 60-cı illərin ortalarından çap olunmuşdur.

"Səninlə sənsiz", "Ürək bağışlamır", "Qara yelkənli qırmızı gəmilər" kitablarının müəllifidir. "Ruhların qayıtması" romanı oxuculara saf insan duyğusu aşılayır.

Yazarın ilk kitabı "Əfqan hekayələri" adı ilə 1965-ci ildə Tacikistanın Düşənbə şəhərində çap olunub. "Ələkeçməzlər" sayca müəllifin 20-ci kitabıdır. Kitabdakı eyniadlı roman öz janrına görə müəllifin başqa əsərlərindən fərqlənir. Azərbaycanın ilk milli detektivi olan "Ələkeçməzlər" kitabındakı hadisələr 1992–2006- cı illər ərzində Bakı şəhərində və əyalətlərdə baş verən müxtəlif kriminal hadisələrdən bəhs edir. Adam oğurluqları, qətllər, sifarişlə qətlə yetirilənlər və onlarla insanı heyrətə salan ölüm hadisələri, eləcə də ağır, zəhmətli, uzun vaxt aparan cinayət işləri. Hadisələrin mərkəzində DİN–in polkovniki Hacı Məmmədov və onun quldur dəstəsi dayanır.

1963–1967-ci illərdə Tacikistan və Əfqanıstan respublikalarında işləyib. 1965-ci ildə Tacikistan Respublikasının Ali Soveti tərəfindən Fəxri Fərman və medalla təltif edilib. Ilk kitabı 1965-ci ildə "Əfqan hekayələri" adı ilə Düşənbə şəhərində fars dilində çap olunub.

Tələbəlik illərindən başlayaraq kiçik hekayələrlə, şeirlərlə, publisistik məqalələrlə müntəzəm olaraq dövri mətbuatda çap olunub. Müxtəlif illərdə "Kommunist",

“Ülfət”, “Həqiqətlər və faktlar” qəzetində ədəbi işçi, müxbir və baş redaktor işləyib. 20–yə yaxın kitabın müəllifidir. Yusif Əhmədovun qələmindən çıxan hər bir əsər çağdaş milli ədəbiyyatımızın zənginləşməsinə xidmət edir.

Əsərləri bir neçə dilə tərcümə edilmişdir. Kitabları Bakıda və respublikamızın hüdudlarından kənarda, Almaniyada, Misirdə beynəlxalq kitab sərgilərində nümayiş etdirilmişdir.

Yazıçı Yusif Əhmədov “Qızıl qələm” mükafatı və medalı ilə təltif edilmişdir. “Ustad sənətkar” Ali Jurnalistika diplomu, “Araz”, ”Müşfiq” ədəbi mükafatları və diplomları ilə, “Torpağa tökülən qan” romanına görə Azərbaycan Yazıçılar birliyinin “Yaddaş”, Milli mükafatına layiq görülmüşdür.

“Yeni Carçı” qəzetinin baş redaktoru olmuşdur.

Tanınmış yazıçı 27 mart 2012-ci ildə Bakıda vəfat edib.

## YARIMÇIQ ŞİKƏSTƏ

(*Hekayə*)

–O vaxt siz məni Həsənə ərə verəndə Cümşüdü də ürəyimdə apardım. Tale elə gətirdi ki, Həsən Qarabağ uğrunda gedən döyüşlərdə həlak oldu. Cümşüd isə sağ-salamat qayıtdı, indi məni rahat buraxmır. Neçə dəfə zəng edib, Sumqayıta gəlibdir. Əvvəlki məhəbbəti sönməyib, mənimlə evlənmək istəyir. Mən ona «yox» deyə bilmirəm, ana! Həsənin ruhu qarşısında da bilmirəm neyləyim?!

– Alın yazısına neyləmək olar, qızım? O qədər insan öz yarısını itirir, sonra ikinci dəfə ailə qurur. Onların içərisində xoşbəxt olanları, ailəuşaq sahibləri azdır bəyəm? Sən də onlardan biri. Burada nə günah işlədirsən ki?!. Vallah, Həsənin də ruhu səndən inciməz. Görünür, Allahdan belə məsləhət imiş...

– Bəs Nərminlə Elçin? Onlar necə olsun?

– Əgər Cümşüd belə şərt qoyursa, əlacımız nədir, qızını da, oğlunu da biz saxlarıq.

Bayaqdan ana ilə balanın söhbətinə gizli qulaq asan Məhəmməd kişi də söhbətə qarışdı.

– Əlbəttə, qızım, biz baxarıq uşaqlara.

Sərnişinlər yavaş–yavaş avtobusa yığışırdılar.

Çinar ağacının altında iri bir başını ehmalca oturduğu daşa vurub külünü boşaltdı. Sonra yenidən tənbəki ilə doldurub alışdırdı. Bir–iki qullab vurub boz tüstünü burun deşiklərindən havaya buraxdı, üzünü qənşərində oturmuş şairə tutaraq dərindən köks ötürdü:

– Bax oğul, beləcə, qarı da, mən də razılıq verdik ki, Nərminlə, Elçinə özümüz baxaq. Qız da söz verdi ki, hər ay uşaqların azuqələrini göndərəcək.

– Göndərdimi?

– Hə, oğul, qız uşaqlarını bizim üstümüzə atıb getdi. Toysuz–filansız gedib oturdu Cümşüdün evində. Adamın Allahı var, ilk vaxtlar kartofundan, lobusundan, yağından, pendirindən göndərərdi. Hərdən pul da gəlirdi. Uşaqların dəftər–kitabına, pal–paltarına xərcləyirdik o pulu. Ancaq, deyəsən, axır vaxtlar vəziyyətləri ağırlaşıb. Kömək, azuqə aradabir gəlir. Qızın qaynanası da deyinir ki, evdəki uşaqların azuqəsini çatdıra bilmirsiniz, niyə Sumqayıta azuqə, pul göndərirsiniz? Hə, oğul nə başını ağrıdım, xülasə, vəziyyət ağırdır, çatdıra bilmirik. Qarım da,uşaqlar da yaman korluq çəkirlər. Bizim təqaüdümüz ancaq çörəyə çatır, bir az da şora bəs eləyir. Uşaqlara həmişə şirin çay verə bilmirik. Günəbaxan yağında kartof qızardıb yedizdirəndə onların bayramı olur. Əyinbaşları nimdaşdır.

Çox vaxt yol xərcinin dərdindən məktəbə də qoymuruq getsinlər. Elə evdə oturub pəncərədən anaları gedən yola baxırlar.

– Bəs, analarının bu işlərdən xəbəri yoxdur?

– Niyə yoxdur?! Ancaq canıyanmışın əlindən nə gəlir ki?.. «Yox»un üzü qaradır, varı olsaydı, balalarına göndərməzdi məgər? Vallah mən onları qınamıram, zəmanəni qınayıram. Gör zəmanə bizi hara gətirib çıxartdı, nə hala, nə vəziyyətə saldı?.. Baisin evi dağılsın, hamı pis–yaxşı yaşayırdı. Bir tikə çörəyimiz, başımızın üstə damımız var-

dı. Kasıbı da, dövlətlisi də seçilmirdi. İndi necə? Bir para adamlar harınlıqdan partlayır, o biriləri də ehtiyacdan sürünürlər. Alimin, müəllimin, kasıb–kusubun maaşına bax! Aldığımız qəpik–quruş heç üç günə də çatmır. Gün–güzəranımız cəhənnəm əzabıdır, heç belə də dolanışıq olar? Elə məni götür, daha uzağa niyə gedirsən ki?.. Qarıyla qalmışıq iki yetimin əlində. Hərdən fikirləşirik ki, göndərək kəndə, analarının yanına. Onda da orada dava–mərəkə ərşə qalxacaq. Hamıdan çox da qaynana vayşivən salacaq ki, evdəkiləri dolandıra bilmirik, bu yetimləri niyə gətirib tökmüsüz mənim üstümə...

Məhəmməd kişi xeyli susdu. Ürəyində nəyisə götür-qoy edirdi. Əski parçasından olan dəsmalı ilə üzgözünü sildi və sonra ovcunda xışmalayıb pencəyinin yan cibinə qoydu. Kişi elə bil dərdini danışdıqca xeyli qocaldı. Mənə elə gəldi ki, Məhəmməd kişinin alnındakı qırışların sayı çoxaldı. O dərindən köks ötürərək sözünə davam etdi:

– Mən istəmirəm ki, nəvələrimə yetim desinlər, bağrım çatlar. Cümşüdü də qınamalı deyil. Üç uşaq özününkü, iki uşaq da bu yandan getsə, vallah, heç bilmirəm necə olar... Axı onlar da kasıbdırlar, özlərini zorla dolandırırlar. Yox, nəvələrimizin qayğısına özümüz qalmalıyıq.

– Axı necə? Hansı pulla?

Məhəmməd kişinin rəngi bozardı, qəlyan tutan əli titrəyirdi. Dediyim sözə peşiman olmuşdum.

– Ay oğul, elə mən də səhər–axşam özümə bu sualı verirəm "necə?" Qollarımı göyə açıb Allahıköməyimə çağırıram. O da köməyimə çatmır, bir imdad eləmir. O gözəgörünməz də qınanmalı deyil ha... Bu qaçqınlar, köçkünlər birdi, ikidi bəyəm? Elə hey deyirəm, Allah kərimdir, görünür, Kərimin də səbri çox dərindir, oğul...

Məhəmməd kişi sözünü qəfildən kəsib diqqətlə üzümə baxdı. Elə baxdı ki, bir anlığa çaşıb qaldım. Yalvarıcı, yazıq baxışların altında özümü itirən kimi oldum.

– Ay oğul, səhv etmirəmsə sən bayaq dedin ki, şairsən, qəzetdə işləyirsən. Deməli, sayılan, sözükeçən adamsan. De görüm, sənin mənə bir işdə köməyin dəyərmi?

– Buyur, əmi!

– Bilirsən, bala, mən Şuşalıyam. Cavanlıqda yaxşı səsim olub. İsa bulağında, Cıdır düzündə qohum–əqrabayla, dost–tanışla toplaşanda, məclis qurub yeyib–içəndə həmişə deyərdilər ki, Məhəmməd, sən Allah, bir ağız oxu. Mən də onların sözünü yerə salmazdım, oxuyardım. Səsim o dağlara, qayalara yayılıb əks–səda verərdi...

Məhəmməd kişi dərindən bir ah çəkdi, yaşarmış gözlərini əlinin dalı ilə sildi.

Kövrək, titrək səslə dedi:

– Mahnı qurtarandan sonra hər tərəfdən mənə əl çalar, «Mərhəba! Mərhəba!» deyə alqışlayardılar. İllər keçdi, nəsillər dəyişdi, mən də yaşa doldum. İndi nə Şuşa var, nə İsa bulağı, nə də Cıdır düzü. O məclislərin göynərtisi həsrətə dönüb sinəmi yandırır. Amma səsim keyfin istəyən kimi qalıb. Hərdən həsrət güc gələndə oxuyuram. Bir də görürəm böyüklükiçikli qonşular pəncərədən, qapıdan boylanıb mənə qulaq asırlar. Onların dediyinə görə, pis oxumuram. Hə, indi gəlim mətləb üstə. Axır vaxtlar bir fikir gəlib başıma.

– Nə fikirdir, Məhəmməd kişi?

– Səbr elə, hövsələni bir az bas, hamısını deyəcəyəm. Qonşumuzda bir çopur İdris var. O da mənim kimi qaçqındır, Kəlbəcərdən gəlib, miyanə səsi var. Əlinə bir saz alıb özünü gah bu toya, gah o mağara verir. Aşıqlara, müğənnilərə qoşulub əməlli–başlı pul qazanır. Mənim də bir kor qarmon çalan dostum var, neçə ildir onunla qaçqın çörəyi kəsirik. Onun da dolanışığı ağırdı, arvadı da özü kimi dünya işığına həsrətdir. Hə, ay oğul, nə başını ağrıdım, deyirəm, bəlkə onu da götürüb Bakı–Sumqayıt yolundakı kababxanalardan birində oturaq, o çalsın, mən də bildiyim mahnılardan oxuyum. Çox demirəm, qarımın, bir də nəvələrimin azuqə pulunu çıxartsam bəsimdir...

Məhəmməd kişi sözünü kəsib diqqətlə üzümə baxdı, deyəsən sözlərinin mənə təsir edib–etməməsini yoxlayırdı. Bir neçə dəqiqə baxdıqdan sonra baxışlarını üzümdən yığışdırıb başını aşağı saldı. Onun necə çətin nəfəs aldığını

aydınca hiss edirdim. Başını əlləri arasına alıb asta–asta hıçqırdı. Elə bil gözyaşlarını içərisinə axıdırdı. Mənə elə gəldi ki, hıçqırıqlar ağrıdılmış, qanadılmış üsyankar bir ürəyin son döyüntüləridir.

Sükutu yenə də Məhəmməd kişi pozdu:

– Təkcə yemək xərcidir məgər, o gün riyaziyyat müəllimi uşaqların qabağında nəvəm Elçini biabır eləyib...

– Neyləyib, nə deyib müəllim ona?

– Daha nə qalıb ki, deməsin. Uşağın üzünü it üzü kimi, o ki, var danlayıb. Axırda da deyib ki, atan–anan yanıma gəlməsə sinfə girmə! Elçin də ona cavab qaytarıb: «Atam Qarabağda şəhid olub, babamla nənəm qoca və xəstədirlər. Onlar məktəbə gələ bilməzlər!». Müəllim də cavabında deyib ki, bəs anan hanı, qoy anan gəlsin. Uşağı ağlamaq tutub, o ki var ağlayıb boşaldıqdan sonra: «Anam ərə gedib, kənddə yaşayır» deyib. «Ərə gedib? Uşaqlarını burada qoca ata–anasının üstünə atıb kəndə ərə gedən ananın övladından nə çıxacaq?..» deyərək, uşaqların qəlbini tamam qırıbdır. Səhərisi günü bacı–qardaş məktəbə getmək istəmirdilər. Bir təhər dilə tutub göndərdim. Heç bir saat keçməmiş qız ağlaya–ağlaya üstümüzə qayıtdı. Müəllimi onun corabını cırıq görüb, «ay qız, o nə corabdır geymisən? Məgər anan görmür səni yola salanda?» deyib. «Anam burada yoxdur, kəndə ərə gedib» qız ona cavab verib. O da təəccüblə: «Necə? Ərə gedib? Əcəb işdir, belə ananın qızı necə olacaq?» deyib. Oğul, onlar uşaqdırlar, qəlbləri şüşə kimi kövrəkdir. Niyə qırırlar axı? Bu tənələrdən qurtarmaq üçün əlacım bircə ona qalıb ki, Allahın mənə verdiyi səsdən istifadə eləyib nəvələri korluqdan qurtarım, əyin–başlarını, kitab–dəftərlərini təzələyim. O hesab müəlliminin də ağzını yumaram. O, həmişə tənə eləyir ki, Elçin riyaziyyatdan zəifdir, əlavə dərs keçmək lazımdır. Əlavə dərs də, bilirsən ki, müəllimlərin əlavə gəlir yeridir. Onların nə vecinə, bu uşaq qaçqındır, köçkündür, evsiz–eşiksiz yetimdir. Vallah, əgər işim düzəlsə qazandığım puldan aparıb ona da verərəm. Halal xoşu olsun, qoy uşağa əlavə dərs keçsin, təki nəvəm oxusun,

başqalarından geri qalmasın. Hər şey pulun başındadır, oğul, pul olsa yazıq qızı da sevindirərəm. Niyə o biri uşaqlar geyinib–kecinsinlər, mənim gül kimi balam onların yanında xar olsun, ürəyi sınsın?

Məhəmməd kişi yenidən susdu, sönmüş gəmişini təzədən odladı.

– Bu yaşımda oxumağa da xəcalət çəkirəm, amma neyləyim, dilənməyə əlim açılmır. Bəs mən çörək, yemək istəyən nəvələrimə nə verim? Bütün gümanım səsimədir, məni bada verməz. Mən ehtiyatla qocanın xətrinə dəyməmək üçün çəkinə–çəkinə dedim:

– Bəlkə, bir balaca pəsdən oxuyasınız, səsinizi eşidək.

– Nə deyirəm, ay oğul, day deyirsən oxu, mən də oxuyum. Ancaq bir az çəkinirəm, bəlkə heç bəyənmədin.

Məhəmməd kişi papağını çıxarıb dizinə taxdı, əlini qulağının dibinə qoyub oxudu:

**– Əzizinəm Qarabağ,**
**Dağ başında qara bax.**
**Niyə qismətim oldu,**
**Qara tale, qara baxt?!**

Mahnı yarıda kəsildi. Hər ikimiz susurduq. Bu susqunluq içərisində hardasa oxuduğum bir kəlam yadıma düşdü: «İnsan həyatı dəmirə bənzəyir. Əgər ondan iş üçün istifadə edərsənsə parıldayır, istifadə etmirsənsə pas atır. Ruhən güclü olan şəxs xoşbəxt və ya bədbəxt olmasına baxmayaraq öz məqsədinə doğru gedəcək...»

– Hə, necədir?... Səsim xoşuna gəldi?–Məhəmməd kişinin sözləri məni indiki gerçəkliyə qaytardı.

– Xoşuma gəlir də sözdür? Çox yaxşıdır, lap təzə qalıb, sən əsl xanəndəsən. Belə səslə ancaq qarabağlı oxuya bilər. Bəs indiyə qədər niyə susubsunuz, niyə üzə çıxmamısınız?

– Oğul, bunun uzun tarixi var. Bir kitabda oxumuşdum ki, Qarabağda bülbüllər də başqa cür oxuyur. Bu səsi

biz o yerlərin havasından, şır–şır axan soyuq çaylarından, dodaq donduran bulaqlarından, əlqərəz, təbiətin özündən əxz etmişik. Rəhmətlik Bülbül Şuşaya tez–tez gələrdi. Onların evləri Daşlı dərə deyilən yerin yaxınlığında idi. Bir dəfə ahıl vaxtlarında onu Şuşada gördüm. Mənə dedi ki, belə səslər beş yüz ildə bir dəfə yaranır. Xanın səsi kimi... Ancaq mənim bəxtim onda gətirdi ki, gedib İtaliyada oxudum, bütün dünya səsimi eşitdi, qiymətləndirdi. İndi bəziləri deyirlər ki, daha Bülbülün vaxtı keçib, qocalıb oxuya bilməz. Amma çox səhv edirlər. Mənim səsim korlanmayıb, təzə–tər qalıb.

– Demək istəyirsiz ki, siz də Bülbül kimi səsinizi qoruyub saxlamısınız? Sizin də səsiniz Bülbülünkü kimi...

– Ə tövbə! – Məhəmməd kişi sözümü tezcə kəsdi. Bülbülün səsinə səsmi çatar? Mən hara, Bülbül hara? Mən heç Bülbülün damcısı da ola bilmərəm. Söhbət səsi qorumaqdan düşdü, mən də dedim ki, olan səsimi qoruyub saxlamışam...

– Əlbəttə, Bülbülün öz yeri var, sənin də öz yerin! Çalışırdım ki, Məhəmməd kişinin könlünü alım:

– Səsiniz ürəyəyatandır, bir az da kədərlidir...

– Neçə illərdir bu kədər içimdə oturub. Onu çıxarmaq üçün oxumaq lazımdır.

Sürücü maşını çinarın altında saxlamışdı. Günəş qüruba meyilləndiyindən çinarın yarpaqları kölgələnmişdi. Amma sərnişinlərdən heç birisi avtobusdan düşməmişdi.

– Səsin çox gözəldir, mənim də xoşuma gəldi!

Bunu bir cavan oğlan söylədi.

– Kaş ki, bu şikəstəni axıra kimi oxuyaydınız!–deyə orta yaşlı bir qadın da gəncin sözünə qüvvət verdi.

– Mən də qarabağlıyam!–başqa bir sərnişin sözə qatıldı. Bu şikəstəyə qulaq asanda elə bil ki, Şuşaya getdim. Gəlin qayası, Cıdır düzü, Ərimgəldi, İsa bulağı gözlərimin önündən keçdi. Qarabağ dərdi ürəyimi parçaladı. Görəsən bir də o yerlərə gedə biləcəyikmi?.. Sürücünün də səsi gəldi:

– Oxu, oxu, Məhəmməd kişi, Qarabağ şikəstəsini axıra qədər oxumasan, qapıları açan deyiləm.

– Oxuyardım, amma Bakıya tələsirəm, gəl sən bizi ləngitmə.

– Hara belə tələsirsən?–Məhəmməd kişidən soruşdum.

– Bülbülün xatirə gecəsinə! Mən də onun haqqında bir neçə xatirəmi demək istəyirəm.

– Yaxşı imkandır, ürəyini boşaldarsan.

– Deyirəm, birdən təzə mahnılardan sifariş verərlər. «Meşəbəyi»ni, «Bala Nərgiz», «Xızı dağları»nı bilirəm. Amma indi oxunan mahnıları bilmirəm. «Qarabağ şikəstəsi»nin də sözlərinin hamısı yadımda deyil. Birdən deyərlər oxu, pərt olaram... Deyirəm, bəlkə sən mənə təzəli–köhnəli bir neçə mahnı sözlərini tapıb verəsən. Şikəstənin sözləri bayatılar kitabında var. O kitabdan məndə varıydı, heyif o köçhaköçdə Şuşada qaldı. İndi o kitab mənə hava kimi, su kimi lazımdır. Oğul, sən bu arzumu yerinə yetirsən, yerdən göyə qədər razı qalaram.

– Çatdıraram o kitabı sənə, mənim özümdə də var. Ünvanını ver, bu yaxın günlərin birində Sumqayıtda yaşayan bir işçimiz var, mahnıları da, kitabı da ona verərəm, sənə çatdırar.

Hava qaralanda avtobusumuz Bakıya çatdı. Mən qoca ilə vidalaşıb ayrılanda sürücünün dediyi sözləri eşitdim.

– Məhəmməd kişi, heç mənim maqnitafonuma qulaq asan olmadı, hamı sənin səsinə, söhbətinə qulaq asdı... Sağ ol, qoca...

Bir neçə gündən sonra Məhəmməd kişinin dediyi mahnıları və «Bayatılar» kitabını sumqayıtlı iş yoldaşıma verib ünvanı dedim. O da mənim xahişimlə Məhəmməd kişigilə gedib qapını döyür. Qapını qoca özü açır. "Sizə bir qovluq mahnı göndəriblər" deyir. Qoca isə "Sağ ol, ay oğul. Heç bilmirəm sənə və şairə necə minnətdarlıq edim. Allah sizi heç vaxt darda qoymasın!–deyərək minnətdarlığını bildirir.

***

Aradan bir ilə yaxın vaxt keçmişdi. Sumqayıta yolum düşməmişdi ki, Məhəmməd kişiyə də baş çəkim. Nəhayət ki, vaxt tapıb Sumqayıta getdim. Məhəmməd kişinin qapısını tapıb həyətə girdim. Qarımış tut ağacının altında yaşlı bir qadın oturmuşdu. O, başını qaldırmadan zəif səslə soruşdu:

– Kimi istəyirsən? Sənə nə lazımdır?

– Məhəmməd kişi, ya da xanımı!–dedim.

Qadın yaxşı eşitsin deyə, bir az da yaxına gəldi:

– Onlar daha burada olmurlar... Qarısı bir neçə ay bundan qabaq rəhmətə getdi, qoca özü isə bu yaxınlarda...

Mən həyəcanımı saxlaya bilmədim.

– Sən nələr danışırsan? Necə yəni ölüblər?

Görünür ki, səsimin tonu qadına xoş gəlmədi, üzünü turşutdu.

– Səni and verirəm Allaha, söylə görüm, niyə birdən–birə ikisi də dalbadal öldü?

– Kababxanaya getmişdi, oxumağa. Deyən lazımdır, ay kişi, sənin bu yaşında oxumaq harana yaraşır? Bütün günü evdə məşq eləyirdi. Bu neçə vaxtda biz də başdan–beyindən olmuşduq. Bu qədər də oxumaq, bu qədər də məşq etmək olar? Daha mahnı qalmamışdı, hamısını oxuyurdu. Pis də alınmırdı. O, «Şikəstə» oxuyanda, qonşular tökülərdi bizim bu kasıb həyətimizə. Bir kor qarmonçalan dostu vardı. Özü kimi o da qaçqın idi, adı da Bilal. Onu da götürüb gedirlər kababxanaya. Bilalın dediyinə görə kababxanaya çatarçatmaz kəlbəcərli bir aşıq əlində saz çıxıb onların qabaqlarına, mehriban görüşüb, hal–əhval tutaraq, zarafat da edir: «Məhəmməd kişi, deyəsən kefin sazdır, yeyib–içməyə gəlibsən?»

Məhəmməd kişi də ona cavab verir ki, rəhmətliyin oğlu, mən nə haydayam, sən nə hayda. Elə ki, Məhəmməd kişi bu sözləri deyir, İdrisin əhvalı pozulur, üzünü bozardaraq:

– Yoxsa kababxanaya konsert verməyə gəlmisən? Eşitməyibsən ki, iki qoçun başı bir qazanda qaynamaz?

Hara gedirsən get, amma bu həndəvərə dolanma, bura mənim sahəmdir. Burada mən oxuyuram, mən çalıram. Qandınmı?–deyib tutur Məhəmmədin yaxasından. Yazıq kişi boğazını çəkir ki, ümid yerim buradır. Evdə dolanışıq yoxdur, yetim nəvələrim ehtiyac içində yaşayır. Qarım da rəhmətə gedib, uşaqlar qalıb mənim üstümdə, qonşuya tapşırıb bura gəlmişəm. Aşıq eləviki ayağın bir başmağa dirəyib ki, başına yer qəhətdir? Gərək elə bura gələsən? Məhəmməd kişi də yalvarır ki, ikimiz də qaçqınıq, üstəlik qonşuyuq. Mənim tanıdığım yer elə buradır. Bu yaşımda dağa–daşa düşə bilmərəm. Gəl əl–ələ verib çörək pulumuzu qazanaq!

İdris gülüb onu dolayır:

– Qoca vaxtında oxuya bilirsən, amma oxumağa yer tapa bilmirsən. Sənin görkəminə baxan kimi deyəcəklər:– Bunun oxuduğu nə olacaq? Allah bilir, bəlkə də sən oxuyanda, məclisdəkilər dağılışacaqlar. Bu yaşda nə səs! Yatıb–yatıb həştadında zurna çalmaq istəyirsən?

Məhəmməd cinlənir:

– Bura bax ə, səsimlə işin olmasın. Bu səs Allah vergisidir, günaha batarsan!

Axırda İdris razılaşıb deyir ki, «Razıyam, bir halda ki, hazırlaşıb məşq eləyib, bu qədər yol gəlmisən, bugünlüyə səninçün keçirəm. Gir bu kababxananın otaqlarından birinə, ürəyini boşalt, qurdunu öldür. Amma bir də ayağınız buralara dəyməsin! Yoxsa səni də yanındakının halına salaram, qol–qola verib kor fərə kimi yerinizdə fır–fır fırlanarsınız!

Söhbətin bu məqamında qoca qadın qalxıb içəridən köhnə bir kətil gətirdi, mənim yanıma qoyub:–Otur!–dedi. Özü də yenidən daşın üstündə əyləşib sözünə davam elədi:
– Hə, oğul, uzun sözün qısası, Məhəmməd kişi qarmonçalan kor Bilalla birlikdə girirlər kababxanaya. Deyilənə görə yemək–içmək məclisi başlayanda Məhəmməd kişi əvvəl–əvvəl həyəcandan xeyli tər töküb. Çünki o elə yerlərdə oxumağa öyrəncəkli olmamışdı. Eşitdiyimə görə, həmişə Şuşanın səfalı yaylaqlarında, açıq havada, bulaq

başında oxuyarmış. Nə başını ağrıdım, elə birinci oxuduğu da «Qarabağ şikəstəsi» olub. Yazıq oxuduğu yerdəcə keçinib. Şikəstə də yarımçıq qalıb. Camaat elə bilib ki, qoca müğənni şikəstədən feyziyab olub uyuyub. Qarmonçalan da ucadan musiqiyə dəm verib, təkrar–təkrar çalıb ki, Məhəmməd səs versin... Yox a, görüblər ki, qoca ona səs vermir...

Qadın yaşarmış gözlərini əlinin dalı ilə silib susdu.

– Bəs sonra? Sonra nə olub?

– Nə olacaq ki? – qadının səsi titrədi. – Məclis pozulub, aləm birbirinə qarışıb. Günah zəmanədədir, oğul! Gör neçə ildir atəşkəsdir, torpaqlarımızı geri ala bilmirik. Yaşlı nəsil hamısı məhv olub gedir. Bu yaşda onu oxumağa yoxsulluq apardı. Adamlar öləndə yumruqlarını bərk–bərk sıxırlar, bükürlər. Amma Məhəmməd kişi öləndə qollarını qabağa uzadıb, əllərini geniş açıbmış, sanki kömək diləyirmiş...

Qadın sussa da mən öz içimlə danışırdım: «Daha neyləsin, səsi onun dadına çatmadı, yaman yerdə qoydu onu, gümanı son anında yenə açıla saxladığı əllərinə qaldı. Yəqin istəyib ki, heç olmasa son məqamda ehtiyacda olan nəvələri üçün insanlardan bir kömək alsın... Amma onu təkcə qocalıq öldürmədi, dərd öldürdü onu, qaçqınlıq dərdi, şəhid oğlunun, kürəkəninin dərdi, Qarabağ, Şuşa dərdi... Atəşkəs öldürdü onu. Dağ boyda dərdi vardı Məhəmməd kişinin. Bu dərd onu əydi, sındırdı. O, yaşamalı idi, onu Şuşanın dağları gözləyirdi.

– Bəs balaca nəvələri necə oldu?

– Babaları öləndən sonra qızı əri ilə kənddən gəldilər.

– Necə yəni öləndən sonra, məgər basdırmağa gəlməmişdilər?

– Yox, basdırmağa çatdıra bilməmişdilər, sən demə Cümşüdün də orda anası ölübmüş. Özlərini yeddi gündən sonra yetirdilər. Məhəmməd kişini biz qonşular Qarabağ qaçqınları ilə köməkləşib dəfn etdik. Qızı gəlib yeddisini verib getdi.

– Bəs uşaqları aparmadılar?

– Anası uşaqları kəndə aparmaq istəyirdi. Adamın Allahı var, ha əlləşdi, bir şey çıxmadı. Əri iki ayağını bir başmağa dirədi ki, əvvəlki şərtimizə əməl etməlisən. Bəs mən balalarımı neyləyim?–deyə, gəlin çox ağlayıb sızladı. Xeyri olmadı, əri dediyindən dönmədi. Axırda gəlin məcbur olub oğlunu internat məktəbinə verdi. Qızı da mən götürüb saxlayıram. Qaçqın adamıq, ailəmiz də böyükdür. Dedim, Allah ruzisini yetirər. Əlbəttə, çox çətindi, daha neyləyək, əlacımız nədi. Elə uşaqların nənəsini də bu balaların dərdi çərlədib öldürmədimi? Hey deyirdim at uşaqları analarının üstünə, sənin uşaq saxlayan yaşın deyil! Rəhmətlik isə deyərdi ki, elə demə, qızım bimürvətin əlinə düşüb. İstəmirəm ki, ər danlağında olsun. Birtəhər dözərəm, təki onun güngüzəranı xoş keçsin, ordakı balalarına baxsın. Mənciyəz də nə qədər nəfəsim gəlirsə, qocamla birlikdə bu balalara baxacağıq.

Daha dözə bilmədim, yaşarmış gözlərimi silib ayağa qalxdım. Yaxşısı budur mən gedim, – deyərək, həyət qapısına doğru addımladım. Qapıya çatanda elə bil kimsə qulağıma pıçıldadı: – Dön geriyə bax!

Başımı arxaya çevirəndə gözlərimə inanmadım. Həyətin ortasındakı daşın üstündə Məhəmməd kişi oturmuşdu. Əlini qulağının dibinə qoyaraq yarımçıq qalmış «Qarabağ şikəstəsi»ni oxuyurdu. Onun zil səsi balaca həyətdə dalğalanaraq havaya qalxır, qapı–pəncərəyə əkssəda verirdi. Deyəsən, məni qara basırdı...

***Bakı, 2011***

## TAMİLLA ŞƏFƏQ
(1940)



**Tamilla Şəfəq** (Ağayeva Tamilla Sultan qızı)–Tibb elmləri üzrə fəlsəfə doktoru, həkim, şair, nasir, publisist.

26 dekabr 1940- cı ildə Bakı şəhərində anadan olub. Şuşa şəhərində ibtidai təhsil aldıqdan sonra, Gəncə şəhərində orta məktəbi bitirib. Sonra Azərbaycan Tibb Universitetinin pediatriya fakultəsində təhsil alıb (1957–1963). Ali məktəbi bitirdikdən sonra Gəncədə 3 saylı uşaq məsləhətxanasında sahə həkimi işləyib.

1965-ci ildə Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda göz xəstəlikləri üzrə ixtisaslaşma keçmişdir. 1966–1968-ci illərdə Azərbaycan Tibb Universitetinin göz xəstəlikləri kafedrasında klinik ordinaturanı bitirib. 1969- cu ildə Azərbaycan Elmi–Tədqiqat göz xəstəlikləri institutunda aspiranturaya daxil olub, 1972-ci ildə aspiranturanı bitirdikdən sonra institutda əvvəlcə kiçik elmi işçi, sonra baş elmi işçi vəzifəsində işləyib. 1995-ci ildən tibb elmləri üzrə fəlsəfə doktoru, aparıcı elmi işçidir.

Diabetlik retinopatiyada gözün hemodinamik dəyişikliklərinin öyrənilməsi mövzusunda namizədlik dissertasiyasını (1989) müdafiə edib. Kataraktanın patogenezi və müalicəsi haqda yeni konsepsiya adlı doktorluq dissertasiyası uğurla başa çatdırıb. 2001-ci ildən Türk Dövlətləri Oftalmoloji Dərnəyinin Azərbaycan üzrə təmsilçisidir. MDB Oftolmologiya Assosiasiyasının İdarə Heyətinin üzvüdür. O, dəfələrlə beynəlxalq elmi konfranslarda Azərbaycanı uğurla təmsil etmişdir.

Kiçik yaşlarından bədii yaradıcılıqla məşğul olmuşdur. İlk şeiri 1956- cı ildə dərc edilmişdir. Şeirləri, he-

kayələri, məqalələri ilə dövri mətbuatda çıxış edir. Nur payı şeirlər toplusu (1998), Günəşi verin mənə (2006) kitabı kütləvi tirajla çap olunub.

Azərbaycan Yazıçılar Birliyinin üzvü (1998), Türk Dövlətləri Oftalmoloji Dərnəyinin Azərbaycan üzrə təmsilçisi (2001), MDB Oftolmologiya Assosiasiyasının İdarə Heyətinin üzvüdür.

2016- cı ildə Həkim–yazarların ilk poetik toplusu olan "HƏKİMLƏRİN SÖZ DÜNYASI" kitabındakı şeirlərinə görə "İBN–SİNA" və "CƏSARƏTLİ QƏLƏM" diplomlarına layiq görülüb.

## GÜNƏŞ GƏLİB QAPIMA

Günəş ayrılaraq öz orbitindən
Qapıma gəlidir gözləyir məni,
Enib torpaq üstə mavi göylərdən
Şəfəqlər qoynuna səsləyir məni.

Bilmirəm aynadan, eyvandan baxım
Hər yana nur dolub şəfəqlər yanır.
Bilmirəm qapıdan, bacadan çıxım,
Gün özü mənimlə qoşa dayanır.

Nuru, şəfəqiylə qamaşır gözüm,
Əlimlə toxunmaq istərəm ona,
Günəşin oduyla alışır üzüm,
Az qala varlığım od tuta yana.

Gözümdən getsə də bu axşam uzaq
Ələnib ruhuma qalır günəşim,
Göydə ulduz yanır, ay çıxır parlaq,
Yandırır qəlbimi günün atəşi.

## QISQANIR MƏNİ

Qızarır dan yeri, göy gülümsəyir
Salam mavi səma, sabahın xeyir.
“Bəsdir göyə baxdın, yaxın gəl deyir
Sevgilim səhərə qısqanır məni.

Günəş pəncərəmdən dolur içəri,
Gəzir saçlarıma sübh şəfəqləri,
Dərhal çəkib örtür tül pərdələri,
Günüm şəfəqlərə qısqanır məni.

Baharda çöllərə gəzməyə çıxdım,
Dərib çiçəkləri köksümə sıxdım,
Tərlanım uzaqdan baxdı, nə baxdı,
Sandım çiçəklərə qısqanır məni.

Sərin yellər sığal çəkdi üzümə,
Oxşadı saçımı, axdı köksümə,
Bülbülüm tez məni sızdı köksünə,
Duydum küləklərə qısqanır məni.

Qoşdum sevgimizə min gözəl şeir,
Vuruldu sözümə böyük bir şair.
Sevindim, bulud tək tutuldu nə sirr.
Bəlkə o şairə qısqanır məni.

## İNANDIRIN

İnandırın qadınları,
İnandırın sevginizə.
Dünya çıxar əlinizdən,
İnanmasa qadın sizə.

Elə edin varlığına
Sizi biganə sanmasın.
Elə edin eşqinizi
Heç bir kəsə qısqanmasın.

Sevin onu aşiq kimi,
Uca tutun xatirini,
Əziz bir dost, dayaq bilib
Sizə açsın hər sirrini.

Çalışın bir baxışından
Oxuyun hər diləyini.
İstəyirsiz sirdaş olsun,
Əzizləyin ürəyini.

İnandırın etibara,
İnandırın eşqinizə.
Ucalarsız zirvə–zirvə,
Qadın dayaq olsa sizə.

O, özünü sevdirməkçün.
Minər bir gün yel atına,
Çıxar gedər qəlbinizdən,
Elinizdən, obanızdan
Çıxar gedər yer altına,
Qoyar sizi yana–yana.



## PƏNCƏRƏDƏN DÜŞƏN İŞIQ



Uca bir təpə üstündən
Baxıram doğma şəhərə.
Baxıram xəzərlə dolu
Günəşlə dolu evlərə.

Yaraşıqlı binaları
Gözlərim arayıb bir–bir,
Sıra–sıra evlər içrə
Sən olan binanı gəzir.

Gözlərimlə arayıram,
Xəyalımla tapdım artıq.
Yəqin sən də hiss edirsən
Pəncərəndən düşür işıq.

Pəncərəndən düşən işıq
Nə aydı, nə də günəşdi
Gözlərimin işığıdı,
Qəlbimdən doğan atəşdi.

Varlığımın işığıdı
Səni nura qərq eləyən,
Ürəyinə axıram mən,
Diləyinə axıram mən.

## FIRLANIRAM

Mən də yer kürrəm tək hey fırlanıram,
Məndə zaman–zaman alovlanıram.
Yanır atəşlərdə arzum–diləyim,
Ruhum üsyan edir, yanır ürəyim.
Bəzən təngə gəlib, düzü–dünyadan
Qaçmaq istəyirəm düzü, dünyadan.
Qaçmaq istəyirəm, qaça bilmirəm,
Uçmaq istəyirəm, uça bilmirəm,
Odlu düyünləri aça bilmirəm.
Qaçmaq istəyirəm özüm–özümdən,
Çıxa bilməyirəm ancaq sözündən.
Baxışın bir anda haqlayır məni,
Sözün kəmənd olub saxlayır məni.
Yenidən həyata dönüb heçlikdən,
Odlu nəfəsinlə odlanıram mən.
Sıxılıb sözlərin göz qanadına,
Uçuram göylərə söz qanadında,
Günəş tək başına fırlanıram mən.

## HƏR GÜN YENİDƏN

Meh olub əsirəm sınan budaqda,
Uçur qəlbim yerə düşən yarpaqda,
Düşüb göyəririrəm ana torpaqda
Su tək duruluram hər gün yenidən,
Sənə vuruluram hər gün yenidən.

Bir dəstə tutmuşam arzularımdan,
Sənə dünya boyda etibarımdan,
Keçdikcə həyatın sınaqlarından
Su tək duruluram hər gün yenidən,
Sənə vuruluram hər gün yenidən.

Baxıram üzünə mələk görürəm,
Başının üstündə şəfəq görürəm,
Sinəndə dağ boyda ürək görürəm
Su tək duruluram hər gün yenidən,
Sənə vuruluram hər gün yenidən.

Hərdən qaranquş tək uçur xəyalım,
Ona qanad verir şirin vüsalın.
Canlanır gözümdə hüsnü–camalın
Su tək duruluram hər gün yenidən,
Sənə vuruluram hər gün yenidən.

Sənə vurulmamaq asan deyildir,
Sənə vurulmayan insan deyildir,
Gizlətmə bu sirri dünyaya bildir,
Su tək duruluram hər gün yenidən,
Sənə vuruluram hər gün yenidən.

# HEÇ NƏ İTMİR

Heç nə itmir, məhv olmayır.
Dünya görmüş ataların
Sözlərində səhv olmayır:
Heç nə itmir, məhv olmayır.

Bəzən kədər alır məni:
İnsan ömrü nə qısadır.
Dostum, ancaq sən etmə qəm
Əgər bir gün köçüb getsəm.

Çiçəklərin xoş ətrində,
Qızıl gülün al rəngində,
Gur çayların ahəngində,
Günəşin sübh şəfəqində.

Qızımın qara gözündə,
Oğlumun şirin sözündə,
Bir də sənin ürəyində,
Əbədi iz salacağam,
Mahnı olub qalacağam.

Heç nə itmir, məhv olmayır
Dünya görmüş babaların
Sözlərində səhv olmayır:
Heç nə itmir, məhv olmayır.

**RAMİZ MÖVSÜM**
(1940)



**Ramiz Mövsüm** (Əliyev Ramiz Mövsüm oğlu)–həkim, şair.

27 mart 1940-ci ildə Azərbaycanın Ağdam şəhərində anadan olmuşdur. Doğma şəhərdə orta məktəbi bitirdikdən sonra əmək fəaliyyətinə başlamışdır. 1957–1960-cı illərdə Bakı Neftayırma zavodunda operator işləmişdir.

Sonra N. Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə–profilaktika fakültəsində təhsil almışdır (1961–1967).

Həkimlik fəaliyyətinə Ağdam Rayon Mərkəzi Xəstəxanasında həkim–onkoloq kimi başlamış və elə həmin il iş yerini dəyişmiş, Dəvəçi rayonunda işləmişdir (1967). Bir müddətdən sonra yenidən Ağdama qayıtmış və cərrah ixtisası üzrə fəaliyyətini davam etdirmişdir (1972).

Daha sonra Bakıda 2 saylı klinik xəstəxanada ordinator–həkim işləmişdir (1972). Və, cərrah ixtisası üzrə fəaliyyətini davam etdirməyə başlamışdır.

Ədəbi fəaliyyətə hələ gənc yaşlarından başlayan Ramiz Mövsüm 1957-ci ildə dövri mətbuatda vaxtaşırı çıxış edir.

1986- cı ildə AYB–nin üzvüdür.

"Fidan", ""Örümün gündüzündə", "Anam, atam", "Günay", "Balaca Elşadın dostları", “Möcüzə” və s. kitabların müəllifidir. Hal–hazırda “Məhəbbət abidəsi” kitabı çapa hazırlanır.

## QARQARÇAY

Nəğməylə gedərdin çöllərə, düzlərə,
Bürküdə çırpılıb dəyərdin üzlərə,
Bir mavi duyğutək axardın gözlərə,
Gecələr suyunda yuyunmur daha ay,
Qarqarçay.

Göy ləpən döyərdi o yalın qaşını,
Haçandır görmürük yazını, qışını.
Hörgüyə hörürlər qara çay daşını.
Bəs niyə gurlayıb salmırsan hay–haray,
Qarqarçay.

Qoynundan balıqlar ox kimi hullanmır.
Yanında alçalar, əriklər ballanmır,
Süsənlər, sünbüllər suyuna sallanmır.
Gözəllər vurmurlar dövrəndə ta halay,
Qarqarçay.

Kim sənin qəlbini ovladı, bilmirəm,
Kim sənin başını tovladı, bilmirəm,
Nə deyir bu yerin övladı, bimirəm;
Bilirəm: bağ–bağça suyundan almır pay,
Qarqarçay.

Ha desəm, boşalmaz ürəyim, doludur…
Uzanan bu ağ yol bir nağıl yoludur,
Boş məcran torpağın qurumuş qoludur,
Sən yoxsan, har yanı qarsıbdır isti yay,
Qarqarçay.

Həsrətdən bu yerin sinəsi dağlıdı,
O səni anmaqda həmişə haqlıdı.
Adın ki, əzəldən adıyla bağlıdı,
Dolaşdım aləmi, tapmadım sənə tay,
Qarqarçay!

## BİR HOVUZ VAR HƏYƏTİMİZDƏ

Neçə ildir bir hovuz var həyətimizdə,
Gecə–gündüz nur çilənir fəvvarəsindən.
Düşür onun söz–söhbəti həmişə bizdə,
Qış da gəlir, yığışmırıq yan–yörəsindən.

Düzülübdür yaxasına ağ–ağ qönçələr,
Elə bil ki, göy çəməndə ağ güllər açıb.
Səhər yeli göy suları ətirə bələr,
Ona görə dörd bir yana su ətir saçıb!..

Yay ayları qayğı ilə saxlanılıbdı
Bu hovuzda gül qisməti, ağac ruzusu.
İsti düşüb… hər tərəfi bürkü alıbdı,
Vaxtaşırı dəmir novla axır bağa su.

Göy üzündə alovlanır Günəş ocaqtək,
Suyun ayna sinəsinə od ələnibdir.
Daş ovcuna yığılmayıb sısqa bulaqtək,
Bu hovuzun var–dövləti sillələnibdir!..

O darıxar tənha olsa, tək qalsa bir gün,
Nar xoşəyi tökülübdür divarı üstə.
İsti düşüb… Göyərçinlər sərinlik üçün
Uçub gəlir qucağına hey dəstə–dəstə.

Balıqlara dar qəfəsdir hovuz elə bil,
(Daş deyilik, ürəyimiz tük kimi nazik…)
Onun içi qızılbalıq meydanı deyil,
Şəffaf sulu o hovuzun balığı bizik!..

Sivrilibdir fəvvarəsi gümüş nizətək,
Qaranlığın köynəyini geşib keçibdir!
Bu zərbədən «qığılcımlar» səpələnərək
Göy suların sinəsinə düşüb, keçibdir!..

Gün doğanda mavi suyun dodağı qaçar,
Qəhərlənər, kədərlənər dumanda, sisdə.
Bar–bəhərli ağacların boyları uca…
Neçə ildir bir hovuz var həyətimizdə!...

## QARABAĞDA PAYIZ

Bu torpağın üzərinə çöküb qızartı,
Dan yerində sanki böyük tonqal çatıblar…
Xan çinarın yarpaqları elə qızardı,
Zənn elədim hər birini oda tutublar!..

Həsrətilə boylanıram üfüqə sarı,
Baxır soyuq təbəssümlə payız günəşi.
Başlarına çadır tutub ot tayaları,
Yel–biçilmiş zəmilərdə qovur küləşi.

Ağaclarda əl–ətəyə qonubdur quşlar,
Təzədənmi yarpaqlayıb çılpaq budaqlar?..
İldırımın od–alovlu yürüşü başlar,
Əl tutuşub nəhənglərtək dayanıb dağlar!..

Düz–dünyanı çulğalayan, tutan xəzəli
Ana torpaq geyinibdir köynəyi kimi.
Budaq qırıb, dinc durmayıb kiminsə əli,
Sınıq yeri təbiətin göynəyi kimi!..

Topa–topa buludlara qayalar balınc,
Ovuq–yarğan qorxu çəkib çay daşqınından.
Elə bil ki, soyuq bulaq bir sivrpi qılınc,
Sıyrılaraq o çıxıbdır öz daş qınından!..

Tutulubdar intəhasız göylərin üzü,
Zirvələri, gədikləri çovğun, qar alıb.
Uzaqlaşıb gözdən itən qoyun sürüsü–
Sanki çaylaq daşlarıdır–ağlı, qaralı.

Düzə baxdım… Bir həzinlik alıb hər yanı,
Bəhrə verib, yüngülləşib pambıq kolları.
Yel sürətli maşınların yüklü karvanı
Gecə–gündüz əldən salıb, yorub yolları.

İşdən sonra evlərinə dönən qızların
Başı üstdən duman keçib, çən ötüşübdür.
Talada göl sahilinə enən qazların
Suyun ayna sinəsinə şəkli düşübdür.

Yerin üstdə donub ağac, buzlayıb daş da,
Yerin altda tükənməyən hərarət vardır.
Qarabağa qonaq gəlir payız da, qış da,
Amma onun ürəyində hər vaxt bahardır!..

## DOSTUM–QARDAŞIM

*Özümə qardaş bildiyim istedadlı şair dostum*
*Tofiq Ağayevə ithaf edirəm.*

Yurd getdi… Bilmədi yol alsın hara;
Gecələr yuxusu çəkildi dara,
Əl tutdu aclara, imkansızlara,
Fikirdən saralıb solan qardaşım.

Dərviş tək dolaşıb gəzdi hər yanı,
Yazıq qaçqınların gördü halını,
El yolunda getdi olub–qalanı,
Hamının qeydinə qalan qardaşım.

Dedi: "Torpağımız dardadı hələm,
Gərək düşmənlərin bağrını dələm!.."
Bir əlində süngü, birində qələm,
Yağıdan intiqam alan qardaşım.

Vətənə bağlıdı imanı, dini,
Əsir torpaqların edir zikrini,
Hər bir zavallının çəkir fikrini,
Qəlbi dərd əlindən talan qardaşım.

Kindən, küdurətdən uzaqdı, uzaq;
İnsanlara sevinc bəxş edir ancaq,
Böyüklə böyükdü, uşaqla uşaq,
Hər kəsə mehrini salan qardaşım.

Alnında Tanrının yazdığı yazı,
Nurla yoğrulubdu onun mayası,
İşıqdı, hər yana düşür ziyası,
Arzusu çırağban olan qardaşım.

Əzəldən ədalət, haqq carçısıdı,
Doğmadan seçməyir özgəni, yadı;
Hər yerdə hörmətlə çəkilir adı,
Ləyaqətlə yaşa dolan qardaşım.

Zəmanə onu çox incidib, sıxıb;
Amma ki, sabaha ümidlə baxıb,
Bütün döyüşlərdən üzüağ çıxıb,
Həmişə qələbə çalan qardaşım!..

## ZAKİR AĞDAMLI
(1946)



**Zakir Ağdamlı** (Əliyev Zakir Hüseyn oğlu) – həkim, şair, ictimai xadim

19 oktyabr 1946- cı ildə Azərbaycan Respublikasının Ağdam rayonunun Papravənd kəndində dünyaya göz açıb. 1964- cü ildə orta məktəbi bitirərərək Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olmuşdur. 1972-ci ildə həmin institutun müalicə–profilaktika fakultəsini bitirərək əmək fəaliyyətinə başlamışdır. Əsas əmək fəaliyyəti Ağdam Rayon Mərkəzi xəstəxanasının terapiya şöbəsi ilə bağlıdır. "SSRİ Səhiyyə əlaçısı" kimi o şöbəyə 1975–1994- cü illərdə rəhbərlik etmişdir. Uzun illər rayonun baş terapevti olmuşdur. Əmək veteranıdır.

Ədəbi yaradıcılığa 1965-ci ildən başlayıb. Ancaq müəyyən səbəblərdən yazıları dövri mətbuatda gec çap olunub.1996-cı ildən Azərbaycanımızın böyük şairi Məmməd Arazın xeyir–duası ilə şeirləri qəzet və jurnal səhifələrində müntəzəm çap olunmağa başlayıb. O cümlədən "Ulduz","Mingəçevir leysanı","Dirili Qurbani","Ədəbi Şirvan", "Müasir Molla Nəsrəddin" jurnallarında,eləcə də "525-ci qəzet"," Təzadlar", "Qarabağ","Həftə içi","Milli ordu", "Ədəbiyyat qəzeti", "Respublika","Bütöv Azərbaycan", "Türküstan","Haqqın sədası" və s. qəzetlərdə, coxlu almanaxlarda şeirləri ilə tez–tez oxucuların görüşünə gəlib.

"Azad qələm", "Xaqani", "Məclisi–üns", "Aşıq Dirili Qurbani" ədəbi məclislərinin üzvüdür.

1999-cu ildə "Könlümün aynası" və 2011-ci ildə "İlahi, dağlara qovuşdur məni" kitabları işıq üzü görüb. Bir neçə kitab isə öz nəşrini gözləyir.

Azərbaycan Yazıcılar Birliyinin, Azərbaycan Aşıqlar Birliyinin, DAK–in, Ümumdünya Türk Xalqlari Assambleyasının, Respublika Ağsaqqallar Şurasının üzvüdür. Sülh

səfiridir. Ədəbi və ictimai fəaliyyətinə görə “Qizil qələm”, ”İti qələm”, ”Azərbaycan bayrağı”, ”İmam Əli”, ”Milli iftixar”, ”H.B.Zərdabi”, ”H.Z.Tağıyev” və başqa mükafatlara layiq görülüb.

**BÜLBÜL**

Ruhum canımdan ayrılır
Sanki sən ötəndə, bülbül!
Yurdsuz,Vətənsiz sayılır
Elə bil Vətəndə bülbül!

Sən canlı təbiətmisən?
Novruzgülü, gülxətmisən.
Mənə cəh–cəh öyrətmisən,
Kaş dönəydim kəndə, bülbül!

Səslə nəgmə “toxuyursan”,
Qaratikan qoxuyursan...
Yaman qəmli oxuyursan,
Didərginsən sən də, bülbül?

Daglar duman, sıralanma...
Üzümlüklər uralanma.
Məhv olarsan, aralanma,
Bu dumanda, çəndə, bülbül!

Yayda qəfəsdə yanacaq,
Aç burax, qışda donacaq.
Gedib ttikana qonacaq
Bir çöldə, çəməndə bülbül!

ATƏT–ə ümid baglayaq?
Vaxt gəlmir coşaq, çaglayaq.
Gəl, qoşa duraq, aglayaq,
Sən də, bülbül, mən də, bülbül!

Qartalı daşdan aparır,
Zakiri huşdan aparır.
Aglımı başdan aparır,
Bagda gül əməndə, bülbül!

## ŞUŞA HARAYI

Zövq aldım adından, "Xəlfəli bulaq",
Doymadım dadından, "Xəlfəli bulaq".
Mənsuru, Yusifi, birdə Zakiri,
Silmə ha yadından, "Xəlfəli bulaq"!

Şuşamın bagrından çıxan "Şor bulaq",
Kirsin ətəyindən axan "Şor bulaq".
Dogma qucagına qayıdacayıq,
Çıxmaz əllərimdən yaxan, "Şor bulaq".

Şuşa ətrafında kənddi Zarıslı,
Ruhuma şəkərdi, qənddi–Zarıslı.
Bilir qucagına qayıdacayıq,
Müntəzirdi, himə bənddi Zarıslı...

Şəffafdır, durudur "İsa bulagı",
Qədimdir, uludur "İsa bulagı".
Ruhum oradadır, hayanda olsam
Gözümün nurudur "İsa bulagı"!

Payız, qışsan, yazmısanmı, "Saxsı bulaq"?
Xəstəmisən, sagmısanmı, "Saxsı bulaq"?
O qoynunda kecirdiyim xoş günləri
Yaddaşına yazmısanmı, "Saxsı bulaq"?

De, suyun gəlirmi, "Daşaltı bulaq"?
Duman yüksəlirmi, "Daşaltı bulaq"?
Elliklə gələrdik istirahətə...
Yadına gəlirmi, "Daşaltı bulaq"?

Kirs dagı hələ də dumandı, “Turş su”,
Gələrik qoynuna... gümandı, “Turş su”!
Cəhənnəm əzabı – sənsiz yaşamaq,
Küsmə yurddaşlardan, amandı, “Turş su”!

## DOĞMA YURDUM AZƏRBAYCAN!

İgidlərim kəhər atlı,
Cavanşirli, Atropatlı.
Tarixi var min bir qatlı,
Doğma yurdum, Azərbaycan!

Odlar yurdum yanar şamdı,
Şərq qapısı, qızıl camdı.
İlham pərim, öz muzamdı,
Doğma yurdum, Azərbaycan!

Ruha məlhəm neçə dağım,
Bol–bəhrəli bağça–bağım.
Nur çeşməsi hər bulağım,
Doğma yurdum, Azərbaycan!

Altı–üstü qızıl, zərdi,
İstedadlı zənən, mərdi.
Mübarizlər çəkir dərdi,
Doğma yurdum, Azərbaycan!

Aləmdir ana qucağın,
Bir cənnətdir hər bucağın.
Doqquz iqlim bel qurşağın,
Doğma yurdum, Azərbaycan!

## BƏNÖVŞƏ

*(Dirili Aşıq Qurbaniyə ehtiramla)*

Qurbaninin dühasıyla tanındın,
Yüz illərdi qəlbi viran, bənövşə!
İlk baharla bir sırada anıldın,
Cüt bacısız: danaqıran, bənövşə!

Zəfər donlu avazına gəlmişəm,
Ümid ilə bu yazına gəlmişəm.
Od ürəklə pişvazına gəlmişəm
Qəlbdə inam, əldə Quran, bənövşə!

Könlüm safdı, xeyri şərə qatmayıb,
Bir arzum var, hələ başa çatmayıb.
Heç bir zaman ürəyimə yatmayıb,
Qeybət qıran, ara vuran, bənövşə!

Yaz könlümdə çiçəklə gül qarışar,
Novruzgülü qızılgüllə yarışar.
İlk baharda kol dibində sayrışar
Nərgiz ilə qoşa duran bənövşə!

Zakir, sənin hörmətini saz bilir,
Zənn eləmə qiymətini az bilir.
Səni görcək artıq gəlib yaz, bilir,
Kol dibində boynun buran, bənövşə!

## AĞDAM

“Ağdam Qarabağın toy otağıydı”,
Mən elə bağlıydım əzələ, Ağdam!
İgidlərin saymaq ilə qurtarmaz,
Bənzər bir qənirsiz gözələ, Ağdam!

Yuxum qaçıb, gözümdə dan sökülüb,
Süfrəmizin bərəkəti çəkilib.
Nitqim batıb, çinar qəddim bükülüb,
Qovuşaq, ruhumu təzələ, Ağdam!

Zakir də arifdir, düşünər dərin,
Dərdindən dəlidir, yoxdur xəbərin.
Qəsdən öldürüldü sərkərdələrin,
Bağların büründü xəzələ, Ağdam!

## XIZIDA

Kəsilər hər bir qapıda
Cəfərə qurban – Xızıda.
Müşfiqimin ruhu yaşar,
Gözəldi hər yan Xızıda.

Dağlarında hər gülü var,
Təravətli tər gülü var.
Zeynəb kimi bülbülü var,
Dinclik tapar can Xızıda.

Yaylağınsa Altıağac
Yuxa, kətə bişirər sac.
Kabab ilə doyular ac,
Xoş keçər dövran Xızıda.

Pendir–lavaş kəsə–kəsə
Natiqlər gələr həvəsə.
Şairlər verər səs–səsə,
Coşar hər insan Xızıda.

Zakir də tezdən oyanır,
Üz tutub haqqa dayanır.
Müşfiqin adını anır,
Tüm Azərbaycan Xızıda!

## OCAQ DAŞIM, YURD YERİM!

Yurdum–cənnət, məlhəm idi havası,
Qulağımdan getməz bir an nəvası.
Hər bir quşa əzizdir öz yuvası,
Qardaşımsan, ocaq daşım, yurd yerim!

Qarabağım bir cənnətdi, necoldu?
Düşmənlərlə əlbir olan bic oldu.
Çox gecikdi vüsal, yaman gec oldu,
Sirdaşımsan, ocaq daşım, yurd yerim!

Haqqdan gələn əmanətdi, Qarabağ,
Şuşa taclı bir cənnətdi, Qarabağ.
Sənsiz olmaq nə dəhşətdi, Qarabağ!
Yaddaşımsan, ocaq daşım, yurd yerim!

## AĞDAM

*“Ağdam – qara taleli ağ şəhər!” Vilayət Quliyev*

Sevənlər həmdərd olacaq,
Gücüm haya dərd olacaq.
Cavab elə sərt olacaq,
Sənə qurban canım, Ağdam!
Ay şöhrətim, şanım, Ağdam!

Hay vurnuxub yorulacaq,
Qəti cavab sorulacaq.
Yeni şəhər qurulacaq,
Sənə qurban canım, Ağdam!
Ay şöhrətim, şanım, Ağdam!

Düşmənə qarğış olaram,
Çən, çiskin, yağış olaram.
Qoynunda qar, qış olaram,
Sənə qurban canım, Ağdam!
Ay şöhrətim, şanım, Ağdam!

Satqınlıq meyvəsin daddım,
Baxdım gendən maddım–maddım.
Bax, gəlirəm addım–addım,
Sənə qurban canım, Ağdam!
Ay şöhrətim, şanım, Ağdam!

Zakirəm, təşnəyəm, acam,
İgidlərinə möhtacam.
Düşmənə qan udduracam,
Sənə qurban canım, Ağdam!
Ay şöhrətim, şanım, Ağdam!

## BAYRAĞIM!

Bu yol hünər yoludur,
Örnəklərlə doludur.
Ölməzlik simvoludur,
Gerbim, himnim, bayrağım!

İstiqlalım dönülməz,
Yurdun odu sönülməz.
Ucalıbdır, enilməz
Gerbim, himnim, bayrağım!

Zəfər çal, Milli Ordum!
Sənlə fəxr edir yurdum!
Səninlə qurur duydum
Gerbim, himnim, bayrağım!

## RAFİQ TAĞI
(1950–2011)



**Rafiq Tağı** (Tağıyev Rafiq Nəzir oğlu, həkim, şair, nasir, publisist, 1989-cu ildən AYB-nin üzvü) 5 avqust 1950-ci ildə Azərbaycanın Masallı rayonunun Xoççobanlı kəndində anadan olub. 1966-cı ildə orta məktəbi, 1972-ci ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsini bitirib.

1968-ci ildə ilk şeiri Masallının "Çağırış" rayon qəzetində, "Fərqanə" adlı ilk hekayəsi isə 1977-ci ildə "Ulduz" jurnalında çap olunub.

Azad Yazarlar Ocağının üzvü və sədri olub.

"Yanaşı ulduzlar" (1987), "Düşmənimin xatirinə" (1991), "Pozitiv. Neqativ" (1996), "Şahzadə Dipendranın məhəbbəti" (2005), "Ucaboy liliput" (2005), "Gənc qraf Kenterberiyski" (2006) və başqa kitabların müəllifidir.

2011-ci il noyabrın 23–də dünyasını dəyişib.

Üç övladı var.

(Mənbə: "Azərbaycan yazıçıları", Bakı, "Nurlar", 2011)



### MÜHARİBƏDƏ ŞOPEN PRELÜDLƏRİ

Qarabağın
sarıtaxta evlərindən
köçəköçdədi
adamlar–
aypara
it səsləri altında.
Şopen prelüdləri
çalınır

divar radiolarında...
İnanmaram
ölümlü ola
Şopen prelüdləri altında
faciələr.
İnsanlar
evlərdən uzaqlaşdıqca,
tək qalırdı
Şopen prelüdləri.

***6.I.1991***

## İOSİF BRODSKİDƏN GƏTİRİLƏN SİTATLA YAZILAN ŞEİR

Tiranları qınamırdı.
Həmçinin–
“Tiran qaniçən
deyil artıq”, –
deyirdi
İosif Brodski.
Yəqin odur ki,
mən də qorxmuram
ömrü göz önümdə
keçən tiranlardan.
“Bəni–adəm” deyirəm,
hətta
“baba”, “əmi” deyirəm
onlara.
Tarixçələrini amma
triller kasetləri kimi
saxlamışam.
Bir gün özüm də
köçəcəyim Avropada,
yəni vətənində
həmişəqoca Papaların,
hey onlardan
danışacağam

gözlərinin rənginə
varmadan
sevəcəyim qadına.
Bununla da,
paralel olaraq,
qədim tiranları
salacağam yadına.

***29.I.1998***

## AVROPADAN GƏLƏN PATRİSİYA KAAS

Avropadan gəlib
Asiyada konsert açan
Patrisiya Kaasa
qulaq asa–asa,
“məyusam”, deyirəm
hamıya.
Yavaş–yavaş
deyinirəm də ki,
Avropadan
Asiyaya
gəlməyəydi kaş.
Avropa üçün
məqbul bədəni
heç də
mədəni görünmürdü
Asiyada.
Avropadan gələn
Patrisiya Kaas
ağıllandı
əlbət
Asiyadakı konsertində
və gördü nəhayət,
Avropadakı şöhrət
Asiyada dağılandı.

***20.05.1992***

## FƏXRƏDDİN DAVUD
(1950–2018)



**Fəxrəddin Davud** (Fəxrəddin Firudin oğlu Davudov, həkim, şair) 12 avqust 1950-ci ildə Göyçay şəhərində dünyaya gəlib. Orta məktəbi bitirdikdən sonra 1968-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə–profilaktika fakultəsinə daxil olub. 1974-cu ildə təhsilini başa çatdıraraq həkim–psixiatr ixtisası almışdır.

Tələbəlik illərindən Davud Qərib imzası ilə tanınmış, yüzlərlə şeirin və məqalənin müəllifidir.

2005-ci ildə ''Duyğu yükü'' şeirlər toplusu işıq üzü görmüşdür.

İstedadlı şair 6 sentyabr 2018-ci ildə vəfat etmişdir. Doğulduğu  Göyçay şəhərində dəfn edilmişdir.

Üç övladı var.

### OLACAQ

Bu yol sənin yolun deyil, –
Əsli yanıb kül olacaq.
Kərəm kimi bir bəy oglu
Yad evində qul olacaq.

İnadından dön, ay bala,
Çox yanırsan, sön, ay bala.
Mən kiməm ki, sən, ay bala...
Allah desə, ol, olacaq.

Gəl bəxtinə yaman demə,
Olacağa güman demə.
Bir qətrəyə ümman demə,
Qətrə–qətrə göl olacaq.

Dəli Məcnun bəy olmadı,
Xəstə Leyli oy olmadı.
Qərib kimə tay olmadı?!
Axır bildi kal olacaq.

***

Sənin məndə nəyin varsa, almısan...
Dəvəsini itik bilən ərəbəm.
Taleyimi tufanlara salmısan,
Bu yollarda azıb gələn ərəbəm.

Bir iynənin ucu boyda yuxuya
Gözlərimi dikirəm ki, yatam mən.
Sənin məndə nəyin vardı almısan,
Bir yuxuma dəymə indi, dəymə sən.

Nəyin qalıb... bu ocaqda küldü kül,
Ocağı da, külünü də al apar!
Sənin məndə nəyin vardi almısan...
Ürək qalıb, gəl onu da al apar.

## BƏS İDİ QƏLBİMƏ BİR ŞİRİN SÖZÜN...

Bəs idi qəlbimə bir sirin sözün,
Bəs idi saçıma əlinin nuru.
Yatıb uşaq kimi xumarlanardım,
Yuxular görərdim aydın dupduru.

Nə sözün könlümü oxşatdı mənim,
Nə əlin saçımda alışıb yandı.
Bir xəyal içimdə yaşadı mənim,
Bütün xəyallara qovuşub yandı.

Kim bildi nə imiş ürəyimdəki?–
Bir qan laxtasıymış tac damarımda.
Yüz dəfə, min dəfə şəklini çəkin,
Daha nə görünür qırc damarımda?

Daha istəmirəm validolu mən,
Bir damcı qayğıya ehtiyacım var.
Oturub düşündüm səni bayaqdan,
Sənə də dərmanmış demə qayğılar.

Demə umursanmış sən də nə isə, –
Keçirmis könlündən nəvaziş, qayğı.
Neyləyək mən kükrək bir dənizəmsə,
Sən də ümmanlarda üzən qağayı.

## ANA, DARIXMIŞAM!

Ana, darıxıram əllərin üçün,
Ana, darıxıram baxışlarına...
Gör necə islanır yatdığın torpaq, –
Nə deyim bu yayın yağışlarına?

Nə deyim, az yağsın?..İslanır anam,
Üşüyür, titrəyir o daş yerində.
Ürəyimi qoyub yataydın, ana,
Əllərin çatmayan balış yerində.

Ana, darıxmışam təbəssümünə,
Titrək əllərinə, nəvazişinə.
Bilməzdim belə tez, yaşın bu vaxtı
Gedib sığınasan o dag döşünə.

İndi yuxumdan da qaçaq düşmüsən,
Necə adiləşir olüm də, ana.
Əkib saxlayacam çinar tək səni, –
Ürəyimdə ana, köksümdə ana.

Ana, darıxmışam, darıxmağımda,
Yüz ilin, min ilin dərdi–qəmi var.
Bir layla yaşayır içimdə mənim, –
İçimdə oxuyar, içimdə ağlar...

## PAŞA QƏLBİNUR
(1952)



**Paşa Qəlbinur** (Paşa İsmayıl oğlu Musayev) 1952-ci il martın 30–da Şəmkir rayonunun Çinarlı qəsəbəsində qulluqçu ailəsində anadan olmuşdur. Burada Müşfiq adına kənd orta məktəbini qızıl medalla bitirmişdir (1958–1968). N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə–profılaktika fakültəsində təhsilini davam etdirmişdir (1968–1975).

İnstitutu bbitirdikdən sonra Gəncə şəhər göz xəstəxanasında və 1 saylı uşaq poliklinikasında həkim–okulist işləmişdir (1975–1977). Sonra N. Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun göz xəstəlikləri kafedrasında baş laborant olmuşdur (1977–1978).

İ. M. Seçenov adına 1-ci Moskva Tibb İnstitutunun göz xəstəlikləri kafedrasının nəzdində əyani aspiranturada təhsil almışdır (1978–1981). N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun göz xəstəlikləri kafedrasında assistent, həm də ictimai peşələr fakültəsində dekan müavini işləmişdir (1981–1988). Hazırda həmin kafedranın professoru (1988-ci ildən), həm də kafedranın müdiridir (1991-ci ildən). Tibb elminə dair yüzdən çox elmi əsərin, on elmi kəşfin müəllifidir. On mindən çox cərrahiyyə əməliyyatı aparmışdır. Brüsseldə (Belçika) 51-ci Ümumdünya İxtiralar salonunda "Brüssel Evrika 2002" sərgisində "Oftalmologiyada yeni dərman preparatı Aktirol"un kəşfı Böyük qızıl medala və Belçika Maliyyə Nazirliyinin xüsusi prizinə layiq görülmüşdür. Yeni dərman preparatı (şərikli–müəlliflər bacısı Sevinc və tələbəsi Olqa Stroyeva) onun rəhbərliyi altında hazırlanmışdır (2002).

Azərbaycan Alimlər İttifaqı İdarə Heyətinin (1989), Amerika və Dünya Türk Cümhuriyyətləri Oftalmoloji Bir-

liyinin idarə heyətinin üzvü (1997), Azərbaycan üzrə Nobel İnformasiya Mərkəzinin nəzdində fiziologiya bölməsinin ekspertidir (1996). Dünya Türk Cümhuriyyətləri Oftalmoloji Birliyi Bilimsəl qurumunun həmsədri seçilmişdir (2001). ABŞ–ın Biblioqrafiya İnstitutunda keçirilən "2000 alim və intellektual" seçimində "İlin adamı" mükafatına layiq görülmüşdür. Yusif Məmmədəliyev adına mükafata (1999), "İman" izzət və iltifat diplomuna (2000) layiq görülmüşdür. "Araz" ali ədəbi mükafatın laureatıdır (1996). 2008-ci ildən Dünya Azərbaycanlıları Konqresinin həmsədridir.

Aybəniz Əliyevanın "Paşa Qəlbinur" (1996), A.Məmmədovun "Qəlbinur poeziyası XXI əsrin astanasında" (1999) kitabları ona həsr olunmuşdur. "Paşa Qəlbinur–50" biblioqrafiya məlumat kitabı buraxılmışdır.

"Gənclik" respublika ədəbi birliyinin üzvüdür.

"Gözlər" adlı ilk şerini 13 yaşında ikən yazmışdır. 1978-ci ildə "Ulduz" jurnalının 4- cü sayında çap olunan "Xal", "Ay gecəyə hicran sıxır", "Mən ilhamı gözlərimlə görmüşəm" şeirlərindən üzü bəri dövri mətbuatda vaxtaşırı çıxış edir.

1992-ci ildən AYB–nin üzvüdür.

On beşdən artıq kitabın müəllifidir: "Ay bir əlçim buluddur", "Gözün yarımkeçirici baryerləri", "Payız məktubu", "Rəngli göz yaşları", "Biologiya və təbabətdə RMT–nin poliadelləşdirməsi problemi", "İtmiş həsrət kimi", "Təbabət poeziyanın fəlsəfi əyarı kimi və ya maye işıq", "Ağlıma gələnlər başıma gəldi", "Qara su (roman, rus dilində)", "Qara su, Göz dağı (roman)", "Idrak ətri (Esseler)" və sair.

## HÖRÜMÇƏK TORUNDA CAN VERƏN CÜCÜ...

Hörümçək torunda can verən cücü,
Sən ki, bu dünyada yemdən savayı
Heç nə tanımadın, heç nə bilmədin...
...Ölümdən savayı
Heç nə qalmadı...
Vızıldadın–haray təpdin,
Əl uzadan olmadı.
Hörümçək torunda can verən cücü,
Dünyanın yem ucu, ölüm ucu var.
Bir də,
Dürlü–dürlü kefləri,
Dürlü–dürlü dərdləri...
Hörümçək torunda can verən cücü,
Sənin azadlığın mənim əlimdə
Bir su içimi...
Hörümçək başının üstünü alıb.
Mənim taleyimsə bir özgəsinin
Bircə imzasından asılı qalıb...

***1987***

***

İçinnən qovulan adam–
Getməyə yerin qalmadı.
Gölündə boğoldum dünya
Bir saman çöpün olmadı...

İçdin gözümün yağını
Mən səni sevdikcə, dünya.
Oydun mənim gül bağrımı
Sənə–can, dedikcə, dünya.

Dilimi çaldın, ay ilan!
Gözümü tökdün ay şeytan!
Əlimi kəsdin, ay cəllad!
Yağımda qovurdun məni...

İçinnən qovulan adam–
Getməyə yerin qalmadı.
Gölündə boğuldum dünya
Bir saman çöpün olmadı...

***2 oktyabr, 1997***

***

Hər gün Sənin nurunla
Dolur bağrım, İlahi!
Gözlərim işıqlanır...
Bu qaranlıq otaqda
Bir ilahi şam yanır...
Bu qələm–nur–bıçaqdı.
Bu qaranlıq dünyada

Yanır bir ilahi şam.
Allah sənin ətəyin–
İşıqdı
Ətəyindən tutmuşam...

***7 mart,1999***

*******

Yumurta yeyən
ilan kimi
Udduğum yumurta
Ürəyimdə qalıb–
ərimir...

Sındırıblar,
Qarabağa gedəcək–
Zirehli maşınımı
yerimir...

Hansı günahım üstdə
Allahım döyüb məni?!
Ağlıyır ruhum–
kirimir...

***23 may, 1999***

## HƏR GECƏ

Gülabın ətrinə ruhlar gələn tək,
Gülabın ətrinə ruhlar gələn tək
Gücə Şuşadaydım...
Gözlərim qan çək!...

Uzun hörüklərdən hörülən gecə
Qanlı kirpiklərdən görünən gecə
Qanlı şirin dadır, torpaq bal dadır
Axı yuxularım məni aldadır...

Hər gecə,
Gülabın ətrinə ruh gələn kimi
Qonuram Göyçəyə, Qarabağa mən.
İsti yuvasından
Zorla qoparılan qız–gəlin kimi
Qəzəbə, qınağa çağırır Vətən!
Çağırır Vətən!

Silkindik günahdan, döndük şəkkindən
Bizi dərgahına bağışla, Allah!
Nə cəzan vardısa ver də, bağışla
Suçluya dağ çəkdir, at cəhənnəmə,
Yerdə qalanını yenə bağışla.
Bağışla, bəsimdi bu dağ, bu cəza
Bağışla, Allahım, məni bağışla
Bağışla, ərkimə görə bağışla.

Dünya başdan–başa kef içindədi,
Bu boyda bu dərdi çəkə bilmirik.
Yuxuda dirilib, ayıqda ölmək–
Bir ömür dirilib, ölə bilmirik...

Gülabın ətrinə ruhlar gələn tək
Gecə Şuşadaydım...
Gözlərim qan çək!...

***İyul–avqust, 1994***

## BİR ƏTRİM VAR

Bir ətrim var, üzə çıxsa solası,
Bir arzum var, söz donunda öləsi,
Bir dərdim var, bircə allah biləsi,
Allah, mənim köməyim ol!
Anam, mənim köməyim ol!

Haradan tutdu məni bu eşq?!
Qəfil gülləm, başrımı deş!...
Yuxularım çilik–çilik güzgü kimi–
Əlim doğram, dilim doğram, qanım işıq!...
Ürəyimdən işıq axır qanqarışıq.
Gecələrim, gündüzlərim
Yuxu kimi qatqarışıq...

Avazının dənizi buz...
Nur yağır ulduz–ulduz,
İşıqlandı qanımız.
Qanımızda,
bir qurbanlıq canımız!...

Gecələrdə dəniz–nehrəm,
Gündüzlərdə
Təbəssümün nur üzüyəm,
Ay anam, üzü dönüyəm,
Anam, mənim köməyim ol!
Bir ətrim var, üzə çıxsa solası,
Bir arzum var, söz donunda öləsi,
Bir dərdim var, bircə allah biləsi,
Allah, mənim köməyim ol!
Anam, mənim köməyim ol!

***1998***

## GÖYƏRƏN SƏS

Gecənin bağrında
ay–para qarğış...
Qaranıq, gecə qadağası, aramsız yağış...
İşığın içində gül açmışam mən.
Buludun əynində ruh biçimində
Yenidən dünyaya gəlmişəm deyən...

O hansı nəfəsdi, o hansı səsdi?
Mənim varlığımı dəyişdi belə.
O hansı qüvvədi, hansı həvəsdi?
Xəmiri çörəyə, qayanı gülə...
İşığın içində İşıq göyərdi, –
Bülbülün içində Səs göyərən tək!
...Neçə Rembranta... dəyərdi, vallah!
Bağrıma dedim ki, bu gecə çək!
Çək, dedim ona,
Batır əllərini mənim qanıma
Bu gecə çək!...

## SƏSSİZ–SƏMİRSİZ

Yasəmən ətri qədər,
Çörəyin nəfsi qədər.
Darıxdım sənsiz...

Dəryada qarmağa
Balıq tələsən kimi,
Kəhrəba zəmidə
Küləklər əsən kimi,
Darıxdım sənsiz...

Bir ana bağrında,
Südün sancısı kimi,
Cadar–cadar torpaqda
Yağışın səsi kimi
Darıxdım sənsiz...

Ulduzlar axdılar,
Gecəmə neynim
Dənizlər axdılar
Küçəmə neynim...

Kəklik yumurtasında
Yavrumun səsi kimi–
Səssiz–səmirsiz
Darıxdım sənsiz...

***21 dekabr, 1999***

## MƏN SƏNƏ O QƏDƏR İNANIRAM Kİ…

Mən sənə o qədər inanıram ki,..
Mənim inamımda
Üzər gəmilər...
Sənin duaların ruhlar kimidi
Tanrı dərgahına tez çata bilər...

Sən–göydən ayrılan daş deyilsən ki,
Sən–oddan sıyrılan ətirli çörək!
Mən sənə o qədər inanıram ki,
Çörəyin ətrinə inandığım tək...

Ağılnan ürəyin xəlitəsisən!
–Sənnən ağıl ummaq ağılsızlıqdı.
Sən ki, ürəyimin xəritəsisən
İldırımlar çaxır–dünyam işıqdı!

Mən sənə o qədər inanıram ki,..
Mənim inamımda
Üzər gəmilər...
Sənin duaların ruhlar kimidi
Tanrı dərgahına tez çata bilər...

***9 iyul, 2000***

## GÖZLƏRİNİN KÖLGƏSİ

Uzun gecələrimdə
Qaranlığın ətrisən,
sükutun səsi...
Gözlərimin yağını
Damla–damla içirəm.
Gözlərimin yağında
Yanır şamın pitəsi...

Gözümə
Sözün kölgəsi düşüb:
Silirəm, getmir.
Həsrətin kölgəsi düşüb,
Ürəyimə–
Silkinirəm, getmir...

Bir at düşüb bəxtimə–
Özü ürküb, yəhəri qalıb.
Kal meyvə kimi,
Mürəbbəsi bişib, zəhəri qalıb...

***2001***

## İNTİQAM BAĞIROV
(1952)



**İntiqam Bağırov** Cavanşir oğlu 21 may 1952-ci ildə Qazıməmməd (İndiki Hacıqabul) şəhərində anadan olmuşdur. 1958-ci ildə doğulub boya–başa çatdığı dogma şəhərdə orta məktəbin 1-ci sinifinə gedən İntiqam Bağırov, 1969- cu ildə həmin məktəbi qızıl medulla başa vurmuşdur. 1969- cu ildə Azərbaycan Tibb Universtitetinin müalicə–profilaktika fakültəsinə daxil olmuşdur. 1974- cü ildə bu təhsil ocağını bitirərək həkim–terapevt ixtisasına yiyələnmişdir. Bir il Bakı şəhərindəki 1 saylı Klinik Xəstəxanada internatura kursu keçdikdən sonra Hacıqabul şəhərində ixtisası üzarə işləməyə başlamışdır. Hal–hazırda da burada çalışır. İranda böyük təlafatlarla nəticələnən zəlzələ vaxtı yardıma gedən həkim briqadasının təkibində çox aktiv fəaliyyəti olmuşdur. Qarabağ müharibəsi əlilidir. Həcc ziyarətində də olmuşdur.

Şeirləri dəfələrlə rayon qəzeində, mərkəzi mətbuatda isə “Ulduz” jurnalında, “İmpuls” qəzetində çap olnub. Bir neçə almanaxda da şeirləri ilə oxucuların görüşündə olub. AYB–nin Abşeron bölməsinin üzvüdür.

### MƏHƏBBƏT

Məhəbbət nə güldür, nə də ki çiçək,
Yarıma saxlayım, ona pay verim.
O bir aləmdir ki, xəyalsız, gerçək,
Yarıya bölünsə, bükülər belim.

Məhəbbət dəryadır, sahilsiz, dibsiz,
O ləkə götürsə, quruyar dilim.

İtirər qiymətin, qalar dəyərsiz,
Tufana qərq olar, bu obam, elim.

Məhəbbət şəlalə, xoşbəxtlik özü,
Onun hər damlası, çağlayan həyat.
Billur məhəbbətin, var tək bir üzü,
İmtahana çəkər, insanı çox vaxt.

Məhəbbət haqqında deyilən sözlər,
Qoy Küskün dərvişdən, qalsın yadigar.
Tərtəmiz ürəklər, həsrətli gözlər,
Qoy qoca dünyada, olsun bəxtiyar!..

*******

*(Qəzəl)*

Çəkirəm dərdi–qəmı, ol gül üzlü yara görə,
Çatmaz muradına könlüm mənim, əğyara görə.

Nə səbəbdir darıxır, könlüm hər an hey sıxılır,
Bəlkə o qaşı kaman, nazlı sitəmkara görə.

Çıxmayır yaddan o dilbər ki, onun aşiqiyəm,
İstəməm, tərk eləyəm dünyanı nigara görə.

Dəxi bəsdir, bu qədər dildara həsrət qaldım,
Qəlbimə yara vuran, gözləri xumara görə.

Hələ sən bəs qədəri, şeri–qəzəl yazmalısan,
Küskün, ad qoymalısan, tarixə–əşara görə...

***04.11.2018.***

***

*(Qəzəl)*

Yenə həsrətlə könül, aşiqini yad elədi,
Həsrətə dözməyərək, naləyi–fəryad elədi.

Necə xoş anlar idi yar ilə keçən günlər,
Məni tərk etmək ilə ömrümü bərbad elədi.
Məni ol nazlı nigar qərq elədi bəhri qəmə,
Halimə yandı mələklər, mənə imdad elədi.

Onun hicranı ilə, durmadan ağlar könlüm,
Yuxuma gəlmiş idi, qəlb evimi şad elədi.

Qönçə ikən məni yar salmış idi eşq oduna,
Eşqidə oldu Şirin, həm məni Fərhad elədi.

Sanki bir ahu idi, əqlimi başdan aldı,
Küskünü–zari bu pir yaşda, o səyyad elədi!

***25.10.2018.***

## PAYIZ

Mənə həm doğmadır, həm də ki, əziz, –
Ruhum kimi qəmli, kədərli payız.
Tənhalıqdır bizi doğmalaşdıran,
Payız da yalqızdır, ruhum da yalqız...

Oyanıb obaşdan yağış səsinə, –
Salıram yadıma, ötən illəri.
Çıxıram yağışlı, küləkli bağa...
Aparır keçmişə, xəzan yelləri.

Durna qatarları köç edib gedir,
Saralmış yarpaqlar bürüyür yeri,
Həsrətlə anıram mən gəncliyimi, –
Gənclik dönməyəcək, bir daha geri.

Qohumlar, dostlarım tərk edib gedır,
Ruhlar aləmində, gözləyir məni.
Küskün, bir vaxt gələr, əcəl köhləni,
Bir payız günündə, aparar səni...

***23.10.2018.***

**OLUB**
*(Qəzəl)*

Dilbəra, qəlbim yarası hicrdən al qan olub,
Könlümə bu yaranı bəxş eyləyən canan olub.

Bilmədim, məndən nədən küsmüş o nazlı dilbərim,
Qapqara saçlarıma, dənlər salan hicran olub.

Cismi tərk etmişsə də dünyanı, ruhu mənlədir,
Eşqimiz gəzməkdədir dillərdə, bir dastan olub.

Həsrətiylə ağlaram ol yarımın, mən zar–zar,
Fani dünya ol nigarsız bəxtimə zindan olub.

Küsküna, bəsdir dəxi, bəhri qəmə qərq olma sən!–
Çoxları eşqi yolunda sən kimi nalan olub.

***24.06.2018.***

*******

Bezdiribdir bu həyat, köç edirəm, yarə deyin,
Verməsin çəşmi xumar könlünü əğyara deyin.

Tək odur könlümə həmdəm bu ömür mülkündə,
Nə gərəkdir çəkə qəm, sevğili dildara deyin.

Kim olub mən kimi eşqində dürüst aləmdə?
Əğər olmuşsa, həmən aşiqə biçarə deyin.

Gecə–gündüz diləyib vəslini hey ah çəkirəm,
Dözməyir hicrinə könlüm, çəkilib darə deyin..

Elə həsrətdəyəm ey dil, mənə ortaq nə gəzir,
Ki mənim köz yaşım olmuş, dəxi fəvvarə deyin.

Bəsdi Küskün, bu qədər ahu–fəğan eyləmə sən,
Xarə dönmüş bu sinəm, qəlbim olub yarə deyin...

***2018.***

## DÜŞDÜM

O afət ilə mən gecə röyada görüşdüm,
Göz yaşım axıb döndü selə, sellərə düşdüm.

Mən yarı idim, ol gül üzlü nazlı nigarın,
Atdı məni getdi, yenə mən dillərə düşdüm.

Hicran dağı çəkdi sinəmə, saçları leyla,
Məcnun kimi nalan oluban, çöllərə düşdüm.

Qəm-qüssə nədir, bilməz idim ləbləri balla,
Tərk eyləyərək yurdumu, yad ellərə düşdüm.

Qönçə gül ikən tərk elədi, dünyamı dildar,
Küskün, yenə dağ-daş uçuran sellərə düşdüm?

***18.10.2018***

# TOFİQ NURƏLİ
(1953)



**Tofiq Nurəli** (Hacıyev Tofiq Niyətulla oğlu) — həkim, şair, nasir.

4 iyul 1953- cü ildə Qonaqkənd rayonunun Yerfi kəndində anadan olmuşdur. Yerfi kənd məktəbində səkkizinci sinifi bitirdikdən sonra (1961–1968) Bakı şəhərində 19 saylı orta məktəbdə təhsil almışdır (1968–1970). N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə–profilaktika fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir (1972–1978). Müxtəlif səhiyyə ocaqlarında rəhbər vəzifələrdə çalışmışdır.

İlk kütləvi səhiyyə qəzetini ("Şəfqət" indiki "Tibb qəzeti"ni) yaratmış və 1991–1995-ci illərdə qəzetin baş redaktoru işləmişdir.

Yetmişinci illərdə ədəbiyyata gələn Tofiq Nurəlinin şeirləri o dövrün gəncləri arasında ən çox oxunan, sevilən poeziya nümunələrindən idi. Təsadüfi deyil ki, ədəbi orqanlardakı çıxışları kimi onun 1983- cü ildə çap olunan ilk "Şehli kəpənəklər" adlı kitabı da böyük rəğbətlə qarşılanmışdı. 1984- cü ildə gənc yazıçıların VIII Ümumittifaq müşavirəsindəki uğurlu iştirakı, şeirlərinin "Literaturnaya qazeta" da dərc olunması həmin müvəffəqiyyətin davamı idi.

"Şehli kəpənəklər", "Yağışdan sonra", "Tənha bir qüssə", "Tənha payız çiçəyi" və başqa kitabları çap olunub.

Şeirləri Moskvada, Təbrizdə, Türkiyədə çap olunub. 1920-ci ilin aprelində işğalçı Qızıl Orduya müqavimətin təşkili və ondan sonrakı dövrlərdə gizli şəkildə baş verən hadisələrdən bəhs edən "Qaçaq Mayıl" kinopovestinin də müəllifidir.

1988-ci ildən AYB–nin üzvüdür.

## QIŞ QAYĞISI

Yazda toxum kimi zoğ atıb çıxıb
Yarpaq açacağam gül açacağam.
Bu köhnə dilimi qoyub bir yana,
İnan ki təzədən dil açacağam
Bu qışı birtəhər keçirə bilsəm...
Sazaq iliyimə işləyən zaman
Bir isti misraya tutsam əlimi,
Tələsə–tələsə gələn dumandan.
Qırov bağlayanda daş da çör–çöp də...
Qəfil yıxılmasam bu öthaötdə,
Bu qışı birtəhər keçirə bilsəm...
Çovğundan yerlə göy seçilməyəndə,
Başın itirəndə tamam çöl–bayır,
Domnadan tökülən yanar poladtək
Görərsən dilimdə söz parıldayır
Bu qışı birtəhər keçirə bilsəm...
Bu da bir istəkdir düşüb könlümə,
Mən yaz vurğunu da deyiləm düzü.
Bürüyür gəlbimi şairanəlik
Payıza dönəndə dünyanın üzü.

## AYIN QARANLIĞINDA

*(Faiq üçün)*

Dadlı iyul gecəsi
Ayın qaranlığında
Yerin göydə,
Göyün yerdə həll olduğu zaman
Ruhun səsi gəlirdi
napnazik şırıltıyla axan
Babaçayından...
Bütün canımla arxası üstə sərilib qaranlığa
O çayı dinləmək qədər

Azad
xoşbəxt
və kədərli
olmamışdım heç vaxt...
Ötənlər də,
Ötənlər də, itənlər də,
gələcək
və gəlməyəcək gələcək də,
boynuma qonan böcək də
Suyun şırıltısını dinləyirdi
bu dadlı iyul gecəsinin sahilsiz
qaranlığında...
Bu qaranlıqda ən aşağıda da mən idim,
ən yuxarıda da mən idim..,
Ən əvvəl də mən idim.
mən idim ən axır da,
axırdı da,
hər şey bu şırıltıya qoşulub axırdı
bu dünyaya məndən,
bu dünyadan mənə...
Və yenə mən
ruhun da səsini eşitdiyim qatda
və hər üzünü gördüyüm bu həyatda
ömrümün bu çağında
heç vaxt yetmədiyim qədər
azad
xoşbəxt
və kədərli idim
Ayın qaranlığında.

## ÖLMƏZLİK

Hər gün bir az Nəsimidən kömək istəyirəm:
Dərisi soyulmağın necə olduğunu
bilmək istəyirəm
Hər gün bir az Cavid əfəndidən
Şaxtadan,
don vurmaqdan nəsə soruşuram...
...Belə də, böylə–böylə konuşuram...
Hər gün bir az Müşfiq çatır dadıma:
Deyir güllə necə dəyir adama...
Zəhərdən doğulmağı Nazim öyrədir,
Boğulmağı Səməd Behrəngi
Hər gün qaçır rəngim...
Deyirlər qorxma:
– dərimi soymasaydılar, ölərdim,
– Sibirə sürməsəydilər, ölərdim,
– güllə çaxmasaydılar, ölərdim,
– zəhər qatmasaydılar, ölərdim,
– sulara satmasaydılar, ölərdim

## GECİKMƏK VƏ YA NƏSİLLƏR QATARI

Bizim biletimiz o qataraymış,
Boş getdi yerimiz,
Xoş getdi yerimiz–
bilmirəm.
Mən gördüm o qatar
elə bil həvəssiz–
lap yavaş getdi,
Tamburda beş–altı sərxoş getdi.
Bizim biletimiz o qataraymış–
Bu gələn qatardan gözlərini çək,
Bu qatar bizləri götürən deyil,
Bizim biletimiz yanıb, əzizim...
Çırpıb yumruğumu vaxtın üstünə
elə boş–boşuna əlimi əzim?!

Bizim biletimiz o qataraymış...
Bizim biletimiz yanıb, əzizim!..
Bir az, bir az çox..,
nə fərqi axı,
onsuz da çatmadıq,
getdi o qatar...
İndiki qatarsa tanımır bizi,
Bizə bu qatara bilet verməzlər...
İndi kimin üstə ataq günahı ?!
İndi adım kimi bilirəm əzbər
Bizim biletimiz o qataraymış...
Böyük bir zamanı verdik küləyə–
qatarı vaqonu düz tanımadıq...
Bizi kim aldatdı, heç bilirsənmi?!
Bilməyin özü də çox gecdi artıq,
Bizim biletimiz o qataraymış...
Lap elə birtəhər minək bu dəfə–
Hərə bir tərəfdən lağ eyləyəcək...
Axı hər qatarın öz sərxoşu var,
Gördün ki, biri lap ağ eyləyəcək–
Götürüb qatardan atacaq bizi...
Bir yaxşı fikirləş indi əzizim...
Bizim biletimiz o qataraymış,
Bizim biletimiz yanıb əzizim...
Bu gedən qatarlar bir üzə gedir,
Qayıdan deyildir bizim də qatar...
...Boş qalan yerlərə baxıb gizlicə
Bir az xoflanır da qatardakılar:
Bəlkə qabaqkına minib gediblər,
Bəlkə hər qatarda onlara yer var?!

## GETMƏK

Yaxınlar sıxır adamı–
yaxınlardan qopub getmək...
Ömrün səndən gizlətdiyi
bir əcəli qapıb getmək...
Getmək,
yenə getmək...
Nə qaranlıq sabahlara,
nə də dibsiz keçmişlərə...
Bir "yox" çırpıb ölçülərə
heçliklərə...heçliklərə...heçliklərə getmək.
Getmək,
yenə getmək.
Hər xaotik boşluqlara,
Hər  qızmış sərxoşluqlara,
stəkanda fırtınaya–coşqulara
Üsyan kimi,
üsyan kimi,
üsyan kimi getmək...
Getmək,
yenə getmək.

## SULAR

Bu dünyadan çirkli gedib
O dünyadan təmiz gələn
xanım sular,
gəlin sular...
Bu dünyadan suçlu gedib,
Bu dünyada puç olub gedib
O dünyada dirilən sular
xanım sular,
gəlin sular...
Hər iki dünyanı görən
əvvəl sular,axır sular...

Bu dünyadan o dünyaya,
o dünyadan bu dünyaya
axan sular,
axar sular–
xanım sular,
gəlin sular...
məni də yoldaş götürün!
Çirkin–pasın ovcundayam,
dörd yanımı borc bürüyüb–
gör nələrin borcundayam?!.
Vicdandan borc xərcləmişəm!
Mən bəxti  vurdum top kimi,

Vurduğum yerə düşmədi.
İlahinin işıqları
Durduğum yerə düşmədi.

İnsan adına nə varsa
Mənimçün hamısı sınıb.
İçimdə göz–gözü görmür–
İçimin şamları sönüb.

Zamanın bu parasında
Hər yan yaşdı,quru yoxdu...
Üstündə durduğum vaxtın
Heç bir yandan nuru yoxdu...

Çirkli gedib pak qayıdan,
Cod gedib ipək qayıdan
xanım sular,
gəlin sular
məni də yoldaş götürün
dalınızca gəlim,sular.
Bircə dəfə möhlət olsun,
dönər olsun gedər yolum.
İlahi, rüsxətin varmı
Gedim–gəlim insan olum?!

## HƏYAT

Kimi dimdik yoxuşuna dözmədi,
Kimi uzun yağışına dözmədi,
Kimisi də özxoşuna,
dözmədi–
satıldı...

Kimi zirvə vədəsinə uydu da,
Kimi xoş səs sədasına uydu da,
Kimi  "mənəm" ədasına uydu da–
satıldı...
Biri çörək əzabından,
Biri əzab əsəbindən,
Biri də ki qəzəbindən
satıldı.
Soruşursuz bəs nə oldu dözənlər?!–
Satqınların arasında bezənlər...
... Onlar indi ruha dönüb gəzirlər
Gecələr qəbiristanda lap havalı–havalı.

## YOVŞAN

Bu qupquru  yovşanın qoxusundan
Min il o yanın səsi gəlir.
bu qupquru  yovşanı
qoxladıqca
insanın həvəsi gəlir
bir az oxumağa pəsdən,
bir az xatirələrə dalmaq,
bir az da dolmaq,
dolub–daşmaq,
ömürün bu başını o başına–
o başını bu başına daşımaq
həvəsi gəlir...
hər şeyi,
hətta ölən sevgiləri də

yenidən yaşamaq
həvəsi gəlir...
bu cadar–cadar şoran
Şirvan küdrüsündə...
Bu küdrünün düzündə
çöl yatıb min ilin yuxusunda...
sonsuzluğun qapısıdı sanki
yovşanın hər dəstəsi...
Bu qupquru yovşanın qoxusundan
aşıq Şakirin səsi gəlir–
"Şirvan şikəstəsi".

## PENCƏKLİ XATİRƏLƏR...

Salıram pencəyimi
çiyninə başdaşının,
hava şaxtadır yaman...
...Bəlkə çıxıb yadından–
bax beləcə bir zaman
salardım pencəyimi
sənin çiyinlərinə...
bir az üşüməkdən qoruyardım səni,
bir az özümə bükərdim səni...
Sən gedəndən sonra
bu pencəyin içindən
canıma çəkərdim səni...
...indi heç nə yoxdur, yox,
yüz fikirləş,
yüz vur–çıx,
yüz düşün, yüz, daşın–
heç nə dəyişən deyil...
Adını sinəsinə tutub durub baş daşın–
burda nə çox gözləyən var, ilahi.
Adını sinəsinə tutub durub baş daşın–
demək ki, gözləyirsən?.,
axı bir qərib də var
ömrün o başlarında–

iyirmi yaşlarında...
Sənli, mənli, pencəkli
köhnə xatirələri–
həyəcanlı və canlı
və tərli xatirələri
salıram bircə–bircə yaddaşımın çiynine
və adını sinəsinə tutub duran
baş daşının çiyninə.
Salıram pencəyimi
baş daşının çiyninə
hava yaman şaxtalıdı.

## BABA DAĞI

*Tahir müəllimə məktub*

Ay müəllim, Baba dağı necədi?
Kəllər gədiklərdən aşırmı görən?
Gecələr dünyanı leysan döyəndə
Sellər dərələrdən daşırmı görən?

Qayasında çox laçınlar qovmuşam,
Yuvasından göyərçinlər qovmuşam,
Qırt oturan bildirçinlər qovmuşam–
Biri günahımdan keçirmi görən?

İlk sözümü şimşəklərə yazmışdım–
Heç bilmirəm neçə kərə yazmışdım...
Sinfimizdə bəxtəvərə yazmışdım..,
O ağı qaradan seçirmi görən?

Leysanından tutub göyə çıxardım–
Leysan məni döyə–döyə çıxardım...
Heç bilmirəm göyə niyə çıxardım–
Leysanlar bu sirri açarmı görən?

Sevdiklərim köçdü getdi dünyadan,
Mənə bir eşq borclu getdi dünyadan...
Bu üzüboz,qovdu–qaçdı dünyadan
İlk eşqin gözü su içirmi görən?

Mən də gəlib enişlərə çatmışam–
İlkinliyə dönüşlərə çatmışam...
Dağ qartalı,mən bilmirəm,qardaşım..,
Dağlardan–dağlara köçürmü görən?

Ay müəllim, Baba dağı necədi?!
Zirvələrin ay çırağı necədi?!
Qarşısında günahlarım neçədi–
Pirim günahları ölçürmü görən?!

# FƏXRƏDDİN ZİYA
(1953)



**Fəxrəddin Ziya** (Əliyev Fəxrəddin Mansur oğlu)–həkim, şair, publisist, tibb xadimi.

18 noyabr 1953- cü ildə Masallı rayonunda anadan olmuşdur. Orta məktəbi Sumqayıt şəhərində bitirmişdir. Sonra təhsilini Azərbaycan Dövlət Tibb İnstitunda davam etdirmişdir (1971–1977).

Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyası və Səhiyyə Nazirliyi sistemində müxtəlif vəzifələrində işləmişdir. Baş həkim, idarə rəisi kimi vəzifələrdə də işləmişdir. 1984–1987-ci illərdə Əfqanıstan Respublikasında əmək fəaliyyətini davam etdirmişdir. Qarabağ müharibəsinin fəal iştirakçısı olub. Sonralar Bakı şəhər Sağlamlıq Mərkəzinin Baş həkimi, Respublika Sağlamlıq Mərkəzinin direktoru, Səhiyyə Nazirliyində idarə rəisi və başqa vəzifələrdə çalışmışdır.

70-ci illərin əvvəllərində "Ədəbiyyat" qəzetində çap olunan şeiri ilə ədəbiyyata gələn şair, sonralar dövrü mətbuatda vaxtaşırı çıxış edib. "Bir damla qan" televiziya filminin ssenarisinin müəllifidir. Dillər əzbəri olan neçə–neçə populyar mahnıların sözləri də Fəxrəddin Ziya tərəfindən qələmə alınıb.

Ondan artıq əsəri işıq üzü görüb. "Qayıt məni qınamağa", "İl ayrıcında", "Zaman, səndən hara qaçım", "Mənim şair anam", "Yazıçılar", "Bu da bir istəkdi", "Şeiriyyətim, şeirim" və sair.

Azərbaycan, rus və fars dilini mükəmməl bilir.

1998-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

Ailəlidir, üç övladı var.

## YAXŞI KİŞİLƏRƏ

*"Yaxşı kişilərlə dostluq edin".*
*Məhəmməd peyğəmbər (s.a və a.s.)*

Bütün ölçülərin başında durar
haqqı əzəmətlə ölçülən kişi.
Gözündən od yağar, çöhrəsindən nur
yüz kişi içində seçilən kişi.

Yox bir əməlində naqislik, eyib,
hamıya dost deyib, qardaş söyləyib.
Nə mənsəb, nə dövlət onu əyməyib,
kişilik boyuna biçilən kişi.

Bir halal insandır, zatı pak, nəcib,
daim məclis qurub, süfrə bəzəyib.
Hələ dodağına içki dəyməyib,
gündə sağlığına içilən kişi.

Bir "dağ aşırsa" da, bir "sağ ol" bəsi,
bəşərin səxavət mücəssəməsi,
Çətində hamının ərki, kimsəsi,
yolunda canından keçilən kişi.

Yaxşılıq bənzərsiz sınaq, imtahan,
Tanrı hamımıza yetirsin məqam.
Yaxşılar ucalsın, artsın hər zaman,
nə çox aramızda kiçilən kişi.

Ən şirin arzunun özü xoş savaş,
bu da bir istəkdi söylədim, qardaş.
Bu sayaq müqəddəs yol seçəydi kaş,
özünü ər sayan, nər bilən kişi!

## ŞAİRLİK

Ürək bir ümmandır, duyğu bir sona,
şair şeirin qulu, şeirin dəlisi.
Ən əziz qadından əzizdir ona
gözəllər gözəli–İlham pərisi.

Şairlik çox böyük zəhmət meydanı,
şairlik nə bəylik, nə köləlikdir.
Şairlər dünyanın söz yaradanı,
şairlik şeirə hamiləlikdir.

Şeirin də anası şairdir, əlbət
o ağrı çəkməsə, şeir doğulmaz!
Ömrünü şeirinə qıysa da, fəqət
şeirin möhnətindən bir yol yorulmaz!

Könüllər oxşayar, məclislər bəzər,
söz–söz, misra–misra yığılan şeir.
Ana bətnindəki körpəyə bənzər,
şairin qəlbində doğulan şeir.

Şeiri hər şairin öz balasıdır,
istər güclü olsun, təpərli olsun.
Hər misra şairin söz balasıdır,
təki söz mülkündə hünərli olsun.

Ürəyi dəyirman daşı kimidir,
içində söz dəni üyütməlidir.
Şair də hamilə qadın kimidir,
şeirini qanıyla böyütməlidir.

Şair vəsf eyləyən, şair yaradan,
yazdığı hər əsər lələ bərabər.
Ən böyük diqqətə, ən yüksək ada
onun da haqqı var, bir ana qədər.

## BACILAR

Yüz yol nazımızı çəkər, yorulmaz
yüz yol qayğımıza qalan bacılar.
Qardaşla sevincin bölməkdən doymaz
qardaş qadasını alan bacılar.

Ağrıyan görəndə bir yerimizi
özünə diləyər dərd–sərimizi.
Canından çox sevər hər birimizi
sevgisi tükənməz ümman bacılar.

Daim üstümüzdə nəzəri, gözü,
bizik güvənc yeri, bizik əzizi.
Anasız qardaşa ana əvəzi,
dərdi ürəyində pünhan bacılar.

Əskilməz qəlbində mehr–məhəbbət,
arzusu, istəyi, dözümü heyrət.
Qardaşdan umduğu bir quru diqqət
görməsə, can evi talan bacılar.

Nəfəsi müşk–ənbər, ürəyi kövrək,
çiçəktək zərifdir, ceyran tək ürkək.
Naqafil, ürəyi yaz bulududək
bir incə məqamdan dolan bacılar.

Biz də yaranmadıq boş şöhrət üçün,
yarandıq bacıya sədaqət üçün.
Kim desə qardaşlar ölmür sizinçün,
inanın, yalandı, yalan, bacılar.

## YURD YERİNİN KÜLÜNDƏN ÖP

Sözü baltək yığanların,
başına dön, dilindən öp.
Üzündən nur yağanların
ətəyindən, əlindən öp.

Qızılgülə eylə nəzər,
məclis bəzər, əldə gəzər.
Tikanından etmə həzər,
butasından, gülündən öp.

Xəzan vaxtı hər yarpağın
bağrı çatlar tər budağın.
Yazda dirilən torpağın
çəmənindən, çölündən öp.

Gənclik bir də düşməz ələ,
yaşamağa dəyər hələ.
Könül ver bir şirin dilə,
üzündəki telindən öp.

Gözəlliyə aləm heyran,
qarşısında donar zaman.
Sonasına ayna tutan
suları saf gölündən öp.

Bir sonu var hər həvəsin,
qərib yerdə ömür bəsin.
Yurd dediyin müqəddəsin,
ocağından, külündən öp.

## ZAMAN, SƏNDƏN HARA QAÇIM

Kəsmə ömür yollarımı,
duman, səndən hara qaçım?
Məndən bu heysiz canımı
uman, səndən hara qaçım?

Yox munisim, yox həmdəmim,
yay gəlməmiş yanır zəmim.
Son səfərdən dönməz gəmim,
aman, səndən hara qaçım?

İçimdə yüz qorxu, hədə,
yox aramıım bu ölkədə.
Ürək yenə səksəkədə,
güman, səndən hara qaçım?

Qəm qəlbimdə pərən–pərən,
qınayanım çoxmu, görən?
Düz işimi yoxsa görən,
yaman, səndən hara qaçım?
İtirdim yar–yoldaşımı,

vaxtsız ağartdım başımı.
Nə tez artırdın yaşımı,
zaman, səndən hara qaçım?
Aman, səndən hara qaçım?

## ŞEİR DÜNYASI

Şeir düşüncənin şəhd–şirəsidir,
sözünü aləmlə bölməyə gələr.
Cücərər bir zərif hissin ucunda,
ən incə məqamda köməyə gələr.

O, Quran dilidir, sən inan şeirə,
baxma adi gözlə heç zaman şeirə.
Ötəri həvəsdən yaranan şeirə
bişmiş toyuğun da gülməyi gələr.

Yaz sözü onda ki, misraya gəlsə,
dilin səlis olsun, yolun düz, kəsə.
Nadan sözü söztək anlaya bilsə,
bir yol xəcalətdən ölməyi gələr.

Sərraflar yazanda bir yeni əsər,
hər kəlmə üstündə titrəyər, əsər.
Kim sözü külçətək, kərpictək kəsər,
onu söz mülkünə hörməyi gələr.

Fəxrəddin, şairlik duyğudu, dərddi,
şeirin gah şirindi, gah acı, sərtdi.
Kim söz bağçasından bir buta dərdi,
onun misrasından gül iyi gələr.

## MƏNİM SARBANIM

Bir ağır yol gəlir hələ karvanım,
dözür bu səfərdə hər məşəqqətə.
Mənim kitablarım–ömür sarbanım,
üz tutmaq istəyir əbədiyyətə.

Bu yolda nə qədər yolçular itmiş,
səni çaşdırmasın şöhrət, a sarban.
Bu yoldan ustadlar, dahilər keçmiş,
bu yolda yol salan izlərə qurban.

Burda başdan–başa dünya yaraşıq,
bu yol kənarında kol olsan, sevin.
Bura od yarışı, alov yarışı,
sən burda zərrəcə kül olsan, sevin.

Burda adilərçün açılmaz meydan,
burda fövqəlbəşər şair Nizami.
Şeir peyğəmbəri Füzuli burdan
baxır söz mülkünün heyranı kimi.

Bura çox müqəddəs bir fəxri ünvan,
bura söz meydanı, şöhrət meydanı.
Kim bilir, bəlkə də böyük Yaradan
bu yerdən Meraca çəkmiş insanı!

Bu ömür yolunda duyğum–sultanım,
baxtımın qışından, yazından keçər.
Mənim şeirlərim–mənim karvanım,
içimdən yol gəlib kağıza köçər.

Nə söykənc yerim var, nə pənah yerim,
bu yolda müsafir olmaq nə çətin!
Nə and yerim bəlli, nə pənah yerim,
nə heyrət etməyə çatmır qüdrətim.

Bu sənət yolunda yollar nahamar,
sən məni nahaqdan yorma, a sarban.
Hər misra üstündə ürəyim qabar,
qısqanıb qəsdimə durma, a sarban.

Mən kiməm?–bu yolda milyondan biri,
qəvvaslar yanında bir naşı fəhlə.
Ancaq şeirə könül verəndən bəri
gedirəm ümidlə, səylə, fərəhlə.

Şeirimdir möhnətim, bəxtiyarlığım,
şeirim idrakımdan, qəlbimdən keçər.
Mənim yazdıqlarım, mənim varlığım,
hələ ki, kağızdan kağıza köçər.

## ÇİÇƏKLƏYİR

Yazın gəlişiylə aləm oyanır,
Min–min bağ–bağatda bar çiçəkləyir.
Al–əlvan geyinir.çəmən,çöl–bayır,
harda ki, nəbatat var, çiçəkləyir.

Sən demə, hər şeyin qisməti, payı,
gülün günü vardır, meyvənin ayı.
Bölən düzmü bölüb bu haqqı–sayı,
alça yeyiləndə nar çiçəkləyir?

Ay bağban qardaşım, di cəld ol, görək,
ruzi Tanrıdandır, əkib–becərək.
Birinin bağında meyvə, gül–çiçək,
birinin bağında xar çiçəkləyir.

Kim ki, tər tökməsə yaz bağçasında,
görməz əkdiyindən naz bağçasında.
Mən də bir bağbanam söz bağçasında,
Qəlbimdə min ahü–zar çiçəkləyir.

Olsa da dörd yanı işvə–nazında,
şair qəm də yeyir şeir yazanda.
Fəxrəddin, bu sənin alın yazındı,
hələ ki, şeirində qar çiçəkləyir.

## GÖZƏLLİK QADINDIR, QADIN GÖZƏLLİK

Hər kəsin dünyadan bir umacağı,
hər ömrün taledən öz istəyi var.
Körpənin sevdiyi ana qucağı,
şairin qəlbində söz istəyi var.

Doğulduq, bir evə sevinc gətirdik,
böyüdük anaya məhəbbət ilə.
Biz nəyi qazandıq, nəyi itirdik,
qadına vurğunluq, sədaqət ilə?

Hərə öz əksini tapır həyatda,
niyyətin harasa, mənzilin orda.
Mənim ürəyimdən bir arzu keçər,
gözəllik toxumu səpək bu yurda.

Pərəstiş yaradar gözəllik sözü,
gözəllik sədd çəkər kin–küdurətə.
Şeir peyğəmbəri Füzuli özü
bir gözəl önündə gəlmiş heyrətə!

Gözəllik yaranmış hər şeydən öncə,
gözəllik güc–qüvvət, gözəllik işıq.
Hər bir gözəllikdən birinci,məncə
bir gözəl qadındır ömrə yaraşıq.

Həmişə əmniyyət gətirmiş bizə,
nə qədər qəddarı ovsunlamışlar.
Bir gözəl qadına, bir gözəl qıza
xaqanlar ölkələr bağışlamışlar.

Gözəllik qadındır, qadın gözəllik,
bu ülvi varlığın adına qurban.
Bir ömür borcluyuq ona ömürlük,
kimlər getməmişdir qadına qurban?!

Nə yaxşı, qorunub yaşar yaddaşım,
qadınçün Fərhadtək ölənə əhsən!
Bir gözəl çöhrəyə, mömin qardaşım,
Cənnəti əlindən verənə əhsən!

Odur səcdəgahı duyan qəlbərin,
müqəddəs Məkkədir, Nurlu Mədinə.
Gözəllik önündə baş əyməyənlər,
gəlməz heç bir zaman imana, dinə.

Daim başımızın tacıdır qadın,
baxışı, işvəsi, sözü gözəldir.
Anadır, övladdır, bacıdır qadın,
qadının biri yox, yüzü gözəldir

Özü bir mələkdir, ətri Müşk–ənbər,
deyilməz qeyri söz adından öncə.
Məni bağışlasın Adəm peyğəmbər,
yarana bilməzdi qadından öncə!

Gözəllik, qəlbimin sevgi hədəfi,
önündə yay kimi gərilirəm mən.
Bir gözəl sevəndə yüz yol ölürəm,
bir gözəl görəndə diirilirəm mən!

## GÖZƏLLİK

Günüm gözəllərin vəsfində keçər,
Şeirimdə dilimin söz gözəlliyi.
Ürəyim sevməyə bir sənəm seçər,
Gözümdə dünyanın yüz gözəlliyi.

Gözəllik məst edir bizi, nə gözəl,
Tükənmir qəmzəsi, nazı, nə gözəl,
Ömrün qışı nə xoş, yazı nə gözəl,
Hər fəslin, hər ayın öz gözəlliyi.

Yenə gül qoxuyur çölün nəfəsi,
Ləçəyin şəbnəmi, bülbülün səsi.
Qoy öpsün üzündən düzün laləsi,
Əyilib ahəstə, üz gözəlliyi.

Ürək də bir gözdür, göz də bir ürək,
Baxışdan odlanaq, duyğudan ölək.
Kor olsun, bəbəyi tökülsün gərək
Heyrətlə görməsə göz gözəlliyi.

Yandırıb–yaxmaqmış gözəldə adət,
Bu da bir peşəymiş, bu da bir sənət.
Nə ayrı aləmmiş, nə incə vəhdət
Bədən gözəlliyi, üz gözəlliyi.

Fəxrəddin, bu nə ah, bu nə sızaqdı,
Gözəllər gözünün giləsin sağdı.
Güya ki, baxmaqla nə olacaqdı,
Ha durub qıraqdan süz gözəlliyi.

## MANAFAĞA FEYZULLAYEV
(1953)



**Manafağa Səmədağa oğlu Feyzullayev** 1953-cü ilin İyun ayının 25-də Salyan rayonunun Arbatan kəndində anadan olub. Uşaqlıqdan həkim olmaq, insanlara sağlamlıq bəxş etmək arzusuyla yaşamışdır.

1972-ci ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakultəsinə daxil olmuş, 1978-ci ildə oranı bitirmişdir.

Şeir yazmağa institut illərindən başlamışdır. Uzun illər şeirlərini gizli saxlamış, ara-bir dostlarına, tələbə yoldaşlarına və yaxın adamlarına oxuyarmış.

1982-ci ildən nevropotoloq ixtisasına yiyələnmiş, hal-hazıra kimi Salyan rayon Mərkəzi Xəstəxanasında işləyir.

Şeirləri "Fəryad", "Ulutürk", "Qələbə", "Aysberq və həyat" və "Ana Kür" qəzetlərində çap olunmuşdur.

2012-ci ildə "Yaxşı söz məlhəmdir" adlı şeirlər kitabı işıq üzü görmüşdür.

Ailəlidir. İki övladı, üç nəvəsi var. Yoldaşı və qızı da həkimdir. Oğlu iqtisadçıdır. Növbəti kitabı çapa hazırlanır.

### NƏ VAR Kİ?..

Uzaqdan öyrənib halımı sorma,
Sorğuyla bilinən hala nə var ki?!
Bəhanə axtarıb qəlbimi qırma,
Nahaqdan törənən qala nə var ki?!

Aldanma şöhrətə, saxta ad-sana,
Şam gərək haqq ilə alışıb yana,
Arı zəhmətilə bal yığır şana,
Bazardan alınan bala nə var ki?!

Gəzdiyin adamı bil özünə tay,
Hər gün itirdiyin günlərini say,
İtin qabağına tullanan o pay,
Pay deyil, o yaldır, yala nə var ki?!

Təmiz olmalıdır sevinc də, qəm də,
Doğru bilməlidir el səni həm də,
Gözəlin bir xalı çatmayan dəmdə,
Əl ilə qoyulan xala nə var ki?!

İlhamı coşubdur yenə Manafın,
Axtarır sözlərin yaxşısın, safın,
Mürvəti qalmayıb indi sərrafın,
Küçəyə tökülən mala nə var ki?!

## ŞÜBHƏLƏR

Xəbərsiz-ətərsiz, yad qonaq kimi
Qapının zəngini çalar şübhələr.
Uşağı, böyüyü, qoca-cavanı
Fikir dəryasına salar şübhələr.

Bəzən qəfil gələr, tez çıxıb gedər,
Bəzən sevinc olar, bəzən də kədər.
Yediyin, içdiyin zəhərə dönər,
Acı tikan kimi dalar şübhələr.

Heç məhəl də qoymaz xəstə-bimara,
Yarı həsrət qoyar sevdiyi yara,
Gözünə görünər ağ da zil qara,
İlan tək, əqrəb tək çalar şübhələr.

Təmkinsiz heç zaman səbr edə bilməz,
Ürəkdə hər yara qövr edə bilməz
Söz ki, var, boş yerə dövr edə bilməz,
Ümidsiz gümanda qalar şübhələr.

Manaf, şübhələrdən ehtiyat elə,
Bilmədiyin şeyi gətirmə dilə,
Fikirləş bir işi görəndə hələ,
Yoxsa yuxunu da alar şübhələr.

## HƏKİM

Xalatla ömürlük ülfət bağlayıb,
Evlərə təbəssüm paylayır həkim.
Şirin yuxusunu doğma ana tək
Xəstə yuxusuna calayır həkim.

Bir uşaq göz açıb "ana" deyəndə,
Bir insan sağalıb, gülümsəyəndə,
Xəstə palatanı tərk eyləyəndə
Sevinc anlarını sanayır həkim.

Bəzən zalım ölüm verməyir aman,
Bahar gözlərində olur qar, duman,
Xəstəsi həyatdan köç edən zaman
Körpə uşaq kimi ağlayır həkim.

Ürəkdir insanı yaşadan, ürək,
Ona yol açılsın hər qəlbdən gərək,
Bütün körpüləri birləşdirərək,
Xəstə ürəyinə adlayır həkim.

Görüb ağrısını kədərin, qəmin,
Elçisi olubdur xoş xəbərlərin.
Sevgi bəlasına düşən xəstənin
Sirrini qəlbində saxlayır həkim.

## EHTİYAC

Dərd üstə dərd qoyar, incidər qəlbi,
Kədərə bürünüb gələr ehtiyac;
Kasıbın, fağırın girib evinə,
Qəlbini neştər tək dələr ehtiyac.

Çevrilər gümana, gah intizara,
Çərlədər insanı, gətirər zara,
Baxmaz xəstəliyə, azar-bezara,
Yıxar, qəh-qəh çəkib, gülər ehtiyac.

Mərdi möhtac edər neçə namərdə,
Görünər daha çox xeyirdə, şərdə,
Gətirməz cütlənib atılan zər də,
Başına qəm, qüssə ələr ehtiyac.

Xəcalətli qoyar oğula, qıza,
Sərt qışı uzadar, çıxmazsan yaza...
Dönər qəmli neyə, bir sınıq saza
Yetim quzu təki mələr ehtiyac.

Düşman qapısına yollayar səni,
Parçalar neçə yol məğrur sinəni,
Əclafı, alçağı, qatı düşməni,
Özünə yaxın dost bilər ehtiyac.

Manaf, ehtiyacdan danışma, bəsdir,
Zəhmətin, əməyin üstünü kəsdir!
Darıxıb incmək, vallah əbəsdir,
Vaxt olar sakitcə ölər ehtiyac.

## XƏBƏR ALMISANMI?

Sevgilim, söylə bir axşam sərini,
Xəzərin seyrinə dalmısanmı heç,
Dinləyib payızın son nəğməsini,
Narın yağış altda qalmısanmı heç?

Yel əsib çəmənlər, güllər solanda,
Külək pəncərədən evə dolanda,
Misralar səninlə mənsiz olanda
Şerimi yadına salmısanmı heç?

Olubmu, gözlərin məni arasın?
Sağaltmaq olarmı, de, söz yarasın?
Biçarə Manafın dərdin, çarasın,
Soruşub bir xəbər almısanmı heç?

## ÜRƏK DÖNSƏ...

Ürək dönsə bir məşələ,
İşığını verər elə,
Alovlanıb yansam belə,
Köz qoymamış sönmək olar?

İlk baharım xəzan olsa,
Yar yolunda tufan olsa,
Göz yaşlarım leysan olsa,
Heç yardan da dömnək olar?

Ayırsalar candan canı,
Nə yaşadar, de, insanı?
Unudub əhdi-peymanı,
Yalandan da sevmək olar?

## ALQIŞDAN SONRA

Mənə çətin deyil anlamaq səni,
Bir kiçik işarə, baxışdan sonra.
Sınadım neçə yol məhəbbətini,
Şaxtalı tufandan, yağışdan sonra.

Sevgidə fərqi yox, məncə heç yaşın,
Sərrafı tapılmaz qiymətli daşın.
Gözümdən düşübdür işi nəqqaşın,
Qəlbimə saldığın naxışdan sonra.

Dünyanı gəzsək də biz qarış-qarış,
Ömürdən gün keçir hər payız, hər qış.
Bircə addım belə atmaram yanlış,
Atdığım addımdan, qarışdan sorna.

Səni düşünürəm, olsam da harda,
Qoymaram bir gün də qalasan darda.
Soyuqluq gətirməz külək də, qar da,
Üzü yaza gedən sərt qışdan sonra.

Manaf sədaqəti öyrənib mərddən,
Bəzən kefdən yazır, bəzən də dərddən,
Əgər həddi aşıb keçsəm sərhəddən,
Bağışla tərifdən, alqışdan sonra.

## KÜLƏK

Sanki orkestri gətirib dilə,
Bir payız havası çaldırar külək.
Uçan durnaları yolundan edib,
Hansı dərəyəsə saldırar külək.

Hərdən ev-eşiyə qor kimi dolar,
Nərgiz də, lalə də, zanbaq da solar.
Hərdən də hirslənib dəli tək olar,
Torpağı göylərə qaldırar külək.

Bəzən xəzri olar, bəzən gilavar,
Bəzən meh adlanar, bəzən ruzigar.
Həyatda yel kimi adamlar da var,
Əsəndə götürüb aparar külək.

Yellədər yaylığın o son baharın,
Müjdəsin gətirər neçə ilk qarın,
Görüşə gecikən bir nazlı yarın,
Günahın boynundan aldırar külək.

## MƏNİM ÜRƏYİMİ SINDIRMA, GÜLÜM

Mən qəlbi kövrəyəm, tez inciyənəm
Mənim ürəyimi sındırma, gülüm.
Bir az kədərliyəm, bir az qəmliyəm
Mənim ürəyimi sındırma, gülüm.

Sözdən söz seçərəm, baxışdan baxış,
Mülayim rəftar et, mülayim danış,
Xoş sözlə qəlbimi almağa çalış,
Mənim ürəyimi sındırma, gülüm.

Sənə gümanlıyam, sənə bağlıyam,
Bəxtəvər səhərli, xoşbəxt çağlıyam,
Sənlə aranlıyam, sənlə dağlıyam,
Mənim ürəyimi sındırma, gülüm.

Ürək şüşə kimi, billur kimidir,
Tez sınan, qırılan qürur kimidir,
Tarın məlahəti sarı simidir,
Mənim ürəyimi sındırma, gülüm.

Şam kimi əriyib yanandı ürək,
Çox şeyi beyin tək duyandı ürək,
Bir də görərsən ki, dayandı ürək,
Mənim ürəyimi sındırma, gülüm.

## RAFİQ VƏLİZADƏ
(1953)



**Vəliyev Rafiq Kərəm oğlu** 1953-cü ildə Qazax rayonunda anadan olmuşdur. Doğulduğu doğma rayonda 1970-ci ildə orta məktəbi bitirmişdir. Sonra təhsilini davam etdirmək üçün Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olmuş və müalicə–profilaktika fakültəsini başa vurmuşdur (1970–1977).

İnstitutu bitirdikdən sonra Rafiq Vəlizadə "Zaqulba" sanatoriyasında həkim işləməyə başlamışdır.

Hələ uşaqlıqdan ədəbiyyata bağlı olan şair, tələbəlik illərində dövri mətbuatda müntəzəm çıxış etmiş və səsi tez–tez efir dalğalarından gəlmişdir. Yaradıcılığında o vaxtlar M.Ə.Sabir adına kitabxanada A.Əlizadənin, Lenin adına kitabxanada N.Həsənzadənin rəhbərlik etdikləri ədəbi dərnəklərin böyük rolu olub. Tibb İnstitutunda da fəaliyyət göstərən "Çeşmə" ədəbi dərnəyinin də ən fəal üzvü olmuşdur.

80-ci illərin əvvəllərində "YENİ SƏSLƏR" almanaxında 20–dən artıq şeiri ilə çap olunmuşdur (Redaktoru: Müzəffər Şükür). Almanaxda yer alan şeirləri yüksək qiymətləndirilmişdir. Sonralar da onun imzasına tez–tez rast gəlmişik.

Rafiq Vəlizadə (Kərəmoğlu) M. P. Vaqif, M. V. Vidadi, S. Vurğun, O. Sarıvəlli, M. Hüseyn, İ. Şıxlı, H. Arif kimi dahi yazarlara həsr edilən məşhur "YEDDİ OĞUL İSTƏRƏM" kitabının iki tərtibatçısından biridir.

## İNDİ MƏNİ TANIMADI

*(Bu şeirə mahnı bəstələnib, ilk ifaçısı Şamo İsayev)*

İllərlə sevib–seçdiyim,
Peyman edib, and içdiyim,
Yolunda candan keçdiyim
İndi məni tanımadı.
Nəqarət:
Həmişə gizlin gələrdi,
Üzümə xəfif gülərdi,
Mənlə sevincin bölərdi,
İndi məni tanımadı.
Nə usandım, nədə bezdim,
Hər cürə nazına dözdüm,
Min bir əzabına dözdüm,
İndi məni tanımadı.
Bilmirəm nə olub getdi,
Məni dərdə salıb getdi,
Ürəyimi alıb getdi,
Daha məni tanımadı.

## DAĞLAR O DAĞLARDIR, O ÇAĞLAR HANI?

Dağlar yaşamaqdan illəri yorub,
Qayalar necə var, elə də durub.
Həmin bulaqlardır göz kimi duru...
Qanimda qaynayan bulaqlar hanı?
Dağlar o dağlardır, o çağlar hanı?

Yuxuydu dünyada dərdi–sərimiz,
Dağ idsi arandan qaçan yerimiz.
Odur, orda qalıb ocaq yerimiz,
Gözümdə oynayan ocaqlar hanı?
Dağlar o dağlardır, o çağlar hanı?

Sallanıb gələrdi bulağın üstə,
O yanağı lalə, dodağı püstə.
Biz də boylanardıq qulağı səsdə,
Hanı, o əvvəlki "qoçaq"lar hanı?
Dağlar o dağlardır, o çağlar hanı?

## HƏYAT NƏĞMƏSİ

Sən doğulan şəhər birdi, –
Şəhərlər o qədərdi ki...
Mən boğulan qəhər birdi, –
Qəhərlər o qədərdi ki...

Biz yaşında nəsil birdi,
Nəsildə kök, əsil birdi.
Biz yaşayan əsr birdi, –
Əsrlər o qədərdi ki...

Səni mən tək duyan birdi,
Mənə sən tək həyan birdi.
İkimizə dünya birdi, –
Dünyalar o qədərdi ki...

## SƏRDAR KƏRİMLİ
(1954–2003)



**Sərdar İsa oğlu Kərimli** 1954-cü il Azərbaycanın Göyçə mahalında anadan olub.

1971-ci ildə Bakı şəhərində 30 saylı orta məktəbi bitirdikdən sonra, bir müddət N.Nərimanov adına Azərbaycan dövlət Tibb İnstitutunda preparatçı işləmişdir.

1972-ci ildə müvəffəqiyyətlə imtahan verərək Azərbaycan Dövlət Tibb İnstitutunun 2-ci müalicə–profilaktika fakultəsinə daxil olmuş, 1978-ci ildə həmin ali məktəbi bitirmişdir. Hələ tələbə ikən, institutun ictimai həyatında yaxından iştirak edən Sərdar Kərimli tələbə yoldaşlarının, eləcə də bu təhsil ocağının rəhbərliyinin nüfuzunu qazanmışdır. Elə buna görə də, 1978–1980- cı illərdə rəhbərlik tərəfindən Bakı zona tələbə–inşaat dəstələrinin baş həkimi təyin edilmişdir.

O, 1980–1983- cü illərdə Bakı şəhər təcili və təxirəsalınmaz tibbi yardım stansiyasında əvvəlcə çağırışçı həkim, sonra böyük həkim vəzifələrində çalışmış, eyni vaxtda bir neçə il həmin stansiyanın ilk partiya təşkilatının katibi kimi işini davam etdirmişdir. Sonra təhsilini davam etdirən S. Kərimli 1985-ci ildə Bakı Ali Partiya məktəbini bitirmişdir. Təhsili müddətində Bakı Ali Partiya Həmkarlar İttifaqı Komitəsinin sədri vəzifəsi də ona həvalə edilmişdir. 1985-ci ildə təyinatla Azərbaycan KP Nəsimi Rayon Partiya komitəsinə göndərilmiş, 1989- cu ilə qədər burada təlimatçı kimi çalışmış, rayon səhiyyəsinin kuratoru olmuşdur.

Sərdar Kərimli 1990- cı ildə Səhiyyə Nazirliyinə işə keçmiş, işlər idarəsinin 1-ci dərəcəli həkim–inspektoru, kadrlar və tədris müəssələri idarəsinin 1-ci dərəcəli hə-

kim–inspektoru, aparıcı mütəxəssisi və rəisi, kadrlar, elm və təhsil baş idarəsinin rəisi, 1999-cu ildən ömrünün sonunadək Azərbaycan Respublikası Səhiyyə nazirinin 1-ci müavini olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 2000-ci ilin 2 Noyabr tarixli sərəncamı ilə Sərdar Kərimli Azərbaycan Respublikasının əməkdar həkimi fəxri adına layiq görülmüşdür.

İstedadlı şair, ədəbiyyatçı, publisist, tanınmış dövlət xadimi, əməkdar həkim 2003- cü il Dekabr ayının 23–də vaxtsız (49 yaşında ikən) dünyasını dəyişmişdir. Öz kamalı və qabiliyyəti ilə seçilən, xeyirxah əməlləri ilə, vətənsevərliyi ilə, dost sevgisi ilə Sərdar Kərimli dostlarına, həmkarlarına, ailəsinə və övladlarına təkcə xoş və fərəh dolu xatirələr qoyub getmədi. O, xalqın qəlbində ölməzlik qazandı!

## KÜSMƏ

Dindirsəm, qar yağar qaş–qabağından,
Sən məndən deyinib–küsəndə, küsmə.
Bu qədər dəyişib sozalmaz, gülüm,
Ayaz dəymiş nərgiz, süsən də, küsmə!

Baxışlar daşıyar hər dərdi, səri,
Baxışlar söyləyər nəğməni, şeiri,
Gözüm kövrək–güllü qafiyələri,
Qumral gözlərinə düzəndə, küsmə!

Köksümdə əriyər həsrət düyünü
Əlim əllərinə dəysə o günü.
İntizarın, sənsizliyin kökünü
Sinəmdən qoparıb üzəndə, küsmə

Alışdırdın mənim sonsuz sevgimi
Qığılcım–baxışla, yanar qov kimi.
Həsrət dodaqlarım cüt alov kimi
Titrəyib üzündə əsəndə, küsmə!

Sərdarın həyatı gül nəfəsində,
Gəl məni söndürmə bircə əsimdə.
Qaynar baxışının od kürəsində,
Qovrulan da mənəm, dözən də, küsmə!

## NİYƏ ÖZ SEVDAMIN ÖZGƏSİ OLDUM?

Niyə öz sevdamın özgəsi oldum, –
Qəfil kəhkəşandan bir ulduz axdı
Mən yoxam, göylərdə qeyb oldum daha,
Bu ilahi payı olan eşqimi,
Viran etdin, daha neyləyəcəksən?!

Bir nağlı sehriylə sevdirdin mənə, –
Tanrım, bu mələyi yetirdin mənə,
Yetirdin də dönüb əlimdən aldın,
Bir behişt ətrini gülümdən aldın.
Yandırdın, heyfini gülümdən aldın,
Divan etdin, daha neyləyəcəksən?!

Əlimi uzatdım, əlin "yox" deyir,
Daha o sevdalı dilin "yox" deyir.
Köksümü oxşayan telin "yox" deyir,
Yaz ətirli ömrüm çovğunlu qışdı,
Tufan etdin, daha neyləyəcəksən?!

Bir gün duman kimi çöküb gələcəm,
Gözümlə şimşəyi çəkib gələcəm.
Göyləri ruhuma büküb gələcəm,
Qəhər, –göz yaşıyla titrəyəcəksən.
Bax, onda de görüm neyləyəcəksən?
Söylə, söylə, bilim neyləyəcəksən?!

## GÖYLƏR ÇAĞIRIR

Torpaqla asiman arasındayam,
Yer məni səsləyir, göylər çağırır.
Cismimi yer çəkir, ruhumu göylər,
Mən qala bilmirəm, göylər çağırır.

Yetişib mənzilim, başadır mənim,
Torpaq, səma–qibləm, qoşadır mənim,
Ömrümü üç balam yaşadır mənim,
Mən qala bilmirəm, göylər çağırır.

Şaqraq gülüşlərim, şən nəğmələrim,
Nakam sevda dolu qəm nəğmələrim,
Bir qu nəğməsiydi son nəğmələrim,
Mən qala bilmirəm, göylər çağırır.

Xoşbəxt tale payım, sən–Rəna, oldun. –
Şam idim, başıma pərvanə oldun,
Hər bir əzabımdan divanə oldun,
Əfv elə, gedirəm, göylər çağırır.

Rəşidə, boyunun qurbanı olum,
Rəşidəm, mehrinin heyranı olum!
Qoy uçum göylərə tərlanın olum,
Mən qala bilmirəm, göylər çağırır.

Rəşadım, bir dünya könül varımsan,
Nurumsan, möhtəşəm dağ vüqarımsan,
Mənim ciyərparam, ilk nübarımsan,
Bağışla, gedirəm, göylər çağırır.

Sən mənə Nicatsan, sən mənə arxa,
Kişiyə yaraşmaz ölümdən qorxa,
Sınma, bir də gələr su gələn arxa,
Bağışla, gül balam, göylər çağırır.

Dünya pəncərədi, ömür həvəsdi,
Hər bir cəfamıza dözdün də, bəsdi.
İmdadım, imdada yetmə əbəsdi,
Mən qala bilmirəm, göylər çağırır.

Ana, qolların aç, ağla məni,
Sel kimi gözündə yaş, ağla məni,
Artıq yanındayam, qucaqla məni,
Ruhum qala bilmir, göylər çağırır.

Dayağım, sirdaşım olan dostlarım,
Bulud tək boşalıb, dolan dostlarım,
Sizə xatirəmdi qalan, dostlarım,
Mən qala bilmirəm, göylər çağırır.

***18 noyabr 2002***
***Moskva. Mərkəzi Klinik Xəstəxana***

## YAXŞILIQ

Qaranlıq yollarda işıq yandırar,
Dumanın yolunu tutar yaxşılıq.
Soluxmuş gülləri pərvazlandırar,
Arzunu arzuya qatar yaxşılıq.

Nadanı sındırar–hünərsiz eylər,
Gödəldər dilini, kəsərsiz eylər.
Namərdə divanı xəbərsiz eylər
Yamanın gözünə batar yaxşılıq.

Günəşdən ucadır öz baxışıyla,
Ölçülüb çəkilməz dünya varıyla.
Bir insan nəslinin cığırlarıyla
Qayıdıb özünə çatar yaxşılıq.

## SAZ

Elə nalə çəkib fəryad etməyin,
Siz Allah, amandı, aman, a tellər.
Kükrəyib, hönkürüb... dindirin məni,
Dağılsın fikrimdən duman, a tellər.

Elə qüdrətlidir onun hər simi, –
Min könül padşahı, min qəlb hakimi...
Gah coşub hayqıran Koroğlu kimi,
Gah da Kərəm kimi yanan, a tellər.

Kərəm qəm içində qovruldu, yandı,
Dilqəmin qüssəsi ərşə dayandı.
Ustad hər halından min dərd duyandı, –
Sizdə sızıldayır zaman, a tellər.

Möhtəşəm bir dağın gur bulağısan,
Sevən könüllərin hicran dağısan.
Ələsgər qəlbinin od saçağısan,
Alovdu köksündən qopan, a tellər.

## SIX SAZI SİNƏNƏ...

Sıx sazı sinənə, oxu, qardaşım,
Şeirlərin muğan düzündən betər...
Qüssənin şaxtasın, kədərin qışın
Gördüm–cəhənnəmin üzündən betər...

Qüssələr qəlbini oda yaxanda, –
Bağrım şan–şan olur sənə baxanda.
Görüb çəkdiyini, vallah, bu anda
Bezirəm canından bezəndən betər...

Sim kimi titrərəm nəfəsdən belə. –
Gəzərəm, dolannam belədən–belə...
Kədər ilan təki dolanar belə,
Çalar namərdləri özündən betər..

Zaman elə əsdi yolları kəsdi..
İndi xeyir şərnən nəfəs–nəfəsdi.
Könlümdən bir duyğu yel kimi əsdi, –
Yanar tonqal üstə... gözündən betər!

Həsrətli gözlərdə bir damla yaşam, –
Kürəm, Araz qalıb məndən pərişan.
Dərddən qaralmışam, dərddən yanmışam,
Közüm atəşgahın közündən betər!

Dözülməz sitəmi biz duyanmışıq,
Kədər qabağında düz dayanmışıq,
Alov yaman gəldi, ele yanmishig...
Sən məndən betərsən, mən səndən betər!

***

**Fəxrəddin Davudun**
**(Davud Qəribin)**
**yazdığı təcnisə cavab**
*(Sazda ifa olunub)*

1
Öp gözündən, qoyma küsə küsdümü,
Gözlər necə qıydı mən tək Sərdara?
Bu cavan çağında yarın küsdümü,
Tök saçların sinəm üstə sər, dara.

Qaldı dodaqlarda vüsal–ərdəbil,
Dolan, yarı axtar, eşit, ərdə bil!
Fərhad olsa ağrın alım ər də, bil, –
Doluşar sözündən düşər sərdara.

Gəzər gözün göyü, gəzər göy nəyi?
Göylərdən geyinib gözüm köynəyi.
Yaman olub bu hicranın göynəyi,
Ağladar qəribi, gülər Sərdara.

2
Qərib dostum, yaman kövrəltdin məni,
Dağ üstdən dağladın, Qərib, sinəmi.
Bir şamam, dövrəmdə danış, din, məni...
Qoyma, ölüb gedə qərib sinəmi.

Him tökməmiş divar hara, dam hara?
Zümrüddən divar yap, sonra dam ara!
Sən Allah, neştəri vurma damara,
Qoyma gözü yaşlı Qərib Sənəmi.

Qüssələnmə, bax gülənə, gör şadı!
Dərdə dəydi, iti könlüm korşadı.
Bu kədər leysanı, bu qəm gürşadı
Mənəmi toxundu, Qərib, sənəmi?!

## NƏNƏMƏ

Çağırıram səsim sənə yetişsin,
Səslə məni, sən də səslə, ay nənə!
Xumarlanım, qığıldayım qucunda,
Gözləyirəm min həvəslə, ay nənə!

Nur camalın ömrüm üçün yol açar,
Öp dilimdən, onda nəvən dil açar.
"Gəlişimdən, gülüşümdən gül açar",
Gül açanda məni gözlə, ay nənə!

Tələsirəm, qollarında gəzməyə,
Sözlərindən sevinməyə, küsməyə.
Mənim üçün qurban deyib kəsməyə,
Bir qəşəngcə quzu bəslə, ay nənə!

Ömrüm–günüm, ürəyimsən, anamsan
Sən bizlərə pərvanəsən, yanansan.
Mən Rəşadam, sən də mənim Sonamsan!
Sənsiz nəyik, bircə sözlə, ay nənə?!

***1980.***

## ƏFSUN
*(nəğmə)*

Ruhumu titrədən qənirsiz gözəl!–
Olaydın qəlbimi duyanım, Əfsun!
Dadlı duyğulardan bal röyalardan
Sənin müşk ətrinlə oyanım, Əfsun!

Sən səma elçisi, mələkmi, kimsən?
Yaz dumanı kimi çöküb gəlmisən.
Kəhkəşan nurunu çəkib gəlmisən,
Ulduzum, bəyaz buludum,
Gözlərini necə unudum
Arzular, arzumla umudum
Şəfəqinlə nurlanım, Əfsun!

Ayna qəlbin daim mənimçün olsun,
Könlüm qanadlanıb göyərçin olsun.
Nağıl yuxularım kaş ki, çin olsun,
Mələk şəfəqinlə nurlanım, Əfsun!

Bütün mələklərdən birinci kimi,
Dəryalar cövhəri nur inci kimi,
Sehrkar düzümlü dürr–inci kimi,
Şümşad biləyinə dolanım, Əfsun.

## İNCİMƏ

Niyə göylər kimi dolmusan yenə?
Məndən incimisən, gülüm, incimə!
Çən duman bürüyüb gülən çöhrəni
Nədən incimisən, bilim, incimə!

Cazibəndən kənar çətin ki, gəzəm,
Elə ovsunladın məni, acizəm.
Sən mənim ilahəm, pirim, möcüzəm, –
İstəsən səcdənə gəlim, incimə.

Yağdır gül dodaqdan təbəssüm mənə, –
İlğımdan sıyrılsın, tələssin mənə.
Behişt nəfəsindən meh əssin mənə,
Titrəsin telində əlim, incimə.

## DÖNSÜN

Röyalı, nəğməli aləmdə sənsiz,
Əzabdı, dözmərəm, ay ilə dönsün.
Nur ümmana çıxan vüsal gəmisi
Azmasın, geriyə, sahilə dönsün.

Ruhumsan, sevgimin qədəri hanı?–
Əngin göylərdəki ulduzlar sanı.
Nəqşi  heyrət qoysun eşqin dunyanı,
Açılsın, əfsunlu tər gülə dönsün.

Razıyam, min dəfə alışım, sönüm...
Əsmər yanağında mən telə dönüm.
Bu eşqə rişələr atanda könlüm,
Avazı qumrovlu bülbülə dönsün!

Rayihən ömrümə bahar çiçəyim,
Əlvan gül üstündə titrək ləçəyim,
Nahaqdan könlünə dəysəm, göyçəyim,
Arzum gözlərimdə niskilə dönsun.

## DÖNDÜM

Tanrım, mənə ömür verdin.
Qüdrətinlə selə döndüm.
Gahdan sakit dəniz oldum,
Gah tufana, yelə döndüm.

Mən dönürəm son qalama, –
Ömür, yanma, gəl halıma.
Səni verdim üç balama,
Gün–gün, ay–ay ilə döndüm.

Fələk, sənlə əyişmədim,
Əcəl, sənlə deyişmədim,
Mən dünyamı dəyişmədim, –
Allah, yandım külə döndüm!

Torpaq, boynuna sarılam, –
Əhdinə düz ilqarınam
Səni sevən Sərdarınam,
Sinəndə bir gülə döndüm.

***18 noyabr 2002***
***Moskva, SKB klinikası***

## AMAN, NƏDİR BU BAXIŞLAR!

Nə zamandır ürəyimə
Heç bilmirəm, daman nədir?
Sərin gəzən küsgün gülüm,
Bu aldanmış güman nədir?

Sevinc dönüb yenə gəlsin,
Bəxt imana, dinə gəlsin,
Dərdin–qəmin mənə gəlsin,
Çöhrəndəki duman nədir?

Bir heyrətli dünyadayam,
Dürr–incilli dəryadayam,
Ay insafsız, röyadayam,
Ayıl, nədi, oyan, nədi?!

Qor tökülər, alov daşar,
Aman, nədir bu baxışlar?
Dedi gülünc olma, ey yar,
Son andasan, aman nədir?!

## QƏŞƏNGİN NƏĞMƏSİ
*(Qoşayarpaq qoşma)*

Qovuşaq bir anı, gəzək dünyanı...
Gəzək bir gümanı deyə, qəşəngim.
Qoyma bu dumanı, bahar leysanı
Qumral saçlarını döyə, qəşəngim!

Qom hörüklər nizam, tel düzüm–düzüm,
Gəlmir üzüm sənə, deyim sirr–sözüm.
Yox gecəm–gündüzüm, həsrətdi gözüm,
Ola bir təbəssüm deyə, qəşəngim!

Məndən kənar gəzən, bircə biləsən,
Necə dözür görən bu dərdə dözən.
Qumrovlu qəh–qəhən qıylanmır nədən,
Niyə dönükmüsən, niyə, qəşəngim?

Çevir mənə sarı od yanaqları,
Lalə dodaqları gizlətmə barı.
İncitmə Sərdarı, qoyma yadları,
Düz əhdi–ilqarı əyə, qəşəngim!

## BİR GECƏ

Taleyimə düşən paydı gecələr,
Günlərimi yaman saydı gecələr.
Görən bizə necə qıydı gecələr?–
Şirin gecə, nağıl gecə, sirr gecə.

Bir sevdaydı, dayanaraq üz–üzə,
Əl–ələydik, göz–gözəydik, diz–dizə.
Saçlarına, hər gələndə sən bizə,
Ulduzlardan səpilirdi zər gecə.

Yalvarardım, danış yenə, din yenə,
Sənin üçün darıxmışam mən yenə,
Deyərdim ki, qurban olum, sən yenə
Saçlarını sinəm üstə sər gecə.

Öyrənmişdim tellərinin ətrinə,
Nəfəsinin, əllərinin ətrinə.
Bilirsən ki, təkcə sənin xətrinə,
Sübhə qədər dayanardım hər gecə.

Tez unutdun gecələri nədənsə,
Gəzdiyimiz küçələri nədənsə,
Çağırmadım, nə mən geri nədənsə,
Nə sən geri qayıtmadın bir gecə...

## OCAQ

Bir qayadı, dara çəkər zülməti,
İşığıyla pardaqlayar gecəni.
Üzük kimi şölə saçar yamacda,
Nişan taxıb adaxlayar gecəni.

Layladırmı?.. dodağından çağlayar, –
Mürgü döyən kar qayalar laxlayar.
O tay–bu tay qaranlığı bağlayar,
Bir yamaca çataxlayar gecəni.

İstəyini istiləyər, gözlədər,
Arzusuna əlin dəysə gizlədər.
Günəş çıxsa işığını gizlədər,
Öz külündə soraqlayar gecəni.

Tapılıbdır ulduzlara bir bacı,
Yanağı od, hörükləri nur tacı.
Özü boyda qaraldaraq yamacı,
Gündüzlərə pay saxlayar gecəni...

## ÖTƏN GÜNLƏRİM

Gəncliyimdən qopan, ömrümdən qopan, –
Axan ulduz kimi itən günlərim.
Hicran sızıltılı, vüsal nəğməli,
Ay ötən günlərim, ötən günlərim!

Siz ki, yarandınız günəşdən, nurdan
Uçub ayrıldınız bir–bir ömürdən…
Çiçək–çiçək olan, ulduza dönən,
Çilənib göylərə bitən günlərim,
Ay ötən günlərim, ötən günlərim!

Hər anı mehr idi, ünsiyyət idi,
Bir dünya eşq idi, səadət idi.
Naxışı, zinəti məhəbbət idi,
İlğıma döndünüz nədən, günlərim?
Ay ötən günlərim, ötən günlərim!

Tanrı yaratdığı bir sehr olaydı,
Bütün ayrılıqlar kaş qəhr olaydı…
Yenidən çağlayan gur nəhr olaydı
Nağıl qanadında gedən günlərim.
Ay ötən günlərim, ötən günlərim!

## AĞLAMA, GÜLÜM, AĞLAMA!

İldırım parçalansa,
Sevgi qayam haçalansa,
Səni qoyub qaçaramsa,
Ağlama, gülüm, ağlama!

Axar oldu çox axmazlar,
Gedənləri saxlamazlar.
Vəfasızçün ağlamazlar,
Ağlama, gülüm, ağlama!

Uzaq gəzəm sərsəm–sərsəm,
Sən bu dərdə də dözərsən.
Qapınızda gəlib ölsəm,
Ağlama, gülüm, ağlama.

Qoymaram gül tək solasan,
Bir sevgidən kam alasan,
Getdim ki, xoşbəxt olasan,
Ağlama, gülüm, ağlama!

## SAĞLIĞIMDA....

Göz yaşını tök sinəmə–dəfn elə,
Ağlayırsan–sağlığımda ağla sən.
Qəhrin varsa, sağlığımda qəhr elə,
Ağlayırsan–sağlığımda ağla sən.

Varmı indi ahdan yanan kərəmlər,
Odu odla söndürəcək Sənəmlər?
Bir də çətin ələ düşə bu dəmlər,
Ağlayırsan–sağlığımda ağla sən.

Gedən gedər, qəmi qalar bir içim,
Fərqi yoxdur: ya üç mini, ya üçü...
Məzar üstə çoxu ağlar görk üçün,
Ağlayırsan–sağlığımda ağla sən.

Qorx ki, sabah qəbirlər də çapıla,
"İnciləşən" göz yaşları qapıla...
Bu yaşları silən biri tapılar, –
Ağlayırsan–sağlığımda ağla sən.

## CABİR UMUD
(1954–2015)



**Cabir Umud oğlu Hüseynov** 1954- cü il dekabr ayının 5–də Kəlbəcər rayonunda anadan olub. Kəlbəcər rayon 1 saylı orta məktəbini bitirib. 1973- cü ildə Nəriman Nərimanov adına Tibb İnstitutuna daxil olub, 1979- cu ildə müalicə işi ixtisası üzrə tam kursu bitirib, həmin ildən doğma rayonuna qayıdıb, əmək fəaliyyətinə Kəlbəcər rayon Qılıclı kənd xəstəxanasında həkim–terapevt kimi başlayaraq baş həkim vəzifəsinə kimi yüksəlib. 3 övladı–2 oğlu, 1 qız atası olub. Savadlı həkim olmaqla yanaşı Cabir Umudun çox güclü şairlik istedadı olub.

1993- cü il Kəlbəcər rayonunun işğalından sonra Cabir Umud Bakı şəhərində məskunlaşıb. Vətən həsrəti, yurd itgisi şairin əsərlərində özünü açıq şəkildə biruzə verir. Təəssüf ki, şair 2015-ci il iyulun 28–də dünyasını vaxtsız dəyişdi. Onun "Qəm dəyirmanı", "Bu daş, bu tərəzi", "Dərdim varsa tək deyiləm" adlı 300–350 səhifəlik şeir kitabları Ağdaban faciəsinə həsr olunmuş və "Burda bir kənd vardı" poeması, 1000–ə yaxın cinaslı bayatıdan ibarət olan "Bayatı yağmuru" kitabı müxtəlif illərdə çap olunub. Cabir Umudun folklorumuza dəyərli töhfə olacaq hazırda işıq üzü görəcək "Sazın dastanı" poeması da tezliklə oxucuların ixtiyarına veriləcək.

# VƏTƏN MƏNƏ OĞUL DEYƏR

*“Vətən mənə oğul desə nə dərdim,*
*Mamır olub qayasında bitərdim”.* **Məmməd Araz**

Mamır olub qayasında bitməz ikən,
Vətən mənə oğul deyər?!
Dağlarında qıyya çəkib ötməz ikən,
Vətən mənə oğul deyər?!

Buz bulağı yad əllərə sərinlikdir,
Qisas almaq–ər istəyir, ərənlikdir,
Dərdi, qəmi nəhayətsiz dərinlikdir,
Vətən mənə oğul deyər?!

Dərilərkən tapdalanar çiçəkləri,
Sevilərkən, ləkələnər göyçəkləri,
Görə–görə anlamıram gerçəkləri,
Vətən mənə oğul deyər?!

Naxış salmır zəmilərə lalaları,
Öz oduna qalanıbdı talaları,
Yağmalanıb quş səkməyən qalaları,
Vətən mənə oğul deyər?!

Nə müddətdir düyün düşüb qaşlarına,
Niyə qanım çilənməyib daşlarına?
Nə qədər ki, dözürəm göz yaşlarına,
Vətən mənə oğul deyər?!

Nə qədər ki, süslüyümü boğmamışam,
Nə qədər ki, yanğısına yağmamışam,
Nə qədər ki, qeyrətimi boğmamışam,
Vətən mənə oğul deyər?!

Nə vaxt qanım daşlarında güllənəndə,
Adım–sanım, yer üzündə bəllənəndə,
Qara zurna yurd yerində dinlənəndə
Vətən mənə oğul deyər!

## ŞAİR DÜNYASI

Deyirlər, şairlər kövrək olurlar,
Kövrəklik, şairin elə  dünyası,
İçində bir Kərəm, bir Əsli yanır,
Pərən–pərən düşüb Lələ dünyası.

Bir çiçəyi açır, bir gülü solur,
Bir xoş təbəssümdən bəxtiyar olur,
Gah könlü talanır, gah gözü dolur,
Döyülür yağışa, yelə dünyası.

Günləri ötüşmür qayğıdan uzaq,
Bir anı yaşamır duyğudan uzaq,
Məhəbbəti deyil sayğıdan uzaq,
Cəfasıynan təndi şələ dünyası.

Bir bilən varmı ki, qəlbi nədəndi?
Kövrəklikdən bağrı zədən–zədəndi,
Bir cəfakeş ürək, bir də bədəndi,
Sirrin bildirməyib hələ dünyası.

Qəlbinə toxunsan, ah–aman olar,
Simsarı bir dərdi, bir zaman olar,
Şairin yanması nə yaman olar,
Bir də gördün döndü külə dünyası.

## KƏFƏNİN CİBİ OLMUR

Can eşqinə don tikənlər,
Uzun ölçüb gen tikənlər,
Beş tikənlər, on tikənlər,
Kəfənin cibi olmur.

Fani sevgilərin yolu,
Həsədlə, pisliklə dolu,
Ey azmış nəfsinin qulu,
Kəfənin cibi olmur.

Feyz eylər yaşı dünyanı,
Sən bilmə naşı dünyanı,
İstəsən daşı, dünyanı,
Kəfənin cibi olmur.

Könlünü göylərə səslə,
Yolçu ol, irfanı kəslə.
Rəbbinə sevgilər bəslə,
Kəfənin cibi olmur.

Varı cibdə yaşayarlar,
Var hökmünə daş oyarlar,
Varı cibdə daşıyarlar.
Kəfənin cibi olmur.

Sən qonaqsan, köçmək sənlik,
Sirat öndə, keçmək sənlik,
Iki yol var: seçmək sənlik,
Kəfənin cibi olmur.

## DÜNYANI BELƏ GÖRÜRƏM…

Birdən elə kövrəlirəm,
Göz yaşım içməyim gəlir.
Çeşid–çeşid dərdlərimi
Dəsbədəst seçməyim gəlir.

Dünyanı elə görürəm,
Düzəlmir hələ, görürəm,
Dünyanı belə görürəm,
Dünyadan köçməyim gəlir.

Dövran əyib öz yükünü,
Xıırıd eləyir bez yükünü,
Sahmanlayıb söz yükümü,
Hər şeydən keçməyim gəlir.

Yetmir Cabirin hayına,
Başı qarışıb oyuna,
Bu dünyanın öz boyuna,
Bir köynək biçməyim gəlir.

## QARA DAŞIN GÖYƏRƏSİ VAXTIDIR

*"Bu dünyanın qara daşı göyərməz".*
*Musa Yaqub*

Dünya tamahına qarındaş olub,
Qara daşın göyərəsi vaxtıdır
Dünya dönüb, özü qara daş olub,
Qara daşın göyərəsi vaxtıdır.

Qara yellər qara–qara əsmədə,
Çıraq yandır, qaranlıqdan küsmə də,
Qara günlər artıq qara kəsmədə,
Qara daşın göyərəsi vaxtıdır.

Bu nə sirdir, döyüş həngi çalınmır,
Qol sınıbmı, zəfər zəngi çalınmır?!
Qara zurna susub, "Cəngi" çalınmır.
Qara daşın göyərəsi vaxtıdır!

O daş sənsən, o daş mənəm, Yurd əsir,
Ormanında tənha qalan qurd əsir,
Göyərməmək dən gözləyən Yurda sir,
Qara daşın göyərəsi vaxtıdır!
Qara daşın göyərəsi vaxtıdır!

## SƏBRİN NƏ ÇOX İMİŞ, AY EV YİYƏSİ?

Daşdan yaranmısan, daş da əridi,
Səbrin nə çoximiş, ay ev yiyəsi?
Bir günün üstünə illər yeridi,
Səbrin nə çoximiş, ay ev yiyəsi?

Bir budaq gövdədə kəsili qalıb,
Bir alma budaqda küsülü qalıb,
Bir evin ümidin asılı qalıb,
Səbrin nə çoximiş, ay ev yiyəsi?

Gileylidi ötən zaman, ötən çağ,
Təşnə olub solan bağça, solan bağ,
Səndən ötrü bir bayatı lələdağ,
Səbrin nə çoximiş, ay ev yiyəsi?

Bir həsrət boylanar, hey səni görməz,
Bir istək meylini kimsəyə verməz,
Nə atın kişnəməz, nə itin hürməz,
Səbrin nə çoximiş, ay ev yiyəsi?

Sığalın əlindən alan çiçəklər,
Təhnizdə, töhmətdə qalan çiçəklər,
Halallıq istəyir solan çiçəklər,
Səbrin nə çoximiş, ay ev yiyəsi?

Dağlar qəhərlənər, çənə bələnər,
Yurd yerinə ələm, hüzn ələnər,
Qeyrət, təpər dar ayaqda bilinər,
Səbrin nə çoximiş, ay ev yiyəsi?

Alçaldılan bir belə də yatar,dur!
Torpağında qanqal, tikan bitər, dur!
Bu mütilik, bu donuqluq yetər, dur!
Səbrin nə çoximiş, ay ev yiyəsi?
Səbrin nə çoximiş, ay ev yiyəsi?

## YARIM

*(Təcnis)*

Yarım dedim, yarım mənə küsəndi,
Yarımı da yar elədim yarıma.
Yarım sevdalandı, yarım yarında,
Əcəb lütf elədi yarım yarıma.

Oğrun baxan ya divanə, ya naşı
Köz bağlayar atəşimə yanışı,
Diləyimdir vüsalımla yanaşı,
Bu sevdadan yar yarıya, yar uma.

Verən buta verdi, sənə yar dedim,
Sınamağa bağrım başın yar dedim.
Qədəminə gül olaram yar, dedim
Gedər olsan ya Hələbə, ya Ruma.

Qarşı gələn zərif, zərif yara oxşadı,
Zərifliyi zərif yara oxşadı...
Cabir sevdi zərif yarı, oxşadı...
İstəməyən, səni görüm yarıma.

***05.09.2003***

## EYLƏYƏR

(Divani)

Uzun ömür nəyə lazım, əgər yoxsa səfası,
Əvvəl–axır əcəl yetər, oda büryan eyləyər.
Gileylənmə, nə faydası, dünyanın yox vəfası,
Dincliyini alar əldənqəmə giryan eyləyər.

Dil nə qədər ötgəmdirsə, yenə başa möhtacdır,
Şah zalımsa, taxt qızılsa, tacı qiymətsiz tacdır,
Gəda əgər hökmdarsa, yenə gədadır, acdır,
Asar–kəsər nahaq yerə, qəlbləri qan eyləyər.

Bu dünyanın hər üzü var, çox güvənmə özünə,
Bu dünya nazlı gəlintək görünməsin gözünə,
Saçlarına sığal çəkib, gülə, gülə üzünə,
Heç özün də duyamazsan, ömrünü son eyləyər.

Dərdi verər, uf da deməz, hünərin var alma sən,
Sarvana heç fərq eləməz, karvanından qalma sən,
Demə sənlə işi yoxdur, heç arxayın olma sən,
Dərdi arıya döndərər, sinəni şan eyləyər.

Dostu yoxla ömrün boyu, düşmən kimi birbəbir,
İgidin igiddən fərqi bir ehtiyat, bir səbr.
Heç kimlə ülfət bağlamaz qəmin bölməyən Cabir,
Dərdləriylə məclis qurub gecəni dan eyləyər.

***Aprel 1978***

# ƏFRAHİM
(1954)



**Əfrahim** (Hüseynov Əfrahim İsmayıl oğlu) — tanınmış həkim, şair, publisist, Azərbaycan Yazıçılar Birliyinin üzvü. 23 fevral 1954-cü ildə Cəlilabad rayonunun Alar kəndində anadan olmuşdur. Orta məktəbi doğma kənddə bitirmişdir. 1972-ci ildə Azərbaycan Tibb İstitutunun Müalicə–profilaktika fakültəsinə daxil olmuş və 1978-ci ildə yüksək qiymətlərlə təhsilini başa vuraraq terapevt ixtisası almışdır. Əmək fəaliyyətinə Bakı şəhəri, Qədirli adına Hövzə xəstəxanasında həkim–terapevt kimi başlamışdır. Sonra Cəlilabad rayonuna qayıtmış və Alar xəstəxanasının baş həkimi təyin edilmişdir. Hazırda da Cəlilabad rayonunda çalışır.

Ədəbiyyata 70-ci ildə mərkəzi mətbuatda çap olunan "Bakının gecə lövhəsi" şeri ilə gəlib Sonralar şeirləri tez–tez dövri mətbuatda çap olunub. Yaradıcılığında o vaxtlar M.Ə.Sabir adına kitabxanada A.Əlizadənin, Lenin adına kitabxanada N.Həsənzadənin, Tibb İnstitutunda Asif Babazadənin (Çeşmə") rəhbərlik etdikləri ədəbi dərnəklərin böyük rolu olub.

Müəllifini oxuculara daha da çox sevdirən "BU ŞƏHƏR HƏSRƏT YERİDİR" poemasının müəllifi də Əfrahimdir. Şeirləri Türkiyədə çap olunan "Altun kalemler" kitabında yer alıb.

Əfrahimin şerlərinə müxtəlif illərdə T. Bayram, N. Kəsəmənli, B. Bağırlı və başqa tanınmış ədəbiyyat adamları rəy yazmışdır. Bu rəylərdə onun şeirlərinin əsas qayəsini Vətən sevgisi, el–oba məhəbbəti, sevgi müqəddəsliyi, ata–ana ucalığı təşkil etdiyi vurğulanmışdır. Özünəməxsus poetik deyim tərzi olması yüksək qiymətləndirilir.

2000-ci ildə A. Şahsuvaroğlunun qələmə aldığı, yüksək tirajla çap olunan "ONLARIN QİSMƏTİ BELƏ ÖMÜRDÜR" kitabı Əfrahimin həkimlik fəaliyyətinə və yaradıcılığına həsr edilmişdir.

Əfrahim istedadlı şair olmaqla bərabər, həm də insanların rəğbətini qazanmış tanınmış və gözəl bir həkimdir. Rəhbərlik etdiyi kollektivdə böyük nüfuza malik olan Əfrahim neçə–neçə ailəyə sevinc bəxş etmişdir. Dəfələrlə fəxri–fərmanlarla təltif edilmişdir. "Xəmsə", "Cəsarətli qələm", "İbn–Sina" diplomlarına layiq görülmüşdür.

2000-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

Ailəlidir. Bir övladı var.

Əsərləri: 1.Səni gözləyə–gözləyə (şeirlər). 2.Yollar qayadan asılır (şeirlər və poemalar). 3.Ömrü hamıtək yaşasan (şeirlər və poemalar). 4.Məni axtaran varsa (şeirlər və poemalar). 5.Nə yaman çətinmiş məni tanımaq (şeirlər və poemalar). 6.Yağan yağış yollarını döydümü (şeirlər və poemalar). 7.Ürəyi aldatmaq olmur (şeirlər və poemalar). 8.Tərtib etdiyi kitab: Həkimlərin söz dünyası (Həkim–yazarların ilk poetik toplusu).

## ATAMDAN SONRA

Əllərim uzalı, əlini verməz,
Yaxşı ki, bu dərdi, həsrəti görməz.
Əyilib öpsəm də, yerini verməz
Bu qara torpağı atamdan sonra.

Bir vaxt sındırardı bar ağacları,
Torpağı öpərdi nar ağacları.
İndisə, əyibdi qar ağacları, –
Budanmır budağı atamdan sonra.

Ay ana, hardarır köçən qızların?–
Bu dərdi mənimtək çəkən qızların?..
Ayağı kəsilib vəfasızların,
Bilinmir sorağı atamdan sonra.

Düşən işıq idi zülmətə bu ev,
Bilmədik yurd olar xiffətə bu ev.
Yaman alışmışdı söhbətə bu ev,
Azalıb qonağı atamdan sonra.

Günlər ötüşəcək necə, bilmirəm?
Dərd su yerindədi, içə bilmirəm.
Daş–kəsək əlindən keçə bilmirəm
Bu yolu–yolağı atamdan sonra.

Ana, saçlarının hanı qarası?
Bu ömrün həsrətdir qalan yarısı.
İnciyib küsəndə, de, kim oxşasın
Balaca Afaqı atamdan sonra?

## İKİMİZ

*Ömür–gün yoldaşıma*

Ömür adlı çəmənimiz saraldı...
Bu çəməndə nə itirdik, nə qaldı?
Dərd çəkirdim anam yaman qocaldı,
Gəlib düşdük bu kəməndə ikimiz.

İllər ötür köhlənini çaparaq...
Gəlməmişdik xatirələr aparaq.
İndi şirin yuxularda taparıq
Özümüzü bu çəməndə ikimiz.

Bir də gördük göyün üzü qarışdı, –
Üzümüzdə göz yaşıdı, yağışdı?
Sarı otlar əlimizə dolaşdı,
Arzulardan əl çəkəndə ikimiz.

Ömür gedir... yaş o yaşmı... əllidi...
Dərd çəkənə çoxu deyir dəlidi...
Yolumuz da izimiz də bəllidi,
Yol azmadıq duman–çəndə ikimiz.

Heç demədik, gəlib keçir həyat da,
Ömürdəndi keçən gün də, saat da...
Afaq çəkmir gözlərini saatdan
İndi evə gecikəndə ikimiz.

## DAŞ ADAM OLA BİLMƏDİM

Bulud gəldi, külək hanı,
Yağış yağdı, çiçək hanı?
Günah yazan mələk hanı?–
Daş adam ola bilmədim.

Göz önündə ölüm–olum, –
Daşa döndü sağım, solum.
Çox istədim mən də olum
Daş adam...ola bilmədim.

Nə var danış, saxlama, bil,
Sınanmışam yoxlama, bil!
Ya ağla, ya ağlama, bil, –
Daş adam ola bilmədim.

Xəbərsizik yüz yaradan, –
Gecənin bağrın yara dan!
Bəxtimə yazıb yaradan, –
Daş adam ola bilmədim.

## BİR PAYIZ GÜNÜ

Səsim qulağından asılıb qalar,
Divardakı şəklim saralıb qalar,
Bu evə bir həsrət qısılıb qalar,
Əlin mənə çatmaz bir payız günü.

Vermə sözlərimi küləyə, vermə,
Doğruya yoz barı bir–iki kəlmə.
Üz tutub getdiyin sahilə gəlmə,
Ürəyinə yatmaz bir payız günü.

Mənim duyduğumu duydun tərsinə,
Bu haqqın önündə düşdüm tilsimə.
Mənsiz yuxuları sulara demə,
Bildiyin kimi yoz bir payız günü.

Yarpaqlar sazağa alışmaz belə,
Yollar bir–birinə qarışmaz belə.
O düzlər, dərələr danışmaz belə,
Nə axtar, nə də gəz bir payız günü.

Hər şeyi bilirsən, daha nə deyim...
Gəlib günahlara bəlkə baş əyim.
Qalar ünyetməzdə məni görməyin, –
Döz, mənsizliyə döz bir payız günü.

Bürüdü çən–çiçək, duman günləri,
Ağrılı–acılı viran günləri.
Ömrümdən üzülüb qalan günləri
Verdim, ömrünə yaz, bir payız günü.

## SƏN DOĞULAN GÜN

*Qızım Afaqa*

Yuxumu dediyim çay bu çay imiş,
Sularda görünən Ay bu Ay imiş.
Tanrıdan pay umdum, pay bu pay imiş, –
Dünyayla barışdım sən doğulan gün.

Həsrətin torpağa dəydi kürəyi, –
Bir pay gətiribdi tale küləyi.
Üzünü isladan anam İpəyin
Yaş deyil, yağışdı sən doğulan gün.

Xatirələr mənə nələr danışdı...
Daha saçım bəyaz, alnım qırışdı...
Sorağımda qaldı dost da, tanış da,
Bu evə yığışdım sən doğulan gün.

Gəlsin muştşluqçu, payı qalan var;
Bu gündən bu yana "dayı" olan var.
Baxışım xalı tək sərilən yollar
Nağılmı danışdı sən doğulan gün?!

Atam oğul dedi sarışın qıza,
Bu yurdda yer yoxdu daha payıza.
Göydən Ay boylandı, ulduz ulduza
Təzədən qarışdı sən doğulan gün.

Hardasa ağlasa, gülsə bir uşaq,
Səni axtararam Afaq, ay Afaq!
Oduna yandığım bu od, bu ocaq
Təzədən alışdı sən doğulan gün.

## SAĞOLLAŞAQ

Yolları uçuran qar var, yağış var, –
Bir mələk yanında min qəlbidaş var.
Mənimlə dərd adlı bağrıbadaş var,
Sevinc ver əlini, ver, sağollaşaq.

Umduğum ürəklər daş olub, gedim,
Yol çəkən–o gözlər yaş olub, gedim.
Köçən durnalara qoşulub gedim,
Dumana bürünən Yer, sağollaşaq.

Keçmədik, sulara dayaz dediksə,
Yolları kəsibdi ayaz dediksə,
Uzaqdan uzağa Araz dediksə,
Uzat əllərini, Kür, sağollaşaq!

Ömrü başdan başa qış deməmişdik,
Yolçu ol, qayadan aş deməmişdik.
Yeri yağış yuyar, yaş deməmişdik,
Dünya, bu yaylığı sər, sağollaşaq!

Yollar körpüsü yox, qalıb gözləyir,
Göz yuma bilməyən qürub gözləyir.
Dünya dar ağacı qurub gözləyir,
Ömür, köhlənini sür, sağollaşaq!

## BİRİNİ BİLİRSƏN, BİRİNİSƏ YOX

Gecələr açılmz qıfılbənd olub, –
Zülmətin sorğusu, sualları çox.
Vaxt–zaman əlində qaldım gileyli...
Birini bilirsən, birinisə yox.

Ömrü bölə–bölə sürdüm, nə xeyri?!
Umanlarsa hələ giley–güzarda.
Yaşaya bilmədim ömrü özümə, –
Üzdüm əllərimi ötən bahardan.

Keçilməz dağları aşmaq hədərsə,
Gedim o yuxuya dönüm təzədən!
Döysün yollarımı qar da, yağış da, –
Düşsün qayalara yönüm təzədən!

Məni tanımağa üzül...üzülmə...
Dərd–sərin əlindən göyərən daşam.
Oxuyub yazdığım şeirlərimi
Nahaqq deməmisən "...gözəl olmuşam!"

Tələsdim...günaha yazıldı bu da, –
Bir səs də eşitdim "Urəyimdən çıx!"
Bu da bəxt yazısı?... mən vaxt girinci, –
Birini bilirsən, birinisə yox!

## ÖLÜM, SƏNNƏN QURTARMIŞAM

Azdırdın, azdırdın məni, –
De, kimlər qorxuzdu səni?
Demədin ürək deyəni,
Dilim, sənnən qurtarmışam.

Ələnirsən üzümə də,
Tökülürsən gözümə də.
Qısqanırsan közümə də,
Külüm, sənnən qurtarmışam.

Dərdə əlactək gəlmədin,
Gülənlə belə gülmədin,
Məni mənimtək bilmədin,
Günüm, sənnən qurtarmışam.

Ömür gözəldi deyirsən,
Bəlkə düzəldi deyirsən,
Dağ aşıb daşa dəyirsən,
Ünüm, sənnən qurtarmışam.

Tanrı versə də, bu canı,
Qayalar üstə dolanır...
Gəzirsən səndən qaçanı,
Ölüm, sənnən qurtarmışam.

Haça–haça olan sevinc,
Ünyetməzdə qalan sevinc,
Məndən uzaq dolan, sevinc,
Bilim, sənnən qurtarmışam!

## SU DURULMIR, İÇİB GEDƏM...

Hamı mələk duvağında,
Üzü qaradı ağın da.
Beşi çulun sorağında,
Beşi çulunu qoruyur.

Ha çək dərdini, ahını, –
Torpaq çəkmir tamahını.
Dünya yüz–yüz padşahını,
Yoxsa qulunu qoruyur?

Su durulmur, içib gedəm, –
Duman getmir, keçib gedəm.
Qoymur məni köçüb gedəm, –
Ölüm yolumu qoruyur.

## MƏN SƏNƏ HƏR ŞEYİ DEMƏDİM, ANA!

Sevinci misqalmış baxtın, bilmədim,
Nahaqdan zirvəyə çıxdım, bilmədim.
Bulanıq sularda axdım bilmədim...
Mən sənə hər şeyi demədim, ana!

Ömrü uzun imiş hər il qışın da,
Batdım saxta, yalan söz yağışında.
Bir üzü quyuymuş hər alqışın da,
Mən sənə hər şeyi demədim, ana.

Donana od oldum, od oldı getdi,
Azana yol oldum, yol aldı getdi.
Aylardan, illırdən nə qaldı?.. bitti.
Mən sənə hər şeyi demədim, ana.

Əlim açıq oldu, əlim nə qədər!–
Umanlar çoxaldı hər gün, hər səhər.
Gizlicə bu ömrü sürdüm bir təhər,
Mən sənə hər şeyi demədim, ana.

Sözüm yeriyəndə gəzən çox oldu...
Elə ki, önümdə körpü dağıldı,
Biri gözə dəydi, beşi yox oldu, –
Mən sənə hər şeyi demədim, ana!

Sirrimi aparsın... küləyə dedim,
Dilsiz daşa dedim, çiçəyə dedim.
Ağrıyır ağrısın, ürəyə dedim,
Mən sənə hər şeyi demədim, ana!

Demədim–saçların eləcə qalsın,
Demədim–gözlərin yuxusuz olsun...
Duymadım, bilirsən gizli nəyim var;–
Köksündə dərdimin yüz göynəyi var,
Qocalan anam!
Ömrü ucalıqda!–
Ucalan anam!

## ASİF KƏNGƏRLİ
(1954)



**Asif Kəngərli** (Asif Cəlil Oğlu Məmmədli) 1954- cü ildə Naxçıvan şəhərində müəllim ailəsində anadan olmuşdur. O, 1 saylı orta məktəbi fərqlənmə diplomu ilə bitirmiş (1971), Ukraynada hərbi xidmətdə olmuş (1972–1974), Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə–profilaktika fakültəsində təhsil almış (1975–1981), sonra internaturanı bitirərək (1981–1982) Naxşıvana qayıtmış, Naxçıvan Respublika Xəstəxanasında metodist (1982–1985), HƏEK–də eksprt–nevropatoloq (1986–1995), Naxçıvan RND–də baş həkim (1996–2003) vəzifələrində çalışmışdır. 2003- cü ildə Bakı şəhəri, Respublika Narkoloji Dispanserinə işə dəvət almışdır. O vaxtdan Bakıda yaşayır, hazırda Anonim Narkoloji Müalicə–Məsləhət Kabinetində həkim–narkoloq işləyir.

Asif Kəngərli ədəbiyyata 2002-ci ildə "Bəla" pyesi ilə gəlib. "Bəla" (2002), "Bəla" və "Beda" (2007), "Zəhrimar" və "Şər quyusu" (2012), "Bela" (İstambul, 2014), "Tütünçəkmə barədə hər şey"–"Vsyo o tabakokurenie" (2016), "Alkoqol–sağlamlığın və sağlam həyat tərzinin düşməni" (2017) kitablarının müəllifidir. "Bəla" və "Zəhrimar" (2015) Azərbaycan Milli Radiosunda radio tamaşa şəklində dinləyicilərə təqdim olunub. "Bəla" radiomuzun Qızıl Fonduna daxil edilib.

"Qızıl Qələm", "İlin vətənpərvər adamı" mükafatçısıdır. Dünya Xalqları Yazıçılar Birliyinin üzvüdür (2016).

Ailəlidir. Həyat yoldaşı da həkimdir. Bir qızı, bir oğlu, iki qız nəvəsi var.

## TƏLƏ

Obyektdə işin qızğın vaxtı idi. Rəhbərliyə söz vermişdilər ki, hörgünü bir aya başa çatdıracaqlar. Qəzənfər usta iki şəyirdi ilə gündə iyirmi beş– otuz kvadrat metr hörgü verirdi. Amma bu gün günortadan sonra daş qurtardığından işsiz qalmışdılar. Usta fəhlələrlə ocağın başına yığışıb söhbət edirdilər. Söz sözü çəkdi. Qəzənfər usta cavanlığını yada saldı:

Sovet höküməti vaxtı ət, yağ tapılmazdı. Camaat ət, kolbasa ya sosikanı uzun növbə ilə, yaxud çeklə alardı. Birinin evində toyu, ya da evlərdən uzaq yası olanda ət tapmaq müşkül işə çevrilirdi. O vaxt ət kombinatında işləyənlər həm pullu, həm də lazımlı adamlar idilər. İşdən çıxanda onlar kolbasa, sosiska, yainki əti sellofanlara bükүb bədənlərinə bağlayır, evə gəlir, gələn kimi “arıqlayır”, həmin əti qohum– qonşuya satıb yaxşı pul qazanırdılar. Bir də görürdün ki, bu gün ət kombinatına işə girən söz məsəli, sabahı gün maşın aldı, o biri gün isə ev...

Bu qırx ilin söhbətidi, o vaxt mənim cavan vaxtlarım idi. Əsgərliyimi şəkib evə qayıtmışdım, işləmək istəyirdim.

Bir gün axşam atama dedim:

– Ata, məni işə düzəlt işləyim, axı nə vaxta qədər evdə oturacam?

Atam dedi:

– Harada işləmək istəyirsən?

– Ət kombinatında, – deyə tez cavab verdim.

Atam o vaxtkı raykomun üçüncü katibi ilə bir sinifdə oxumuşdu, durub onun yanına getdi. Bir həftədən sonra məni çağırıb əmrimi ət kombinatının kəsim sexinə verdilər. Sabahısı gün mən kombinezonumu geyib işə çıxdım. Sexda altı nəfər idik, böyüyümüz isə qırx yeddi– qırx səkkiz yaşlarında bir kişi idi. Bəy nəslindən olduğuna görə hamı ona Maqsud bəy deyərdi. Maqsud bəy ucaboylu, dolubədənli, qırmızıyanaq bir şəxs idi.

Biz malın təpəsinə guppanla vurub onu gicəlləndiri, iri bıçaqla şah damarını kəsib öldürür, kranla qaldırıb soyur, sonra cəmdəyi o biri sexə ötürürdük. Maqsud bəy işləyə– işləyə dananın özümüzün yeməyimiz üçün– harasından, hansı yerindən kəsib qazana atmaq barədə də göstəriş verirdi. Günortadan sonra biz işimizi qurtardıq. Bəli, bozpört bişdi, dörd araq alındı və hamı dəstərxanın başına yığışdı. Maqsud bəy hamıya araq süzüb stəkanı əlinə aldı. Onun əli əsirdi. Mən bayaqdan hər şeyə göz qoyurdum, ona görə də maraqlandım:

– Maqsud bəy, əliniz niyə əsir?

– Bala, bə bu araqdandı da, içməyəndə əsir, içən kimi keçir, – deyib arağı tez başına çəkdi. Mən stəkanı yerə qoydum. Hamı mənə tərəf döndü, yer– yerdən dilləndilər:

– Niyə içmirsən, iç! Kişi ol, ə! Yüz qram araq sənə heç zad eləməz, qorxma iç!

– Əgər araq Maqsud bəyin əlini əsdirirsə, mənim başımı əsdirər. Məni bağışlayın, bu iş mənlik deyil, uşaqlar, mən getdim, – deyib ayağa qalxdım.

– Adə, dəli olubsan? Xalx bura işə girmək üçün bir ətək pul tökür, iynənin ulduzundan keçir, sən isə gedirsən? Hansı ağılla? Adam da belə dolanışıqlı yeri qoyub gedər, hə?– deyə üstümə düşdülər ki, bəlkə məni saxlayalar. Lakin mən ordan çıxıb düz inşaata fəhləliyə getdim. İndi o vaxtdan bu sənətdəyəm, – deyə Qəzənfər usta soyumuş çaydan bir qurtum alıb söhbətinə ara verdi.

Usta köməkçiləri Asimlə Nadir söhbətə qulaq asırdılar. Asim dedi:

– Ay usta, sən xeyrindən qalan adam deyilsən, sən Allah düzünü de görək, kombinatdan niyə getdin?

Qəzənfər usta başını qaşıdı, bir az düşünüb dedi:

– Uşaqlar, əgər bilmək istəyirsinizsə, qoyun lap düzünü deyim: düzdü orda kalan pul var idi, amma... Atam rəhmətliyin sözü olmasın, mən bir az suyuq adamam, yəni nəfsək. Bu mənim zəif cəhətimdi– hamıda belə zəif cəhətlər olur– mən də bunu yaxşı bilirdim. Əgər mən orda qalsa idim, qurşanacaqdım içkiyə, olacaqdım onların tayı.

Pul qazanmağına qazanacaqdım, amma əvəzində sağlığımı itirəcəkdim.

Asim söz atdı:

– Əşşi pul olsun, əsas məsələ puldu, pulun ki, oldu kişisən, hörmətlisən. Səni bilmirəm, usta, amma mən o cür "yağlı" yeri qoyub getməzdim, heç vaxt də gəlib belə yerdə fəhləlik etməzdim.

Usta duruxdu, bir qədər düşünüb nəsihətlə dedi:

– Ora sənin kimi başıboş adamlar üçün "tələ"di, bala, "tələ". Əvvəlcə səni "şirə" çəkir, şirnikirsən, sonra da baxırsan ki, "qarmağa" keçibsən, çıxa bilmirsən. Heç bilirsən araq onların başına nə oyun açdı?

– Nə oyun?– deyə fəhlələr soruşdular.

– Həə, indi mən deyim sən də mülahizə elə, əgər dərrakən varsa. Bax o, Maqsud bəy ki, var idi haa, əlli yaşından onun beyninə qan sızdı, öldü, heç oğlunun toyunu da görə bilmədi. Orda Mirzə adlı birisi vardı, o içkili vəziyyətdə ailə– uşağı ilə bir yerdə maşını aşırdı– Allah uzaq eləsin– bütün ailə batdı, heç kim salamat çıxa bilmədi. Sonra Fəxrəddin adlı birisi də vardı, sərxoş halda o arvadını bıçaqladı, on il basdılar getdi. Özü də nə üstə? Guya arvadı ona xəyanət edirmiş. Ay tövbə! Mən o qızı yaxşı tanıyırdım, çünki, bizim məktəbdə oxuyurdu, çox tərbiyəli, başıaşağı qız idi. Onun ərinə xəyanət etməsi mümkün deyildi. Məhkəmədə mən də oldum, orada dedilər ki, bu sayıqlamadı, qısqanclıq sayıqlaması, içki içənlərdə olur yəni. Xülasə, heç kimə ordan qazandığını ağız şirinliyi ilə yemək qismət olmadı. Sən də deyirsən ordan çıxçazdım, – deyə Asimə tərs– tərs baxdı. Usta ocağın kənarında olan çaydandan bir stəkan çay süzüb içdi. Saatına baxdı. Elə bu vaxt "Kamazın" nərltisi eşidildi, nəhayət daş gəlib çıxdı. Qəzənfər usta:

– Durun, durun ayağa, iş başına "söhbət dananı qurda verər". Daş verin, palçıq gətirin, – deyə cəld közyolun üstünə qalxdı və çəmçəni daşa vura– vura fəhlələri səslədi.

## QƏLYAN

Deyilənə görə, İranda bir çox adam tiryəki olur, özləri da buna pis baxmırlar. Onlar şam yeməyindən sonra ortalığa qılyan, tiryək və şiş gətirirlər, şişi odda qızdırıb bir əldə tuturlar, tiryəki isə o biri əldə. Şişi tiryəkə vurub dağlayır, ondan çıxan tüstünü isə qəlyanla içəri sümürürlər...

Bir gün tiryəkə təzə qurşanmış Qulamrza adlı bir gəncə qəlyan lazım olur. O, soraqlaşıb bir qəlyandüzəldən usta tapır, ona deyir:

– Usta, nə qədər istəyirsən sənə pul verim, mənə bir şahanə qəlyan düzəlt.

Usta altdan yuxarı gənci süzür, soruşur:

– Vardan, dövlətdən nəyin var?

Qulamrza qürrələnir:

– Hər şeyim: iki “Benz” otobusum var ki, Təbriz–Tehran arası işəyir, üç tırım var ki, Avropaya mal daşıyır, bir dördmərtəbə çaxtumanım var ki, üstə özümüz qalırıq, altını kirayə vermişəm, bir də bazada qızıl dükanlarım var... Usta, sən mənə bir yaxçı qəlyan düzəlt, deşiyini də gen elə.

Qoca usta gənci diqqətlə dinləyib köksünü ötürür:

– Sən heç narahand olma, ağa. O saydığın şeylərin hamısı: otobus da, tır da, ev də, dükanlar da– hamısı, hamısı bax, bax, bu deşikdən keçib gedəcək, heç narahand olma, niyə narahand olursan, – deyə təzə düzəltdiyi qəlyanlardan birini Qulamrzaya tərəf uzadır.

## ETİRAF

Elçin tay– tuşları arasında öz “çəkisi” olan, hörmətli oğlanlardan biri sayılır. Necə hörmətli oğlan sayılmasın ki, o, universiteti fərqlənmə diplomu ilə bitirib, otuz yaşında böyük bir mebel sexinin sahibidi, işi işdi, pulu da pul. Ailəsi, iki uşağı, altında da qara rəngli Prado...

Əgər biri durub desə ki, "Elçin narkomandı" heç kim ona inanmaz, çünki o, siqaret çəksə də, içki nədi dilinə vurmaz, hələ Ramazan ayı gələndə hər il oruc da tutar... "Sən saydığını say, gör fələk nə sayır". İş elə gətirdi ki, onun kimi ağıllı bir oğlan da yolunu azdı...

Yaxşı ki, Elçin zirək tərpəndi, işin üstü açılmamış bir narkoloq– həkim tapdı, hamıdan gizli öz evində müalicə olundu, vəziyyətdən çıxdı.

Həkim bu gün Elçini kabinetə– psixoterapevtik söhbətə dəvət etmişdi. O xəstəsinə ürəyini boşaltmaq imkanı verdi; həkim susdu, xəstə isə danışdı:

– Doktor, narkomanın günü günü axtarmaqla keçir; adam əvvəlcə pul axtarır, sonra "mal" axtarır, sonra "bayan" axtarır, sonra yer axtarır, axırda da damar axtarır... O, axtardıqlarını oğurluq– doğurluq, pis– yaxşı tapır da, amma əvəzində özünü itirir: öz kişiliyini, ləyaqətini itirir, dalınca da hər şeyini...

O, dərindən bir ah çəkdi gözləri yaşarmışdı, əlləri də, səsi də titrəyirdi. Elçin həkimin onu diqqətlə dinlədiyini görüb bir az da ürəkləndi:

– Mən düzünü deyirəm, doktor, mən bu həyatı yaşadım, bu murdar həyatı belə gördüm. İndi peşmanam, it kimi peşmanam, amma...

Qəhər onu boğdu, udqunub yenə sözünə davam etdi:

– Bu işdə heç kimi günahkar bilmirəm. Düzdü, məni iynəyə otuzdurdular, özü də mən bilirəm bunu kim elədi. "Ağacı öz içindən qurd yeyər", – deyiblər. Məni öz əmioğlum iynəyə otuzdurub, doktor, dost– doğma əmim oğlu. Məni əmioğlum belə bəlaya salandan sonra daha başqasından niyə inciyim, niyə küsüm?!

Elçin nəfəsini dərdi, olanları xatırlamağa çalışdı:

– Doktor, bir vaxtlar əmimgil gün əppəyinə möhtac idilər. Rəhmətlik atam onları rayondan Bakıya gətirdi, ev– eşik yiyəsi elədi. Mən isə, həmin əmimoğluma iş verdim, çörək verdim. Əvəzində isə o məni bədbəxt elədi... Getdi, gəldi ki, "sən bir bunun dadına bax, gör nə görəcəksən?!". Mən eləmək istəməyəndə isə "ə, bir çıqqılı şey sənə nə

eləyəcək, elə gör nə “kayf” alacaqsan”, – deyə məni heroinə qonaq elədi. Mən də gic kimi götürüb iylədim. İylədim, xoş gəldi. Üç gündən sonra bir də gəldi, yenə verdi, iylədim, bu dəfə lap xoşuma gəldi. Sabahı gün onu kabinetə çağırıb dedim:

– Ondan bir az da ver.

Dedi:

– Yoxdu.

Dedim:

– Tap, hardan olsa, tap, ondan istəyirəm.

O, özünü çəkdi:

– O məndə nə gəzir? İstəyirsən, yüz dollar ver, gedim alım, gətirim.

Mən də çıxarıb verdim, alıb gətirdi, hərəyə bir “dorojka” elədik.

O gündən mən pul verirdim, o da alırdı, bir yerdə eləyirdik. Deməyinən onun məqsədi oymuş ki, məni narkotikə otuzdursun, çünki, onun pulu yox idi, mən isə böyük bir müəssisənin müdiri idim, tabeliyimdə üş yüz adam işləyirdi. Nə isə, bir də ayılıb gördüm ki, olmuşam narkoman, daha heroinsiz qala bilmirəm...



## MƏNTİQ

*Şərab, tütün, heroin–*
*Hamısı sənin düşmənin.*(Müəllif)



Bir gün iki nəfər– Əli ilə Vəli söhbət edirlər. Əli Vəliyə:

- Sən məntiqin nə olduğunu bilirsən?
- yox, – deyə vəli etiraf edir.
- Əgər bilmək istəyirsənsə, mən sənə izah edərəm.
- İzah elə, – deyə Vəli xahiş edir.

Əli fikrini izah etmək üçün söz axtarmağa başlayır:

- Məntiq, məntiq... Ee, məsələn, sənin cibində kibritin var?
- Var, – deyə Vəli tez dillənir.

Əli:

- Əgər kibrit varsa, demək, siqaret də var. Bunların ikisinin bir yerdə olması məntiqi deyil?

Vəli biraz fikirləşir və razılaşır:

- Bəli məntiqidi.

Əli davam edir:

- Əgər sən siqaret çəkirsənsə, onun içinə nə vaxtsa nəşə– zad qoymaqda məntiqidi, ya yox?

Vəli bir xeyli düşünür və yenə razılaşmalı olur:

- Bəli məntiqidi.

Əli izah etməkdə davam edir:

- Əgər sən nəşə çəkirsənsə evdə dava– dalaş, söz– söhbət, boşanma və sairin olmasıda məntiqidi, ya yox?

Vəli görür ki, Əli haqlıdı: "Nəşə olan yerdə dava– dalaş da, boşanma da olar", – deyə düşünür. Onlar ayrılırlar... Əli öz yolu ilə, Vəli isə öz yolu ilə gedir. Söz Vəlini tutduğu üçün elə hey o barədə düşünür...

Vəli yolda bir nəfərə rast gəlir. O, yol adamından soruşur:

- Qardaş kibritin var?
- Var, – deyə yoldan keçən cavab verir.

Vəli təəssüflə deyir:

- Əgər kibritin varsa, demək ailən dağılacaq...

***Naxçıvan, 2003*.**

## RƏFİQƏ QASIMQIZI
(1954)



**Rəfiqə Qasım qızı** Abbasova 6 may 1954- cü ildə Şəmkir rayonunun Çinarlı qəsəbəsində ziyalı ailəsində anadan olmuşdur. O, boya–başa çatdığı doğma yurdda M. Müşfiq adına orta məktəbi fərqlənmə diplomu ilə bitirib. 1972-ci ildə N. Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olub.

Tələbəlik illərində institut müəllimlərinin və tələbələrin rəğbətini qazanmış R. Abbasova 1978-ci ildə təhsilini yüksək qiymətlərlə başa vuraraq həkimlik ixtisasına yiyələnmişdir..

İşlədiyi kollektivdə də böyük nüfuza malik olan Rəfiqə Abbasova hal–hazırda da həkimlik fəaliyyətini davam etdirir.

"Yaşanan ömrümdə yeni ömürsən" və "Payız dodağında oxunan nəğməm" adlı şeirlər kitabları nəşr olunub. Növbəti kitabı çapa hazırlanır.

Ailəlidir. 3 övladı, 6 nəvəsi var.

## ÖTƏN İLLƏR

Yadıma salıram olub–olanı, –
Acılı,şirinli xatirələri.
Günlər bu ömürdən çox şey alsa da,
Unuda bilmirəm ötən illəri.

Bəzən darıxıram uşaqlığımçün, –
Atalı–analı günlər orada,
Cavanlıq illərim, çağlarım üçün
Göynəyir ürəyim, qayıtmasa da.

Ötən illərimdən boylanıb baxır,
Həm şirin,həm acı xatirələrim.
Baş əyib hökmünə zamanın...axır,
Ötüşən axşamım, gələn səhərim.

Ömrə yazılası günlər də çoxdu,
O günlər sevinclə sayılar bir–bir.  –
Ən xoş duyğularım övladlarımla,
Keçirdiyim anlar, dəqiqələrdir.

Bu daşlı–kəsəklin yolları aşdım, –
Uzandı çin olan muraza qədər...
Yaşadığım aylar, keçirdiyim il,
Gələn günlərimin yüzünə dəyir.

## QALIB YOLLARDA

Sevgimin gözləri qalıb yollarda,
Bu yolda qar–boran, duman–çən olur...
Göy üzü dumana əsir olanda,
Günəş doluxsunur, yer də boğulur.

Getdiyin yolların döngələri çox,
Hamar ha deyil ki, büdrəməyəsən.
Peşiman olsan da... çətinliyi çox!–
Dönəndə izini tapa biləsən.

Saralıb–solanda sevgimin rəngi,
Demə payız gəlib, xəzan vurubdu.
Pozulsa sevdanın, eşqin ahəngi,
Demək bu yolların sonu çatıbdı.

## ASMIŞAM SEVGİNİ BU TƏNHALIQDAN

Tənha evdə...dörd divardı, bir də mən, –
Bil ki, tənhalığa indi əsirəm.
Bilirəm uzaqsan, əllərim çatmaz,
Bu tənhalıqda da səni gəzirəm.

Hopub divarlara səsin, nəfəsin,
Əlinin istisi tellərimdədi.
Ay məndən xəbərsiz çıxıb gedənim,
Hələ məhəbbətin ürəyimdədi.

Qapını beləcə döymə, ay külək!–
Uçar xatirənin zərif tavanı.
"Gedirəm" sözünün sədası gələr,
Yaralar təsəlli olan gümanı.

Asmışam sevgini bu tənhalıqdan,
Alnıma toxunur əhləd daşı tək.
Qorxuram sevgimi tənha qoymaqdan, –
Bilirəm tənhalıq onu sevəcək.

## GÜMAN YERİ...

Yazdım vərəqlərə demədiyimi, –
Sözdən divar qurdum,qalalar qurdum...
Şeir güman yerim, təsəllim oldu, –
Uzun gecələrlə baş–başa durdum

Ürəkdə göz yaşı bitirər kədər,
Çayır tək kökləri gedər dərinə,
Gecəli–gündüzlü ürəyi didər,
Kədər şərik olsa fikirlərinə.

Üzünə açılmır qapısı bəxtin, –
Arzusa, murazsa şirindən şirin.
Bəzən dərd–kədərin, bəzən sevincin,
Möhür yeri olur misran,sətirin...

Bəzən dünya sığir şeirə, sətirə,
Kiçik qum dənəsi səfə düzülmür.
Gümansa uzaqda... əlçatmaz olur,
Yaş donur gözlərdə, üzə süzülmür...

## HARAYA ÇAĞIRIRAM...

Yuxunu haraya çağırıram mən, –
Gecəylə gündüzün səhv düşüb yeri.
Nə sirrdir, gecələr unutmaq olmur
Gündüzlər etdiyim səhvi–düzləri.

Ürək sualların məngənəsində
Gündüzlə gecəni dəyişik salır.
Amma nə faydası, günah günahdı, –
Nə fikir qurtarır, nə səhər olur.

Gözlərim önündə etiraf kimi
Olub–olanlar da səf–səf düzülür...
Bəlkə təsəlli tək səhərə kimi
Vərəqlər üstünə sözlər süzülür?

Dolaşıq düşübdü gecənin yolu, –
Yolun yaxın olsun, açıl, ey səhər!
Gözümdən yuxunu özüm qovmuşam, –
Eh, yuxu gəzməyin özü də hədər!

## KƏŞF ETDİM SƏNİ
*(Ünvanlı)*

Sonu yazılmamış bir əsər kimi,
Oxudum, izlədim, kəşf etdim səni.
Vərəqi açmağa məcbur əl kimi,
Duydum, sətirlərdə ürək səsini.

Hər şeir sətrində, misralarında
Yaşarmış nə qədər, nə böyük hikmət!
Bəs niyə vaxtında, öz zamanınıda
Verilmir hikmətli sözlərə qiymət?!

Hər gün şeirləri mən oxuduqca,
Gördüm sətirlərdə ocaq qalanır.
Mən səni hiss edib, səni duyduqca,
Anladım...ürəkdə şeir yaranır.

Hər gün yazacağın şeirlərinin
Özündə axtarıb taparam səni.
Hər misra günəşli gündüzlər kimi
Qovar uzaqlara dumanı, çəni.



## GÖZ YAŞLARIM BU SEVGİNİ QINADI



Yavaşca mən sənin tutdum əlini,
Duymadın əlimdə bu hərarəti.
Bu nə özgəlikdi, biganəlikdi?–,
Gözüm görə–görə sevgimiz itdi.

Darıxdım, neçə yol səni səslədim,
Nə dönüb baxmadın, nə səsin çıxdı.
Doğmatək gör kimi çağırdı könlüm?–
Gördüm ki, sən adda bir adam yoxdu.

Qar basdı cığırı, sel yudu izi?–
Həsrət imiş bu yolların bir adı.
Bilməzdim gümandan əlimi üzəm, –
Göz yaşlarım bu sevgini qınadı.

Yolların əzəli, sonu da belə, –
Səni gör neçə yol yollar sınadı?!
Mən sənin adına günah yazmadım, –
Gözlərim yol çəkdi, yolu qınadı.

## NƏ TEZ İTİRDİN

Əlimi əlindən üzdün xəbərsiz,
Güman qapısına məni gətirdin.
Baharda əriyən dağ qarı kimi
Sevdalı günləri nə tez itirdin?

Sənli günlərimdir səndən yadigar, –
Bir xatirən qalıb, bir də intizar,
Yaş olun gözümdən ələnir indi
Xiffətin çəkdiyim o gözəl anlar.

Sən yoxsan, gündüz də, gecə də özgə,
İndi yuxu olub gülümsər üzüm.
Yollardan, izlərdən xəbərin varmı?–
Duman düzüm–düzüm, çən düzüm–düzüm.

Vaxtsız qonaq kimi döydü qapımı,
Vaxtsız, vədəsiz getdi o sevgi.
Özün yandırdığın bu od–ocağı
Sonra kül elədin, bitdi o sevgi.

## ANA SEVGİSİ

Könlüm quşu nə ağlarsan,
Belə yanğılı–yanğılı?
Dəli könlüm, nə sızlarsan,
Belə qayğılı–qayğılı?

Ürək dərddən ölür desəm, –
Ölməz ruhum, ölər bədən,
Bilməmisən ölər nədən?–
Övlad ana sevgisindən!..

Pəvazlanar bəhrələnən
Çıraq olan bu sevgidən...
Xatirələr ağır–acı, –
Ürək, gəl iç bu da badən.
Bəlkə yaranıb ömür də, –
Bahar, payız...bu sevgidən.
Doymaq olmaz bu sevgidən!

***Bakı 2017.***

## ŞƏMKİRİM

Qollarını açıb Şəmkir gözləyir,
Bağrına basmaqçün öz balasını.
Ay aman, ürəyim necə tələsir,
Görməkçün öz doğma yurd–yuvasını.

Anamın saçı tək başı ağappaq, –
Dağların yaylığı yenə qarıdır...
Yurdumda çatılan bu od, bu ocaq
Atamın, babamın yadigarıdır.

Qırmızı məxmərdir sanki lalələr,
Sərilib düzlərə bir süfrə kimi.
Əziz qonaqlarım, əziz gələnlər,
Çələnglə bəzəyək biz Şəmkirimi.

Lalələr çöllərin üstündə sanki
Gəlinin üzünə salınan duvaq.
Övladın anaya hədiyyəsi nə?–
Sevgi gətirmişəm mən qucaq–qucaq.

İlahi, təbiət xalı toxuyub, –
Çəmənlər xalıdır... çiçəklər bəzər.
Yurdumun gözəldən gözəl qızları
Dağlarda xınalı kəkliyə bənzər.

## FİRDOVSİ ƏLƏMOĞLU
**(**1954)



**Hacıyev Firdovsi Ələm oğlu** 1954- cü il yanvar aynın 17 də keçmiş Dəvəçi (indiki Siyəzən) rayonunun Kiçik Həmyə kəndində fəhlə ailəsində anadan olub. 1969-cu ildə Kiçik Həmyə kəndində 8–illik təhsili başa vurmuşdur.

1969–1971-ci illərdə Bakı şəhəri Kimya Biologiya Təmayüllü məktəbi bitirib. 1973–1975-ci illərdə hərbi xidmətdə olmuşdur. 1975-ci ildə Hərbi xidmətdən təxrisdən sonra yaxşı xidmət etdiyi üçün oradan verilən göndərişlə Tibb İnstitutnun hazırlıq kursunda təhsilini davam etdirmişdir. 1976–1981-ci illərdə Azərbaycan Dövlət Tibb İnistitutunda oxumuşdur.

1982-ci ildən həkimlik fəaliyyətinə başlayan Firdovsi Hacıyev hazırda da həkimlik fəaliyyətini davam etdirir.

01 may 2017-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

Kitabları:

1) "Minnətdaram tanrıma". Şeirlər və poemalar. Bakı 2014, Nəşriyyat "Ünsiyyət".

2) "Kökə bağlıdır". Şeirlər. Bakı, 2015.

### VƏTƏN VƏTƏN OLARMI HEÇ?!

Ürəyimə qübar salır, eşidəndə azan səsi!
Görən nəyə haraylayır "Qarabağın şikəstəsi"?!
Bəlkə bağlı otaqlarda anamızdır nalə çəkən?
Əsir qalıb o, yadlarda! Ərşə qalxıb ah–naləsi?!

Yığ altına milyonları, kimə gərək bu var dövlət?
İtiririk olanları, necə dözsün buna qeyrət?

Axıb gedir al qanımız, yada düşmür olub–keçən,
Güllə yağır başımıza, ayılmırıq biz nəhayət!

“Yaxşı” deyib əl çalırıq bu gün yenə yamanlara,
Bəsdir daha aldanırıq quru sözə, yalanlara.
Nə gözləyir deyin bizi–açıq səma, duman, ya çən?
Kimdən umaq köməymizi? Cavab verin suallara!

Cavanımız eyş–işrətdə, yeyib–içib baş qatırsa,
Od püskürən nər oğullar zindanlarda bil yatırsa,
Can bədəndən, bədən candan ayrı düşüb yaşamırsa,
Bölgələrə parçalanıb, oluruqsa biz qan içən
Vətən, vətən olarmı heç–olmasa canından keçən?!

## BİRCƏ MƏHƏBBƏTİ ALMA ƏLİMDƏN

Hər deyilən sözə məna vermə sən,
Məhəbbət gələndə heç yaşa baxmır.
Məhəbbət elə bir fırtınadır ki,
Gələndə enişə, yoxuşa baxmır.

Demə məhəbbətdən yazma sən daha,
Məhəbbət olmasa mən nə edərdim?
Məhəbbətsiz həyat varmı, sən allah?
Məhəbbətsiz səni necə sevərdim?

Bil dünyalar qədər istərəm səni,
İstəsən pay verim lap öm*ü*rümdən.
Əgər zərrə qədər sevirsən məni, –
Bircə məhəbbəti alma əlimdən.

Məhəbbətsiz həyat olarmı görən?
Firdovsi de onsuz yaşarmı görən?
Hər nəyim varsa da sən al əlimdən,
Təkcə məhəbbəti alma əlimdən!

***20.12.2014***

## BU DÜNYA HEÇ KİMİNDİR

Mənim bircə dünyam var,
O da mənim içimdə.
Mənim bircə aynam var,
Ürəyimin içində.

Dünyaya gələn gündən
Dünyam da doğuldu tən.
Yer axtardım özümə
Məskənim oldu Vətən.

Görən niyə doğulduq,
Varmı səbəbin bilən?
Dərd içində boğulduq,
Nə çoxdur dərddən ölən.

Çağırırsan hay vermir,
Görən, dünya nəyimdir?!
O, yaxın, uzaq bilmir,
Bu dünya heç kimindir!

***09.05.2015***

## ÇİÇƏKLƏN, ÇİÇƏKLƏN, AZƏRBAYCANIM!

*(Aşıq havası)*

Tarixlər şahidi qədim Naxçıvan
Boy atır, ucalır hər gün durmadan.
Ey yaşıl ormanlı gözəl Lənkəran,
Sizə qurban olsun bu əziz canım!

Çiçəklən, çiçəklən Azərbaycanım!
Var gözəl qızların, mərd oğlanların.
İşıqlı sabaha gedir yolların,
Gəlin alqışlayaq bu insanları!

Sənə qurban olsun bu əziz canım!
Çiçəklən, çiçəklən Azərbaycanım!
Açıb qucağını bu gün Siyəzən,
Qonaq qarşılayır yenə deyəsən.

Üzümü, qarpızı gəlir Həmyədən
Boldur məhsulumuz, boldur ay canım!
Çiçəklən, çiçəklən Azərbaycanım!
Firdovsiyəm, gəzir göydə xəyalım...

Hələ qabaqdadır çox arzularım,
Heyranam hüsnünə doğma diyarım!
Sənə qurban olsun bu əziz canım!
Çiçəklən, çiçəklən Azərbaycanım!

***17.12.2014***

## DEMƏ MƏHƏBBƏT DƏ SAXTA OLARMIŞ...

Gecələr gözümü sıxıb yastığa,
Sənin həsrətinlə ağlayıram mən.
Artıq öyrənmişəm mən tənhalığa,
Hər gecə yasını saxlayıram mən.

Niyə dönük çıxdın sən öz əhdinə,
Bir nakam sevgiyə tuş etdin məni?..
Yəqin sən durmuşdun mənim qəsdimə,
İndi bağışlayım necə mən səni?

Verdim gəncliyimi, verdim yellərə,
Aldanıb mən sənin şirin dilinə.
Artıq gecdir daha, düşdüm əllərə,
Mən səni boğardım keçsən əlimə.

Demə məhəbbət də saxta olarmış
Saxta buraxılan qara pul kimi.
Kor etdi bil, məni o saxta baxış,
Tutub gözlərimi qara tül kimi.

***04.12.2014***

## DEYİRSƏN GEDİRƏM...

Deyirsən gedirəm, bir söz demirəm,
Arxanca ağlayan körpələr baxır.
Məndən incimisən, bunu bilirəm,
Onların günahı nə idi axı?

Nə dəydi xətrinə, incidin məndən?
Yersiz bəhanələr gətirmə yenə!
Niyə adi sözdən de inciyirsən?
Daha sözüm yoxdur deməyə sənə!

Mən bilirəm nədir səni çaşdıran,
Daş–qaş hərisliyi tutub gözünü.
Kimdir de aranı hey qarışdıran?
Yoxsa unutmusan sən keçmişini?

Həyat qəlib deyil, girib içinə
Yaşayaq dünyadan xəbərsiz kimi.
Dünyanın dərdini salma içinə,
Əriyib gedərsən parça buz kimi!

Məndən soyumusan, inciməyirəm,
Barı, uşaqlardan soyuma gəl sən!
Mən çıxıb gedərəm, körpələrini
Ana qucağına həsrət qoyma sən!

***10.10.2014***

## İLK SEVGİ

Əlvida demirəm mən sənə, gülüm,
Biz elə görüşsək, görüşməsək də.
Mən ki, yol üstəyəm, de necə bilim
Sən nə söyləyirsən mənə ürəkdə.

Bəlkə tərk edirəm, söyürsən məni,
Bəlkə də ürəkdə getmə deyirsən...

Bəlkə yaddaşından silmisən məni,
Bəlkə də arzuna yetmə deyirsən...

Mən isə bir buza, daşa dönmüşəm,
Elə bil səni mən heç sevməmişəm.
Sevgi zirvəsindən necə enmişəm,
İndiyədək onu sən bilməmisən.

Axı uzaqdadı ilk sevgim mənim,
Mən ona qovuşub deməliyəm ki...
Kaş ki, tutulaydı mənim gözlərim,
Mən ona bu sözü deməliyəm ki?!

***01.02.2014***

## KÖKÜNDƏ AXTAR

Rəva bilmədiyin çirkin əməli,
Həmişə, gördüyün işində axtar.
Sağlam düşüncəni, sağlam təməli
İnsanın əmdiyi südündə axtar.

Atma başqasının bostanına daş,
Sataşma kimsəyə, həddini az aş.
Səndən üz döndərsə qohum, ya qardaş
Bunun cavabını özündə axtar.

Bəzən düz bildiyin olur tərsinə,
Qəribə gəlməsin bu məna sənə.
Bulaq quruyursa özü–özünə
Səbəbi bulağın gözündə axtar.

Hərcayi sözlərlə danışan kəsin,
Dinləmə söhbətin, qoy kəssin səsin.
Böyüyü saymayan axmaq, nakəsin,
Zatı qırıqlığın kökündə axtar.

***10.12.2014***

## **BU GECƏ**
(Qəzəl)

Deyirsən busə verim, keç günahımdan bu gecə,
Nə olar ki, olaram, mən sənə mehman bu gecə.

Qırmışdın qəlbimi sən, gözləməzdim bunu heç,
Gələrəm mən görüşə, indi də pünhan bu gecə .

Girmişdin sən yuxuma, şükür allaha çin oldu,
Edəcəksən deyəsən, dərdimə dərman bu gecə.

Gümanım yoxdu inan, mən dözüm axşama qədər,
Qorxuram ki, verəsən, ölmümə fərman bu gecə.

Firdovsi, söylə görüm, səndəki bu xülya nədir,
Olacaqsan deyəsən, yarına qurban bu gecə.

***12.05.2015***

**HÜMBƏT QULİYEV**
(1955)



**Hümbət Quliyev** (Quliyev Hümbət Həsən oğlu) 1972-ci ildə Sumqayıt şəhər 17 nömrəli məktəbi bitirib. 1972–1973- cü illərdə–Sumqayıt Kompressorlar zavodunda cilalayıcı vəzifəsində çalışıb. 1973–1977-ci illərdə Azərbaycan Tibb Universitetinin müalicə–profilaktika fakültəsində təhsil alıb. 1977–1979- cu illərdə Saratov Tibb Universitetinin hərbi–tibbi fakültəsində təhsilini davam etdirib.

1979–1985-ci illərdə Moskva vilayəti, Noqinsk şəhəri, Kosmik Fəzaya Nəzarət Mərkəzinin poliklinikasında həkim, baş həkim işləyib.

1985–1987-ci illərdə Leninqrad (hazırkı Sankt–Peterburq) hərbi–tibbi Akademiyasının göz xəstəlikləri kafedrasında çalışıb.

1987–1992-ci illərdə Almaniyanın Toypits şəhərində, Sovet Hərbi Hospitalında göz xəstəlikləri şöbəsinin müdiri vəzifəsində işləyib.

1991-ci ildə Berlin biznes məktəbini bitirib

1993–1997-ci illərdə Sumqayıt Biznes Mərkəzinin təsisçisi və prezidenti olub.

1997–1999- cu illərdə Azərbaycan Respublikası Prezident Aparatı Nəzdində Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsində departament rəhbəri vəzifəsində çalışıb.

1999–2004- cü illərdə Azərbaycan Sahibkarlar Konfederasiyasının vitse–prezidenti, Sumqayıt Sahibkarlar Assosiasiyasının sədri olub. “Sumayıt market” qəzetinin təsisçisi və baş redaktoru olmuşdur.

2004–2008-ci illərdə Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi, Abşeron Regional İnkişaf Şöbəsinin Müdiri olub.

2008-ci ildən Regional Sahibkarlığın Araşdırma Mərkəzinin sədri, "Cökəli" firmasının təsisçisi və direktorudur.

Hümbət Quliyev Türkiyə, İspaniya, ABŞ, Braziliya, Rusiya, Qazaxıstan və digər ölkələrdə sahibkarlığın müxtəlif problemlərinə həsr olunmuş tədbirlərdə Azərbaycanı layiqincə təmsil etmişdir.

"Statisman" adlı müdrik sözlər, esselər, publicist yazılardan ibarət kitabın müəllifidir..

## GÜZGÜ HAQQINDA

Güzgü həyatımızın ayrılmaz hissəsidir. İnsanın özünü görmək istəyi və ehtiyacı var. Həm də insan üçün özünün başqalarına necə görünməsi də çox vacibdir.

İnsan özünü dərk edəndən güzgüyə baxmağa başlayır. O, güzgüdə gördüyünə vərdiş edir, özünü öz əksi ilə eyniləşdirir və özünü elə orada gördüyü kimi də qəbul edir.

Bilirsinizmi ki, güzgü bizləri aldadır?! Hə, hər dəfə biz ona baxanda aldadır! Necə? O bizləri özümüzə həmişə "tərs" göstərir! Yəni sağ tərəfi sol və əksinə. Güzgü qarşısında dayanıb sağ əlinizi qaldırsanız, sizin güzgüdə olan əksiniz sol əlini qaldıracaq. Bu, təkcə əlinizə aid deyil, bütün bədəninizə, sifətinizə də aiddir. Güzgüdən aralanıb real bədəninizə baxa bilərsiniz, ancaq sifətinizə baxa bilməyəcəksiniz. Paradoks da ondadır ki, başqalarının gördüyü sifətimizi özümüz olduğu kimi görə bilmirik. Bayaq dediyim "tərs" səbəbindən bizim gerçək sifətimiz güzgüdə gördüyümüz sifətdən fərqlənir! İş ondadır ki, bizim üz quruluşumuz asimmetrikdir, yəni simmetrik deyil. Bu, o deməkdir ki, burunu orta xətt kimi qəbul etsək, sifətin sağ və sol tərəfləri başqadır.

Fikir vermisiniz, hər dəfə şəkil çəkdirəndə ilk təəssüratımız o olur ki, "pis" düşmüşük, "heç özümüzə oxşamırıq" və s. Çünki şəkildə gördüyümüz sima, gündə güzgüdə gördüyümüz və "özümüz" kimi qəbul etdiyimiz simadan fərqlənir. Amma həmin şəkli dostlarınıza göstərsəniz, deyəcəklər ki, nə istəyirsən, özünsən də! Onlar haqlıdırlar, çünki onlar sizi hər gün elə görürlər.

Bunları niyə yazıram? Demək istəyirəm ki, güzgüdəki əksimiz bizim vərdiş edərək qəbul etdiyimiz yalançı bir əksimizdir. Biz güzgü yalanının qurbanlarıyıq! Güzgü bunu soyuqqanlıqla, hər dəfə biz ona baxanda edir!

İndi bir vacib sual: Axı güzgü bizi niyə aldadır?

Fikir vermisiniz, güzgünün şəffaf ümman dərinliyinin qüsursuz bir gözəlliyi var! Biz onun bu gözəlliyinə diqqət yetiririkmi, bu gözəlliyin fərqinə varırıqmı? Yox! Onun qənirsiz gözəlliyinə laqeydik, yalnız özümüzə vurğunuq! Bu bənzərsiz gözəlliyin içərisində, ancaq öz gözəlliyimizin axtarışındayıq! O da gözəl xanım kimi bizə bu laqeydliyi bağışlamır. Gözəl xanımlar bizlərə hər şeyi bağışlayarlar, laqeydlikdən başqa!

O da bağışlamır və özünəməxsus tərzdə bizdən heyfini alır, bizi özümüzə "tərs" göstərir! İndi gedib güzgünün qabağında dayanın və onun bizə olan böyük yalanına şahidlik edin!





## SİÇANLAR HAQQINDA

Siqaret çəkənlər vərdişlərinin ziyanlı olduğunu yaxşı bilirlər. Hər il dünyada siqaretin fəsadlarından ölən beş milyon insanın hər biri də bunu yaxşı bilib. Hər il təkcə Rusiyada bu səbəbdən ayagı kəsilən 20.000 insan da bundan agah olub. İndi bu yolda olanlar da bu vərdişin onları hara apardığından gözəl xəbərdardırlar! İndi sadə bir sual: Bütün bunları bilənlər niyə bu ölümcül vərdişlərindən əl çəkə bilmirlər?

Biləsiniz ki, cavab sualdan da sadədir:

Siçanlar üzərində belə bir təcrubə aparıblar. Siçan beyninin "ləzzət" mərkəzinə nazik bir naqil yerləşdiriblər. Naqilin ucunu anten kimi başın üzərinə çıxarıblar. Qəfəsin bir küncünə də zəif elektrikə qoşulmuş digər naqil çıxarıblar. Sicanın başındakə naqil digər naqilə toxunanda çüzi elektrik impulsu siçanın "ləzzət" mərkəzini qıcıqlandırıb və sican bir "kef" payını alıb. Siçan bunu öyrəndikdə saniyədə onlarla dəfə iki naqili birləşdirib "kayf" tuturmuş. O yeməkdən, içməkdən belə imtina edir. Aralaşdırıb buraxan kimi siçan yenə ora cumur, saatlarla bu "işlə" məşgul olur!

İnsan beynində də eynilə belə bir mərkəz var. Həmin mərkəzi qıcıqlandırıb ləzzət almaq üsullarından biri də siqaret çəkməkdir. Tüstünün qıcıqlandırıcı təsirini hamınız bilirsiniz. Siqaret çəkməyin də məgzi odur ki, insan dərindən nəfəs (qullab) vasitəsilə tüstünü ag ciyər alveollarına çatdırır. Oksigen əvəzinə tüstü alan bu zərif toxumanın divarlarında yerləşən sinirlər qıcıqlanır və impuls beyinin ləzzət mərkəzinə çatır. Sonrasını bilirsiniz, insan "kayf" tutur. Qullab qullab dalınca, bütün gün, bütün il! Əlbəttə, ilk vaxtlar ləzzət çox olur, sonra hisslər kütləşsə də, insan ömür boyu, hər qullabda o ilk ləzzəti gözləyir! Bu ləzzət axtarışında olan insan siqaretin bütün ölümcül fəsadlarına göz yumur. Hər dəfə də düşünür ki, bu fəsadlar ondan yan keçəcək, çünki o "xüsusi" bir orqanizmə malikdir!

İndi böyük bir qəfəs təsəvvür edin. Qəfəsin bir küncündə "siqaret ləzzəti" naqili, digər tərəfdə "sağlam yaşamaq" naqili. Necə fikirləşirsiniz, bir gün siqaretdən məhrum insanı ora buraxsaq, hansı naqili seçər? Cavab aydındır!

İndi sizdən soruşuram, insanın siçandan fərqini görən oldu?

Dünyanın ən ağıllı məxluqunun, əşrəfinin reaksiyasını təsəvvür etdiniz?

İndi siz, həmişə siqaret çəkənlərə mənim gözümlə də baxa biləcəksiniz!

Bunu onlara deyə də bilirsiniz, arxayın olun ki, birinin də nə səsi, nə də civiltisi çıxmayacaq! Uzaq başı əsə-

biləşib növbəti siqaretlərini çəkəcəklər, daha dərin qullabla!

## ALLAH VERDİ, ALLAH DA ALDI

Leninqradda (indiki Sankt–Peterburq), Akademiyanın göz xəstəlikləri kafedrasında səs yayıldı ki, iki il bundan əvvəl bir müsəlman ölkəsinə məzuniyyətə getmiş həmkarımız qayıdıb. Ordinatorluq tibbi personalla tez doldu. Mən də getdim. Sovet dövrü xaricə getmək yaxşı şans sayılırdı. Maşın almaq, ev–eşik düzəltmək olurdu. SSRİ qapalı ölkə olduğundan xaric haqqında istənilən məlumat da maraq doğururdu.

Qonaq məmnun idi, suallara həvəslə cavab verirdi. Bir həkim həmkarımın sualına qonağımızın cavabı mənim beyinimi qaynar su kimi yandırdı. O vaxtdan çox illər keçməsinə baxmayaraq, həmin epizod yadıma düşəndə beynimin yanmış yeri hələ də göynəyir.

Həkim soruşdu: "Tutaq ki, mən də oraya getdim və əməliyyat vaxtı mənim səhvim ucbatından bir müsəlmanın gözü kor oldu. Mənim cəzam nə olar?"

Qonaq geniş gülümsəyərək dedi: "Bu qəribə müsəlmanların bir deyimi var: Allah verdi, Allah da aldı. – dönüb sual verən həkimə xitabən dedi–arxayın ol, sənin heç bir cəzan olmayacaq!"

Hamı ucadan yarı istehza ilə gülüşdü. Məndən başqa! Heç kim hiss etməsə də, mən mat–məəttəl, başımdan tüstü çıxa–çıxa baxırdım!

Beynim cavabı heç cür qəbul etmək istəmirdi, məntiqim üsyan edirdi. Necə yəni Allah verdi, Allah da aldı?

Bu nə tibb ocağıdır? Hansı zəmanədir? Həkim səhvi müvafiq qaydada araşdırılmalıdır, qəbul edilmiş qaydada həkim cəzalandırılmalıdır, həkimlərin iştirakı ilə müfəssəl analiz aparılmalıdır ki, səhv bir daha təkrar olunmasın. Hipokratdan bəri bütün dünyada belə edilir! Təsəvvürümdə çox geridə qalmış bir ölkə təsvir etdim, hərçənd ki, qonağımız göydələnlərdən, bahalı maşınlardan danışırdı.

Həkim otağını bəhanə ilə tez tərk etdim. Gedə–gedə öz suallarıma cavab tapa bilmirdim. Axı, İslam son və mütərəqqi dindir. Elm hər cür təşviq olunur. Bəs hardandır bu avamlıq, mütilik?

Xatirəmlə niyə bölüşdüm? Son zamanlar ətrafımda tez–tez eşitməyə başlamışam: “Allahın işidir, Allah bilən yaxşıdır, biz nə karəyik ki,” və s. Sizə elə gəlmirmi belə suallarla biz öz laqeydliyimizə, mübarizsizliyimizə, tənbəlliyimizə bəraət qazandırırıq?

Bəs səndən hərəkət, məndən bərəkəti hansı divara şüar kimi yazıb vuraq?!

Nə səbəbə bu müsəlmanlar yaxşı təhsil, güvənli təbabət və ədalətli cəmiyyət arzusu ilə xristian ölkələrinin səfirlikləri qarşısında növbələrə düzülürlər? Bütün sadaladıqlarımı etməyə bizə nə mane olur?

Bircə sualım var, biz fərd olaraq, cəmiyyət olaraq, dövlət olaraq nələri edək ki, avam və müti insanlarla dolu bir ölkəyə çevrilməyək?! Birlikdə düşünək!

## KƏPƏNƏK XOŞBƏXTLİYİ

Kəpənəklərin bir növü haqqında məlumat məni düşündürdü. Latınca “ephemerotera” adlanan kəpənək cəmi bir gün yaşayır. Adının tərcüməsi də “birgünlük”dür.

Təsəvvür edirsiniz? Cəmi bir gün! Bu kəpənək haqqında daha bir neçə məlumat: Gözəl olur, agızları olmur. Gün ərzində axtarıb sevgilisini tapır, birgə yaşayır, günün sonuna dişi kəpənək yumurtalarını bir yarpağın arxasına qoyur. Günün sonunda hər ikisi bu dünyanı tərk edir.

Əvvəl kəpənəyin əlamətlərinə münasibətimi bildirirəm: Gözəl olmaları təbiidir, çünki onlar elə ilk baxışdan biri birinə vurulmalıdır. Sonrakı baxışlara, sadəcə, vaxt yoxdur. Agızları da ona görə yoxdur ki, bir gün yaşamaq üçün yeyib–içməyə ehtiyac qalmır. Hə, elə buna görə də agızın ehtiyacından dogan çoxlu problemlərdən azaddırlar. Belə..!

Görünən odur ki, bu kəpənəklərin sevmək və sevilmək ehtiyaclarından başqa heç bir istəkləri olmur! Yalnız sevgiyə həsr olunan bir gün. Daha dogrusu, sevgi ilə dolu bir ömür.

Təsəvvür edək, səhər kəpənək öz baramasından (pupundan) çıxır və öz gözəlinin axtarışına yollanır. Dişi kəpənəklər topa–topa uçaraq rəqs edir. Bu topanın içərisindən o, öz seçimini edib ona yaxınlaşır və artıq onlar birgə rəqs edir. Qanadları ilə də onlar sevgilərini izhar edir. Sevgi, mütləq, qanadlı olmalıdır. Sevəndə qanadlanan insanlar bunu bilirlər. Başqa şeylərdə də insanların kəpənəklərlə çox oxşarlıqları var. İnsanlar da həyata gəlirlər, böyüyəndən sonra öz yarılarını tapıb ailə qururlar, həyata övlad gətirib sonda bu dünyanı elə kəpənəklər kimi də tərk edirlər. Sadəcə, kəpənəklərin bir günə etdiklərini insanlar 80–100 ilə edirlər. Fərq nədədir? İnsanın agızı var. O, bu agızı gündə ən azı üç dəfə yedirib–içirtməlidir. Çox hallarda insan həyatı elə bu agıza qulluqda keçir.

Qayıdaq sevgidən başqa heç bir ehtiyacı olmayan kəpənəklərimizə. Bütün həyatlarının mənası məhəbbət olan cütlüyümüzə. Yeganə neməti sevgi olan bir həyat təsəvvür edin. Yalnız birinə tam, axıra qədər, qalıqsız verilən sevgi! Şübhələrsiz, iradlarsız, yalanlı olmayan saf və ülvi sevgi! Təəssüf hissinin ola bilməyəcəyi bir izdivac!

Bu, bir kəpənək qismətidir–sevgi dolu ömür!



Əminəm ki, Allah insanların "yalançı" sevgilərindən usananda bu kəpənəklərin sevgilərinə tamaşa edir, sevinir, öz ilahi rahatlıgını tapır!

Yaradan insana daha da mərhəmətli olub ona minlərlə günlük həyat bəxş edib, onun da hər gün xoşbəxt olmasını istəyir. Təəssüf ki, bu imkandan insan həmişə yararlana bilmir! Eyni zamanda, insan istənilən yaşda geri baxanda öz həyatını elə bir gün kimi görür. Yüz yaşında olsa, belə.

Əslində, insan elə yaşadıgı günü yaşayır. Dünən artıq yoxdur, sabah isə hələ gəlməyib. Biz həmişə elə bir gündə–bu gündə" yaşayırıq.

İndi sadə bir sual: İnsan bir gün öz agzını baglayıb kəpənək ömrü yaşaya bilərmi? Cəmi bir gün! Səhərdən axşama kimi olan həyatını sevdiyinə həsr etsin. Onu sonsuz sevib xoşbəxt etsin. Xoşbəxt etdiyinin xoşbəxtliyindən özü də sonsuz xoşbəxt olsun! Bu xoşbəxtliyinin içərisində ani olaraq anlasın ki, saysız günlərini necə səmərəsiz, mənasız "vaxt öldürməklə" keçirib.

İnsan ömür boyu elə bir kəpənək sevgisi arzulayır, ancaq onu xəyallarında görür, ən yaxşı halda o sevgini şeirlərdə, yazılarda vəsf edir.

Dostlar, ömrə bərabər bir gün üçün, bəlkə, cəhd edəsini

## YAZI HAQDA HƏQİQƏT

İnsanlar "sağaxaylar"a və "solaxaylar"a bölünürlər. Solaxaylar dünya əhalisinin cəmi 5–10%–ni təşkil edir. Bu statistikanı niyə gətirdim? Bilirsinizmi ki, bir solaxayın min illər əvvəl etdiyi bir kəşfdən sağaxaylar bu gün də əziyyət çəkirlər? O birinci solaxay necə "solaxay" iş görübsə, biz sağaxaylar indi də çətinlikdəyik!

O solaxayı da günahlandırmaq çətindir, o kəşfi özü üçün edib, sağaxaylar da düşünmədən o etdiyini təkrar ediblər! Biz də bunu təkrar etmək məcburiyyətindəyik! Keçirəm mətləbə. Söhbət qələm ilə kagız üzərində yazmağımızdan gedir. Hə, adi yazı yazmagımızdan. Daha dəqiqi, soldan sağa yazmagımızdan.

Farslar, ərəblər sağdan sola yazırlar və onların yazısı məhz sağaxaylar üçündür. Ərəb, fars yazı yazmaga başlayanda sağ əlini aparıb qoyur vərəqin elə sağ küncünə. Əlini sağdan sola hərəkət etdirdiyindən yazacagı yeri həmişə (!) görür. O yazdığı hərifin bütün yazılış dövrünü gözlərinin nəzarətində saxlaya bilir. Bu səbəbdən onlar düz və qəşəng yazırlar.

Biz adət etdiyimiz yazıda, sağ əlimizi çarpaz olaraq aparıb qoyuruq vərəqin əks, sol küncünə. Bu səbəbdən öz əlimiz yazacağımız yeri bağlayır və biz yazacağımız yeri

görmürük. Yazdığımız həriflər əlimizin arxasından yazıldıqdan sonra "peyda" olur. Biz böyüklər buna vərdiş etdiyimizdən çox da hiss etmirik. Uşaqlarda bu, özünü kəskin büruzə verir! Yeni yazmaq öyrənən uşaqlar yazdıqlarını görmək üçün başlarını sola əyməyə məcburdurlar! Sinif müəllimlərinin, valideynlərin "işi–peşəsi" uşağa "başını əymə", "düz otur" deməkdir. Necə düz otursun, necə başını əyməsin, yazdıgını görmək istəyir axı?! Onurga əyriliyi də uşaqlarda adətən elə sola da olur, təəssüf ki!

Nə etməli? Nə edə bilərik ki?! Heç nə! Əziyyət çəkib öyrənmişik, onlar da əziyyət çəkib öyrənəcəklər!

Belə. Fikirləşdim ki, bunları bilsəniz, maraqlı olar. Həm də bildiklərimdən təəssüf hissi keçirən təkcə mən olmaram!

## SİMBİOZ

Təbiətdə parazitizm və simbiozluq adlanan münasibətlər var. Yəqin televizorda görmüsünüz, timsah ağzını açıb, bir quş da onun dişlərinin arasında qalmış qida qalıqlarını yeyir. Timsah yeyə biləcəyi quşa toxunmur. Bu, hər iki tərəf üçün faydalı münasibət–simbiozdur. Quş ət yeyir, timsah da öz ağız boşluğunu qida qalıqlarının yarada biləcəyi fəsadlardan profilaktika edir.

Parazitizmdə isə yalnız bir tərəf faydalanır, ikinci tərəf ziyan görür. İnsan–heyvan münasibətində zəli istisna olmaqla bütün qansoran həşəratlar parazitdirlər. İnsan zəli ilə də simbioz münasibətlər qura bilir.

Həmçinin, ev heyvanları ilə də insan simbioz münasibətlər qurub. İnsan onları saxlayır, qulluq edir, bunun qarşılığında onlardan süd, yun, yumurta, bal götürür.

Cəmiyyətdə, insanlar arasında da həm simbioz, həm də parazit münasibətlər mövcuddur. Təbii ki, insanların birgəyaşayış sisteminə hərənin öz payı, əməyi, töhfəsi olmalıdır. Sağlam cəmiyyətdə bu, qayda kimi qəbul olunmalıdır.

Ailə, qadın–kişi münasibətləri simbioz prinsipi üzərində qurulmalıdır. Əslində, ailə kişi ilə qadının müqavilə əsasında (nigah və ya nigah müqaviləsi) birgə yaşayışıdır. Burada əvvəldən hər tərəf öz üzərinə müəyyən öhdəliklər götürür. Hərə öz üzərinə düşən öhdəliyi layiqincə yerinə yetirirsə, gözəl ailə qurulur. Tərəflərdən biri, o birisi üzərində parazitlik etmək istəyirsə, bu, əks tərəfin haqlı narazılığına səbəb olur.Bir tərəfin uzunmüddətli parazitlik cəhdləri ailənin dağılmağına da səbəb ola bilir. İnsanlar arasındakı dostluq əlaqələri simbioz prinsipləri üzərində qurulursa, uzunmüddətli olur. Əks–halda, bu dostluğun ömrü qısa olur.

Cəmiyyətimizdə, dövlət orqanlarında, yaxşı insanlar üzərində də parazitlik edənlər az deyil.

Təəssüflə qeyd edirəm ki, "ümumi işimiz" olan FB məkanında da "virtual" parazitlərimiz var!))

Sonda bir necə praktik məsləhət:

Birincisi, baxın, siz özünüz ailə, qohum, qonşu, dost və s. münasibətlərdə parazitlik etmirsiniz ki? Belədirsə, çalışın əks tərəf də sizdən necə isə bəhrələnsin. Sadəcə olaraq, bilməlisiniz ki, parazitlik davamlı olmur, bir gün “neştərinizi” kənarlaşdıra bilərlər.

İkincisi, sadaladığım insanlar arasında sizə qarşı parazitlik edənlər varmı? Bunu müəyyənləşdirən kimi, münasibətlərinizin simbioza, yəni qarşılıqlı faydalı olmasına çalışın. Alınmasa, o insanlardan üzüsulu aralaşın.

Üçüncüsü, çalışın uşaqlarınızı parazit kimi yetişdirməyin. Qoy bilsinlər ki, onların valideynləri, qohumları, dostları, cəmiyyət qarşısında öhdəlikləri var. Onları elə tərbiyə edin ki, başqalarına kömək etmək hissi onlarda dominant olsun. Ümumiyyətlə, insanlara, heyvanlara, bitkilərə, bütün ətraf mühitə mərhəmətli olsunlar.

Bu, ilk olaraq valideynlərin özlərinə vacibdir. Əks–halda onların parazitizminin əsas qurbanı elə valideynlər olur! Ətrafımız belə nümunələrlə təəssüf ki, doludur!

Bu məsləhətlər bizlər üçün də önəmlidir. Çalışaq öz üzərimizə vətəndaş, ər, yoldaş, ata, ana, dost, qardaş, qohum və s. kimi düşən öhdəlikləri layiqincə yerinə yetirək!.

Hamıya həyatda simbioz münasibətlər diləyirəm

**ABŞERON MÖCÜZƏSİ**

*İstedadlı rəssam, dostum İntiqam*
*Ağayevə ithaf edirəm*

İş otağım binanın gün tutmayan tərəfində yerləşir. Günəş sevən bir insan olduğumdan bu fakt məni həmişə pərişan edib.

Rəssam dostum İntiqamın emalatxanasında yağlı boya ilə çəkilmiş günəşli, dəniz mənzərəli tablo görəndə sevindim. İş otağım üçün günəş tapmışdım!

Masamın önündəki divara həmin rəsmi asanda otağıma günəşli bir pəncərə açıldı.

Şəkli təsvir edirəm: Parlaq günəşli bir gün, Xəzərin sahilində kiçik hasarlı, bir mərtəbəli, çox da böyük olmayan Abşeron bağ evi. Həyətdə daşdan hörülmüş balaca hovuz və sarı qum üzərində yerə sərilmiş meynələr–üzüm tənəkləri. Bir sözlə, sovet dövrünün tipik bağ evi.

Uşaqlığım Corat və Novxanı bağlarında keçdiyindən, şəkil mənə çox doğma idi.

Şəklə baxanda, adətən günəşə sevinən dənizə baxırdım. Bir gün şəkildəki üzüm kollarından biri diqqətimi çəkdi. Elə bir yarpaqların birinin altında ağ üzüm dənəsi görünürdü. Otaqda tək idim. Durub şəklə yaxınlaşdım. Yanılmamışdım, ağ şanı üzümün dənəsi idi. Abşeron camaatı meynələri sulamazdı, kökləri dərinliklərdə nə su tapsaydı, onu da içərdi. Salxımın dənələrini bir tərəfdən günəşin, digər tərəfdən üstündə olduğu qumun istisi bişirib yetişdirəri. Su bütün dənələrə çatmadığından salxımda dənələr çox olmazdı. Amma olanlar şipşirin və əsrarəngiz dadda olurdu. Babalarımız belə dənələrə "gilə" deyərdilər.

Şəkildə gördüyüm üzüm giləsi çox canlı görünürdü. Ürəyimdə dostum İntiqamın ustalığına əhsən dedim. Qeyri–ixtiyari olaraq, barmaqlarımı giləyə uzatdım. İnanılmaz idi. Barmaqlarımın ucu ilə gilənin həqiqi olduğunu hiss etdim. Duruxdum. Əlimi çəkdim. Bu, mümkünsüz idi. Bu ki rəsm əsəridir?!

Bundan sonra yazacaqlarımı oxumaya bilərsiniz. Onsuz da inanmayacaqsınız. Sadəcə, oxumağı davam edənlər üçün yazıram. İkinci cəhddə mən o giləni dərdim. Dərəndə, hətta gilənin müqavimətini də hiss etdim. Tam yetişmiş giləni instinktiv olaraq ağzıma qoydum. Giləni dişlərimlə sıxan kimi ağzıma tökülən şirə dad partlayışı effektini verdi, nəinki ağzım, bütün bədənim sözlə ifadə oluna bilməyən bir şirinliyə qərq oldu. İxtiyarsız gözlərim yumuldu. Ömrümdə ilk dəfə Cənnət meyvələrinin necə ola biləcəyini tam varlığımla duydum. Zaman mənim üçün dayanmışdı. O da bu anı mənimlə bölüşmək istəyirdi! Nə qədər vaxt keçdiyini deyə bilməyəcəyəm, amma yavaş–yavaş özümə gəldim. Qayıdıb kresloda oturdum. Beyinim şəkərin təsirindən eyforiyada olsa da, saat kimi işləyirdi. Fikirlərim heç vaxt olmadığı qədər aydın idi. Başa düşürdüm ki, olanları heç kimə danışa bilməyəcəyəm. Bəlkə, İntiqama zəng vurum? Ona nə deyim? Deyim ki, əziz dostum, şəkildəki günəşi, meynələri, qumu elə real çəkmisən ki, əsərdəki meynə bar gətirib? Əlavə edim ki, amma yeganə sübut ola biləcək və cəmi bir dənə olan şanı giləsini də yemişəm. İnanmaz, zarafat sayar.

Gilənin dadı hələ ağzımda idi. Ağzımı bərk marcıldatdım. Yuxuda olsaydım, marçıltının səsindən, mütləq, ayılardım. Yox, bu yuxu deyildi!

İndi şəklə baxanda dənizdən çox üzüm tənəklərinə baxıram. Ümidliyəm!

## SSENARİST

Uçurdum. Hə, uçurdum. Bədənimi hiss etmirdim, sadəcə olaraq, o, yox idi. Ruhum bədəndən ayrıldığına elə bir sevinirdi. O uzun illər məcburən bağlı qaldığı bədəndən ayrılmışdı. Düşündüm ki, deməli, canın bədəndən ayrılmağı belə olurmuş. Mən indi təkcə ruh idim. Əvvəllər görmədiyim rənglərlə dolu, işıqlı bir yoldaydım.

Aşağıda insanlarla, dəvələrlə dolu bir köç gedirdi. Hamı ağ paltarda idi, kimi dəvə üstündə, kimi də piyada. İstiqamətimiz eyni idi. İnsanlar arasından mənə əl eləyənlər də olurdu. Onları bir şey birləşdirirdi: onlar dünyasını dəyişmiş qohumlarım, ya da dostlarım idi. Qəfil anladım ki, mən də ölmüşəm.

Öləndən sonra bu işıqlı yol haqqında oxumuşdum. Fikirləşdim, görəsən, mən niyə öldüm? Nədən? Pəhriz saxlayırdım, bədənimi pis vərdişlərdən uzaq tuturdum. Elə ağrıyan yerim də yox idi axı! Özüm də həkim!

Dostlar da deyəcək, bu ki özü bizə uzun illər yaşamağın yollarından danışırdı, özü də belə?!

Yaxınlarımın qəmli olacaqlarını düşündüm. Keçirtdiyim hisslər təəssüf hissindən uzaq idi. Çox rahat idim. Elə bir ömrüm boyu bu rahatlığı arzulamışdım.

Uçuş sürətim yavaş–yavaş azalırdı. Astaca harasa endim. Bura böyük və işıqlı bir otaq idi. Ortada, qalın döşəkçənin üzərində ağ saçlı, nurani bir qoca oturmuşdu. Qoca mənə gülümsədi, salam verdi. Mən də salam verdim. Anladım ki, bizdən səs çıxmır, biz baxışlarımızla danışırıq. Niyəsə təəcüblənmədim.

O, qarşısındakı qalın kitabı açdı. Səhifələr düm ağ olsa da, o, elə bil nəsə oxuyurdu. Bir azdan başını qaldırıb baxışları ilə çatdırdı: Yaşamısan!

Dedim ki, hə, yaşamışam. Bütün keçmiş həyatım kino lenti kimi bir neçə saniyəyə gözlərimin önündən keçdi. Elə peşmançılığım da yox idi.

Qoca soruşdu:–Yuxular görürdün?

–Hə, görürdüm.

Həmişə məni düşündürüb bu yuxular. Yuxularım xaotik deyildi, həmişə bir süjet xəttinə bağlı idi. Kim bu süjetləri düşünürdü? Necə?

Qoca fikirlərimi oxuyurmuş kimi dedi:–Sən yaradıcı insan olmusan, bu gündən insan yuxuları üçün ssenarilər düşünəcəksən. Gündüz insanları müşahidə edib, yatanda istənilən simada onların yuxularına girə biləcəksən. Bu vaxtdan sən insanların yuxularında yaşayacaqsan. Bu, sənin yeni həyatın olacaq! Sualın var? Dedim:–Yox.

Qocanın yanında çox gözəl bir xanım peyda oldu. Yunan əsatirlərində gördüyüm xanımlara bənzəyirdi. Uzun və qəşəng hörükləri var idi. Həyatım boyu arzuladığım, amma heç vaxt sığallamaq imkanım olmadığı hörüklər!

Qoca son dəfə dilləndi:–Səni olacağın yerə ötürəcəklər.

Qoca yox oldu. Onunla sağollaşa bilməməyimə təəssüfləndim.

Hörüklü xanım başı ilə onun arxasınca getməli olduğuma işarə etdi. İxtiyarsız hörüklərin arxası ilə getdim.

Elə bu an səslər eşitdim. Səslər doğma idi, qonşu otaqdan gəlirdi. Qızım nəvələrimə deyirdi ki, səs salmayın, babanızı oyadarsınız.

Gözlərimi açdım. Yuxunu xarırladım. Düşündüm ki, mənim bu yuxumun ssenarisini yazan çox istedadlıdır, maşallah!

## QƏHRƏMANLIQLARIMIZ HAQDA

Demək olar ki, hər bir insanin dost və tanışlarla söhbəti zamanı özü haqqında danışdığı "hazır" qəhrəmanlıq hekayəsi olur. Bir və ya bir neçə hekayə. Məğz də odur ki, keçmişdə, kritik situasiyada o, nə dedi və nələri etdi! Təbii ki, sonda o, günahkarı cəzalandırır və ədaləti bərqərar edir! Adətən belə hadisələr reallıqda ya olmamış olur, ya da olmuş kiçik epizod şışirdilir. Ən maraqlısı da odur ki, illərlə danışılan belə hekayələrin real olduğuna insan özü

də sidq ürəklə inanır. O, əmindir ki, uydurduğu şəraitə düşsəydi, özünü məhz elə aparardı!

Hamının içərisində seçilmiş (qəhrəman) kimi görünmək istəyi insanlara xas xüsusiyyətdir.

Bunun ən gözəl bədii nümunəsi Baron Münhauzen haqqındadır. Hə, öz saçlarından tutub özünü bataqlıqdan çıxaran Münhauzen. Azərbaycan ədəbiyyatında və reallıqda "gop" kimi adlandırdığımız fenomen kifayət qədər çoxdur. Siz bunun televiziyalardan gündəlik izləyicisisiniz.

Seçkiqabağı, siyasətçilərdə bu, “epidemiya” halını alır!

Münhauzenlik bu və ya digər dərəcədə hamımızda var. Bu, yaxşıdır, ya pis? Bu çox yaxşıdır! Çünki o hadisəni danışan ona qulaq asanların diqqət və həsəddolu baxışlarından cuşa gəlir, onun beynində sevinc hormonları ifraz olunur və o xoşallanır! Bu hormonlar bütün orqanizmə müsbət təsirini də göstərir.

Dostlar, bir–birimizin “qəhrəmanlıq” hekayələrinə qulaq asanda tənqid hissimizi kənara qoyaq! Axı bizə də növbə çatacaq, axı bizim da ondan da maraqlı “qəhrəmanlıqlarımız” var!)

## BULUDLAR HAQDA

Yəqin buludlara baxmısınız. Qara və ağ rəngdə olurlar. Qaralar su ilə dolmuşlardır. Yağışla boşalıb ağappaq olur. Bu, buludların həyatıdır: dolub–boşalmaq!

İnsanlar da buludlar kimidir, dolub boşalmalıdırlar. İnsanlar da dolanda qara olurlar–qəmli, kədərli! Boşalanda ağarırlar, çöhrələri açılır, üzləri gülür. Mən fiziki bədəni boşaltmaq haqqında danışmıram, hərçənd ki bu da çox vacibdir. Mən insanın ruhuna aid, yaradıcılıq enerjisindən danışacağam. Bu, birincinin ləzzətindən də çox ola bilir! Bu ƏSL insani ləzzətdir! İnsanlar bu mənada müxtəlif cür boşalırlar. Şairlər şeirlə, yazıçılar nəsrlə, rəssamlar rəsm əsərləri ilə və s. Hə, belə “boşalmalar” ləzzətlə müşayiət olunur. Yaradıcılıq ləzzəti! Bu ləzzəti bir dəfə duyan

insanlar, onu təkrar–təkrar duymaq istəyirlər. Bu səbəbdən davamlı yaradırlar! Hərənin öz “ləzzət” almaq üsulu var. Öz üsullarını tapanlar xoşbəxtdirlər!

Təəssüf ki, bir qrup insanlar (həm kişi, həm də qadın) öz “boşalmaq” üsullarını tapmayıblar. Bu “qara” insanlar ətrafımızda çoxdur. Bəziləri içərilərində olan izafi enerjini konfliktlərlə çıxartmaq istəyir. Bu, onların da, ətrafdakıların da həyatını çətinləşdirir, bəzən dözülməz edir. Belə insanlara məsləhətim: Baxın, nə ilə məşğul olmaq xoşunuza gəlir? Bu, bənnalıqdan tutmuş dərziliyə qədər, bağbanlıqdan tutmuş saatsazlığa qədər ola bilir. Üsullar yüzlərlədir. Sadəcə, öz kilidinizə uyğun açarınızı tapmalısınız! Bu işdə yaxşı psixoloq da sizə kömək edə bilər.

Əsas odur ki, özünüzə qapanmayın, ətrafa açıq olun. Problemləri birgə həll etmək daha asandır.

# RAMİZ ƏKBƏR
(1956)



**Ramiz Fəzail oğlu Əkbərov** 1956 cı ilin 11 Sentyabrında Azərbaycanın şəfalı güşələrindən biri olan Yardımlı rayonunda ziyalı ailəsində dünyaya göz açmışdır.

1963-1973-ci illərdə Yardımlı rayon M.F.Axundov adına orta məktəbdə oxumuş, 1973-cü ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnistutunun müalicə-profilaktika fakültəsinə yüksək qiymətlərlə daxil olmuşdur. IV kursda "Lenin" təqaüdünə laiq görülüb. Tələbə ikən akademik M.Cavadzadənin klinikasında tibb qardaşı kimi əmək fəaliyyətinə başlamışdır.

1978-1979-cu illərdə o, iki il müddətində Bakıdakı M.Nağıyev adına Təcili-Tibbi Yardım xəstəxanasında cərrahiyyə üzrə peşəkar cərrahların, professor-müəllim heyətinin yanında subordinatura internatura kursu keçmişdir. Tələbəlik illərində institut tələbə-elmi cəmiyyətinin tədbirlərinə qoşulmuş, tezis və məqalələrlə çıxış etmişdir. 1980-1983-cü illərdə Səhiyyə Nazirliyinin göndərişi ilə Saatlı rayon Mərkəzi Xəstəxanasında cərrah işləmişdir.

Təyinat müddətini başa vurduqdan sonra, R.Əkbərov yenidən Bakıya qayıdaraq, elmi-təcrübi biliyini zənginləşdirmək üçün Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Urologiya Klinikasında iki illik Kliniki-ordinatura kursuna daxil olub. Kliniki-ordinatura müddətində dəfələrlə elmi-praktik konfransların kürsüsündən onun səsi eşidilmiş, elmi məqalələri işıq üzü görmüşdür.

1985-ci ildən R.Əkbərov fəaliyyətini DİN-in Respublika Hospitalı ilə bağlayıb. 1985-1992-ci illərdə mülki uroloq, 1992-1996-cı illərdə cərrahiyyə şöbəsinin rəisi, 1997-ci ildən 2014-cü ilədək hospitalın müalicə işləri üzrə

rəis müavini, 2014-2017-ci illərdə həmin hospitalın rəisi vəzifəsində işləmişdir. Hal-hazırda istefada olan tibb xidməti polkovnikidir. Ali dərəcəli səhiyyə təşkilatçısı və ali dərəcəli uroloqdur. İstanbul NS klinikasında Urologiya-Andrologiya bölümünün rəhbəridir. Azərbaycan Uroloqlar və Androloqlar Cəmiyyətinin, Avropa Uroloqlar Cəmiyyətinin həqiqi üzvüdür. 2008-ci ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Əməkdar həkim" fəxri adına layiq görülmüşdür. Səhiyyə əlaçısıdır (2014-cü il). 30-a yaxın elmi-bədii-publisistik kitabların, 100-dən artıq elmi məqalələrin və səmərələşdirici təkliflərin müəllifidir. R.Əkbərov 2003-cü ildən tibb üzrə fəlsəfə doktoru, 2008-ci ildən isə fəlsəfə üzrə fəlsəfə doktorudur.

Ramiz Əkbərov təkcə həkimliyi ilə deyil, əbədi fəaliyyəti ilə də uğur qazanan istedadlı yazarlardan biri sayılır. Publisistik əsərlərində ideal polis obrazı yaradan Ramiz Əkbərin "30-il milis rəisi", "Salam, cənab polkovnik", "Bu sənin taleyindir" kitabları polisin keçdiyi əzablı və şərəfli yolundan bəhs edir.

"Dövrümüzün İbn-Sinası" məqaləsində müəllimi, dünya şöhrətli akademik Mirməmməd Cavadzadənin həyat yolunu, elmi təcrübəsini, təşkilatçılığını həkimlərə, alimlərə örnək yolu kimi vermişdir ("Xalq qazeti"). Ramiz Əkbərin "Heydər Əliyev və Nizami Gəncəvi irsi" məqaləsində ("Xalq qazeti") ulu öndərin Nizami dühasına olan sevgisi və qayğısı göstərilmişdir.

Həkim yazıçının ədəbi fəaliyyəti çox geniş və zəngindir. Onun qələmindən çıxan müxtəlif hekayələr və dram əsərləri öz üslub tərzinə və dilinin sadəliyinə görə anlaşıqlı və xoşa gələndir. Ramiz Əkbərin yazdığı dram əsərləri dəfələrlə həm Azərbaycan Dövlət Musiqili Komediya, həm də "İlham Miniatur " teatrlarının səhnələrində oynanılmışdır. Azərbaycan Milli Televiziyasında (AzTV-də) onun "Zəncir" tele monoloqu , İctimayi Televiziyada "Qulaq" əsəri dəfələrlə nümayiş olunmuşdur. Müəllifin bir neçə kitabı və hekayələri alman, rus, türk və polyak dillərində nəşr olunmuşdur.

Onun barəsində bir çox məhşur insanlar, söz-sənət ustaları da zaman-zaman öz ürək sözlərini vurğulamış, Ramiz Əkbərin bir həkim kimi peşəkarlığını diqqətə çatdırmışdır, habelə onun zəngin yaradıcılığına münasibətlərini bildirmişlər. O, Azərbaycan Yazıçılar və Jurnalistika birliklərinin üzvüdür. Ədəbi fəaliyyətinə görə Ramiz Əkbər “Qızıl qələm”, “Həsəbəy Zərdabi” və “Altun” mükafatlarına layiq görülmüşdür.

## AMERİKAN QULU

*(novella)*

*Ac toyuq yuxusunda darı görər.*
*(Azərbaycan atalar sözü)*

Qulu vurulmuşdu Amerikaya. Kişi yuxularında da o nəhəng, dünyaya meydan oxuyan, qanunun tarixi ilə yaşıd, gözəl, rəngarəng ölkəni tez-tez görürdü. Harada, kimdən bu ölkə haqqında nə eşitsə idi, o saat qulaq kəsilərdi, əlinə düşən ədəbiyyatı diqqətlə oxuyardı. Sonra əllərini bir-birinə çırpıb:" Eh, gidi dünya, Allah qaranı çəkir paxlanın gözünə, noxudu qoyur yana-yana" , - deyib ah çəkərdi.

Hələ gəncliyində Amerikaya aid foto, qazet şəkillərini köhnə çemodanının iç qapağına, üstünə xəmirlə yapışdırardı, əlinə düşən qəşəng heyvan şəkillərini də, onlarla yanaşı yapışqanlayardı. Sonra da yaşıdları arasında danışanda o şəkillərdən elə şeylər uydurub danışardı ki, müsahibi onu hər şeydən xəbərdar bir adam kimi qəbul edərdi. Qulu Amerikan itlərini də dünyanın bütün itlərindən yüksək tutar, onları əfsanəvi heyvanlarla müqayisə edərdi. Sadəlövh dostları da ağızlarını açıb böyük maraqla onu dinləyərdilər. Odur ki, adını “Amerikan Qulu” qoymuşdular onun.

Qulu böyüyürdü, böyüdükcə də hamıya məlum olurdu ki, “Amerikan Qulu” xəyalpərvərdir, fontazyordur, burnunun ucundan o yanı görmür.

Qulu sürücü idi. Köhnə, sökük-salxaq bir maşını vardı. Kabinasının tavanını, ətrafını gözəl Amerika maşınlarının markaları, şəkilləri ilə bəzəmişdi. Çox vaxt, lap

sanballı adamlar belə, maraq xatirinə kabinaya başlarını salar, gözəl yaraşıqlı şəkillərə tamaşa edirdilər. Belə vaxtlar Qulunun yerişi də dəyişilərdi. Əyri qılçalarını bir az da əyə-əyə yeriyərdi. Həmişə maşınında saxladığı Amerikan siqaretini damağına qoyar və yandırmağa tələsməzdi, çünki müsahibi gedən kimi siqareti təzədən səliqə ilə qutusuna qoyar və öz ucuz, gözyaşardan “Astra”sını yandırıb tüstülədərdi.

İsti bir yay günü idi, günəş maşının üstündən belə, adamın beynini deşirdi. Asfaltın bürküsü nəfəs almağa imkan vermirdi. Qulu şəhərə pomidor aparırdı. O, yolda maşını saxlayıb nəhəng bir ağacın kölgəsinə qaçdı. Ağacın altından bir köhnə jurnal tapdı. Görünür burada dincələnlər jurnaldan istifadə etmiş, bəzi səhifələrini cırıb tullamışdılar - buna baxmayaraq, jurnal maraqlı idi. Qulu jurnalı vərəqlədi, birdən gözünə bir yazı sataşdı : “Sadə bir amerikalının həyat tərzi”. Sərlövhənin sağ tərəfində ucaboy, sarışın, şümal, kavboy geyimli yaşlı bir kişi əlini belinə qoymuşdu. Elə bil, Qulunun nitqi tutuldu, kişi sanki xəzinə tapdı, havanın bürküsü də bir anda yoxa çıxdı. O, acgözlüklə oxumağa başladı. Məlum oldu ki, Tom Cekson adlı 83 yaşlı amerikan ömründə ət və ət məhsullarından istifadə etməmişdir. Bu kişi un məhsullarından da imkan daxilində qaçıb. Əvvəli kasıb olsa da, indi çox varlı adamdır. Ömründə heç bir həkimə müraciət etməyib, fermer təsərrüfatı ilə məşğuldur, uşaqlarını da ət məhsullarından çəkindirib. Hamı sapsağlamdır. Yazını oxuyub qurtaran Qulu ağacın kölgəsində uzandı. Xəyallar onu ucaboy, sağlam Ceksonun yanına apardı...

Cekson onunla çox səmimi görüşdü, ona qəttəzə kavboy paltarı, papaq və bir köhlən at bağışladı . Qulu atı minib yamyaşıl, tərtəmiz düzənlikdə çapırdı. Bütün bunlar az imiş kimi, Cekson ona düzənliyin qurtaracağındakı hündür, yaşıl təpədə tikdirdiyi villasını da bağışladı. Gözləri dəniz kimi mavi, saçları qızıl kimi sarı qızını təklif edəndə Qulunun gözləri önünə oğlu Cahangiri qucağında tutub domba gözlərini ona dikən gombul arvadı Gülzar

gəldi. O, xəyaldan ayrıldı, hirslə yana tüpürüb, cəhənnəm havalı maşınının kabinasına qalxıb, sürəti artırdı. İsti külək üzünü, qulaqlarını qarsıdı, geri dönəndə bir qədər sakitləşmişdi, gecənin sərinliyi istinin belini qırmışdı. Nisbətən sakitləşən külək  zil qara saçlarını qarışdırdıqca əsəbləri sakitləşən Qulu özünü Ceksonla müqayisə edirdi: "Cekson varlanar da, ət almır, yağ almır, çörək almır. Pul nəyə gedir?  - Yemək içməyə. Gülzar həftədə ən azı beş kilo ət yeyir. Bozbaşın yağı ən azı dörd barmaq olmasa, dodaqları yerlə sürünər. Hər oturanda da, təkbaşına bir kömbə çörəyi qamarlayıb ötürür içəri. Heç otuz yaşı yoxdur, lehmədən çıxan begemot balasına oxşayır." Sonra Qulu fikirləşdi ki, qurban olum Allaha, nə yaxşı gecəni yaradıb, insanlar bir-birlərinin çatışmayan cəhətlərini görmürlər, yarısını qaranlıq, yarısını da yorğan örtür.

Nəhayət, Qulu qərara gəldi ki, Ceksonun həyat tərzini yaşamalıdır. Sabahdan ət, yağ, çörəyə əlvida deyəcək. Bəs onda nə yeyəcəklər. Gülzar cəhənnəmə, bəs o? Axı, yəqin ki, Cekson uşaqlıqdan buna öyrəşib. Amma özünün yaşı 35-i yenicə keçib.

Cahangiri isə öyrətmək olar. Lap elə adını da dəyişəcək. Qoyacaq Cekson. Əlbəttə, əvvəl öyrəşmək çətin olacaq, gülənlər də tapılar. Lakin bu, çox çəkməyəcək, öyrəşəcəklər. Heç kəsin yadına belə düşməyəcək ki, onu Cahangir  çağırsın. Quluya baxıb hamı "Cek" deyə çağıracaq. Düzdür o, ortaboyludur, qılçaları da əyridir. Yəqin anası ona uşaqlıqda ət, yağ çox yedizdirib. Oğlu isə hündür olacaq. Çünki o, ət,  yağ, çörək yeməyəcək. Ətə, yağa, çörəyə verildiyi pulu yığsa, gələcəkdə, əlbəttə, fermer də ola bilər. Niyə də olmasın, onun  Ceksondan nəyi əksikdir? Özü jurnalda oxudu ki, Cekson kasıb olub, sonra varlanıb, əvvəlki sadə bir vətəndaş indi fermer olub...

Qabaqdan gələn  maşın uzaq işıqlarını yandırmışdı. İşıq Qulunun gözlərini elə qamaşdırırdı ki, az qaldı maşını arxa salsın. Möhkəm bir söyüş söyüb, siqnalı basdı. Xırıltılı siqnalın səsi gecənin sükutunu pozdu.

Ertəsi gün Qulu ilə Gülzar möhkəm mübahisə etdilər. Axırda Qulu yumruğunu stola necə çırpdısa, beşikdə yatan Cahangir diksindi və başladı ağlamağa. Qulunun qərarı qəti idi. Cahangir bu gündən Cekson olmalı idi.

Qonum-qonşu, qohum-əqraba əvvəl gülsələr də, sonradan buna öyrəşdilər. Cahangir oldu Cek. Gülzarın qara günləri başlandı. Qulu nə ət aldı, nə yağ. Çörəyi də az qala qramla alırdı. Çox yeməyə öyrəşmiş Gülzarın atası evi olmasaydı, yazıq qız acından ölərdi. Qulu özü də arıqlamışdı. Heç əvvəllər də kök deyildi. Ancaq indi qarnı yapışmışdı belinə . Günlər keçir, balaca Cek skelet kimi böyüyürdü: baş yekə, ayaqlar, qollar nazik, qarın domba. Qulu özünə təskinlik verirdi: “Eybi yoxdur, hər şey düzələr.”

Cek məktəbə gedirdi. Müəllimə şikayət edirdi ki, uşaq zəifdir. Tez-tez tərləyir. Hələ bir dəfə huşunu da itirib. Gülzar uşağı həkimə göstərmişdi. Nə həkimin dedikləri, nə də müəllimənin şikayətləri Qulunu yolundan döndərə bilmədi. Gülzarın anası rəhmətə gedəndən sonra, qardaşı arvadı ona üz göstərmirdi. Yazıq qızın ayağı hətta, ata evindən də kəsilmişdi.

Yayda vəziyyət nisbətən yaxşı olurdu. Tərəvəz bol olurdu. Heç olmasa qarınlarına vitamin gedirdi. Qışda isə qalırdılar lobya, düyü, kartof ümidinə.

İndi Qulu Cekin otağını bəzəmişdi. Divarlarında az qala bir-birinin üstünə yapışdırılmış kovboyların, idmançıların, heyvanların şəkilləri uyğunluq təşkil etməsə də, rəngarəng idi. Cek isə çox passiv, halsız uşaq idi. Onun da gözləri anası kimi iri idi. Çox arıq olduğundan gözləri həddindən artıq iri görünürdü. İndi də Qulu oğluna ingilis dilini öyrədirdi. Öyrədirdi deyəndə ki, müəllim yanına aparmırdı. Özünün orda-burda öyrəndiyi tək-tək sözləri, söz birləşmələrini, cümlələri ona təkrar etdirirdi. “Ay ləv yu”, “ayəm fama”, “ayəm veri riç”, “zises mister Qulu”, “ay liv in Amerika” , “may neym iz Cek” və s.

Yazıq uşağın dili topuq çala-çala mənasını anlamadığı sözləri təkrar edirdi. Qulu həyətə it də gətirmişdi. İstəyirdi küçədən tapıb gətirdiyi bu iti Amerika lordlarının

itlərinə tay etsin, yəni it onun veridyi tapşırıqları yerinə yetirsin; açırdı belindəki kəməri, aparıb gizlədirdi peyinlikdə, sonra yazıq iti döyə-döyə, sürüyə-sürüyə gətirirdi ki, kəməri tapsın. Sümük gəmirməyən, doyunca yemək yeməyən it, Cekdən də pis gündə idi . Qulu gözləyirdi, inanırdı ki, bir gün azruları çin olacaq.

Şaxtalı bir qış günü idi. Şiddətli yağışdan sonra möhkəm qar yağmış, donmuş yollar sürüşkən olmuşdu. Göy elə bil, yerə yaxınlaşmışdı. Hər ikisi eyni rəngdə idi. Qulunun köhnə maşınına odun yüklənmişdi. Yaxın kəndə aparmalı idi. Cek bərk xəstələnmişdi, uşağın hərarəti düşmürdü. Ağlamaqdan Gülzarın gözləri qıpqırmızı idi. Almacıq sümükləri batmış ovurdları, göyərmiş dodaqları onu yaşından çox-çox qoca göstərirdi. O, qaynadılmış suyu qaşıq-qaşıq uşağa içirirdi. Qanı qurumuş dodaqları çat-çat olan Cek hərarətdən ağırlaşan göz qapaqlarını güclə qaldırırdı. Gülzarın ürəyinə sanki bıcaq sancılmışdı...

Qulu sürüşkən yolda maşını çətin idarə edirdi. Ürəyindən qara qanlar axırdı. Odunun puluna mütləq dərman alacaqdı . Özü də ki, Amerika dərmanları. Çünki Cekin orqanizmi artıq Amerika şəraiti üçün hazırlanır. Odur ki, o ancaq Amerika dərmanları içməlidir. Bir də, meyvə alacaq – düzdür, indi meyvə od qiymətinədir, ancaq cəhənnəm olsun, lazım olsa lap borca girər. Cekin gələcəyi üçün biraz pul yığmışdı... Zibil motor da tökülməyə vaxt tapdı, motoru yığdırdı. Təzə təkər aldı, usta pulu verdi. Beləliklə, əlində nə vardısa, getdi. Sonra fikirləşdi ki, görəsən qoca Cekson uşaq vaxtı xəstələnəndə onu nə ilə müalicə edirmişlər? Gərək, axtarsın o jurnalı tapsın. İndi kişinin 90 yaşı var. Yəqin yenə əvvəki kimi sağlam və cəlddir. Deyəsən jurnalda ünvanı da yazılmışdı – axşam qayıdanda jurnalı axtarıb tapar. Sonra fikirləşdi ki, sabah gedər məktəbə, ingilis dili müəllimi Rəhmət müəllimə bir məktub yazdırar, yazdırar ki, Ceksona olan məhəbbətdən oğlu Cahangirin adını dəyişib Cekson qoyub. Onun kimi oğluna ət, yağ yedizdirmir. Həm də soruşar ki, uşaqlıqda xəstələnəndə hansı dərmanlardan istifadə edib? Bəlkə

məktub kişinin xoşuna gəldi. Elə dərmanları və ya dərman almaq üçün çoxlu dollar göndərdi. Həyatda nə qədər belə şeylər olur. Bir də görürsən hansısa bir kasıb hansısa milyonerin xoşuna gəldi. Çağırdı yanına, yardım etdi, o da varlandı . Gör Qulu nə qədər axmaqdır? İndiyə qədər məktub haqqında heç fikirləşməmişdi. Nə yaxşı oldu, - elə günü sabah gedəcək Rıhmət müəllimin yanına. Uşağa dərman almağa tələsməyəcək. Bir qutu Amerika siqareti alıb aparacaq Rəhmət müəllimə. Xahiş edəcək ki, məktubu ürəklə yazsın. Qoy cənab Cekson onun səmimiyyətinə inansın. Dünyanın işini bilmək olmaz. Bir də görərsən ki, budur, poçtalyon Hüseyn əlində məktub gəlir ki, ay Qulu xaricdən sənə məktub var. Açıb baxacaqlar "viza". Cənab Cekson öz adaşına göndərib. Onda uşağı tək göndərməz ki, əlbəttə özü də gedər. Qulu gərək Rəhmət müəllimə desin ki, məktubda yalnız onun və Cekin adını yazsın. Daha  Gülzarı o kökdə Amerikaya aparan deyil ki! Onun üçün bir az pul saxlayar, başını bişirər ki, işlərini qaydaya salan kimi gəlib onu aparacaq. Çətini Amerikaya getməkdir. Sonra kimdir bu xarabaya dönən? Birdən Qulu hiss etdi ki, maşını idarə edə bilmir. Maşın uçuruma yuvarlanır. Cəld kabinanı açıb özünü yana tulladı. Uçuruma yuvarlanan maşının gurultusu ətrafı lərzəyə saldı. Qulu ayağa qalxmaq istəyəndə dizinin ağrısından az qaldı huşunu itirsin. Ətrafda heç kəs yox idi. O bura necə gəlib çıxmışdı? Axı, yolları çox yaxşı tanıyırdı, 19 yaşından sükan arxasında idi. Necə gəlib bura dırmaşmışdı? Sürünmək istədi, mümkün olmadı. İsti kabinadan sonra soyuq onu üşütdü. Dişi dişinə dəyirdi. Ölüm-zülüm sol dizini dayaq edib dikəldi. Ətraf ağappaq idi. Bəyazlıqdan gözləri qıyıldı. Belə qalsaydı, donardı . Yadına  orta məktəbdə oxuduğu Amerika yazıçısının əsəri düşdü. Həmin kişini axırda, deyəsən canavarlar yeyir. Hə, yadına düşdü: "Həyat eşqi". Yox, o ki meşədə deyil – özünə ürək-dirək verdi. Həm də gündüzdür. Necə olsa, biri gəlib çıxar. Bir vaxtlar özünü bənzətmək istədiyi "Əsl insan haqqında povestdəki Aleksey Meresyev yadına düşdü. İki ayağı

şikəst ola-ola neçə gün sürünmüşdü, özünü xilas etmişdi. Yəni Qulu özünü xilas edə bilməz?! İndi ayağının ağrısı bir az azalmışdı. O, sol tərəfi üstə xeyli süründü. Möhkəm tərləmişdi, dayansaydı donardı. Birdən "coş", "coş " səsi eşidildi, çağırmağa başladı. Nəhayət, səsinə hay verdilər...

Gülzar gördü ki, uşaq əldən gedir. Qulu ona qonşulara getməyə qadağan etsə də, feldşer Xalıqgilə qaçdı. Xalıq zökəm idi deyə, işə getməmişdi. O, cəld Qulugilə gəldi. Uşağı görəndə öz xəstəliyini unutdu. Qulunun yeddi arxadan dönənini söyə-söyə evlərinə qayıdıb "Təcili yardıma" zəng vurdu. Sonra əlinə keçən iynə- dərmanları götürüb yenidən qayıtdı. Uşağa bacardıqca yardım etdi. Qıcolmadan qovrulan uşağın dilini çəkib çıxartdı . "Təcili yardım" maşını gəlib uşağı xəstəxanaya apardı. Gülzar uşaqdan pis vəziyyətdə idi. Aradan bir neçə saat keçmişdi.

Cek dərin yuxuya getmişdi. Hərarəti birqədər enmişdi. Gülzar çarpayının yanında oturub oğluna baxırdı. Tibb bacısı onu ehmalca çağırdı. Gülzar uşağın üstünü bir də yoxlayıb çıxdı. Tibb bacısı onu "Sınıq-çıxıq" şöbəsinə apardı . Gülzar içəri girəndə gözlərinə inanmadı. Qulunun bir ayağını gipsə qoyub, daşla asmışdılar. Üz-gözü yaman gündə idi. Həkim Gülzarı yanına çağırdı:

-Bacı, sənin burada qalmağının əhəmiyyəti yoxdur. Gedirsən bazara, yağlı mal ayağı alırsan. Bu kişi gündə 3 dəfə xaş yeməlidir. Sümüklərində boşluq var. Qlyukanat-kalsiyi çatışmır. Əgər xaş yeməsə, sümükləri bitişməz . Uşağa çolpa al, o da yaman zəifdir. Ona çolpa şorbası, kərə yağı, yumurta, süd məhsulları və meyvə şirələrini çox ver. Yoxsa, uşağınızı itirə bilərsiniz...

Gülzar qorxa-qorxa Quluya baxdı . Qulu utandığından gözlərini başqa səmtə yönəltdi. Ürəyində Amerikaya da, 90 yaşlı Ceksona da lənətlər yağdırdı. Oğlunun adını da xəyalında dəyişdi: Cahangir qoydu, yəni şah, hökmdar. Sonra zorla gülümsünüb Gülzara baxdı . Onun iri ala gözləri necə də doğma və qəşəng idi...

## NOVATOR ƏLİQULU

*Bəzi ağzına zor verən cənablar işini-gücünü buraxıb utanmaz-utanmaz camaata möizələr edirlər ki, guya millət geri qalıbdır.*
***("Molla Nəsrəddin" jurnalı, 02.09.1907)***

Sübh erkən kəndə səs yayıldı ki, kolxoz sədrinin aman-zaman, ərköyün oğlunun qulağını at dişiylə dibindən qoparıb...

Ayağıtutan rayonun mərkəzi xəstəxanasına axışdı. Gedənlərin bəziləri sədrin qohum-əqrabası, bəziləri onun hörmətini qazanmaq istəyənlər, bəziləri də maraq xəstəliyinə tutulanlar idilər. Bunlarla bərabər camaatı xəstəxanaya aparan, əlbəttə, həm də, Əliqulu həkimin haqqında yaranmış möcüzəli danışıqlar idi.

Qızmar yay günəşi az qalırdı adamın beynini deşsin. Asfaltta təndir nəfəsi vardı. İstidən yumşalıb muma dönmuş asfalt ayaqqabılara yapışırdı deyə camaat xam yerlərlə rayona tərəf hərəkətdə idi...

Xəstəxananın həyətində iynə atsan, yerə düşməzdi. Bunu görən əzazil sədrin ürəyi elə bil, yumşalmışdı, nanə yarpağı kimi titrəyirdi. Oğlunu onun maşınında gətirmişdilər. Ancaq özü sükan arxasında otura bilməmişdi, onu hesabdar Haşım əvəz etmişdi. Oğlunun ürək parçalayan vaveylası adamın beynini deşirdi. Hələ qohumlarının vay-şivəni elə cansıxıcı idi ki, buna Adəm övladı çətin davam gətirə bilirdi....

Telefon həyəcanla səsləndi. Əliqulu tənbəl-tənbəl dəstəyi qaldırdı – Səhiyyə şöbəsinin müdiri idi. Əliquluyla danışanda bütün həkimlər kimi şöbə müdirinin də dili topuq vururdu:

- Allo, Əliqulu  müəllim, hər vaxtınız xeyir. Bağışlayın, sizi
 belə erkən oyatdım.

Əliqulu gözucu saata baxdı. Səkkizə qalırdı. Doğurdan da erkən idi.

- Buyurun!

- Bilirsiniz, bizim Həzrətqulunun oğlunun qulağını at qoparıb, təkcə ümidimiz sizədir. Bir zəhmət çəkib xəstəxanaya gələrdiniz.

- Həzrətqulu kimdir?

- Bıy, sizin qohumunuz da, Vahid müəllimin qohumu.

- Hə, bildim. Qulaq hardadır?

- Nə qulaq?

- Necə yani nə qulaq? Demirsən at qoparıb?

Xəttin o başında səs kəsildi. Deyəsən burasını fikirləşməmişdi.

Əliqulu könülsüz-könülsüz səsləndi;

- Allo...

- Bəli, bəli, Əliqulu müəllim, vallah, bilmirəm qulaq necə olub.

- Onda öyrən, qoy qulağı gətirsinlər, tez yuyub spirtin içinə atın, mən bu saat gəlirəm.

Əliqulunun nazlı arvadı narazı halda sağ böyrü üstə çevrildi.

- Klyanus, tı toje takoy, kak moy papa! Təkcə özünüzü fikirləşirsiz.

Əliqulu ehmalca ətriyyat içində boğulan arvadını öpüb:

- Özümü yox, əzizim, xalqımı, millətimi düşünürəm! – dedi...

O, maşına oturanda elə bildi, isti hamama düşdü. Sərin, ətirli yataq otağından sonra çölə çıxmaq könlündən deyildi. Tələbəllik illərində Əliqulunun atası rayon ticarət şöbəsinin sədri idi. Məktəbdə hamı başına fırlanırdı. Atasının hədiyyələri və özünün yüksək əzbərçilik qabiliyyəti Əliqulunu hamının gözündə əlçatmaz etmişdi. Qızlara qətiyyən mahal qoymazdı, çünki atası demişdi ki, Əliquluya qız tapmaq onun işidir. O, orta məktəbi "qızıl medal"la bitirdi. Artıq, Tibb İnstitutunda yeri hazır idi. Bütün çətin terminləri göz qırpımında əzbərləyirdi. Bir dəfə məşhur professorlardan biri ona demişdi:

- Əliqulu, sən gərək aktyorluq sənətini seçəydin. Deyirlər ki, məşhur aktyorlarımız Sidqi Ruhulla və Ülvi Rəcəbdə ancaq belə istedad olub. Onlar oynadıqları rolların hamısını əzbər yadda saxlaya bilirmişlər. Əzbərçilik qabiliyyətin sənə çox kömək edərdi. Həkimlikdə isə, bala, ürəklə beyin gözün gördüyü kimi hər şeyi görməlidir, hiss etməlidir, duymalıdır. Yoxsa əzbərlədiyin latın sözləri əməliyyat zamanı sənə kömək etməz!

Buna baxmayaraq Əliqulu institutu qırmızı diplomla bitirdi. Hələ oxuduğu müddətdə rayon qazetində, hətta respublika qazetlərinin bir neçəsində institut tələbəsi "qeyri-adi biliyə malik", "fitri istedad sahibi" Əliquludan geniş-geniş yazmışdılar. Adamlar, əsasən Əliqulunun doğulub boya-başa çatdığı rayonun əhalisi gələcəyin xilaskar həkimini səbirsizliklə gözləyirdilər. Atası Əliquluya yaxşı yerdən qız da tapmışdı. Şəhər partiya komitəsinin birinci katibi Vahid Ağayeviçin üçüncü qızını Əliquluya istəmişdi. Vahid Ağayeviç hələ tələbəykən şöhrəti respublikanı bürümüş, boy-buxunlu bu oğlandan keçməmiş, qızı ona vermişdi. Vahid Ağayeviç  böyük yeznələrinə etdiyi hörməti üçüncüsünə də etmişdi. Onun gəlişi üçün rayon xəstəxanasını təmir, kabinetini müasir cihazlarla təmin etdirmişdi. On ildən çox dedi-qodusu yığışmayan xəstəxanada nisbəətən sakitlik yaranmışdı. İtilənmiş qələmlər rayon partiya komitəsinin birinci katibinin yeznəsini, əfsanəvi həkimi səbirsizliklə gözləyirdilər...

Əliqulu təmkini, az danışmağı ilə bəzilərini bir az da əfsunlamışdı. Cərrahların çoxu ona asistentlik etmək üçün canfəşanlıq edirdilər. İstəyirdilər ondan nə isə öyrənsinlər...

Təzə baş həkim nişastalı, ağappaq dəsmal ilə boyun-boğazını sildi. İsti lap kələyini kəsirdi. Evləndiyi üç ayda yaman kökəlmişdi. Qayınanası ona əməlli-başlı qulluq edirdi. Tələbə olarkən boş vaxtlarını idman zallarında keçirən Əliqulu, indi idman haqda heç düşünmürdü də. O, özünü ağır aparmalıydı, həm atasının, həm də qayınatasının adına layiq olmalıydı. Daha cavan oğlan uşağı kimi id-

man zalında atılıb-düşə bilməzdi, rayon camaatının yanında hörmətdən düşə bilərdi.

Maşın xəstəxananın həyətinə girəndə insan axını ikiyə ayrılıb, ehtiyyatla ona yol verdi. Bəziləri ehtiramla elə maşının içindəcə Əliquluya baş endirdi.

Əliqulu özünü tox tutmuşdu, sanki heç kim görmürdü. Rayonun tanınmış adamlarının çoxu bura yığılmışdı; Əvvəla, sədr Vahid Ağayeviçin bibisinin əri idi, ikincisi, onun sədrlik etdiyi kolxoz milyonçu kolxoz idi, üçüncüsü, kişi deputat idi, dördüncüsü də, oğluna Əliqulu kimi həkim baxacağdı. Bu hadisə çoxları üçün göydəndüşmə bir girəvə idi ki, bunun hesabına öz işlərini sahmana sala bilərdilər.

Həkimlər oğlanı dövrəyə almışdılar. Qanaxma kəsilmiş, ağrı azaldan iynələr vurulmuşdu. Əliqulu içəri girib diqqətlə xəstəya baxdı. Çatma qaşlarının arası düyünləndi, zəhmi bir az da artdı və ilk əmrini verdi:

- Xəstəni cərrahiyyə otağına aparın!

O, kabinetinə girdi. Otağına baxan yaşlı tibb bacısı qabağına yeridi. Bu yaşlı tibb bacısını o, qayınanasının göstərişi ilə götürmüşdü işə. Bir azdan, Əliqulu açıq səma rəngli cərrahiyyə paltarında göründü. Paltar ona özgə bir yaraşıq verirdi. Kənardan baxan cavan tibb bacılarının çoxusu gizlincə köks ötürdülər. Hamı intizar içində gözləyirdi, görəsən, bu əfsanəvi həkim bu dəfə kimi özünə assistent seçəcək?

Əliqulu baxışlarıyla kimisə axtarırdı. Əməliyyat otağına çatanda soruşdu:

- Rəşad Qəlbizor haradadır?

Ümidlə ardınca gedənlər bu adı eşidib sanki, yerlərində mıxlandılar. Özünü həmişə yaxşı cərrah hesab edən yaşı əllini ötmüş, bu xəstəxanada başı çox bəlalar görmüş Hətəm fikirləşdi: “Yenə də o malçişka!”

Rəşad Əliquluyla bir yerdə oxumuşdu. O, başqa rayondan idi. Bura təyinatla gəlmişdi. Əliqulunun nəyə qadir olduğunu yaxşı bilirdi. Əliqulu baş həkim olandan sonra Rəşadla biraz təkəbbürlə danışırdı. Odur ki, Rəşad

onun heç bir işinə qarışmaz, özünü gözə soxmaz, Əliquluyla bir yerdə oxuduğunu heç kimə deməzdi. Əliqulu da öz növbəsində çox müəllimlərin sevimlisi olan, sakit, həlim, dərin bilikli, hələ üçüncü kursdan cərrahi əməliyyatlarda iştirak edən Rəşadı ürəyində qiymətləndirsə də, aşkarda şəninə xətər gəlməsin deyə çox da irəli buraxmırdı onu. Ancaq, hər dəfə çətinliyə düşəndə yanında görmək istəyirdi. Keçən həftə mantyor Nəcəfi elektrik cərəyanı vuranda Rəşad olmasaydı, Əliqulu kişinin axırına çıxmışdı. Nəcəfin sağalması isə Əliqulunun ayağına yazıldı. Onda Əliqulu bədəndəki cərəyanı çıxarmaq üçün yazıq Nəcəfin ayaqlarının altını balıq qarnı kimi yırtmışdı. Yazıq hələ də axsayır...

Çöldəki hay-küyə baxmayaraq Rəşad otağında oturub xəstələrin xəstəlik tarixçələrini doldururdu. Şöbə rəisi hövlnak içəri girdi.

- Doktor Qəlbizor, sizi Əliqulu bəy gözləyir!

Rəşad kağızları səliqə ilə yerinə qoyub, könülsüz ayağa qalxdı. Hiss etdi ki, şöbə müdiri ona həsədlə baxır...

Oğlanın qulağını spirtləyirdilər. Bankada gömgöy göyərmiş qulağı görəndə Rəşad Əliquluya təəcüblə baxdı. Əliqulu mənalı-mənalı başını tərpətdi, sanki demək istəyirdi: “Öyrən bala, öyrən, belə fürsət həmişə ələ düşməz”.

Anestezioloq oğlanı yatırtdı. Əməliyyat başlandı. Əliqulu bankadakı qulağı götürüb ehtiyyatla qopmuş yerə qoyanda Rəşad özünü saxlaya bilmədi.

- Nə etmək fikrindəsən?

Əliqulu sakit səslə:

- Qulağı yerinə tikirik, Rəşad! Dünya bu təcrübədən çoxdan keçib, biz isə hələ gözləyirik.

- Sən nə danışırsan? Görmürsən göyərib, hüceyrələr ölüb?!

- Tələsmə, oğlan! Gör, lələşin nə xarüqələr yaradır? Mənə nahaqdan “novator” demirlər, qaqaş!

- Əli, sən Allah, camaatı bizə güldürmə.

- Ay Qəlbizor, özünü qorxutma, sən belə et; professor Cabbarlının sənə veridyi o xarici sapdan bir az gətir! Cəld ol!

Rəşad sap üçün tibb bacısını göndərdi.... Əliqulu qulağı ədəb-ərkanla şəkərbura bükürmüş kimi büküb tikməyə başladı. Rəşad dinməzcə ona tamaşa edir, bu işin nə ilə qurtaracağını gözləyirdi. Onu da bilirdi ki, uğurrsuzluq olsa, onun ayağına yazılacaq. Odur ki, Əliqulunu bu ağılsız işdən uzaqlaşdırmaq istədi.

- Əli , bura Amerika deyil. Bizim elə cihazlarımız yoxdur ki, ölü hüceyrələri oyatsın. Bu qulaq səkkiz saatdan çox torpaqda qalıb, hüceyrələr ölüb.

- Eh, Rəşad, Rəşad! Nə vaxt yeniliklə bəhrələnəcəksən, elm aləmində bir yenilik icad edəcəksən? Qardaş, diplomu hamı alır da. Onu həyatda təsdiq etmək lazımdır, həyatda...

Artıq əməliyyat sona çatırdı. Göyərmiş qulaq qurumuş albuxara kimi büzüşmüşdü. Əliqulunun əmri ilə iki tübik mazı qulağın ətrafına boşaltdılar, sarıyıb qurtardılar və oğlanı reanimasiya otağına apardılar. Əliqulu dəhlizə çıxanda hamı dərindən nəfəs aldı. Sədrin arvadı irəli cumub onun hər iki əlini öpüşlərə qərq etdi. Həyətdəki "ləbbey" deyənlərdən biri himə bənd kimi erkəyin bədənini başından üzdü. Yavaş-yavaş xəstəxananın həyəti boşaldı. İndi yalnız xəstənin yaxınları qalmışdılar. Rəşad başını əllərinin arasına alıb fikrə getmişdi. O, xəstəni fikirləşirdi. Və dəqiq bilirdi ki, belə bir əməliyyat, bu şəraitdə, bu cür mümkün deyil. Əliqulu demişdi ki, sarğını bir həftədən sonra açacaq.

Ertəsi gün xəstənin naləsi ərşə bülənd oldu, hərarəti qalxdı. Əliqulu bunu yaxşı nəticə kimi qarşıladı. Üçüncü gün xəstə ağrıdan huşunu itirdi. Rəşad Əliqulunu heç cür yola gətirə bilmirdi ki, xəstənin sarğısını açsın. Nəhayət, dördüncü gün şişdən xəstənin sifəti eybəcər hala düşdü. Onu əməliyyat masasına qaldırdılar. Sarğını açanda üfunət iyi otağı bürüdü. Çürümüş ət qırıntıları sarğıya yapışmışdı. İrin qulaq boşluğu ilə içəri dolmuşdu.... İki aydan sonra

sədrin oğlunu birtəhər sağaltdılar. Təkqulaq oğlan arıqlayıb çöpə dönmüşdü. Rayona isə belə bir səs yayılmışdı ki, Rəşad Qəlbizor Əliqulunun əməliyyatı baş tutmasın deyə, hansısa zəhərli sapdan istifadə edib. Əlbəttə, Əliqulunun hörmətinə zərrə qədər də xələl gəlmədi. Rəşad Qəlbizor başqa bir rayona köçürüldü.

## MIĞ-MIĞA

*"Hər kəndin öz mığmığası var"*

*Müəllif*

Oxu zalında idim. Yüzdən çox oxucu əyləşmişdi. Sakitlik hökm sürürdü. Oxucuların arasında cavan, yaşlı, ahıl da vardı.  Hamı maraqla, sakitcə nəyisə axtarır, tapdığı mövzu üzrə konspekt tuturdu. Hərdənbir bu sakitliyi bir mığmığa pozurdu. Kimi sakit görüb onun qanını sorurdu. Qanı sorulanlar əziyyət çəksələr də, gülünc görünməmək üçün səslərini çıxarmırdılar. Bəzən dözməyib ehmalca peysərinə çırpanlar da olurdu. Mığmığanı öldürməyə çalışanlar da tapılırdı.  Bir neçə oxucu əməlli-başlı işdən soyudu. Gözləri saat əqrəbi kimi o yan, bu yana baxmaqdan az qalırdı çaş olsun.

Daha əvvəlki sakitlik hökm sürmürdü. Hamı göz-qulaqda idi. Mığmığa öz şikarını tapanda  vızıltısı eşidilmirdi. Elə hayasızlaşmışdı ki, başdan-başa uçurdu. Onu məhv etməkdən ötrü kiminsə başına nəyisə ilişdirməliydin.

Mığmığa öz kefində idi. Bu sısqa həyasız nə qədər qan sorurdu. Di gəl, doymaq bilmirdi ki,  bilimirdi. Səbrim tükəndi, cin atına mindim, önu öldürərək, hamının canını xilas etmək qərarına gəldim.

Çox pis vərdişim vardı. Babama oxşamışdım. Əsəbləşəndə papiros çəkirəm, çəkməyəndə nəfəsim təngiyir. Boğula-boğula zalı bir anlıq tərk etdim. Papirosu yandırıb, tüstüsünü ciyərlərimə sümürdüm. Bir-iki qullabdan sonra özümə gəldim. Əlimdəki qazeti bükdüm. Zala sakitcə girdim. Mığmığanın vızıltısı eşidilmirdi. Elə bil duymuşdu mənim niyyətimi. Hamı bir-birinin başına baxırdı. Kitab

oxuyan  yox idi. Mənim də gözlərim başlarda idi. Mığmığa görünmürdü, vızıltı da yoxa çıxmışdı, səbrimiz tükənmişdi. Əsəblər tarıma çəkilmişdi. Hamı onu öldürmək istəyirdi. Nəyin bahasına olursa olsun, onu tapmalıydım. Şapalaq başa dəydi, dəymədi fərqi yox idi. Mığmığa getməliydi....

Birdən gözüm qarşımdakı kitaba sataşdı. Nə görsəm yaxşıdı? Qan sormaqdan harınlaşmış, həyasız mığmığa kitabın səhifələri  arasında can verirdi. Zalım o qədər qan sormuşdu ki, milçək boyda olmuşdu.

Ölümcül mığmığanı öldürməyə ehtiyac yox idi. əlimdə bükdüyüm qazetə baxdım, Allaha dua etdim. Yaxşı ki, bu əclafa görə kiminsə başına qəzeti çırpmadım.

Oxucuların hamısı mığmığanın ölüm səhnəsinə tamaşa edirdi. Bir mığmığa ölümü bir zal adamı sevindirdi. Ancaq bu bir mığmığa idi. Gör nə qədər kənddə kəsəkdə öldürülməli mığmığa var. Əclaflar gizli adlar altında fəaliyyət göstərirlər. Gah ditdili, gah hünü, gah da ağcaqanad adıyla. Əslində isə hamısı mığmığadır.

Qeyyri-iradi başımı yuxarı qaldırıb gözlərimi tavana dikdim. Ürəyimdə fikirləşdim: Ya Rəbbim, belə məkrli həşarət sənin nəyinə gərək idi? Niyə onları yaradırdın?! Olmazmı yaratdığıın kimi, köklərini də kəsəsən!

## ŞAHNAZ ŞAHİN
(1956)



**Şahnaz Şahin** (Şahnaz Feyzulla qızı Nəsirova–Babayeva)–şair, publisist. 1956 cı ildə Sabirabad rayonunun Ulacalı kəndində doğulmuşdur. Azərbaycan Dövlət Tibb Unıversitetinin Pediatriya fakültəsini bitirmişdir. AYB və AJB nın üzvüdür.Bu günədək beş kitab olmaqla üç şeirlər, bir poema və bir publisistik əsəri çap olunmuşdur.

Ailəlidir.

Hazırda dövlət qulluğunda çalışır.

### QƏRİBƏ AXŞAMDI…
### QƏRİBƏ GECƏ…

Yenə başlayacaq köhnə vərdişim,
Tapıb bir bəhanə,çıxıb gedəcəm.
Özüm öz evimi özəllərimlə,
Bilən olmayacaq–yıxıb gedəcəm.

Tutacaq yenə bir ruh ikimizi...
Atacaq ağzına pələngin, şirin.
Bir lağım qazacaq baş ucumuzda,
Var isə hünərin indi qalx yeri.

Başımız üstündə titrəyəcək Göy,
Yerdə çəkməyəcək ta sancımızı.
Bəlkə olmayacaq heç yada salan,
Vaxt varkən bəzəyək otağımızı...

Al bu güldanı da içinə gül qoy,
Su da tök solmasın biz qayıdınca.
Pəncərə pərdəsiz, ev səliqəsiz,
Kim dönər mənim tək qızın dalınca?!

Yenə başlayacaq köhnə söhbətlər,
Yenə bir bəhanə tapıb gedəcəm...
Bir tikə çörək qoy başının altda,
Birdə eh... qəribə axşamdı,qəribə gecə!

## CİBİMİ ÇIRPDIM ŞƏHƏRƏ

Cibimi çırpıb çıxdım şəhərdən,
şəhər kasıbları sevmir.
Sevmir yalın ayaqları,
soyuq dolabları sevmir...

Başından xəyalın qopur,
diyirlənir dənizə.
Səhər şehi islatmır
hər cığırı, hər izi...

Tündməcaz, kəmşirindi
burda adamlar çoxu...
Boğazını yandırmaz
qoxladığın yad qoxu.

Böyük–böyük danışar,
səninlə böyük şəhər!
Dilində dodağında
çiliklənər kəlmələr.

Gedib halsız düşərsən,
soyuq, yalqız yatağa.
Gecə mələklər enməz,
sükut yatan otağa.

İndi qaytar geriyə,
gəldiyim o qatarı.
Şəhər kasıbları sevmir,
sevmir, qadanı alım!

## ƏHVAL

Neçə əzablar doğur,
Ölür içimdə.
Hər arzuya baş daşı
Qalır içimdə.

Tutub çiyinlərimdən
Çırpır divara.
Qap–qara qan sıçrayır
Bəyaz sulara.

Kimsə xəlvətə salıb
Gülür halıma.
Kimsə salavat çəkir
bu cəlalıma.

Gəlibyerimi tutur
Qansızın biri.
Yazdığım məktublar da
Yollarda itir.

Suçumu yığır kimsə
Öz torbasına.
Sonra sədəqə verir
quş balasına.

Yenə yollar doğrayır
ayaqlarımı...
Sonda göz yaşım yuyur
yanaqlarımı.

**UNUDAR SƏNİ**

İncə–incə sevənlər var,
Kobud unudar səni…
Əllərinin istisini,
gözlərinin tüstüsünü
Bir İkonaya satıb.
unudar səni...

Bir gülüşə,bir sevincə çiçəkləyər
quru budaqlar da.
"Sıfır"dan aşağı başlayar
bütün sevdalar.
Amma "sıfır"həddinə dözüm olmaz
ayrılıqlarda...

Bir bulud ağırlığıdı
kipriklərin rəqsi…
Yuxusu qaçmış gözlərimə
Tanrı duasıdı
qansızma...
Off!Yenə zoqquldayır ürəyim.

**DƏYİŞ**

Daha heç nə qalmadı,
İndi nədən danışaq?!
Küsülü də deyilik,
Külək əsə,barışaq.

Yenə bir şey fikirləş,
Nəsə bir hoqqa çıxar.
Lap bir xəlvət şəkil çək,
Yanında da arzular…

Dilin topuq vurmasın,
Sakit ol,aram danış.
"Belə qalmaz bu dünya"
Sən də bir azca dəyiş...

Dəyiş oyun havanı,
Dilində tamı dəyiş.
İnanıb boy verdiyin.
O suyu,camı dəyiş...

Sil üstündən günahı,
O son gümanı dəyiş.
Sol yanında yer tutan,
Yersiz adamı dəyiş!

Yerə endir günəşi,
Kürəyini oda ver.
Qorxma bütün ömrünü,
Bax bu uzaq,yada ver.

Tütünsüz çətin olar,
Götür bir siqaret çək...
Qoy son dəfə soruşum,
Bu dava çox çəkəcək?!
…Daha heç nə qalmadı!





## UNUTMUSAN DEMƏLİ

Daha həyəcanın yox,
Gördün əsmir əllərin.
Qarsmır yanaqlarını,
Payızın sərt yelləri–
Deməli unutmusan!

Deməli, dəyişmisən
Dur güzgüyə bax hələ!
Gör can necə ağrıyır,
Canın uçub gedincə?!

Sürtülür, pası çıxır,
Qara–qura qəlblərin.
Daha kömək eləmir,
Mənə ürək həbləri...

Sınaq yeridi Dünya,
Sınayan sən deyilsən...
Qan uyuşmazlığım var,
Qan verənki,deyilsən.

…Görüş üçün titrəmir
Ürəyin yarpaq kimi,
Dodağın susuzluqdan.
Qurumu ştorpaq kimi–
Deyilsə, unutmusan!
Unutmusan deməli.

***

Lap hərdən təklikdən gizlənib
yazıram..
sənə məktub,Ona namə,
özümə mesaj...
Uçub düşür qollarıma küçələr.
Yollar yatıb sinəm üstə dincəlir.
Buruq–buruq saçlarındı and yerim,
Çağırıram,sevincindən tellənir.

Baş gicəldən hava çalır havalar,
Yırğalanır köpük–köpük dənizlər.
Sınıq salxaq qayıqlar var uzaqda,
Əlim çatmır bircəciyin düzəldəm...

Təyyarələr bomboş uçur,əzizim,
Biletim yox uçub gəlim yanına.
Bir də nə vaxt yuxu görər gözlərim,
Bir də haçan and içərəm saçına...

***

Çoxdankıdı bu eşq də.
Bir az nimdaş,bir az ac..
İndi Allaha qalıb.
Satılmayan tək əlac!

Uzağı görmür gözüm,.
Eynək yazıb həkim də.
Çəkilib gedir ürək,
Rəngi düşür geçəyə..

Sübhün alatoranı..
Əzan çəkir məscidlər..
Titrəyir bağrım başı,
Ölənmi var yenə də!..

Ölən də can qurtarır.
Canım,mən ki,ölmürəm!
Uzaq səfər üstəyəm,
Gəlib çıxa bilmirəm...

Köhnə əzab,yeni can.
Çoxdankıdı bu eşq də.
Sular lilli axırdı,
Durularmı bu eşqlə...

***

Apar,sənin olsun,bu gecəni də,
Doğra Ayı da tök,bəzə üstünü.
Yarımcan arzular,yetim istəklər,
Neynək,qoy dayansın mənim qəsdimə.

Silahlı gəlmişdi hava da bizə,
Əlində dolusu,qarı,yağışı.
Çətini çətinə öyrəşincədi,
Asandı ötürmək sonra bu qışı.

Bax yenə deyəsən qapım döyülür,
Taybatay açıram üzü qibləyə.
Göylərin şah taxtı sökülüb gedir,
Ləli cavahirat tökülür yerə.

Apar sənin olsun bu gecəni də...
Ruhtək gey əyninə kağız qələmi.
Yenəmi ürəyin məni istəyir,
Ağlın başqa səmtə çəkir yenəmi.

# HACI MALİK XƏLİL AĞAGÜLOĞLU
# (1956)



**Hacı Malik Xəlil Ağagül-oğlu** (Xəlilov Malik Ağagül oğlu)– 08.12.1956 cı ildə Azərbaycan Respublikasının Dəvəçi ( indiki Şabran) rayonunun Pirəmsən kəndində anadan olmuşdur. Orta məktəbin 8-ci sinfini 1972-ci ildə doğulduğu kənddə bitirdikdən sonra, Bakı şəhərindəki 8 saylı Musiqi Təmayüllü İnternat məktəbində ( indiki Milli Konservatoriyanın Tərkibində İncəsənət Gimnaziyası ) 9–10- cu sinif təhsilini almış və 1974- cü ildə oranı bitirmişdir.1974–1976- cı illərdə Bakı Soyuducular Zavodunda əmək fəaliyyətinə fəhləliklə başlamışdır. 1976- cı ildə Azərbaycan Dövlət Tibb İnstitutunun hazırlıq şöbəsinə qəbul olmuş və 1977-ci ildə oranı bitirib həmin institutun müalicə–profilaktika fakultəsinə daxil olmuşdur.1983- cü ildə ali tibbi təhsilini bitirərək 1983–1987-ci illərdə Xaçmaz Rayon Mərkəzi Xəstəxanası nəzdində Aşağı–Zeyid Kənd Həkim Ambulatoriyasının baş həkimi kimi əmək fəaliyyətinə başlamışdır. 1987–1989- cu illərdə Quba Rayon Mərkəzi Xəstəxanasın nəzdində Alpan Kənd Xəstəxanasında həkim–terapevt işləmişdir.

1989- cu ildən etibarən Şabran Rayon Mərkəzi Xəstəxanasında ( həm Poliklinikada, həm də Terapiya şöbəsində) terapevt–kardioloq kimi fəaliyyət göstərir. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin müxtəlif illərdə dəfələrlə keçirdiyi Attestasiya imtahanlarından uğurla çıxaraq “ Ali dərəcə” almışdır. Həmçini Səhiyyə Nazirliyinin əmri ilə keçirilə Sertifikasiya imtahanlarından da iki dəfə keçərək yüksək nəticələr qazanmışdır.

Poeziyaya həvəsi ilk dəfə 19 yaşında qələmə aldığı "Əmək” şeiri ilə, ədəbiyyat aləminə peşəkar şair kimi gəlişi isə 1980-ci ildə yazdığı “Ana” şeiri ilə olub.

Əsərləri: 1. “Bəxtimin sorağında“, (şeirlər, Azərnəşr, 2000-ci il, 1000 nüsxə); 2. “Kaş ki qayıtmayaydım...”, (xatirə–povesti ( Azərnəşr, 2000,1000 nüsxə) 3.“Şabran bayatıları və...” (“Ozan” nəşriyyatı, 2003, 500 nüsxə,) 4.“Bizə itkin deməyin!..”–(Povest, Azərnəşr, 2005, 500 nüsxə) 5. “Görən gözlər gözəl görsə“, (şeirlər, “Zərdabi LTD” nəşriyyatı, 2016, 500 nüsxə) 6. “Həkim adamsan...” (Satirik–yumoristik hekayələr).

Şeirləri Türkiyədə nəşr olunan “Avrasiya Şairləri Antolojisi”, “Şairlerden bir demet “, “Qarabağdan Kerküke” adlı Antolojilərdə, “Borçalı “ nəşriyyatının buraxdığı “Zirvə” Antologiyasında da yer almışdır. Vaxtaşırı “Azad qələm “, “Haqqın sədası”, “İlham çeşməsi “ qəzetlərində şeir və publisistik yazıları dərc olunur, tibbi mövzulara da tez–tez toxunur.

2014-cü ildə müqəddəs Həcc ziyarətində olmuşdur. AYB–nin 2014-cü ildə keçirilmiş XII Qurultayının nümayəndəsi olub.

AYB–nin və AJB–nin üzvüdür. "HAQQIN SƏDASI" qəzetinin şimal bölgəsi üzrə xüsusi müxbiridir. 2017-ci ilin Prezident təqaüdçüsüdür.

**YURDUMUN**

O qədər bəlalı günlər görüb ki,
Dindirsən, ağlayar daşı yurdumun.
O qədər oğullar Şəhid verib ki,
Hazırdır gözündə yaşı yurdumun.

Bölünə–bölünə Vətən kiçilib,
Namərdlər əliylə mərdlər biçilib.
Azadlıq uğrunda candan keçilib,
Təki əyilməsin başı yurdumun.

Bir yandan Güneyin fitnə–felləri...
Bir yandan Qüzeyin xain əlləri...
Böldülər ikiyə doğma elləri,
Üzükdən ayrıldı qaşı yurdumun.

Tarixin dəyişib sərt rüzigarı,
Özgədən od almır Odlar diyarı…
Daha əlindədir öz ixtiyarı,
Dönüb güllü yaza qışı yurdumun.

Malikəm, elimə aşiq–həbibəm,
Ondan ilham alan şair, təbibəm.
Dostunun dostuyam, yada rəgibəm,
Çıxmaz ürəyimdən eşqi yurdumun.

## İGİD ƏSGƏRİM!

Ölməyə tələsmə, ey Vətən oğlu,
Qoyma Anaları sinəsi dağlı!
Düşməni qandallı–qolları bağlı,
Gətir hüzuruma, igid əsgərim!

Bu torpaq yorulub qanlar içməkdən,
Cavanlar boyuna kəfən biçməkdən!
Sahib çıx elinə, usan köçməkdən,
Özgə yurd qoruma, igid əsgərim!

Vətən bir Anadır, tayı gələrmi ?!
Anadan yadlara pay verilərmi ?!
Anaya bu qədər dağ çəkilərmi ?!
Sığmır qüruruma, igid əsgərim!

Səni qorxutmasın bir ovuc dığa,
Hamı bir nəfər tək qalxsın ayağa.
İnamla addımla düz Qarabağa–
Doğma diyarıma, igid əsgərim!

Çətindir evindən, elindən çıxmaq,
Yadın əlindəki doğmaya baxmaq.
Ürək qan ağlarkən gülmək, oxumaq,
Yaraşır harama, igid əsgərim!

Düşmənin tikanlı tellərini kəs,
Torpağa uzanan əllərini kəs!
Böhtanlar danışan dillərini kəs,
Məlhəm çək yarama, igid əsgərim!

Malikin sinədə bitməz ahları,
Çiynində daşıma bu günahları.
Rahat olmayınca şəhid ruhları,
Rahatlıq arama, igid əsgərim!

## DAYAĞIM - ELİMDİR

Mən şeir mülkündə parlaq atəşəm,
Sözün yollarına səpələnirəm.
Duyğu dənizində üzməkdir peşəm,
Öz şair dünyamda ləpələnirəm.

Əsdikcə üstümdən qara küləklər,
Şeirim daha da alov püsgürür.
Sağımda, solumda duran mələklər,
Daim üzərimə qol–qanad gərir.

Çox çıxıb önümə eniş–yoxuşlar,
Atlayıb keçmişəm məharətimlə.
Üstümə tuşlanan soyuq baxışlar,
Əriyib tükənməz hərarətimlə.

Bu gün hər uğurum, öz əməyimdir,
Həmd olsun yazılan alın yazıma.
Təknəmdə öz halal duz–çörəyimdir,
Qayiləm çoxuma, həm də azıma.

Karvanlar yurdundan gücümü aldım,
Bəllidir hər kəsə soyadım, sözüm.
Xalqımın çiynində qalxdım, ucaldım,
Dayağım elimdir, bükülməz dizim.

Oxucu qəlbində sözümü əkdim,
Meyvədir ilboyu fəsillər üçün.
Hər şeir sətrinə əksimi çəkdim,
Qalacaq gələcək nəsillər üçün.

## ŞAİR

Baxışı ayrıdır, huyu qəribə,
Sanma ki, hər yoldan ötəndir şair.
Qayəsi ayrıdır, suyu qəribə,
Hərdən gül, gah da ki, tikəndir şair.

İlham pərisinin qaynar çağında,
Alışıb əriyər söz ocağında.
Bəzən kol dibində bahar çağında,
Əyri bənövşə tək bitəndir şair.

Şairi anlamaz hər zəkası dar,
Dediyi söz boyda inikası var.
Bayatı möhürlü əlifbası var,
Demə ki, tarixdən itəndir şair!

Dünyaya sığmayan dünyası olar,
Dibi görünməyən dəryası olar.
Seir səmasında sürəyyası var,
Zülmətin üstündə yelkəndir şair.

Sözün təndirində alışan da o,
Məcnun tək səhrada dolaşan da o.
Haqqın yollarında sayrışan da o,
Ustadır, söz mülkü tikəndir şair.

Fikir bostanını belləyən odur,
Həm sevinc, həm kədər çiləyən odur.
Sözü beşiyində yelləyən odur,
Oxucu qəlbinə örkəndir şair.

Şairlər söyləməz sözü boşuna.
Əyilməz, kiminsə gələ xoşuna.
Təmiz vicdanının məğrur başına,
Ləyaqət ləçəyi örtəndir şair.

Malikəm, yolum düz, nə sol, nə sağa,
Qələmim süngüdür məndən qabağa.
Bütün varlığıyla başdan ayağa,
Torpaqdır, bayraqdır, Vətəndir şair.

## TƏBİB QARDAŞIM, TƏBİB BACIM

*(Xəstənin dilindən)*

Ömrünü sənətinə qurban deyib yaşadın,
Öz dərdin tək dərdimi ürəyində daşıdın.
Qəlbimizdə əbədi heykəlləşibdir adın,
Vardır hər an həyatda sənə çox ehtiyacım,
Mənim təbib qardaşım, ey mənim təbib bacım.

İnsana can sağlığı Tanrının nemətidir,
Ona keşikçi olmaq–bəxtinin qismətidir.
Xəstənin sağalması zəhmətin qiymətidir.
Səndə tapılır yenə hər dərdimə əlacım,
Mənim təbib qardaşım, ey mənim təbib bacım.

Dan yerini hər səhər kipriyinlə dələndə,
O yuxusuz, o yorğun gözlərinlə güləndə,
Ağrıları canımdan gülər üzlə siləndə,
Sənə necə deməyim " Ümid, şəfa ağacım"?
Mənim təbib qardaşım, ey mənim təbib bacım.

Ağrı məni alanda, sənsən ilk yada düşən,
"Səbəb Allahdan "–deyib, imdadıma yetişən.
Saysız peşə içində ucadır sənin peşən.
Xoş sözün də əlacdır, sən ey dərmanı acım,
Mənim təbib qardaşım, ey mənim təbib bacım.

Bədənimdə gəzdikcə şəfa verir əllərin,
Yaşamağa səsləyir hər şirin kəlmələrin.
Pənahı, gümanısan niskilli könüllərin.
Sənətin şah, sən onun başında parlaq tacım,
Mənim təbib qadaşım, ey mənim təbib bacım!

Bizimçün qoruduğun sağlam, gümrah ömürdən,
Sənə də diləyirəm, qismət olsun bu dürrdən.
Öpüm nurlu üzündən, uzaq ol dərd–sərdən.
Sıxım səni bağrıma, dolandıqca qolacım.
Mənim təbib qadaşım, ey mənim təbib bacım!

## AĞ XALATIN GİLEYİ

Gəlin sizə, a dostlar, ərz eləyim halımı,
Ürəyimə dərd olan bir neçə sualımı.

Sadiq oldum hər zaman cəfakeş loğmanlara,
Birgə sinə gərmişik çətin imtahanlara!

Adicə libas deyil, darda dayağın oldum,
Yorğun düşüb yatanda,üstündə yorğan oldum.

Məğrur duran qamətin şəstim, qürurum olub,
Hüsnünə yaraşığı verən də nurum olub!

Paklığın simgəsiyəm, buyurub Hippokrat,
Hörmət edib adıma İbn Sina və Sokrat!

İndi geyimlər çıxıb–alabəzək,darətək,
Pencək beldə pərçimdir, topuqda şalvar gödək.

Başınızı döndərib Avropanın dəbləri,
Kişilər saç uzadır, saqqal örtüb ləbləri.

Şəfa  üçün gələnlər baş açmayır  işçidən,
Ayıra bilmək üçün soruşur  keşikçidən!

Kimi ləçək  bağlayır başına  allı–güllü,
Qalpağa  meyl edən yox, forma  geyir  güdüllü!

Yeddi rəngin çaları  kölgədə qoyub  ağı,
Bilmək  olmur xalatdır, yoxsa ki,  göy  qurşağı!

Kim hansı rəng istəsə alıb  taxır əyninə,
Ağ xalatlı  günləri heç gətirmir eyninə!

Nə həkimi  bilinir, nə bacı,nə sanitar,
Maşallah,bu gedişlə, şahımız  mata  çatar!

Xəstələr  çaş–baş  qalır, kimi necə çağırsın...
Ay bunu çıxardanın üzü, görüm, "ağ olsun! ".

Anket açan qızlara  : " doxdur"–deyəndə  millət,
Qarpızlanır  qoltuğu, çəkməyir heç  xəcalət!

Xadimələr  dik gəzir, üstündə qır–qızılı,
Həkim iş buyuranda deyinir, mız–mızılı!

Bir  yandan da KİV–lərin  gəlirsiz dannağına,
Hey  yazırlar baxmadan  bozuna, nə ağına!.

Gördükcə halınızı, sinəm  qübar bağlayır,
Gözlərim yaşla  dolur, bulaq  kimi  çağlayır!

Yüz illərdir yoldaşam qayğıkeş  təbiblərə,
Nə tez  dəyişdiz  məni bu güllü rəqiblərə?!...

Sizi ovsunlamasın o   rənglərin sehri,
Qonsun ürəyinizə  bəyaz  xalatın mehri!

Etibar gözləməyin o güllü butalardan,
Köhnə dost vəfalıdır–məsəldir atalardan!..

...Mən dərdimi söylədim, Malik aldı qələmə,
Gəlin verək əl–ələ, dönək bəyaz aləmə!..

## KƏDƏR

Yolumun üstündə tikan kolu tək,
Həmişə sərilib yatırsan, kədər!
Səni dəryazlayıb biçirəm tək–tək,
Cücərib yenə kök atırsan, kədər!

Pitraq otu kimi yapışdın mənə,
Haqqa şükr etdikcə, alışdın mənə.
Ucuz mərəz olub bulaşdın mənə,
Dərmanı çox baha satırsan, kədər!

Kökü bilinməyən çayır otusan,
İşğal eləyirsən, hara otursan.
Kodu oxunmayan qara qutusan,
Nə yanır, nə suda batırsan, kədər!

Üzünü bürüdün şər niqabına,
İllərdir dözürəm hər əzabına.
Sən mənim ruhumun bank hesabına,
Faizlə qoyulan yatırsan, kədər!

Surətin görən yox, cinsən, mələksən,
Qara dumanmısan, azğın küləksən?!
Başımın üstündə dönən ələksən,
Unuma göz yaşı qatırsan, kədər!

Sanma, kimsəsizəm, həyatda təkəm,
Zalım zəmanəyə artıq bir yükəm!
Allahın abdulu, –hacı Malikəm,
Boş yerə yaxamdan tutursan, kədər!

## SONRA GƏL...

*(Oğlunu əsgərliyə yola salan Ananın dilindən)*

Dünyaya göz açandan evimizə ər gəldin.
Sevindik, elə arxa, düşmənə çəpər gəldin.
Bu torpaqdan güc alıb zaman–zaman dirçəldin.
İndi vədə yetişdi–orduya sən ol təməl!
Yağının yuvasını başına yix, sonra gəl!

Səngərlər evin olsun, qoyma yağmalanmağa,
Sərhəd sənə əmanət, qoyma ayaqlanmağa.
Kafirin bayrağını qoyma dalğalanmağa…
Azadlığın yolunda ürəyin olsun məşəl!
Xankəndinə üçrəngli bayrağı tax,sonra gəl!

Səni böyütmüşəm ki, Böyük Vətən qurasan,
Dara düşəndə ona arxa–hayan durasan.
Qəsbkarın qanini özünə uddurasan.
Qarabağın üstündən qoy çəkilsin qara əl!
Murovdağa, Laçına sən yiyə çıx,sonra gəl!

Kişilik məktəbindən üzüağ qayıt, bala,
Unutma ki, Vətən var, Anan var səndən dala.
Südüm halalin olsun, haram qatma halala.
Türkün uca adına gətirmə heç vaxt xələl!
Şuşanın qalasında tonqalı yax, sonra gəl!

Hərbi and içən zaman xatırla sözlərimi,
Hər gün təkrar et, oğul, anddakı sözlər kimi.
Millətinə xidməti şərəf bil, döz nər kimi.
Zəhmətin getməz hədər, qalibik axır–əvvəl!
Qələbə fişəngini göyə burax, sonar gəl!

# KİMİ

Dincini almadan yol gedir zaman,
Arxadan düşmənlər qovurmuş kimi.
Bir hovur durmağa verməyir aman,
Başına güllələr yağırmış kimi.

Təzəcə deyirik ömrə  “ Bismillah“,
Doymadan söylədir ” Əlhəmdülillah!”.
Saat yorulmayır, hər axşam, sabah,
Sayğac tək günləri sayırmış kimi!

Ürək də çırpınır hey yana–yana,
Sanki, bir qəfəsdir sinəmiz ona.
Torpaq ac qurd olub, susayıb cana,
İnsana şikar tək baxırmış kimi.

Birinə can verir, biri can satır,
Ayaqlar altında milyonlar yatır!
Biz şərdən qaçdıqca, yüyürüb çatır,
Xeyirlə əkiz- cüt doğulmuş kimi.

Bir candan ayrılan doğmalar yaddır,
Dünənki təzələr bu gün boyaddır.
Fələk, yolumuzu güdən səyyaddır,
Qurubdur torunu oğrumuş kimi.

Ata ocağından soyuq kül qalıb,
Hamı şəhərlərə meylini salıb!
Dövran bizi bizdən çox ucuz alıb,
Keçmişi tarixdən yığırmış kimi.

İnsanlar yarışır sərvəti ilə,
Övladı, maşını, şöhrəti ilə.
Savabı, insafı, mürvəti ilə
Yarışı ar bilir, qudurmuş kimi.

Pas tutub içimiz kindən, qürurdan,
İman geri qalıb puldan, paradan.
Qorxuruq, hakimdən, prokurordan,
Allah qorxusundan ağırmış kimi!

Qayıt Haqq yoluna, ey insan oğlu!
Yaşama dünyada gözləri bağlı!
Bü həyat xoş gündə şərbətli, yağlı,
Çətində eşitməz, sağırmış kimi.

Malikin qəlbində çoxdur gileyi,
Yarımçıq qalıbdır arzu–diləyi.
Gözləyir, gələcək ümid mələyi,
Çəkdiyi əzablar nağılmış kimi!

## XOCALININ FƏRYADI

*(26.02.1992-ci il Xocalı soyqırımına ithaf)*

Bir dərd bitib yolumuzda–çayır köklü,
Əli kətmən tutanlara bir haraydı!
Çiynimizdə günah qədər ağır yüklü
Hesab günü tərəzidə sal qayadı–
Xocalının fəryadı!

Əzizim, yolum üstdə,
Dərd bitib yolum üstdə,
Igid bala böyütdüm,
Can verdi qolum üstdə!

Anaların naləsidir–ərşi sökən,
Yaxamızdan tutub bizdən hesab çəkən.
Bu torpağa ovuc–ovuc şəhid "əkən"
Ağlargözlü bir cütçünün dən payıdı–
Xocalının fəryadı!

Cütçü, bu yurdu tanı,
Olub yağı qurbanı.
Burda şəhidlər yatır,
Aramla sür kotanı.

Yersiz gəldi, yerli qaldı çöl düzündə
ATƏT, ABŞ, yalan yatır hər sözündə.
Demokratik Avropanın boz üzündə,
Silinməyən qara ləkə, pas boyadı–
Xocalının fəryadı!

Vətən bölük–bölükdür,
Çiynində ağır yükdür.
Yadlara bel bağlama,
Türkün dayağı–türkdür!

Didərginin ümidləri olub talan,
Yurd həsrəti dağlar onu zaman–zaman
Gözü yolda, boynu bükük, ağlar qalan,
İncik düşmüş pak ismətdir, lal həyadı–
Xocalının fəryadı!

Bu ellər nalan ağlar,
Olunub talan–ağlar!
Dərdlinin yaşı durmaz,
Qalanı yalan ağlar!

Önümüzdə at oynadan gavuryanlar,
Ordumuzun qüdrətini bir gün anlar...
Torpaq üçün qurban gedib neçə canlar.
O canların küskün ruhu, tapdalanan soyadı–
Xocalının fəryadı!

Haydı, qeyrətlilər. Bu, bir nərə, qıydı!
Ana torpaq qan içməkdən bezdi, doydu!
Sizi səslər öc almağa, gəlin, haydı!
Xocalının fəryadı! Xocalının fəryadı!

## SÜLEYMAN İSMAYIL
(1958)



**Süleyman İsmayıl** 1958-ci ildə Masallı rayonunun Şərəfə kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Tibb İnstitutunu bitirib. Respublikamızın tanınmış həkimlərindəndir. Bakıda yaşayır. İlk şeiri tələbəlik illərində Xalq Şairi Fikrət qocanın təqdimatı ilə mərkəzi mətbuatda çap olunub. Sonralar onun imzasına dövri mətbuatdda tez–tez rast gəlmişik. Daha sonra vaxtaşırı şeirləri ilə “Ulduz”, Azərbaycan”, “Literaturnaya Azerbaycan” jurnallarında oxucularının görüşünə gəlib. Eləcə də Azəbaycanda bir neçə ədəbi toplu ilə yanaşı, Rusiyada “Molodaya Qvardiya” nəşriyyatının nəşri olan almanaxda da şeirləri çap olunub.

“İtən nəğmələr”, “Son yarpaqlar”, “Ötən ilin buludları” şeirlər, “İgid yarasız ölməz” publisistik kitablarının müəllifidir.

AYB–nin üzvüdür.

### OYUN

Bütün bu oyunlar tanışdır bizə,
Oynaya–oynaya böyümüşük biz.
Gedib yas yerində oynamaq üstə
Hələ uşaq ikən döyülmüşük biz.

Böyüklər həmişə oynadıb bizi,
Heç vaxt qaytarmayıb söz, oynamışıq.
Deyiblər "çalğını neyləyir uşaq?"–
Onlar əl çalıblar, biz oynamışıq.

Arabir girmişik top oyununa.
Oyunçu çatmayıb, sayıblar bizi.
Elə hey deyiblər "arxada oyna",
Ya da topdaşıyan qoyublar bizi.

İndiki oyunlar daha da qəliz:
Məşqçilər hamının baxır boyuna.
Səhərdən axşama məşq eləyən–biz,
Amma başqaları çıxır oyuna…

***1980***

## ÜRƏYİMİN AĞRISI

Sanki bir daş düşüb batıb sinəmdə,
Göyərib, böyüyüb artıb sinəmdə.
Hələ sakit–sakit yatır sinəmdə,
Mənim ürəyimin bir ağrısı var.

Deyə bilmədiyim sözümdür, yatır,
Yaramın qopacaq gözüdür, yatır.
Dözülməz ağrıdır, –dözülür, yatır,
Mənim ürəyimin bir ağrısı var.

Təzədir, dünyaya gələndə yoxdu.
Ürəkdən ağlayıb–güləndə yoxdu.
Bu ağrı hardandı, –bilən də yoxdu,
Mənim ürəyimin bir ağrısı var.

Bəlkə də məni bu dərd naşı bilir,
Getdiyim yolların hər daşı bilir.
Anam bilməsə də, qardaşım bilir,
Mənim ürəyimin bir ağrısı var.

## İNANA BİLMİRƏM BU SƏNSƏN, ANA

İnana bilmirəm bu sənsən, ana.
Bükülüb qalıbsan yumaq kimi sən.
Nədən öz əlinlə tikdiyin evdə
Bu gün yad kimisən, yamaq kimisən?

Mənası nə oldu o əzabların?
Niyə həyat belə mənasız imiş?!
Ana, ol, ya olma…–deyirəm, Tanrı
Bəlkə buna görə anasız imiş?!

Bəlkə buna görə oğulsuz, qızsız,
Bacısız, qardaşsız, –tək imiş Allah?!
Dünyada hamıya dərd verilirmiş,
Dərdi–dərd bilənlər çəkirmiş, Allah!

Sən ki, barışmadın taleyinlə heç,
Görəsən, dünyada səhvin nə imiş?
…Onu bilirəm ki, bəxtin kəm isə
Əlləşib, vuruşmaq əfsanə imiş.

İnana bilmirəm bu sənsən, ana.
Sən quru torpağı bağ eləyirdin.
Bizim yanımızdan külək əsəndə
Sən coşub aranı dağ eləyirdin.

Biz niyə olmadıq sənin kimi bəs?
Bəlkə elə sənin günahın oldu.
Bir dəstə oğul–qız böyütdün əbəs, –
Bir dəst yorğan–döşək pənahın oldu?!

Dünyada hər şeyin ölümdür sonu!
“O” varkən həyatda məna nə imiş?...
Mən elə bilirdim Ana–Anadır,
Ölüm olan yerdə Ana nə imiş…

## BU DÜNYA MƏN DEYƏN DEYİL

Deyəsən yamanca aldadılmışam,
Deyəsən bu dünya mən deyən deyil.
Hardasan ay ata, –bir eşit məni,
Deyəsən bu dünya sən deyən deyil.

Hanı sən dediyin nağıllı dünya?
Hanı o nağıllı, noğullu dünya?
Hanı o sən deyən ağıllı dünya?
Bu  dünya dəlidir, sən deyən deyil.
Hər sirri bəllidir, mən deyən deyil.

İnandım hamının sədaqətinə,
İsindim anamın məhəbbətinə.
Haçan ki, yoruldum, düşdüm çətinə,
Gördüm ki, bu dünya sən deyən deyil.
Gördüm ki, bu dünya mən deyən deyil.

Nağıllar hamısı yalanmış demə…
Ay ata, sən mənə aldadılmış de,
Sən mənə, sən mənə aldanmış demə.
Deyəsən bu dünya sən deyən deyil.
Deyəsən bu dünya mən deyən deyil.

***1978***




## SALAM

Hərdən yerə düşür mənim salamım,
Demirəm dağ qopar yerə düşəndə.
Heç nəyi əskilməz salam alanın,
Alın salamımı yeri düşəndə.

Bilirəm, Füzuli salamı deyil,
(Vaxtında onu da almamışdılar.)
Sözüm də Nizami kəlamı deyil,
Mənim də sözümün öz mənası var.

Bürünüb millətçi qiyafəsinə
Xalqı nadan sanır özü nadanlar.
Beş–üç misrasına, qafiyəsinə
Hələ özü sağkən heykəl uman var.

Mənsə salam verib, ötüb keçirəm.
Dünyada heç kimdən umacağım yox.
Mən salam verirəm, –sonra deməyin
«Salam da vermədi, qanacağı yox…»

## BİLİNMƏZ

Mən bir daha bu dünyaya gəlmərəm,
Çünki gəlsəm, gəlməyim də bilinməz.
Həyat nədir, ölüm nədir–bilmərəm,
Bilsəm əgər, bilməyim də bilinməz

Dünya elə adiləşib gözümdə,
Adi olub, köhnə olub sözüm də.
Bir mənasız kölgə gəzər üzümdə,
Ağlamağım, gülməyim də bilinməz.

Yüz yarımçıq nəğmə ölür dilimdə,
Axtarsan hey köz taparsan külümdən.
Ürəyimin min dərdi var, –öləndə
Hansı dərddən ölməyim də bilinməz..

## GƏNCLİYİM

Bir axşam qoşulub tay–tuşlarıma
Bilmədim heç hara getdi gəncliyim.
Payız günəşitək bir dağ dalında
Yox oldu gözümdən, itdi gəncliyim.

Elə hey yaş gəldi yaşımın üstə.
Saçlarım yığışdı qaşımın üstdən.
Buludtək dayanıb başımın üstdə,
Yağmadı, eləcə ötdü gəncliyim.

Günlərin, ayların üstündə əsdim.
Bilmirəm gecikdim, yoxsa tələsdim…
Həzin bir nəğmədi, həzin bir səsdi, –
Oxundu, səsləndi, bitdi gəncliyim.

## HƏYAT NƏĞMƏLƏRDƏ GÖZƏLDİR

Həyat nəğmələrdə daha mənalı,
Həyat nəğmələrdə daha gözəldir.
Kiminsə ahına dözmək cəfadır, –
İnsanın nəğmədə ahı... gözəldir!

Nəğmədir hamının nəşəsi, ahı,
Dünyanın nəğməsiz bir daşı yoxdur.
Təklik nəğməsi var göydə Allahın,
Atası, anası, qardaşı yoxdur.

Mənim nəğmələrim–könlümün qəmi,
Səmada ulduztək görünər tək–tək.
Pəsdən oxuyaram nəğmələrimi,
Çoxları səsimi eşitməyəcək.

Dünyada nəyim var sözümdən öncə?
Sözdən öncə nəsə olurmu yəni…
Başıma nə gəlsə, özümdən öncə,
Mənim nəğmələrim qoruyar məni!

# HAFİZƏ MƏMMƏDOVA
(1960)



**Hafizə Mir Qədir qızı Məmmədova** 9 mart 1960- cı ildə Bakı şəhərində anadan olmuşdur. Orta təhsilini Sabunçu rayonu Maştağa qəsəbəsi 187 saylı orta məktəbdə almışdır. Arzularının ardınca gedərək, əvvəlcə 1 saylı tibb məktəbini, sonra isə Azərbaycan Dövlət Tibb Universitetinin pediatriya fakültəsini bitirmişdir.

1992-ci ildən Bakı şəhərinin uşaq poliklinikalarının birində həkim–pediatr kimi fəaliyyət göstərməyə başlamışdır. İşlədiyi tibb ocağında böyük nüfuza sahib olan Hafizə Məmmədova neçə–neçə ailəyə sevinc bəxş etmişdir. Ədəbiyyata böyük sevgisi olan H. Məmmədova hələ gənclik illərindən nəsr sahəsində öz qələmini sınamışdır. Hekayələri müxtəlif illərdə dövri mətbuatda çap olunmuşdur.

Son illər "Nihadın cəsarəti", "Dəniz kənarında görüş", "Bahar nəfəsli yeni il", "Bəyaz dişlərin sirri", "Doktor Aybolitin yeni il sürprizi" və başqa hekayələri ilə mətbuatda oxucuların görüşünə gəlib.

Hal–hazırda da həkim kimi əmək fəaliyyətini davam etdirir.

## "SEVİNC" TORTU

Bankdan güllə kimi çıxdı. Sanki bir az yubansaydı, onu saxlayacaqlarından qorxurdu. Yalnız dayanacağa çatanda yadına düşdü ki, bank işçisinin sözünü də ağzında qoyubmuş. Görəsən, nə deyirdi? Amma nə qədər çalışdısa, yadına sala bilmədi. Sonra "eh" deyib əlini yellədi. Yaxşısı budur, lazımsız fikirlərlə beynini yormasın. Axı, bu gün onun üçün, elə ailəsi üçün də özəl bir gündür. Zarafat deyil, üç illik kredit əzabı bu gün bitmişdi. Bankdan götürdüyü üç min manatı artıqlaması ilə ödəmişdi. Hərçənd, onu

ödəyənə kimi nə qədər arzusunun üstündən xətt çəkmişdi. Səhhətindən, əynindən, boğazından kəsmişdi bu borcu ödəyənə kimi. Amma sevinirdi. Çiynindən ağır yük götürülmüşdü elə bil. “Görəsən, qız yükü ağır olur, yoxsa kredit yükü?” deyə fikrindən keçirdi. Cavab tapa bilməyib çiyinini çəkdi. Öz müqayisəsinə özü də güldü. Öz–özü ilə danışa–danışa bir də gördü ki, evlərinin qarşısındadır. Amma evə getməyə tələsmədi. Yaşadığı binanın altındakı marketə keçib, iri bir tort bağlatdırdı. Bununla kifayətlənmədi. Bahalı konfetlərin bir neçə növündən üç yüz qram çəkdirdi. Daha nə alsın? Aha, tapdı. Qızı bir neçə gün bundan qabaq balıq istədiyini demişdi. Onu qınamırdı. Axı, yazıq uşaq nə qədər makaron–vermişel yesin?! “Darıxma, qızım, darıxma, bundan sonra maaşımı son qəpiyinə qədər sizə xərcləyəcəyəm” deyə sevinə–sevinə dilləndi. Yanından ötənlərin ona təəccüblə baxdığını görəndə dodağını dişlədi. Ürəyindən keçən sözləri istəmədən ucadan demişdi. Amma özünü o yerə qoymadı. Əgər bilsəydilər ki, o bu gün necə qəhrəmanlıq edib, onu nəinki qınamaz, hətta təbrik edərdilər.

Üzündəki sevinc dolu təbəssüm evə çatana qədər onu tərk etmədi. Dəhlizdə onu qarşılayan arvadının təəccübünü görcək onu qınadı:

–Səbinə, məni görməmisən, əlimdəkiləri alsana.

Səbinə zorla gülümsündü:

–Xeyir ola, tort, konfet? Qonaqlıqdır yoxsa, xəbərimiz yox?

–Ay Səbinə, həmişə kimi çox sual verdin. Yaxşısı budur, kömək et.

Sonra ətrafa göz gəzdirib maraqla soruşdu:

–Bəs uşaqlar hanı?

–Nərmin kitabxanaya getdi. İmtahana hazırlaşır uşaq. Səlim də evdədir.

–Yaxşı, sən o balıqı da qızart. Qızımın sifarişi ilə almışam e. Uşaq neçə gündür balıq istəyib məndən.

–İndi deyirsən, biz yeməyəcəyik o balıqdan?

Yaşar arvadının zarafatını ciddi qəbul etdi:

–Fikirləşərik, məsləhətləşərik. Yəqin bir qərar verərik də. Hə, sən süfrə hazırla, mən də əynimi dəyişib gəlirəm. Bu günü yaxşıca qeyd etmək lazımdır.

–Yenə də demədin nə məsələdir?

–Sonra, sonra.

***

Şam edib qurtarana kimi kimsə dinmədi. Tort ortaya gələndə Yaşar dedi:

–Hə, bu da bizim "Sevinc" tortu.

–Ata, axı qutunun üzərində "Praqa" tortu yazılıb, – deyə Nərmin düzəliş verdi.

–Ay bala, istəyir "Praqa" yox, lap "Moskva" yazılsın. Mənim üçün "Sevinc" tortudur. Çünki, bu gün maşının kreditini ödəyib qurtardım.

Səlim:

–Doğrudan? Nə yaxşı!..

Nərmin:

–Deməli, mənim üçün şuba alacaqsan?

Səbinə:

– Çox şükür.

Onları dinləyən Yaşar başını tərpətdi:

– Doğrudan da, çox şükür. Elə sevindim ki! Öz–özümə dedim ki, bu günü mütləq qeyd etmək lazımdır. Bax, qızım, indi bildin ki, bu tort nə üçün "Sevinc" tortudur?

– Bildim, ata, bildim.

– Səbinə, qapıdan çıxanda and içdim ki, ayağını bir daha bura qoyan namərddir. Kredit elə bir... Birdən arvadının qəmgin baxışlarını hiss edib sözünü saxladı:

– Amma, görürəm ki, sən mənim qədər sevinmirsən.

Səbinə oğluna ötəri nəzər salıb dodaqucu dilləndi:

– A, niyə sevinmirəm? Sevinirəm, amma...

– Amma nə?

Səbinə bir an susdu. Yaşar uşaqlara gözaltı nəzər saldı. Buna dözməyən Səlim otaqdan çıxdı. Nərmin də dayanmadı, su içmək bəhanəsi ilə onları tək qoydu. Yaşar qaşlarını çatdı. Əslində arvadının fikirli olduğunu onu

qarşılayarkən hiss etmişdi. Lakin buna o qədər də önəm verməmişdi. Amma, deyəsən, məsələ onu düşündüyündən də ciddi idi. Səsini qaldırdı:

– Hə!

– Səlim maşını əzib.

Yaşar oğlunun qarasınca deyindi:

– Hm, deyirəm axı, nə üçün aradan çıxdı. Yaxşı ki, özünə bir şey olmayıb. Çox əzilib?

– Maşın heç, düzələr. Amma...

– Yenə nə amma?

– Adam vurub. Sonra maşını idarə edə bilmədiyindən divara çırpıb.

Yaşarın rəngi kağız kimi ağrdı. Qeyri– ixtiyarı ayağa qalxdı. Qorxa– qorxa soruşdu:

– Necə, adam vurb? Yoxsa?..

Səbinə ərinə acıdı, tələsik dedi:

– Yox, yox, narahat olma, salamatlıqdır. Lakin o da bir az əzilib. Xəstəxanadadır.

– Deməli, xəstəxanadadır. Elə bu çatmrdı.

– Atası deyir ki, bizdən şikayətçi olmayacaq, əgər...

– Əgər xəstəxananın xərcinini ödəsək, eləmi?– deyə Yaşar arvadının sözünü tamamladı.

Səbinə ərinin üzünə baxmadan başını tərpətdi. Yaşar yumruğunu stola elə çırpdı ki, Səbinə gözünü qırpdı. Elə uşaqlar da özlərini içəri atdılar. Yaşar isə heç kimə əhəmiyyət vermədən əsib– coşdu:

– Mən də deyirəm, niyə bayaqdan ağzını bıçaq kəsmir. Sən demə, zibili varmış zibilin. Bu da bizim "Sevinc" tortumuz. Eh, vaxtından qabaq sevinmişəm. Bu tort mənə sevinc yox, kədər gətirdi. Maşın, xəstəxana xərcləri. İndi bunun altından çıx görüm, necə çıxacaqsan? Heç bu haqda fikirləşmisən? Mənim pulum yoxdur.

Səbinə ərini dilə tutmağa çalışdı:

– Yaşar, onu mən də bilirəm. Bəs nə edək? Hardan olursa, olsun tapmaq lazımdır. Yoxsa, uşağı tutacaq-

lar. Sən necə razı olacaqsan ki, oğlumuz gedib həbsdə yatsın. Uşağın bütün həyatı məhv olacaq.

– Heç nə olmaz, ağlı gələr başına, bir də belə qələt eləməz.

– Yaşar, bilirəm ki, ürəkdən demirsən. İndi bir işdir olub da. Şikayətçi olmamaq üçün onlara o qədər yalvarmışam ki. Güclə razı olublar.

– Yaxşı, bəs pulu kimdən götürəcəyik? Kimin üstünə borca gedim? İndiki zamanda kim kimə borc verər?

Səbinə bütün sualları sükutla qarşıladı. Yaşar istehza ilə dedi:

– Deyirsən, yenə də gedib kredit götürüm, hə?

Səbinə astaca başını tərpədib yazıq– yazıq ərinə baxdı. Yaşar isə bir qədər duruxub, əlini alnına çırdı:

– Yadıma düşdü. Düşdü yadıma.

– Nə yadına düşdü, ay Yaşar?

Yaşar sözünü bir nəfəsə tamamladı:

– Orada mənə demişdilər. Hə, nə gözünüzü döyürsünüz? Onlar, sən demə, məndən qabaq bilirlərmiş ki, ailəmdə nələr baş verib. Hə, dedilər ki, yenə gəlin. Söz verdilər ki, bu dəfə daha çox verəcəyik ( baş barmağını şəhadət barmağına sürtdü). Bəs necə, niyə də verməsinlər? Mənin kimi maymağı haradan tapacaqlar? Siz heç fikir etməyin. Ölməmişəm ki! Maşının kreditini ödədim? Ödədim. Bunları da həll edəcəyəm, Səbinə xanım, fikir eləmə, xəstəxananın xərcini də verəcəyəm. Səlim, oğlum, səndən keçməmişəm ki, qoymaram gələcək karyerana ləkə düşsün. Maşını da düzəltdirəcəyəm. Heç razı olaram ki, sən yaşıdlarının yanında utanıb piyada gəzəsən. Nərmin, qızım, ağlama, sənin üçün də şuba mütləq alacağam. Kimdən əksiksən ki?! Özümə? Eh, özüm heç. İndiyə kimi keçinməmişəm? Bundan sonra da keçinərəm bir təhər. Elə ananız də mənim kimi. Təki can sağ olsun. Hə, nə var, nə baxırsınız? Elə bilirsiniz, dəli olmuşam? Yox, yox, kefim lap yaxşıdır. Yaxşı nədir, lap əladır. Eşidirsinizmi, əladır, əla, bax belə ( baş barmağını qaldırdı). Siz də mısmırığınızı sallamayın. Gülün. Mənim kimi. Bax, belə! Ha– ha– ha– ha!..

# BƏYAZ DİŞLƏRİN SİRRİ

Gecə yarıdan keçmişdi. Hamı şirin yuxuda olsa da, gecələr yem ovuna çıxan sağlam dişlərin qənimi bakteriyalar isə nəinki yatmamış, hətta qızğın mübahisə edirdilər:

- Çəkil o yana.
- Niyə?
- Necə niyə, bura mənim “obyektim”dir.
- Doğrudan? Hanı, adın harada yazılıb?
- Bura bax, sən deyəsən axı, məni...

İniltili səs onların mübahisəsini yarımçıq qoydu:

- Şışşşş, gizlənək, deyəsən, ayıldı.

***

Beş yaşlı oğlunun harayına gələn ana həyəcanla soruşdu:

- Tural, oğlum, nə olub, niyə ağlayırsan?
- Dişim...

***

Həkim Turalın ağız boşluğunu müayinə edib dedi:

- Niyə belə gec gəlmisiniz? Kariez dişin dibinə kimi yayılıb. Görünür, Tural şirniyyatı çox xoşlayır.

Tural razılaşmadı:

- Təkcə şokolad yeyirəm.
- Düz deyir, - deyə ana oğlunun sözünü təsdiq etdi: - gözdən qoysam, bir qutu şokoladı bir oturuma yeyər.

Tural özünə haqq qazandırdı:

- Məndə günah yoxdur, şokolad çox dadlıdır.

Həkimin dodağı qaçdı:

- Düzdür, dadlıdır, amma hər şey qədərindən artıq olduqda ziyandır. Deyəsən, özün də dişlərini fırçalamağa tənbəllik edirsən.

Ana başını tərpətdi:

- Elədir, məcbur etməsəm, dişlərini diş məcunu ilə təmizləmək yadına da düşməz.

Tural dəfə də deməyə söz tapdı:

- Axı, fırçanın tikanları dilimi dişləyir.

Turalın bu sözünə həm anası, həm də həkim güldü.

Həkim :

- Ay səni, Tural, sən nə hazırcavab oğlansan, indi isə, ağzını aç görüm.

Turalın rəngi qaçdı, təşvişlə soruşdu:

- Dişimi çəkəcəksiniz?

- Yox, çəkmək niyə? Həmin o qara ləkəni təmizləyəcəyəm ki, dişin daha da dağılmasın.

Həkimi həyəcanla dinləyən Tural onun əlindəki aləti görəndə əli ilə tez ağzını qapadı:

- Yoxxxxx!

Ana oğlunu dilə tutdu:

- Tural, oğlum, bütün gecəni ağrıdan yatmamısan, mane olma, imkan ver, həkim işini görsün.

Tural ağlımsındı:

- Söz verirəm, bundan sonra şokolad da yeməyəcəyəm, dişlərimi də fırçalayacağam.

Həkim gülümsədi:

- İnanıram, amma əgər bu gün dişindəki həmin o qara ləkəni təmizləməsəm, sabah dişin tamamilə çürüyəcək. Mən də məcbur olub dişini çəkəcəyəm. O zaman yemək yeyəndə çətinlik çəkəcəksən.

***

Gecədən xeyli keçmiş yenə həmin məkanda rastlaşdılar:

- Yenə sən?

- Hə, mən.

- Deyəsən, bu dəfə kefin yoxdur?

- Kefim olmaz da. Açından qarnım dəf-dumbul çalır, yeməyə də heç nə yox.

- Nədir, yoxsa, balaca aclıq elan edib?

- Nə balaca, nə aclıq, canım? Bizim tanıdığımız o balaca indi böyüyüb. Uşağı necə yoldan çıxarıblarsa, hər yeməkdən sonra, dişini fırça ilə sürtür. Şokoladı görəndə üzünü elə turşudur ki, sanki qutuda ilan görür.

- Nə danışırsan. Görəsən onu kim başa saldı?

- Kim olacaq?! Bizim qənimimiz olan diş həkimləri!

- Eh, allah sizə insaf versin. Axı nəyinizə lazım idi, kim nədən nə qədər yeyir, kim dişini fırçalamır? Siz də yaşayırdınız, biz də. Əcəb yerdə axşamladıq.

# MUSA URUD
(1961)



**Musa Urud** (Musa İsa oğlu Quliyev)–şair, həkim, tibb elmləri üzrə fəlsəfə doktoru, millət vəkili.

1961-ci il noyabrın 25–də Qərbi Azərbaycanın Zəngəzur qəzası, Sisyan rayonunun Urud kəndində anadan olmuşdur. Burada orta məktəbi qızıl medalla bitirmişdir (1978). N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə–profilaktika fakultəsini (1984) və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dövlət və bələdiyyə idarəetməsi fakültəsini (2004) bitirmişdir. Əmək fəaliyyətinə təyinatla göndərildiyi Gəncə şəhərində, A.Səhhət adına 1 saylı xəstəxanada həkim kimi başlamışdır (1984–1985). Gəncə Narkoloji dispanserində həkim–narkoloq (1986–1990), 7 saylı Bakı şəhəri poliklinikasında həkim nevropatoloq (1990–1993), Bakı şəhəri Yasamal rayonunda həkim əmək ekspert komissiyasında ekspert nevropatoloq (1993–1994), Əmək və Əhalinin Sosial Müdafıəsi Nazirliyində şöbə müdiri (1994–1997), idarə rəisi (1997–2000) vəzifələrində işləmişdir.

İlk mətbu şeirləri 1984- cü ildə xalq şairi Məmməd Arazın "Uğurlu yol" təqdimatı ilə "Azərbaycan gəncləri" qəzetində çıxmışdır. 1988-ci ildə əlisilahlı erməni quldurları tərəfindən doğma yurddan ellikcə qaçqın salınmışdır. Bununla əlaqədar onun kövrək poeziyasına doğma yurd həsrəti, didərginlik taleyi, el dərdi müharibə ağrı–acıları motivləri daxil olmuşdur. Gəncədə "İlham" ədəbi birliyinin fəal üzvü kimi yazıb–yaratmışdır. Prezident təqaüdçüsü (1998), "Nizami Aydın", "Araz", "Yusif

Məmmədəliyev" ədəbi mukafatları laureatıdır. Azərbaycan Yazıçılar Birliyi İdarə heyətinin üzvüdür.

2000–2005-ci illərdə ikinci çağırış Azərbaycan Milli Məclisinin üzvü olmuşuşdur. Seçicilərin etimadını doğrultmağın nəticəsidir ki, Musa Urud sonralar üç çağırışda da Milli Məclisə üzv seçilmişdir. Milli Məclisin Sosial siyasət Komitəsinin sədrinin müavini, Azərbaycan–Əlcəzair parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri kimi, Azərbaycan–Braziliya, Azərbaycan–Qazaxıstan, Azərbaycan–Litva, Azərbaycan–Pakistan parlamentlərarası əlaqələr üzrə işçi qruplarının, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisində Azərbaycan nümayəndə heyətinin və Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü kimi Musa Urudun çox uğurlu, yüksək qiymətəlayiq fəaliyyəti olmuşdur.

1994- cü ildən AYB–nin üzvüdür.

Evlidir, 3 övladı var.

"Nuh gəminə götür bizi" (şeirlər), "Tanrı şam yandırıb" (şeirlər),

"Ömürdən 101 şer" (şeirlər), "Üzü haqqa gedirəm" (şeirlər və poema), "Urud" (bədii publisistika), "Haqqın var yaşamağa" (siyasi publisistika), "Vətən and yerimiz" (uşaq şeirləri, sinifdən xaric oxu vəsaiti), "Zəngəzur" (elmi–publisistik nəşr), "Uruda iki səfər" (bədii publisistika), "Hər nə varsa" (şeirlər və poemalar), "Zəngəzur toponimləri" (elmi–publisistik əsər) və başqa kitabların müəllifidir.

## ALMA AĞACI

Məni kəlbətin kimi sıxır, əzir bu axşam,
hamı çəkilib gedib, meydanda tək qalmışam.
Sözlərimi canımdan çəkərək mismar kimi
Sənə deyim dərdimi, alma ağacı.
Demə, nə qəribəyəm,
Əlim gəlməz, dərib yeyəm.
Yaman düşdüm qəribliyə
Boşluğa atılmış güllə səsi kimi.

Sənə deyim dərdimi, alma ağacı.
Qızıl alma axan çayda
Muradımız axdı, getdi.
Qızıl balığlar tərg oldu,
Qızıl qanlar axır indi.
Bu axşam, bəlkə hamıdan
Allah sənə yaxın indi.
Öz qılıncına doğranmaq
hünərdimi, alma ağacı?
Sənə deyim dərdimi, alma ağacı.

Ömür sürdük, adımızı bilmədik,
Torpaq əkdik, dadın–duzun bilmədik.
Dilimizə öz dilimiz deməyə
Özgələrdən izn, rüsxət istədik.

Nə qədər ki, öz–özünə qənimik,
Nə qədər ki, ata–ana qəmiyik.
"Qardaş"–deyib, göndəririk qabağa,
"Vur"–deyirik, arxasınca gəlmirik.
Nə qədər ki, içimizdən satan var
Nə qədər ki, arxamızdan qaçan var.
Qaytar məni gətirdiyin dünyaya.
Kəndir asılası nə gözəl haçan var,
Alma ağacı,
Kətil çəkən özümüzdən tapılar,
Alma ağacı!

## DEYƏRSƏN

Gözlərimdə dövran - külək, sevgi - çən,
Ömür – torpaq, könül – bulaq, sevgi – dən.
İllər ötdü, ayılmadım sevgidən
Bu badəni kim içirtdi, –deyərsən!

Çox doğmamı qurban verdim, çox yada,
O illəri əhv et, tanrı, çix, ya da.
Adamları tanımadım, dünyada
Kimi tilsim, kimi sirdi, –deyərsən.

Nə sevincdi, nə əzabdı üzdəki,
Nə yalanam, nə də düzəm düz təki.
Nə qoyuram bu tərəzi düz çəkir, –
Nə zülümdü, nə əsirdi, –deyərsən.

Torpaq–təşnə, dodaq–təşnə, su–haray,
Qəlb yandırar, eşidilməz bu haray.
Bu cah–cəlal, bu ev–eşik, bu saray
Yer üstündə bir qəribdi, –deyərsən.

Qocalarsan üzün–gözün qırışar,
Dodağında dua aha qarışar.
Ömür keçdi, yarı xeyir, yarı şər
O oğlanı kim itirdi, –deyərsən!

## GÖR NECƏ DƏ...

Gör necə də ulduz olur ay olan,
Bir gecədə payız olur yay olan,
Qismətində payızında pay olan,
Şaxtasına, qar–qışına sahibdi.

Adamlar var, yaraşıqdı torpağa,
Adamlar var, zirvə kimi qoy dağa.
Adam da var başı üstə qoymağa,
Bu torpağın bir daşı da hayıfdı.

A dostlarım, bu yurd üstə köklənin,
Möhkəm tutun, darda əli möhkəmi.
Söykənəndə qalalara söykənin,
təpələrə qısılmaqda ayıbdı.

## BİLMƏDİM

Vətən bölük–bölük, el para–para,
Qalsın belə ömrü, qalsın ağlara.
Üzüm Allahadı, yönüm dağlara
Aşdığım təpədi, yaldı, bilmədim.

Durat girə keçdi, Qırat əllərə,
Yurda talan düşdü, qarət ellərə.
Fələk əl uzatdı qara tellərə,
Daradı bilmədim, yoldu bilmədim.

Silindi cığır da, kəsildi yol da
Yaş gözdə göynədi, bayatı dildə.
Kəkotu qayada, bənövşə kolda
Saraldı bilmədim, soldu bilmədim.

Dağlar qəsrim idi, qayalar taxtım,
Qarışdım bulanıq sellərə axdım.
Şeytan əl uzatdı, əlini sıxdım
Mələk libasında gəldi, bilmədim.

Adımı üzümə rübənd eylədim,
Ömrümü arzuma kəmənd eylədim.
Haqq sözü cır işə peyvənd eylədim,
İçimdə bir şaid öldü, bilmədim.

## SƏN MƏNİM ÖMRÜMƏ QAYIDACAQSAN

Yolumun üstündən yolun keçəcək,
Zülməti doğrayan təzə dan kimi.
Qaranquş yuvaya, cüyür bulağa,
Pərvanə çırağa qayıdan kimi
Sən mənim ömrümə qayıdacaqsan.

Bir ocaqda yanmış qoşa daş kimi,
Bir gözəl ölümlü sona tuş kimi.
Bir qızıl gülləyə sığılıb gələn
Qızıl ilan kimi, qızıl quş kimi
Sən mənim ömrümə qayıdacaqsan.

Ağ günlər saçına sığal çəkəcək,
Yıxılan dərdini yıxan çəkəcək.
Ya qarğış tutacaq, ya qan çəkəcək
Sən mənim ömrümə qayıdacaqsan.

Yaxan ki, əl tutmaz ələ verildi,
yolu bağlayanı yola ver indi.
Yarpağın sarısı qara yerindi,
Sən mənim ömrümə qayıdacaqsan.

Şehin çəkilsə də, şaxın solsa da,
Dönüb qayıtdığın quru kolsa da,
Ən uzaq səfərə bir gün qalsa da,
Sən mənim ömrümə qayıdacaqsan.

## GƏLMƏZ

Dünya mənə yuxu kimi
Qovğası eynimə gəlməz
Ömür köhnə çuxa kimi
Gödələr əynimə gəlməz.

Hədərdi hirsim, acığım,
Çıxmalıdır çıxacağım.
Sapdan qırılan muncuğun
Biri də iynəmə gəlməz.

O dəli sevda yox başda,
Üz göstərmir daha yaş da.
Küt gedən kündəmdən başqa
Bir yuxam təknəmə gəlməz.

Bir gün məndə sayılaram,
Özümdən "böyük" olaram.
Dost çiyninə yük olaram,
Dost əli çiynimə gəlməz.

## ƏL YETƏN–ƏL YETMƏZ

Əl yetənə dadsız baram,
Tamarzıya sədd, divaram.
Harda yoxam–orda varam,
Harda varam–var deyiləm.

Üzünə astar çəkilə,
izinnən dostlar çəkilə.
Düşəsən karlar içinə,
Ha deyəsən:–"Kar deyiləm".

Arzuma çapar olmadım,
Tanrıdan nəmər almadım.
Barmaqları zər olmadım,
Ovcu da qabar deyiləm.

Nədən bilim, ağrı nədir,
Keyləşmişəm sətir–sətir.
Dedim:–"–Nə darsan, ay qəbir"?
–Dünyadan ha dar deyiləm!

## QURTARDI

Görünmürsə nə yad, yaxın,
Hədərdi dağa çıxmağın.
Məhəbbətin, ayrılığın
Suları axdı, qurtardı.

Əyri düzə tuş göründü,
Düşmən də qardaş göründü.
Çən getdi, dağ–daş göründü,
Qəm getdi, mahnı qurtardı.

Dünya şeytan yürüyüdü,
Kim tərlədi, kim üşüdü.
Əcəl tanrı güzgüsüdü,
Hər gedən baxdı, qurtardı.

Çox da bağlama umudu,
Xırdaca xaş–xaş tumudu.
Ömrü bir göz qırpımıdı,
Bir dərin ahdı, qurtardı.

Bu dünya Musa Urudu
Unutdu, haqlı unutdu,
Yarpağa uzən buluddu,
Səhraya yağdı, qurtardı.

## İÇIMDƏ

Bu keçidi kim keçdi, kim bağladı,
Dalımızca hansı Yetim ağladı?
Qoşa bulud guruldadı, yağmadı,
İldırımda yatdı elə içimdə.

Əl uzatdım, mən əlini tapmadım,
Yaşılını, xəzəlini tapmadım.
Bu dənizin sahilini tapmadım,
Bu gəmi də batdı elə içimdə.

Ən birinci arzum idin, itirdim,
Ən sonuncu ruzum idin, itirdim.
İtirdiyim, özüm idim, itirdim...
Bu adam da yaddı elə içimdə.

Təşnə gülüm, nə sən görən Musayam,
Nəyim qalıb, nə qoruyam, nə sayam.
İnnən belə nə bulağam, nə çayam,
Qaynayan da oddu elə içimdə.

***

Musa Urud, qəm eləmə,
Səbr elə, başın sağ olsun.
Bir dost da daş atdı sənə
Dost atan daşı sağ olsun.

O daş sənə neynəyəcək
Daş dəyən yerini bağla.
O daşı bağrına basıb
O ölmüş dostluğa ağla.

O daş son dast hədiyyəsi,
Qat suyunu, çörəyinə.
Sözdürsə, xətrinə dəysin,
Güllədirsə, ürəyinə.

Bir dostun daşı atıldı,
Bir dostun da öldü bugün.
Qəm eləmə, dua elə,
Tanrı günahından keçsin.

## BAĞIŞLA

Dağları itirdim, dərdim dağ oldu,
Qazancım–özümü tanımaq oldu.
Yelləncək xoşlayan bir uşaq oldum,
Tutdum ətəyindən, ümid, bağışla.

Əllərim qoynumda, üzüm Allaha,
Qurudum, qırıldım kökümdən daha.
Səni də tapşırıram yalquzaqlığa,
Özüm də təkləndim, boz qurd, bağışla.

Dar gündə darımı kola dağıtdım,
Gözümü yüz ögey ələ dağıtdım,
Özüm, öz yuvamı elə dağıtdım,
Dönüb deyəmmərəm, “a yurd, bağışla!”

Səcdənə gələrsə, oğlum–yaşasın!
Gəlməzsə mənimtək mağmın yaşasın,
Adımı adına qoşdum–yaşasın
Səndən çox yaşadım, Urud, bağışla.

## BƏLKƏ DƏ

Bəlkə də
Günahlarımızı yumaq üçün
Yağır yağışlar.
Bəlkə də küləklər
Çəkdiyimiz ahlardı,
Dünyanın o üzünə
Dəyib qayıdır.
İçimizdən keçib
Çırpılır dağlara.

Bəlkə də
Umutduğumuz sevgilərdi
Kor gəzdirən kimi
Tutub əllərimizdən
Bizi aparır.

## XEYRİ YOX

Bu gün, elə ötən günün bir qatı,
Həmzə yenə oğurlayır Qıratı.
Yaxşılıqdan yamanlığa bir addım,
Yamanların yaxşılıqa təhri yox.

Əyri düzə düz eləyib calanıb,
Soyuq torpaq buz eləyib ilanı.
Susuz qalan su saxlayan çalanın,
Su saxlamaz su qabından fərqi yox.

Musa Urud, çoxları sən təbdədi,
Xalq yolunda ölmək yaman dəbdədi.
“Ölləm” deyib, minnət qoymaq müftədi,
Hər ölənin bu torpağa xeyri yox.

## MƏNƏ QALSA

Baxma alabaşı, qarabaşı var,
Baxma ki, xallıdı, bozdu, kürəndi,
İtlərin hamısı yada hürəndi,
İtlərin hamısı yala gələndi,
İtlərin hamısı qurdu güdəndi.

İtlərin hamısı qurdbasan olmur,
Tazısı, tulası, süləyi də var.
İtin yal yeməyi başacan olmur,
Qurdun caynağında ölməyi də var.
Təkbətək qalanda qovduğu ilə.

Salıb yanımıza boz tulaları,
Tülkünü qorxudub tülkü elədik.
Ağ qoçu ağ günə çıxarmadıqsa,
Boz qurdu boz dağdan sürgün elədik.
Baxıb ulduzlara hürdü itimiz,
Biz də elə bildik düzgün elədik.

Bizimlə olmayan düşməndi, qurddu,
Bizim deyə–deyə iti qudurtduq.
Qardaş kim bölübdü belə bölgünü,
Vallah, mənə qalsa dən toyuğundu.
Qoyun qurdunkudu, toyuq tülkünün,

İtinki yaldı.
Vallah mənə qalsa...
Mənə də qalmır!!!

## ALLAH UMUDUNA YURDMU QOYARLAR?

Olub bir fitnənin qulu gəlmişik,
Yaralı gəlmişik, ölü gəlmişik.
Allaha tapşırıb eli gəlmişik,
Allah umuduna yurdmu qoyarlar?

Üstünü kim örtür borand, qarda,
Üzündən kim opür hər ilk baharda.
Biz düzdə qalmışıq, yurdumuz darda,
Allah umuduna yurdmu qoyarlar?

Fələk atlı oldu, qaldıq biyada,
Getdi qapılarda abır–həya da.
Şorsatan dünyada, şorgöz dünyada
Allah umuduna yurdmu qoyarlar?

Allah xəmirini acıtsın sənin,
Allah səbirini qaçırtsın sənin.
Allah çadırını uçurtsun sənin,
Allah umuduna yurdmu qoyarlar?

## SÜLEYMAN İSMAYILOĞLU
(1960)



**İsmayılov Süleyman** İsmayıl oğlu 1960- cı il Ermənistan SSRİ Spitak rayonu, Saral kəndində doğulub. 1967–1977-ci illərdə Saral kənd orta məktəbində orta təhsil alıb. 1979–1981-ci illərdə hərbi xidmətdə olub. 1986–çı ilədək inşaatda fəhlə işləyib. 1986–1991-ci illər Azərbaycan Dövlət Tibb Universitetinin Əczaçılıq fakultəsində ali təhsil alıb. 1992–1998-ci illər Azərbaycan Respublikası Silahlı Qüvvələrində zabit kimi fəaliyyət göstərib və kapitan rütbəsində ehtiyata buraxılıb.

1998-ci ildən Bakı şəhərində əczaçılıq fəaliyyəti ilə məşğuldur.

"Tanrı milləti" kitabının müəllifidir.

### VƏTƏNDƏN NİGARANAM

Hər gecəm, hər gündüzüm gözlərim hey yol çəkir,
Qələbə müjdəsi ilə imza atır, qol çəkir.
Həsrətimə dən düşür, xəyalımda qəm, fikir–
Yolum yoldan ayrılıb–o gündən nigaranam,
Vətəndən nigaranam!

Tariximin izini tikən tapılmaz orda,
Düşmənimin gözünü tökən tapılmaz orda,
Yurd yerinin nazını çəkən tapılmaz orda–
İlk eşqim sinəsində bitəndən nigaranam:
Vətəndən nigaranam!

Kimsəsizmi gördülər, silahsızmı bildilər,
İmansızmı tanıyıb, allahsızmı bildilər.
Bölünmüş ürəyimi yenə tən–tən böldülər–
Yarasından qan axan o təndən nigaranam–
Vətəndən nigaranam!

Dağlara söykənərdim–qartalları şəhanə,
Bulaqlardan doymazdım–suları saf, dürdanə,
Göllərində hay salan sonaları pərvanə–
Sonası göldən ayrı ötəndən nigaranam–
Vətəndən nigaranam!

Mən ahıllar görmüşdüm ağlı, zəkası dərin,
Mən qadınlar görmüşdüm sipəri kişilərin,
Mən kişilər görmüşdüm heykəliydi hünərin–
O cür mərd kişilərin, o comərd kişilərin
Məzarı qucağında itəndən nigaranam–
Vətəndən nigaranam!
Vətəndən nigaranam!

## TANRIM

Başimin üstündən atıldı toplar, –
Ya mətləbə çatam, ya sənə, Tanrım!
Dilimdə yarımçıq qaldı dualar,
Ruhum həsrət qaldı "Yasin"ə, Tanrım!

Kafir haqdan dönər, eləməz biət,
Gərək ki, insanda saf ola niyyət.
Nəfsim zora düşdü, şeytana lənət, –
Ya duvaq açıldı, ya sinə Tanrım!

İman Allahdandır, ibadət məndən, –
Bəlkə biz də daddıq mərhəmətindən.
Gəlsin mələklərin səltənətindən
Kimsəsiz Şamanın yasına, Tanrım!

## DÖYÜŞƏCƏK ÇANAQQALA!

Uzaq Bozqır çöllərində
Yaşıl yovşanlar bitəndən,
Boy verəndən türk cocuğu
Ay üzlü ana bətnindən,

Düşməmişdi at belindən, –
Döyüşürdü Çanaqqala!
Okeandan okeana,
Gündoğandan günbatana,
Döyüşürdü haqq adına,
Döyüşürdü Çanaqqala!
Dədəm ulu soy adına
“İgidlərim, heyy...”–deyəndən,
Xanım, xaqanım başına
Hilallı çıqqa çeyəndən,
Boğazlarda–Mərmərədə
Döyüşürdü Çanaqqala!
Kıprısda hüzur görməyə,
Almatada ayaq açıb,
Balkanlarda yürüməyə.
Xəzər boyu dalğalanıb,
Bakıya bayraq dikməyə
Döyüşürdü Çanaqqala!
Fəqət, hələ döyüşəcək,
Döyüşəçək Çanaqqala!
Yer kürəsi haqq–imana
Çatanacan döyüşəcək!
Bu dünyaya azad Günəş
Doğanacan döyüşəcək!
Döyüşəcək nə qədər ki,
Zəfərimin qolu bağlı.
Döyüşəcək nə qədər ki,
Qarabağın yolu bağlı.
Döyüşəcək nə qədər ki,
Göy üzündə qan izi var.
Döyüşəcək nə qədər ki,
“Vətən”, –deyən bir qazi var.
Döyüşəcək nə qədər ki,
Anaların canı dərddə.
Döyüşəcək nə qədər ki,
Xocalının qanı yerdə–
Döyüşəcək Çanaqqala!
Döyüşəcək Çanaqqala!

## SARALIM

Yuxumda da görməyirəm nə vaxtdır, –
Gədiklərin yerindəmi, Saralım?
Bir əbədi gözəlliksən gözümdə, –
Gördüklərim yerindəmi, Saralım?

Xəstə olan sağalarmı vətənsiz?
Torpağın yox, –demək qaldım kəfənsiz.
Ataların, babaların kimsəsiz
Qəbirləri yerindəmi, Saralım?

Pəmbək çayı çağladımı, daşdımı,
Qara Qaya hələ gözü yaşlımı?
Sinəmdəki ürəkdimi, daşdımı, –
Yurd yerləri yerindəmi, Saralım?

Daşlı Yoxuş, yəqin, mamır bağladı...
Viran qaldın, kim halına ağladı?
Pəmbək dağı sənə yasmı saxladı–
Çiçəkləri yerindəmi, Saralım?

Yağı namərd çıxdı, yaman elədi,
Dərdi Süleymanı Şaman elədi.
Armud Ocağından aman dilədi, –
Diləkləri yerindəmi, Saralım?

## AÇ QAPINI, TƏBRİZİM!

Aç qapını, aç, Təbrizim,
Arxamda vəhşi törələr,
İçimdə dərdli pöhrələr...
Əsrlərdi kimsəsizəm,
Əsrlərdi nəşəsizəm...
Gülüşümü bir şaxtalı külək uddu,
Nəyim vardı dolu döydü, leysan yudu...
Vətən suyu, çörəyinə

Ac qalmışam, ac, Təbrizim–
Aç qapını, aç, Təbrizim!
Qüdrətimi sarsıtdılar tək döyüşdə,
Şöhrətimi axsatdılar nəs döyüşdə.
Mən kiminlə döyüşəcəm, bəs, döyüşdə?–
Babam qalıb bu qapının arxasında.
Elim qalıb, obam qalıb bu qapının arxasında...
Aç qapını, aç, Təbrizim!
Mələr qalıb qurd balası
Bu qapının qabağında.
Başsız qalıb yurd qalası
Çoluq–çaqqal qabağında...
Dünya duymur harayları, –
Öz keyfində–damağında.
Çoxbilmişlər harın–harın
Qıfıl–açar davasında...
Yad əllərdə açar gəzər,
Qafil gəzər, naçar gəzər...
Sıyrılmamış bir qılınc var, –
Qəbzəsi sən, tiyəsi sən,
Açılmayan daş qapının
Haqqdan azman yiyəsi sən!
Son nəqarət deyilməyib,
Onu da sən deyəsisən!
Göstər artıq qəzəbinin sərt üzünü!
Göstər artıq qüdrətinin mərd üzünü!
Əllərinin silləsini göstər, görüm!
Nifrətinin gülləsini göstər, görüm!
Bir şəhid var, ölə bilmir nə zamandı–
Məzarının qibləsini göstər, görüm!
O məzarın ünvanına aç qapını!
O şəhidin yollarına aç qapını!
Allahımın qullarına aç qapını!
Aç qapını, aç, Təbrizim,
Aç qapını, aç, Təbrizim!

***11.06.2012***

## ALPANA YAĞIŞ YAĞACAQ

Başımın üstündə buludlar dolub,
Günəşin üzündə çiçəyi solub,
Qorxu kəklikləri kollara qovub.
Qartal qıy vuracaq, haray salacaq, –
İndicə Alpana yağış yağacaq...

Bu necə məhkəmə, bu necə divan?
Qocaman təbiət kükrəyib yaman.
Toparla sürünü, xaloğlu çoban,
Başının üstünü leysan alacaq, –
İndicə Alpana yağış yağacaq...

İki şanapipik pıçıldaşdılar,
Qazlar halay vurub, qaqqıldaşdılar.
Görüşə çıxanlar hara qaçdılar?–
Ocaqda odunun közü qalacaq...
İndicə Alpana yağış yağacaq...

Meşələr yuyunmaq həvəsindədir,
Dəryalar sellərin təşnəsindədir.
Qayalar şimşəyin bərəsindədir, –
İldırım vuracaq, şimşək çaxacaq,
İndicə Alpana yağış yağacaq...

Əsrləri yormuş qoca nərdimi,
Döyüşdən tək çıxmış bir əsgərdimi,
Savalan dərdindən bixəbərdimi?–
Şahdağı kövrəlib, gözü dolacaq,
İndicə Alpana yağış yağacaq...

***04.08.2010.***
***Quba, Alpan kəndi***

## QUBA

Kürəyi söykənib dağa,
Ətəyi dənizdi Quba.
Badam gözlü, alma yanaq,
Laləli, nərgizli Quba.
Buludları əlçim–əlçim,
Üzü ağbənizdi Quba.
Sinəsi yaşıl meşəli,
Döşləri kəhrizli Quba.

Sağı–solu inciməsin, –
Ortada nəhəng kimidir.
Qar görüb, çovğun ötürüb,
Solmayan çiçək kimidir.
Mərdlikdə tayı tapılmaz,
Əyilməz bilək kimidir.
Öyünməklə arası yox,
Ümman tək səssizdi Quba.

Ürəklərə işıq salır
Həyası qızın, gəlinin.
Tarixlərə tarix yazır
Səfası qızın, gəlinin.
Ərənlərə bir qaladır
Vəfası qızın, gəlinin.
Ana kimi, bacı kimi
Duası təmizdi, Quba.

Təngaltına düşən batmaz, –
Suları dərman kimidir.
Gecəni Qəşrəşdə keçir, –
Yolları duman kimidir.
Xınalıqda duz–çörək kəs,
Haqq sözü Quran kimidir.
Dünya özü qədimlikdə
Lap bizim Alpan kimidir.

Quzey, güney axıb gəlir,
Hamıya əzizdi Quba.

Səməd dərdi hər gülündən,
Ənam verdi Süleymana.
Dağda qartal, dağ kəlləri
Aman verdi Süleymana.
Yamanca ruhdan düşmüşdü,
O, can verdi Süleymana.
Vətən kimi şirin–şəkər,
Gör necə ləzizdi Quba.

***01.08.2010. Quba, Alpan kəndi***

## BU QIŞ QECƏSİ...

Bir şair öləcək bu qış gecəsi, –
Açıq gözlərinə, açıq ağzına
Sovrulub, dolacaq qar dənələri...
Eşqinin oduna yanan şairin
Şərabı olacaq qar dənələri...

Bir şair öləcək bu qış gecəsi...
Sırsıra bağlamış pəncərəsinə,
Divardan asılmış çat güzgüsünə,
Otağı titrədən sükut səsinə,
Bir də
Qızılgül kolunun tək kölgəsinə
Ölümün şəkli düşəcək...

Bir şair öləcək bu qış gecəsi, –
Tüstü çıxmayacaq buxarısından.
Yanılı qalacaq işığı ancaq.
Elə sanacaqlar əsər yaradır...
Ən böyük əsəri ölüm olacaq, –
Sonuncu vərəqdə ölüm qalacaq...

Bir şair öləcək bu qış gecəsi, –
Duasız, qibləsiz, kimsiz–kimsəsiz.
Nə vaxtsa deyilmiş “yox” cavabından,
Vədəsiz deyilmiş söz günahından,
Bir zərif gözəlin güllə ahından
Zirvədə son ölən bir şəhid kimi,
Bir şair öləcək bu qış gecəsi...

***18.01.2006. Bakı şəhəri***

## ULU TANRIM

Bu taleni sən yazmısan, Ulu Tanrım!
Ələmisən, çevirmisən, –
Bircə ovuc torpaq kimi yaratmısan, Ulu Tanrım!
Yağış, boran, qar tökmüsən başım üstən,
Yeri gəlib, var tökmüsən başım üstən,
Kotan vurub, xış əkmisən nəşim üstən, –
halalındı!
Fəqət, səndən bir diləyim, Ulu Tanrım, –
Üyüt məni, sovur məni,
ayaq altda yoğur məni.
Alovlanmış kürə üstə
bişir, bişir, qovur məni!–
Kərpic elə, Ulu Tanrım,
Əlim boyda kərpic elə–
ürəklərin divarına...

# MƏMMƏDYAR MƏMMƏDYARLI
(1961)



**Məmmədyar Məmmədyarlı** (Məmmədyarov Məmmədyar Hilal oğlu –həkim, şair, publisist) 02 avqust 1961-ci ildə Zəngilan rayonunun Genlik kəndində doğulub.1968–1978-ci illərdə orta məktəbdə təhsil alıb.

1982-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə–profilaktika fakultəsinə qəbul olub.1988-ci ildən həkim–terapevt kimi fəaliyyət göstərir.

Dörd şeir kitabının və müxtəlif publisist yazıların müəllifidir.

Şeirləri dövri mətbuatda və müxtəlif toplumlarda vaxtaşırı dərc olunur.

2005-ci ildən AYB–nin üzvüdür.

## ARZULAR

Bir yumruq boyda olan ürəkdə
Üst–üstə yığılıb, dəstdi arzular.
Arzular tükənmir, get–gedə artır,
Kim deyə bilər ki, bəsdi arzular?!

Mayaqtək asılıb arzu yaxamdan,
Arzusuz mən özüm elə yoxam da.
Həyatda yorulub, ya yıxılanda
Ümiddi, köməkdi, dostdu arzular.

Ürək bir ağacdı, arzu–budağı,
Hər bir budağın da neçə yarpağı...
Ömrümün küləkli bir payız çağı
Vədəsiz saraldı, küsdü arzular.

Nə qədər arzular vardı içimdə,
Neçə cür ölçüdə, neçə biçimdə,
Arzular sarvandı ömür köçümdə,
Düzgün yol göstərən səsdi arzular.

## SON DAYANACAQ

Dünyanın hər dadın gördüm
Ləzzətini duyanacan,
Yolu yarı eyləmişəm
Üçə qədər sayanacan.

Nə qədər düşəm tıxaca,
Bu yol məni də yıxacaq,
Candan son nəfəs çıxacaq,
Damarda qan dayanacaq.

Səbr eylə, döz o vaxtacan,
Tələsmə, növbən çatacaq,
Gözlərində gün batacaq,
Dünya qara boyanacaq.

Yol qısadı, zaman azdı,
Çaşdırdı çən, duman–azdım.
Mənnən olsa dayanmazdım,
Gördümki son dayanacaq...

## APARIR

Bəylər gəlin gətirərdi,
İndi qızlar ər aparır,
Adamı durduğu yerdə
Xəcalətdən tər aparır.

İncimərəm ha budasan,
Bəxtimə düşən qadasan,
Sən kimsən məni udasan?!
Oyunları zər aparır.

Hər bir hökmü zaman verir,
Ümid verir, güman verir,
Yamanlara ənam verir,
Yaxşıları şər aparır.

Hərəmiz bir yolu seçər,
Qıl körpüdən hamı keçər,
Bu dünyadan bezib köçən
Allaha xəbər aparır.

## DÖNMÜŞƏM

Bir zamanlar mən də bəxtəvəriydim,
Sultan olmasam da, bir yavəriydim,
Tutuquşu kimi dilavəriydim,
Qorxudan tutulmuş dilə dönmüşəm.

Yağılar başıma oyun açıbdi,
Ev–eşik yanıbdı, divar uşubdu,
Qırılan–qırılıb,qaşan–qaçıbdı,
Kimsəsiz bir viran elə dönmüşəm.

Gen dünya başıma yaman dar oldu,
Son bahar gəlməmiş vaxtsız saraldım,
Dərdlərin əlində zülfüqar oldum,
Vədəsiz ağaran telə dönmüşəm.

Hələ ki, başımda ağlım cəmiydi,
Hər şeyim varıydı, dərdim kəmiydi,
Fırtına kimiydim, tufan kimiydim,
Çölləri süpürən yelə dönmüşəm.

## DƏRDİMİ

Dostlar, yığışın başıma,
Danışım sizə dərdimi,
Artdıqca gəldi xoşuma,
Çatdırdım yüzə dərdimi.

Allah dərd üstə qəm tökə,
Azdı mənimtək qəmkeşə.
Qorxuram birdən nəm çəkə,
Sərmişəm düzə dərdimi.

Bu dərd varki öyünməyə,
Dəyərmi heç deyinməyə?!
Toy–bayramda geyinməyə
Saxladım təzə dərdimi.

Göndərirəm, al naməni,
Yaxşı oxu salnaməni,
Dilə–dişə salma məni–
Gətirmə gözə dərdimi!

Sədaqətli dostdu kədər,
Son günəcən mənlə gedər,
Qorxdum gedər, olar hədər...
Çevirdim sözə dərdimi.

## GÖRÜRƏM

Gözlərim artıq tutulub,
Hər şeyi incə görürəm,
Hər nə varsa böyüdürəm–
Vururam üçə–görürəm.

Arzularım gümanlıdı,
Pişik gözüm dumanlıdı,
Gözlərimi yumanda da
Yuxumda sərçə görürəm.

Bayquştək gündüz yatıram,
Bəlkə günüha batıram,
Günləri günə satıram,
Dünyanı gecə görürəm.

Dərələri dağ görürəm,
Qaraları ağ görürəm,
Ölənləri sağ görürəm,
Bilmirəm necə görürəm.

## DÜNYA DÜZƏLMƏZ

Tanrımız dünyanı qurdu, yaratdı,
Quzunu yaratdı, qurdu yaratdı,
Qurddan da qorxulu ordu yaratdı,
Görən niyə qıydı belə gözələ,
İnanma bu dünya bir də düzələ.

Bu dünya havası çalınmış dəfdi,
Kiminə əzabdı, kiminə kefdi,
Adəm dolaşdıran həmən kələfdi,
Tapmazsan ucunu yüz il çözələ,
İnanma bu dünya bir də düzələ.

Hər kim kandarına bassa ayağın,
Şam kimi əridər gözünün yağın,
Gülüstan eyləsə ömrünün bağın,
Onu da döndərər bir gün xəzələ,
İnanma bu dünya bir də düzələ.

Dünyanın sirrini yaradan bilir,
Belə yola verib milyonlar ili,
Köhnəlib, qocalıb, əyilib beli,
Nə qədər üzünü yama, təzələ,
İnanma bu dünya bir də düzələ.

Bir üzü xeyirdi, bir üzü şərdi,
Sənə qalıbdımı dünyanın dərdi?!
Məmmədyarlı onu tək düzəldərdi
Düzələn olsaydı kəlmə söz ilə,
İnanma bu dünya bir də düzələ.

## GƏLİR

Bu dünyaya gələn bəndə
Cüt yaranır, qoşa gəlir.
İlk addım atıb gələndə
Yazı, yayı xoşa gəlir.

Çörəyin daşdan çıxarır,
Bu gəliri, bu çıxarı,
Nəfsi hulqumdan yuxarı
İştahayla aşa gəlir.

Bu qonaq hələ yoldadı,
Mey tutub, kefli haldadı,
Bir az da payız aldadır,
Bilmir üzü qışa gəlir.

Əzrayıl qovalar, teylər,
Bağrının başın qan eylər,
Aölına gılməyən şeylər
Hərdən qəfil başa gəlir.

Dərin düşünsə bir anlıq,
Şad könlü olar viranlıq,
Ölüm–başlanğıc, ya sonluq,
Baxan deyil yaşa, gəlir,
Vaxtlı gəlsə, xoşa gəlir.

## NECƏSƏN?

And yerim, səcdə yerimsən,
Ay qibləgahım, necəsən?!
Gündüzlər dərdi–sərimsən,
Gecələr yuxum, necəsən?!

Hardasan ay mələr quzum,
Səniydin çörəyim, duzum,
Günəşim, Ayım, Ulduzum,
Nurlu sabahım, necəsən?!

Bu qədər yalvardım sənə,
Niyə qayıtmadın dinə?
Qoyma duam geri dönə,
Çatmırmı ahım, necəsən?!

Gerçəyim sən, yalanım sən,
Gəncliyimdən qalanım sən,
Nəyim varsa olanım sən–
Mənim var–yoxum, necəsən?!

Şəkərmisən, ya balmısan,
Ağzımın dadın almısan,
Demirsən harda qalmısan
Ay şahənşahım, necəsən?!

Ömrüm təzədən yaz ola,
Taleyim sənə yazıla,
Qəbrimiz qoşa qazıla–
Orda da baxım necəsən!

## UTANIRAM

Ümidlə girdim axara,
Yenə də qaldım axıra,
Kənardan mənə baxıram,
Özümdən utanıram.

Düşünmədim, qana–qana,
Özümü salmışam qana,
Yollar gəlib çatıb sona,
İzimdən utanıram.

Ocağım boynun qısıbdı,
Ağzın yumublar–susubdu,
Üstünü küllər basıbdı,
Közümdən utanıram.

Söz satıram–kimdi alan?
Yarı doğru, yarı yalan...
İçimdə boğulub qalan
Sözümdən utanıram.

# ZƏKİYYƏ ELRUH
(1962)



**Zəkiyyə Elruh** (Pənahova Zəkiyyə Həsən qızı) 20 mart 1962-cı il tarixində Qərbi Azərbaycanın Spitak rayonunun Saral kəndində ziyalı ailəsində anadan olmuşdur. Orta təhsilini adı çəkilən kənd məktəbində almışdır. Təhsilini davam etdirmək üçün Azərdaycan Dövlət Tibb İnstitutuna üz tutmuş, pediatriya ixtisasına yiyələnmişdir. Bu günə kimi ixtisası üzrə işləyir. Müxtəlif ixtisasartirma kursları keçmiş kateqoriyalı həkimdir. Alman mütəxəssislərinin iştirakı ilə keçirilən Modul A, B və C kurslarini keçib, Tətbiqi Homotoksikologiya elminin sirlərinə yiyələnmiş, xəstəliklərlə mübarizədə müvəffəqiyyətlə istifadə etməkdədir. Türkiyə Dövlət Xəstəxanaları Kurumu, İstanbul şəhəri, Okmeydanı Eğitim və Araştırma xəstexanasında növbətçi həkim kimi çalışaraq sertifikat almışdır. Beynalxalq layihələrin icrasında biomarker və ekspert kimi iştirak etmişdir. “Konsilium” jurnalında, “Təbib” qəzetində elmi–populyar məqalələri çap olunub. "Əziz Məmmədkərim oğlu Əliyevin doğum gününə həsr olunmuş elmi–praktik konfransın məcmuəsi"ndə məqaləsi yer almışdır. (2013)

Çox kiçik yaşlarında həkimlik ixtisasına həsr etdiyi şeirdən başlayıb ədəbiyyata aparan yolu. İlk şeirləri “Azərbaycan qadını” jurnalında və “Tibb kadrları” qəzetində işıqlandırılıb. “Gənclik”, “Ulduz”, “Azərbaycan” jurnalları, "Əbəbiyyat və incəsənət” qəzeti kimi nüfuzlu mətbuat orqanlarında imzası görünüb. Müxtəlif almanaxlarda şeirləri dərc olunub.1996- cı ildə “Vətəndən ayrılan ölüncə ağlar” kitabı işıq üzü görüb.

Elə həmin kitaba rəy yazan filosof Asif Əfəndiyev “İki dərdin–yurd dərdi və qadınlıq dərdinin bədii ifadəsi olan bu

kitab dərd və qeyrət şeiriyyətinə yüksəlir”–deyərək, bu kitabin müəllifinin Elruh ləqəbini daşımağa haqqı olduğunu ifadə etmişdir. “Qızıl qələm” və “Fəzilət” media mükafatlarına layiq görülüb.

1998-ci ildə AYB–nin üzvüdür.

Sonra 4 kitabı nəşr olunub: “Bizdən aralı dağlar” (2000), “Könlümün harayları” (2004), “Payızda açan güllər” (2008), “Vida rəngli yarpaqlar” (2014).

Ailəlidir, iki oğlu var.

## ARZU

Allah, məni külə döndər,
Hara gəldi əsə bilim.
O dağlara, dərələrə,
Düzlərə tələsə bilim.

Allah, məni sərhəd bilməz,
Sədd tanımaz yelə döndər.
Ya o torpağı yalayan
Dəli–dolu selə döndər.

Ya da məni elə yandır,
Elə yandır, külə dönüm.
O torpağı gübrələyib,
Qoynunda bir gülə dönüm.

## DƏLİNƏ YİYƏ DURSAN

Haqq söyləyən dilinəm,
Dilinə yiyə dursan.
Vətən, sənin dəlinəm,
Dəlinə yiyə dursan.

Qırov vurmuş gülünəm,
Gülünə yiyə dursan.
Kəfənsiz bir ölünəm,
Ölünə yiyə dursan.

Nur topan, nur selinəm,
Selinə yiyə dursan.
Sazın, tarın, telinəm,
Telinə yiyə dursan.

Haysız–küysüz gölünəm,
Gölünə yiyə dursan.
Gövhərinəm, ləlinəm,
Ləlinə yiyə dursan.

Elruhunam, elinəm,
Elinə yiyə dursan.
Qələm tutan əlinəm,
Əlinə yiyə dursan.
Vətən, sənin dəlinəm,
Dəlinə yiyə dursan.

***21.05.1998***

## ANAM GEYDİYİ TORPAQ

Üzüm yox qayıtmağa
Çağırsa dağlar məni.
Polad–polad qayalar
Görməsin ağlar məni.

Hayqırdım: “ Dərəm... dağım...”
Yandı dilim–dodağım.
Qayıtsam dağım–dağım
Lalələr dağlar məni.

Torpaqdan sıyrılmayıb,
Vətəndən ayrılmayıb,
Həsrətdən qovrulmayıb
Nə duyar bağlar məni?

Xalqım öydüyü torpaq,
Ayaq döydüyü torpaq,
Anam geydiyi torpaq
Özünə bağlar məni.

*20.06.2014*

## VƏTƏN ƏTRİ VAR

Tonqalın hisində vətən ətri var,
Havanın sisində vətən ətri var.
Yanan ağacların son hönkürtüsü–
Çırtıltı səsində vətən ətri var.

Bu saçı leylada vətən ətri var,
Aranda, yaylada vətən ətri var.
Körpə rayihəli ana laylası
Ayədir, laylada Vətən ətri var.

Bu odda, bu suda vətən ətri var,
Dənizdə, quruda vətən ətri var.
Allahım, yuxudan ayıltma məni,
Bu şirin yuxuda vətən ətri var.

## QURBAN OLUM

Səni yuxuma gətirən
Mələklərə qurban olum.
Yoxluğu varlıq anladan
Kələklərə qurban olum.

Rütubətmi yurdun–yuvan?
Damızdırmaz mərmər tavan...
Qara buludları qovan
Küləklərə qurban olum.

Kösövdə bişən əllərə,
Ağrıyan, şişən əllərə,

Yanına düşən əllərə,
Biləklərə qurban olum.

Necə dözüm saxtalara,
Boranlara, şaxtalara?
Toxuduğun taxtalara,
Şüləklərə qurban olum.

Sipər oldun qurşunlara,
Boyun sığmaz arşınlara.
Əlin dəyən ərsinlərə,
Ələklərə qurban olum.

Əllər xana arzusunda,
Tellər xına arzusunda,
Övlad ana arzusunda–
Diləklərə qurban olum.

Süd qoxusu telindəydi,
Ovqatımız əlindəydi.
Fələk sözü dilindəydi.
Fələklərə qurban olum.

***24.10.2013***

## GÖRƏN

Hələ gəncliyini yaşayan otlar
Saralan otları anırmı görən?
Hələ ki budaqda qalan yarpaqlar
Tökülən xəzələ yanırmı görən?

Yarpaq ağlayırmı ləçək solanda,
Küləklər əlində paymal olanda?
Xəbər göndərirmi biri yolanda,
Gül gülün dilini qanırmı görən?

Kəsməyin, tökəcək qan–yaş ağaclar,
Bu bacı ağaclar, qardaş ağaclar.
Biri baltalansa, soydaş ağaclar
Ağrını canında sanırmı görən?

Qol–budaq olanda barı ucundan,
Heyvası ucundan, narı ucundan;
Cəfalar çəkəndə yarı ucundan
Qəlbinin şüşəsi sınırmi görən?

Nəfəsi üstəydi dünən budağın,
Buta lampaları sönən budağın.
Quruyub qaxaca dönən budağın
Ruhu şaxələrə qonurmu görən?

Axtarın elmdə, dində, "Quran"da,
Bitkilər soyunur neyçün boranda?
Məşriqdə birini şaxta vuranda
Məğribdə qardaşı donurmu görən?

Hər ağac evinə sütun gövdələr,
Baharda geyinir satin gövdələr.
Eyni dəridədir bütün gövdələr,
Hamsının astarı qonurmu görən?

## BAKI AXŞAMI

Bu gediş köç deyil, dövri qürubmu,
Rəngini təxəyyül, qəlb uydurubmu?
Ömürdən bir günmü aparıb gedir,
Bəs nədən qəlbimi qoparıb gedir.
O batan günəşi saxlaya bilsəm,
Eşqimlə yolunu bağlaya bilsəm...
Tükənməz eləsəm əriyən şamı,
Bir ömür uzatsam kövrək axşamı,
Yığsam gözlərimə gözəllikləri,
Bu gün qarışmağa qoymasam şəri,
Çəkib yer iyindən ömür dükcəmi,
Zamanı saxlasam... bir tapsam çəmi...
Əyirib tükətməz bu cəhrə bizi,
Əbədi tərk etməz gül çöhrə bizi.
Dalınca su tökür göz batan günün.

Körpə uşaq kimi tez yatan günün.
Qara gecələrə daha tabım yox,
Saysız ulduzlarla haqq–hesabım yox.
Zülmətdə axmayır dirilik suyu,
Zülmət–qəbir evi, zülmət–kor quyu...
Ölməzlik ondadır, batan günəşdə,
Hər gecə sularda yatan günəşdə.
Hər səhər dənizdən çimib çıxanda,
Göyün yaxasına medal taxanda
Bu dünya evinə necə zər dolur,
Səma necə büllur, lacivərd olur...
Sönür əsrarəngiz Bakı axşamı,
Görən yetərincə duydumu hamı?
Görən neçə şeir gəldi dünyaya,
Bu kövrək axşamdan tutaraq maya.
Gözləri yaşardan nə rəngdir belə,
Bu gün nədən dünya qəşəngdir belə?

***09.06.2015***

**XƏZƏR**

İnsan verdiyi dərdi
Sənə qıymaram, Xəzər.
Suların bulanmağa
Əsla qoymaram, Xəzər.

Könlüm elə bulanmış,
Gözüm elə sulanmış,
Dünyam elə talanmış,
Səni duymaram, Xəzər.

Ağrın yox ağrım kimi,
Danılmış doğrum kimi.
Bağrını bağrım kimi
Dərdlə oymaram, Xəzər.

Dindən–imandan keçsəm,
Meyli qədəh tək seçsəm,
Son damlanadək içsəm,
Səndən doymaram, Xəzər.

Yerin–göyün ulduzu
Göy sinəndə sayrışır.
Əhatəndə gözəllik
Gözəlliyə qarışır,
Nədən uymaram, Xəzər?

***07.05.17***

## YASƏMƏN ƏTRİ

İllər arxasında qalan həsrəti,
Ömrümdən sənələr çalan həsrəti
Gündəmə gətierən tanış rayihə,
İtkin diyarımdan danış, rayihə.

Ürəkdə ən kövrək hisslər oyadan,
Süzülüb gəlirsən mavi röyadan.
Süzülüb gəlirsən əlçatmazlıqdan,
Sultan subaylıqdan, xanım qızlıqdan.

Gizlicə yol açan gedər–gəlməzə,
Əbədi bir bahar... əbədi təzə...
Yasəmən ətrində tapılar itən,
Ah, elim! Ah. atam!Ah, ana VƏTƏN!

***2006***

# ŞAHİN MUSAOĞLU
(1963)



**Şahin Musa oğlu** Əbilov 1963- cü il iyulun 11–də Masallı rayonunun Qızılağac kəndində anadan olub. Orta təhsilini bu doğma kənddə alıb. Sonra N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutun müalicə–profilaktika fakültəsini bitirib (1980–1986). İlk təyinatı isə Biləsuvar rayonuna olur. 4 il burada həkim kimi çalışdıqdan sonra paytaxta dönür. 1990- cı ildə Qədirli adına Xəzər Dəniz Hövzə Xəstəxanasında işə düzələn Ş.Musaoğlu o zaman çox da geniş yayılmayan bir sahə üzrə öz həkimlik ixtisasını artırmağa başlayır. USM aparatında illərdən bəri əldə etdiyi təcrübə sonradan onu bu sahənin ən yaxşı mütəxəssislərindən birinə çevirir.

Ş.Musaoğlunun Bakıdakı həkimlik fəaliyyətinin ilk illərində ölkədə müharibə hökm sürürdü. Azərbaycan–Ermənistan savaşının qızğın vaxtlarında Şahin Musaoğlu Müdafiə Nazirliyi Tibb İdarəsi, HET idarəsi və Müdafiə Nazirliyi Sənədli Filmlər Kinotelestudiyasının əməkdaşı olaraq Qarabağ döyüşlərində yaralanan əsgər və zabitlərə məxsus ilk hərbi–tibbi arxivi yaradır. Elə bu vaxtlarda da tale onu başqa bir vətənpərvər insanla üz–üzə gətirir ki, ilk hərbi diktor Şəmistan Əlizamanlı ilə Şahin Musaoğlu arasında başlanan səmimi dostluq əvvəlcə yaradıcılıq əlaqələrinə, sonra isə birgə yol və əqidə sirdaşlığına çevrilir. 1992-ci ildə, görkəmli bəstəkar Cavanşır Quliyevin məşhur "Əsgər marşı"ndan savayı hərbi–vətənpərvərlik mövzusunda əsərlərin hələ yazılmadığı bir vaxtda, Şahin Musaoğlu özünün ilk türküsünü bəstələyir. Azərbaycanın Milli Qəhrəmanı Yusif Mirzəyevin xatirəsinə həsr olunmuş bu mahnı–"İgid əsgər, möhkəm dayan!" ilk dəfə televiziya ekranında səslənir. Çox az müddətdə populyarlıq qaza-

naraq dillərdə dolaşan bu mahnıdan sonra Şahin növbəti savaş türkülərini yazır. 20 Yanvar şəhidlərininin xatirəsinə həsr olunmuş "Qərib Karvan", Milli Ordunun ilk batalyonu haqda yazılan "Birinci Batalyon", "Cənab Leytenant" və s. bu kimi bir–birinin ardınca bəstələdiyi mahnılar ona daha çox şöhrət qazandırır. Ş. Musaoğlu sonradan da həm hərbi, həm də vətənpərvərlik mövzusunda yaradıcılıq fəaliyyətini davam etdirir. Sözləri Bəxtiyar Vahabzadəyə məxsus "Bay yurdum", Əhməd Cavadın sözlərinə yazdığı "Bismillah", Ramiz Rövşənin şeri əsasında bəstələdiyi "Yalquzaq", Rüstəm Behrudinin məşhur "Salam, dar ağacı" şeirinin sözlərinə bəstələdiyi eyni adlı mahnı və başqa türküləri ilə o, başladığı işi uğurla davam etdirərək bu musiqi janrına xeyli qiymətli töhfələr verir.

Onun yaradıcılıq işi nəticəsində üç audio kaset – "İgid əsgər, möhkəm dayan", "Vətən çağırır" və "Bozqurd harayı" (sonuncu Almaniyada istehsal olunub), həmçinin "Öncə Vətəndir", "İgid əsgər, möhkəm dayan", "Cənab leytenant", "Şahin Musaoğlunun müəllif mahnıları" adlı kompakt diskləri Azərbaycan və Türkiyə dinləyicilərinin ixtiyarına verilib.

İndiyədək bəstələdiyi 30–dan çox mahnının əksər sözlərinin də müəllifi olan Ş. Musaoğlunun şerləri müxtəlif şer toplularında və mətbuat orqanlarında, o cümlədən populyar qəzet və internet saytlarında işıq üzü görüb.

Ş. Musaoğlu Azərbaycan Yazıçılar Birliyinin üzvüdür, "Qızıl Qələm" mükafatı laueratıdır. Dünya Tibbi Araşdırmalar Texnik və Etik Bilimlər Akademiyasının (WAMBES) idarə heyətinin üzvüdür.

Hal–hazırda "Medservis" özəl tibb mərkəzinin poliklinika müdiri və "MedEra Hospital" klinikasının dioqnostika şöbəsinin müdiri vəzifəsində çalışır.

Ailəlidir, iki oğlu var.

## BOYASIZ, QƏLƏMSİZ, BƏZƏKSİZ...

Boyasız çəkilir dənizə
günəşin şəfəqi,
boyasız.
Üzlərə – təbəssüm,
çöhrələrə – nur,
aynalara sürəti gözəlliyin
– boyasız çəkilir.
Qələmsiz yazılır alına
– yazılan yazılar,
qələmsiz
yaddaşa – xatirələr,
ürəyə – sevgi,
gözlərə sirli gizlinlərin,
qələmsiz yazılır.
Bəzəksiz - düzəksiz yazılır həyat
kiminə qos–qoca bir roman,
kiminə suya yazılan seir kimi
yazılır həyat
bəzəksiz – düzəksiz yazılır həyat...

## BİLİRSƏNMİ?

Çiçək torpağın nəfəsi,
dibçək nədir, bilirsənmi?
Öz eşqinin həbsindəki
istək nədir, bilirsnəmi?

Tütək – dərdin səs açarı,
külək nədir, bilirsənmi?
Könül - qəmin həvəskarı,
dilək nədir, bilirsənmi?

Mələk – Haqqın haqq sorağı,
fələk nədir, bilirsənmi?
Ömür – ölüm oyuncağı,
ürək nədir, bilirsənmi?

Çörək – Tanrının ruzusu,
yemək nədir, bilirsənmi?
Dar gündə dostun arzusu –
kömək nədir, bilirsənmi?

Ocaq - yurdun nişanəsi,
çıraq nədir, bilirsənmi?
Ana qoynunun istisi –
qucaq nədir, bilirsənmi?

Yaraq – əqidə sevdası,
yasaq nədir, bilirsənmi?
Ərənlərin son libası –
Bayraq nədir, bilirsənmi?

## VƏTƏN OĞULLAR ÜSTDƏDİ

Ömür illər karvanıdı,
dolanbac yollar üstədi.
Gündüzü gecə rəddində,
günləri aylar üstədi.

Hər sevdanın öz həsrəti,
hər istəyin öz qisməti.
Hər kəsin öz məhəbbəti,
səssiz haraylar üstədi.

Sevgisi, kədəri doğma,
gəldisi, gedəri doğma,
taleyi, qədəri doğma,
yazı alınar üstədi.

Sanma təzə–tərdi duyğun,
arzusuna ovunduğun,
nəğmə qoşub oxuduğun
köhnəlmiş vallar üstədi.

Mən də gördüm bu dünyanı,
sən də öyrən, sən də tanı!
O ulu əcdadlar hanı?
Dünya məzarlar üstədi.

Biz gedərik, yurd qalacaq,
Yurddan ocaq-od qalacaq.
Ərənlərdən ad qalacaq, –
Vətən oğullar üstədi!

## VƏTƏN QARIŞLA ÖLÇÜLƏR

Dünya qarışla ölçülməz,
"Vətən" qarışla ölçülər.
Alın tərlə, əl qabarla,
beyin qırışla ölçülər.

Ölüm ömürün yarısı,
xeyirlə–şər qardaşdırlar.
biri gözlə–qaş arası,
biri də yaşla ölçülər.

Hər güclü haqlı deyil ki,
haqqı savaşla ölçülə.
Səbirdə güc, güc də səbir
ağıllı başla ölçülər.

## DUALAR

Canım Ana, gözüm Ana,
səbirini əsirgəmə –
həsrətinə dözüm, Ana.

Canım Ata, gözüm Ata,
kəsərini əsirgəmə –
haqqı desin sözüm, Ata.

Canım Bayraq, gözüm Bayraq,
vüqarını əsirgəmə –
tükənməsin gücüm, Bayraq!

Canım Vətən, gözüm Vətən,
ocağını əsirgəmə –
alovlansın közüm, Vətən!
Canım Tanrım, gözüm Tanrım,
Nəzərini əsirgəmə –
Bu zavallı,
Bu əzabkeş,
Bu xeyirxah millətimdən!



## ON ALTI İLİN SAVAŞ HEKAYƏSİ
**(**Esse)

***...Düz on altı il mücadilə etdi. On altı il sərasər o, ağır sürən xəstəliyə sinə gərib,tab gətirdi...***

***Səbrlə, təmkinlə, addım–addım üstünə yeridi "xərçəngin". Yorulmadı, bezmədi, geri çəkilən vaxtları da oldu, əlacsız, çarəsiz qalan anıları da. Amma ümidini, inamını itirmədi. Arxa çevirib boyun əymədi düşmənə. Göz–gözə, döş–döşə,döyüşə–döyüşə dirəndi, dayandı və durdu. Nə az, nə çox–on altı il...***

*(Ziqmund Freyd,1856–1939)*

***

Artıq vəziyyət dəyişmişdi. Amansız xəstəlik bütün əzalarını sarmışdı. Danışmağa belə taqəti qalmamışdı. Bir yandan da yaşı...Sanki qocalığı əlbəyaxa olduğu xəstəliklə birləşib ikinci cəbhə açmışdı ona.

Durumunun fərqindəydi. Amma "ağ bayraq" qaldırıb təslim olmağı ağlına gətirmirdi. Təkcə ağrı kəsici dərmanların qəbulundan savayı, həkiminin tövsiyyə etdiyi bütün prosedurları vaxtlı–vaxtında, canla–başla yerinə yetirirdi. Çifayda, hər ötən gün, öncəki gündən daha ağır, daha məşəqqətli keçirdi.

...Onsuz da həyatı ağrı–acılar içindəydi. Hələ xəstələnməmişdən iki il əvvəl çox sevdiyi iki əzizini itirmişdi. Dost və övlad yarası göynədirdi qəlbini. Dostunu dəfn etdiyi gün Hamburqdan gələn teleqramda qızı Sofiyanın ümidsiz durumda xəstəxanaya çatdırılması xəbərini aldı. Sarsılmışdı. Çünki qızının yanına gedib, ona baş çəkə bilməyəcəkdi. Nasistlər tərəfindən təqib olunduğu üçün Almaniyaya gedə bilməzdi. Iki gün nə yedi, nə içdi, nə də yatdı. Qızının bu ağır günündə yanında ola bilməməsi sıxırdı onu...

"Qara xəbər tez çatar"–deyiblər. Üçüncü gün bu "xəbər"i də aldı. Dəfn mərasiminə qatılmaq üçün izn istədi. Amma bu ricası da cavabsız qaldı...

* * *

"Basdırılmış" duyğularımızı "ekskumasiya" edən, psixoanaliz nəzəriyyəsinin banisi Ziqmund Freyd 6 may 1856-cı ildə Avstriya imperatorluğunun Freyburq şəhərində ( bu gün Çexiya sərhədləri içində) dünyaya göz açdı.

Yəhudi kökənli bir yun tacirinin tək oğlan uşağı idi Freyd. Əvvəlcə planladığı kimi hüquq fakultəsinin tələbəsi oldu. Qısa sürə sonra təhsilini yarıda qoyub universiteti tərk etdi.

• 1873-cü ildə Vyana Universitetinin tibb fakultəsinə qəbul oldu.

• 1876–da Vyana fiziologiya İnstitutunda işləməyə başladı.

• Anatomiya və fiziologiyanın sirlərinə yiyələndi.

• Beyin anatomiyası üzərində araşdırmalar apararaq kakainin klinik farmakalogiyasını öyrəndi.

• Uşaqlarda beyin iflici ilə əlaqəli araşdırma və tədqiqatlara imza atdı

• Hipnozla təlqin nəzəriyyəsini inkişaf etdirdi.

• 1896- cı ildə psixoanaliz terminini ortaya çıxardı.

• Psixoanaliz nəzəriyyəsinin banisi oldu.

• Nevrologiyanı,psixiatriyanı,psixologiyanı,parapsix ologiyanı, psixoterapiyanı inkişaf etdirdi.

• Alfred Adler,Viktor Frankl,Ernest Yones,Karl Yunq, Melenne Klein,Otto Rank,Maud Monnon kimi önəmli isimlərə müəllimlik etdi.

* * *

1923- cü ilin aprel ayı. Doktor Ziqmund Freyd öz otağına çəkilib, qeydlərini edirdi. Bir müddət sonra iş otağının qapısı aramla döyüldü. Xidmətçi idi. Şəxsi həkimi Feliksin gəldiyini bildirdi. Qələmini yazı dəftərinin üstünə qoyub gündəliyinə nəzər saldı. Proqrama görə görüş və qəbullar nəzərdə tutulmamışdı. Bu təsadüfi bir vizit idi... Freyd işini yarıda qoyub,qonaq otağına keçdi. Xeyli söz–söhbətdən sonra Feliks onun sağlamlıq durumu ilə maraqlandı. Freyd heç bir şikayətinin olmadığını, lakin son vaxtlar ağız boşluğunda əmələ gələn kiçik bir yaranın onu narahat etdiyini dilə gətirdi. Əslində Freyd bu yaranın səssiz–səmirsiz gəldiyi kimi, səssiz–səmirsiz ötəcəyini də güman edirdi. Əlbəttə öz karyerasının zirvəsinə doğru gedərkən sağlamlığının ona əngəl olacağını heç ağlına belə gətirməzdi.

...Feliks müayinə zamanı Freydin ağız boşluğunun sağ yarısında damaq ilə çənənin birləşdiyi yerdə olan bu yaranın çənə xərçəngindən şübhəli olduğu qənaətinə gəldi. Amma bu qənaətdən doğan təlaş və həyəcanını isə gizlədə bilmədi. Israrli təkidlərdən sonra Feliksin ona həqiqəti deməsindən başqa bir yolu qalmadı. Freyd bu durumu yalnız onunla bölüşməyi tələb etdi. Birlikdə əlavə müayinələrə baş vurdular. Nəticə dəyişmədi. Diaqnoz təsdiqlənmişdi. "Çənənin xərçəngi".

Təcili əməliyyat təyin olundu. Əməliyyat olunana qədər isə bundan həkimdən savayı heç kimsə, hətta ailəsi belə xəbər tutmamalı idi. Ilk əməliyyatı elə Freydin şəxsi həkimi doktor Feliks Denta həyata keçirdi. Əməliyyat uğursuz oldu. Qısa müddət sonra şişin təkrar böyüməsi aşkarlandı. Yeni əməliyyata ehtiyac vardı. Bu əməliyyat isə daha geniş və daha böyük sahəni əhatə edəcəkdi... Lakin ikinci əməliyyat 6 ay sonra gerçəkləşdi. Çünki

Freyd qızı Anna ilə çoxdan bəri planlaşdırdığı Roma səfərinə hazırlaşırdı. Səfərdən döndüklərində əməliyyatla bağlı o dövrün məşhur həkimi olan doktor Rixlerə baş vurdular. Dok. Rixler əməliyyatı bir həftə fasilə ilə iki mərhələdə edəcəyini söylədi. I mərhələdə alt çənə tamamilə, damağın isə böyük bir hissəsi (ağız və burun boşluğunu ayıran bölgə) çıxarılmalı idi. Bu zaman Freydin qida qəbulu və danışması mümkünsüz olacaqdı. Bu müddət ərzində o,burnundan qida borusunadək salınan xüsusi zond vasitəsilə qidalanmalı idi. Yaralar sağaldıqdan sonra isə II mərhələ–Freydin qida qəbulu və danışa bilməsi üçün kəsilib götürülmüş əməliyyat sahəsinə süni protezin yerləşdirilməsi gerçəkləşəcəkdi. Qərar verildi. Əməliyyat ağırlaşma və fəsadsız ötüşdü. Lakin II əməliyyatdan sonra isə sağ qulağının eşitməsini itirdi, Freyd. Sonralar o, bu protezə "ucube" adını verəcəkdi.

* * *

Aylar ötür, illəri qovurdu. Tələsən isə təkcə zaman deyildi. Freyd də tələsirdi, amansız xəstəliyi də. Qovhaqov, tuthatut başlamışdı. Təslim olmaq olmazdı.

Elmi işlər,araşdırmalar,tədqiqatlar bir yanda,dava dərman stasionar,ambulator müayinə və müalicələr başqa bir yanda. Hamısına vaxt tapırdı... Özünə aid hər işi kontrolda saxlamağa çalışırdı...Və bir gün qızı Annnanı yanına çağırıb: " Nə qədər mən sağam, ölüm qorxusunun qəlbimə girməyinə əsla izn verməyəcəyəm"–dedi. Bu sözləri deyərkən xəstəliyi üzündən oxunurdu Freydin.

Gözləri çuxura düşmüş üzünün rəngi solmuşdu... O, Annadan savayı bütün yardımçı və xidmətçilərdən imtina etdi. Anna onu başa düşürdü. Həm də onların arasında bir anlaşma vardı. Bu anlaşmaya görə doktorun xəstəliyi nə qədər dramatik və əzablı keçirsə keçsin, hər ikisi güc və iradə nümayiş etdirərək, soyuqqanlı olacaqdılar. Anlaşmanın yeganə şərti–sağalmaq ümidini itirməmək və bu ümidə rəğmən atanı "aşırı mərhəmətlərdən" uzaqda saxlamaqdan ibarət idi. Əslində bu anlaşmanın özəl tərəfi psixi amillərə daha çox söykənəcəkdi. Çünki Freyd getdikcə ağırlaşan bu

xəstəlik nəticəsində başlayan dəhşətli ağrılara hazır olmalı və dözməli idi. Bunun üçün o, ağrıkəsici kimi istifadə olunan narkotiklərdən imtina etdi. Məqsədi narkotik əsiri olmaqdan qorunmaqdı. Həqiqətən də hər ikisi bu anlaşmanı sonadək pozmadılar...

Ömrünün son 16 ilini 30–dan çox əməliyyat keçirən Freyd sözün əsl mənasında GÜCÜN, İRADƏNİN, VƏDİN, SƏBRİN VƏ MÜBARİZƏ ƏZMİNİN nələrə qadir olduğunun bariz nümunəsini göstərdi.

* * *

1933–də iqtidara gələn Hitlerin ona olan mənfi münasibətindən daha çətin və zor duruma düşdü. Bu o dönəm idi ki, Hitlerin əmri ilə onun kitablarını və yazıları dərc olunan dərgiləri meydanlarda yandırıb, məhv edirdilər. 1936–da 80 yaşını qeyd edəndə də, dünyanın hər bir yerindən ona gələn təbrik teleqramlarını və çiçək bağlamalarını alanda da gestapo öz çirkin əməllərindən əl çəkməmişdi hələ...

1938–də Hitler Avstriyanı ilhaq etdi. Artıq burada yaşamaq ona böyük təhlükələr yaşadacaqdı. Tərəddüdlərdən sonra Freyd qatarla Fransaya, oradan da İngiltərəyə köçür. Londonda onu əslzadələr kimi qarşılayırlar. Bir yandan heyranları, həmkarları və bir də dünyanın dörd bir yanından axışıb gələn jurnalistlər ordusu... digər tərəfdən görüşlər, ziyafətlər, müsahibələr onun sağlıq durumuna problemlər yaradır və get–gedə yormağa başlayır.

Nəhayət,1938-ci ilin sonlarına yaxın əməliyyat sahəsində yeni bir yara açılır. Yenə vizitlər, konsultasiyalar, yeni–yeni təyinatlar və müayinələr...

"Dərman dediyin içində nə olduğunu bilmədiyin, udduqda sağalacağına ümid etdiyin və inandığın bir şey olmalı". Amma onun bu dava–dərmana ümidi qalmamışdı. O üzdən də yazılan həblərin tez–tez dəyişilməsini yeni həblərlə birlikdə ümidlərinin də təzələnməsini istəyirdi.

Çox götür–qoydan sonra yenə bir əməliyyat olunması qərara alındı. Bu onun sayca 33-cü əməliyyatı idi...

İl 1939.Londonun yağışlı günlərindən biri. Dr. Ziqmund Freyd yuxudan erkən oyanıb, pəncərədən bayırı seyr edirdi. Qayğılıydı. Gözlərində ümidlə həsrətin hüznü, dodaqlarında vədlə duanın pıçıltısından doğan bir kədər vardı... İndi o, sonu başa çatmamış bir savaşın on altı yaşının içində idi. Otuzdan çox savaşın içindəydi Freyd. Bu gün,məhz bu gün 83 yaşında on altı illik savaş köynəyini əyninə geyinib, ”ölüm, Mən gəldim deyəcəkdi”. Bu onun son döyüşü, son cəhdi idi.

Əslində o, ölümü ilə deyil, xəstəliyi ilə savaşırdı. Və çox gözəl anlayırdı ki, ölüm onun öz bətnində doğulacaq çağa kimi böyüyə–böyüyə vaxtını, vədəsini gözləyir. O, Ziqmund Freyd–hər gün yuxularında öz tabutuna uzaqdan baxan adam. O, Dr. Freyd–hər gün gerçəkdən öz cənazəsini çiyninə alıb, həkimlərə daşıyan adam... O... döyüşdən–döyüşə girən, əzab, ağrı, işgəncələr çəkmiş bir ordunun yorğun sərkərdəsi, div səbrinin üstündə yatan müdrik bir ilan”... O, dəfn etdiyimiz hiss və duyğularımızın” babası... həyatın nə qədər boş və mənasız olduğunu bilə–bilə ona dəyər verməyə çalışan bir pərvanə!... Uzun mücadilədən sonra 83 yaşında ən son məktubunu yazdı və əməliyyat öncəsi ona baş çəkən həkiminə verərək dedi: ”Bu çilə nə qədər sürər bilmirəm. Amma mən sonun yaxınlaşdığını duyuram. Bu məktubu son yolçuluğumda məni yalqız buraxmaq istəməyəcək qızım Annaya verərsiniz. Amma sizdən rica edirəm, tələsməyin, vaxtı çatanda.

... Təəssüf ki,bu əməliyyat da uğursuzluğa düçar oldu. Çünki xəstəlik qarşısı alınmaz dərəcədə inkişaf etmiş və bütün daxili orqanlara qədər yayılmışdı. Əməliyyat sonrakı günlərini daha ağır və dözülməz ağrılarla yaşadı. Artıq neçə gün idi ki, bir–iki dəqiqə olsun belə gözünü yumub yata bilmirdi. Nitqini itirmişdi. Təkcə “gözləri” danışırdı.

Həkimi və qızı Anna bir an olsun belə onun yanından çəkilmirdilər. Hələ ki, qızı ilə bağladığı saziş öz qüvvəsindəydi.

Nə həkimi, nə də qızı Anna bu anlaşmanı pozmaq istəmədilər. Elə Freydin özü də bu anlaşmanı pozacaq bir bəhanə vermədi onlara...Hamı gözləyirdi. Freyd o böyük ayrılıq gününü, qızı Anna atası ilə bağladığı bu sazişin pozulmamasını, həkimi isə Freydin verdiyi məktubun Annaya təqdimatını...

* * *

Hər şeyin sonu vardır. Əbədi nə var ki. bu dünyada... Freyd gözləri ilə həkimini aradı. Vaxt çatmış, vədə yetişmişdi.

Həkim günlərdir yanında gəzdirdiyi o kağız parçasını Annaya uzatdı. Anna təlaş və həyəcanla məktubu açdı və titrək səslə oxudu:

“O böyük ayrılıq günü gəldi. Qəlbimdə ölüm qorxusu yoxdur. Ölüm nəğməmi söyləyib, bir qəhrəmanın evinədönüşü kimi gözlərimi yumub, ölümə gedirəm... Əbədi yatmam üçün mənə morfin vurulmasını rica edirəm.”

O günədək narkotik almağa dirənc göstərmiş Freyd az miqdarda morfindən rahatlandı və uzun zamandan bəri həsrət qaldığı yuxusuna daldı. Bu yuxu onun son yuxusu idi və Freyd 23 iyun 1939–da illərdir çəkdiyi acıları geridə buraxaraq əbədiyyata köç etdi.

***P.S*** *Bu gün Freydin dünyasına və ərsəyə gətirdiklərinə sayğı duyanlar arasında sadəcə psixoloq və psixiatrlar deyil, filosoflar, sənətçilər,din adamları, hətta siyasətçilər də vardır.*

*Villiam Şekspir (Arden), İsaak Nyuton (Aysough), İohan Sebastian Bax (Lammerhirt), Lyudviq Van Bethoven (Reverich), Albert Enşteyn (Roch) kimi dahilərlə birgə Freyd də anasının soyadını götürənlərdəndir. Dünya şöhrətli elm adamı əgər atasının soyadını qəbul etsəydi, tarixə Ziqmund Nathanson kimi düşəcəkdi.*

**AZADƏ TALEH**
**(HACI AZADƏ TALEH ABBASQIZI)**
(1964)




**Azadə Taleh Abbas** (Hüseynova Azadə Abbas qızı – həkim, şair, publicist, pedaqoq) 1964-cü il fevralın 26-da Gəncə şəhərində anadan olmuşdur. Burada 1 saylı şəhər orta məktəbini qızıl medalla bitirdikdən sonra N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun II müalicə-profilaktika fakültəsində təhsil almışdır. İctimai İxtisaslar fakültəsində xüsusi jurnalistika kursu keçərək jurnalist ixtisasına yiyələnmişdir (1984-1988).

"Nə yaxşı ki, dəniz varmış", "Borçalı lətifələri", "Taleyim mənim, Talehim mənim", "Dədə Qorqudda Borçalı izləri", "Tənha ağac", "Sənsiz", "CO metal və canlı orqanizm" (dərslik), "Xalqları birləşdirən şəxsiyyətlərdir", "Hikmət xəzinəsindən incilər", "Yaz" (ingilis dilində), "Həqiqətin təşnəsiyəm", Stokholm, Helsinki (ingilis dilində), "Unudarammı", "Sənsiz" (musiqi bəstələnmiş şeirləri), "90 let v stroyu", "Bu sevgi qəlbimə haqdan gəlibdi", "Çiçəklərin söhbəti" (gürcü dilində), "Borçalının ziyalı qadınları" (ensiklopedik toplu, 2008), "Elə bil Məkkəyə nur ələnibdi" (2009), "Dunya, məni tanıdınmı", "Haqqın quluyam", "Ətraf mühit və canlı orqanizm" (dərslik), "Qızılgül" (toplu), "Seçilmiş əsərləri" (3 cild), eləcə də 6 tərcümə kitablarının müəllifidir. Azəbaycan Dövlət Həkimləri təkmilləşdirmə İnstitutunun baş müəllimidir. 2018-ci ildən "Xalq.TV"-nin icraçı direktoru təyin edilib. Eyni zamanda Qafqaz-Media TV-nin rəhbəri və Qafqaz Media İctimai Birliyinin sədridir. Türkiyənin, Gürcüstanın və Rusiyanın dövlət mükafatları ilə təltif olunub, "Tomris" diplomu ilə mükafatlandırılıb. Dəfələrlə QMİ-nin xətti ilə Həcc

ziyarətində həkim kimi fəaliyyət göstərib. Azərbaycan Kardioloqlar Cəmiyyətinin üzvüdür.

Prezident Təqaüdçüsüdür. Azərbaycan Jurnalistlər Birliyinin idarə heyətinin (1995), 2003-cü ildən AYB-nin üzvüdür.

## YA PEYĞƏMBƏR

Hikmətlərin açarısan,
Elm,ürfan baharısan,
Ümmətinin vüqarısan,
Sən Allahın Rəsulusan,
Ya Peyğəmbər!

Məhəbbətin bir ümmandır,
Qəbrin nurlu asimandir,
Hər kəlamın xanimandır,
Sən Allahın Rəsulusan,
Ya Peyğəmbər!

Göydən yerə endi "Quran",
Nur dağında dindi "Quran".
Bütün aləmindi "Quran",
Sən Allahın Rəsulusan,
Ya Peyğəmbər!

Məkkədə dünyaya gəldin,
Kəbəni öz evin bildin,
Mədinəyə işıq verdin,
Sən Allahın Rəsulusan,
Ya Peyğəmbər!

Sənə Allah dayaq oldu,
Zəkan sönməz çıraq oldu,
Əzəmətin bir dağ oldu,
Sən Allahın Rəsulusan,
Ya Peyğəmbər!

Cəbrayıldı həm söhbətin,
Nə böyükdü səadətin,
Günəşisən sən Cənnətin,
Sən Allahın Rəsulusan,
Ya Peyğəmbər!

Azadə bəxtəvər quldu,
Neçə yol zəvvarın oldu,
Haqqın yolu ölməz yoldu,
Allah yolu nurlu yoldu,
Sən Allahın Rəsulusan,
Ya Peyğəmbər!



## QURBAN BAYRAMIMIZ MÜBARƏK OLSUN

*(Qurban Bayramı günündə yazılan şeir)*

Bütün günahları bağışlayansan,-
Ey Qadir ALLAHIM gəlbə agahsan.
Bütün kainatı Sən yaratmısan,
Əbədi sevginlə ürəklər dolsun,
Qurban bayramımız mübarək olsun!

Minada kəsilsin daim qurbanlar,
İsmayıl qurbanı qəbul olunsun.
İbrahimin əhdi yerinə yetsin,
Əbədi sevginlə ürəklər dolsun,
Qurban bayramımız mübarək olsun!

Müsəlman dünyası daim var olsun,
Onu yaşadanlar ixtiyar olsun.
Qoy bütün nəsillər bəxtiyar olsun.
Əbədi sevginlə ürəklər dolsun,
Qurban bayramımız mübarək olsun!

Hacı Azadəyəm, Haqqa bağlıyam,
Xəyalım KƏBƏDƏ, söz soraqlıyam.
Allahın quluyam, qəlbi varlıyam.
Əbədi sevginlə ürəklər dolsun,
Qurban bayramımız mübarək olsun!

***21.08.2018***

## ATA

Əməli, niyyəti örnəkdir bizə,
Məsləyin ən uca yoludu ata.
Ucalıq bəxş edib ismətimizə,
Bəşərin tarixi qoludu ata.

Adəmi yaratdı Uca Yaradan,
Nəsillər törədi yaratdığından.
Dədə Qorqud andı bizə ərmağan,
Bəşərin tarixi qoludu ata!

Azadəyəm, hicrin fərağındayam,
Atalı günlərin sorağındayam.
Yaradan qorusun ata adını,
Bəşərin tarixi qoludu ata!

***21.08.2018***

## MƏN BU YURDUN ŞAİRİYƏM

Mən bu yurdun şairiyəm,
Şerim - sözüm müqəddəsdir.
Mən şan - şöhrət istəmirəm,
Məni xalqım sevsin müdam,-
Bu məhəbbət mənə bəsdir.

Doğru sözün aşiqiyəm,
Xoş gündüzün aşiqiyəm.
Rəbbin, Haqqın aşiqiyəm,

Arzularım müqəddəsdir.
Bu məhəbbət mənə bəsdir!

Azadənin könlü dolu,
Dövran keçir… ömür ulu.
Qarşıdadır həyat yolu.
Yaradandan gələn yazı,
Unudulmaz!.. Müqəddəsdir!

***26.08.2018***

**KƏRKÜKÜM**

Kərkükümün bağrı qandı,
Dərdin dərdim ilə cəmdi.
Gözüm nəmli, qəlbim qəmdi,
Başı bəlalı Kərküküm!

Gözlərim yollarda qalıb,
Daim səni yada salıb.
Hicran səbri əldən alıb,
Bağrı yaralı Kərküküm!

Qarabağım canım mənim,
Kərkükümsə qanım mənim.
Göynəyir vicdanım mənim,
Dərdimiz ortaq, Kərküküm!

Xalqım pərən-pərən olub,
Arzusu gözündə qalıb,
Ötən günü yada salıb,
Fikri havalı Kərküküm!

Azadə sənə həyandı,
Dərdin dərdimə bəyandı.
Şeir yazdım, dilim yandı,
Dumanlı-çənli Kərküküm.
Bağrı yaralı Kərküküm!

***20.08.2018***

## BU SƏHƏR

Günəş şəfəqinin nurunu saçdı,-
Könlümü əlimdən aldı bu səhər.
İsti nəfəsiylə, xoş baxışıyla,
Zəfər müjdəsini çaldı bu səhər.

Məni xəyallarım çəkib apardı
Ən gözəl, ən şirin xatirələrə.
Sandım Şuşadayam, Kəlbəcərdəyəm,-
Oyandım günəşin qızıl rənginə.

Bəzən yuxular da aşkar olurmuş,
Yuxumda bu gecə gördüm Laçını.
Dağların döşündən axan şəlalə
Yuyurdu ümidlə qanlı saçını.

Azadə Taleham, Vətənə bağlı,
Əminəm o yurda dönəcəyəm mən.
Qarabağ, torpağın hər qarışını,
Böyük məhəbbətlə öpəcəyəm mən!

***21.08.2018***

## OYNAMA ODUMLA, OYNAYAN NAMƏRD
(Ünvanlı)

Oynama odumla, oynayan namərd,
Yandırar alovum, külə dönərsən.
Güvəndiyin o kəs hayına yetməz,
Uzaq dur, odumdan külə dönərsən.
Səsin bəmdən gəlməz, zilə dönərsən.

Allahın yolunda o halal yeyən,
Ümid bəslədiyin ayıldı, deyən…
Sonradan peşiman, dizinə döyən,
Uzaq dur, odumdan külə dönərsən.
Səsin bəmdən gəlməz, zilə dönərsən.

Azadə Talehlə oyun oynama,
Özünü haqlıyla bərabər sayma.
Bədbəxtin birisən, çəkil yolumdan,
Uzaq dur, odumdan külə dönərsən.
Səsin bəmdən gəlməz zilə dönərsən.

***03.09.2018***

## ƏZƏL MƏHƏBBƏTİ BİR DASTAN BAKI

Görənlər olubdu hüsnünə heyran,
Bir dövran qurmusan azad-firavan.
Doğmasan, əzizsən, can sənə qurban.
Ey cənnət qoxulu gülüstan Bakı,
Əzəl məhəbbəti bir dastan Bakı!

Ellər söhbət açır Qız Qalasından,
Xəzərə boylanan astanasından.
Doya bilməyirəm xoş havasından,
Ey cənnət qoxulu gülüstan Bakı,
Əzəl məhəbbəti bir dastan Bakı!

Azadə Talehə sirdaş olmusan,
İçəri Şəhərdə yaddaş olmusan.
Hopub varlığıma yurddaş olmusan,
Ey cənnət qoxulu gülüstan Bakı,
Əzəl məhəbbəti bir dastan Bakı!

***12.02.2018***

## NAĞIL TƏK ŞİRİN OLSUN…

Bir ömür istəyirəm,
Mənayla dolu olsun.
Bir ömür istəyirəm,
Həqiqət yolu olsun.

Bir ömür istəyirəm,
İşıqlı məşəl olsun.
Bir ömür istəyirəm,
Min ömrə bədəl olsun.

Bir ömür istəyirəm,
Hər anı dəryadan dərin olsun.
Bir ömür istəyirəm
Nağıl tək şirin olsun.

***21.09.2018***

## HEÇ ZAMAN QOCALMIR ANA ÜRƏYİ

*(Bütün analara ithaf)*

Daima düşünür, daima yanır,
Vaxtından gec yatır, tez də oyanır.
Bəzən kədərini, qəmini danır,
Həmişə övladın odur gərəyi,-
Heç zaman qocalmır ana ürəyi.

Övladın yolunda şamtək əriyən,-
Bəzən zəhərə də şərbətdir deyən.
Səməndər quşutək od-alov geyən,
Bir bahar qucağı, cənnət çiçəyi
Ana ürəyidir, ana ürəyi.

Amandır, a dostlar, qırmayın onu,
Odur dərd aşiqi, kədər yorğunu.
Azadə Talehəm, ana vurğunu,
Anasız bəşərin yox gələcəyi!
Heç zaman qocalmır ana ürəyi!

## ELMAN RÜSTƏMOV
(1966)



**Rüstəmov Elman Süleyman oğlu** 26 iyul 1966- cı ildə Qərbi Azərbaycanın Zəngəzur mahalının Qafan rayonunun Aşağı Girətağ kəndində anadan olub. 1991-ci ildə Azərbaycan Dövlət Tibb Universitetini fərqlənmə diplomu ilə bitirib, 22 il Milli Orduda hərbi provizor kimi müxtəlif vəzifələrdə xidmət edib. Ehtiyatda olan tibb xidməti polkovnik–leytenantıdır.

"Xoşbəxt günlərimin acı göz yaşları" (Zaurun yuxuları), "Başkəsənlər", "Anama məktub", "Novruzda açılan atəş", Dürmək restoranı" "Tanrı ürəklərdədir", "Hekayə və novellalar" kitablarının müəllifidir. "Kreml qülləsi" və "Morqda yeni il şənliyi" hekayələri rus dilinə tərcümə olunaraq Ukrayna Respublikasında mətbuatda dərc olunub.

Elman Rüstəmov "Qafqaz–Media" İctimai Birliyinin təsis etdiyi "İbn Sina" və "Cəsarətli qələm" mükafatlarına layiq görülüb.

## KREML QÜLLƏSİ

Orta məktəbi bitirdikdən sonra hərbi təbabətə olan istəyim məni aparıb Leninqrad Hərbi Tibb Akademiyasına çıxartmışdı. Leninqrada qəbul üçün gələn abituriyentləri Akademiyanın «Krasnoe selo» kəndindəki düşərgəsinə yerləşdirmişdilər. İmtahanlar bir aydan sonra başlayacaqdı və bu bir ayda bizim işimiz ancaq əsgəri nizam–intizam qaydalarını öyrənməkdən, fiziki və ixtisas hazırlıq səviyyəmizi artırmaqdan, həmçinin tibbi yoxlamalardan keçməkdən ibarət idi…

…Bir gün axşam bizim hamımızı kluba yığdılar və hərəmizə iki böyük vərəqdən ibarət anket payladılar. Bir

saat ərzində biz anketdə göstərilmiş 50–dən çox sualı cavablandırmalıydıq. Təbii ki, suallar rus dilində idi, mən isə bu dili o dərəcədə mükəmməl bilmirdim. Rus dilini mükəmməl bilməyən qeyri–rusdilli abituriyentlərə güzəşt ondan ibarət idi ki, içi mən qarışıq həmin abituriyentlər Rus dili imtahanından imla yazacaqdılar. Amma hələ imla yazmağımıza 1 ay vaxt qalırdı və hal–hazırda əsas məsələ bu sualları cavablandırmaq idi. Sualların çoxu başa–düşülən idi; məsələn adın, yaşın, cinsin, milliyyətin, mənsubiyyətin və s. Bu sualları asanlıqla cavablandırır, anlaşılmaz sualları isə sonraya saxlayırdım. Vaxt daralmaq üzrə idi. İki–iki oturmuşduq və yanımda oturan sarısaç rus balası sözün əsl mənasında üyüdüb tökürdü. Fikirləşməyə az vaxt qaldığı üçün anlamadığım bəzi sualları cavablandırmaqda parta dostumun köməyindən istifadə etmək qərarına gəldim. Sarısaç dostum məntiqi suallardan bir qisminin cavabını işarələrlə və şəkil çəkməklə qeyd edirdi və mən də tez olsun deyə bu sualların cavabını dostumdan köçürməyə başladım. Axıra yaxın suallardan birinin cavabında parta yoldaşımın Kremlin qülləsini çəkdiyini gördüm. Hiss etdim ki, dostumun rəssamlıq qabiliyyəti çox zəifdir və bəlkə elə ona görə Tibb Akademiyasını seçib ki, orada rəsm olmasın. Amma deyəsən burada bir balaca ilişmişdi və şəkil yaxşı alınmamışdı. Mən isə, maşallah, orta məktəbdə rəsm müəllimimiz o qədər dağ–dərə şəkli çəkdirmişdi ki, az qalmışdım mənzərə rəssamı olam və ona görə də bu sualın cavabını əməlli–başlı canlandırmağa çalışdım. Həmin bölmədə Kremlin beşguşəli, qızıl ulduzlu qülləsini böyük həvəslə yaratdım və hələ qırmızı rəngli qələmimlə də rənglədim. Şəkil insafən çox gözəl alın–mışdı və demək olar ki, digər sualları sözün həqiqi mənasında kölgədə qoyurdu…

Vaxt qurtardı və anketləri təhvil verib dağılışdıq. Səhərisi isə mən bircə günün içərisində məşhurlaşdım və adım dillər əzbəri oldu. Akademiyanın yüksək rütbəli zabit–professorları məni abituriyentlərin arasından barmaqla göstərməyə başladılar. Məşhurlaşmağımın səbəbi mənim

çəkdiyim şəkil idi. Şəkil hamının xoşuna gəlməyinə gəlmişdi, ancaq şəklin aid olduğu sualda bir balaca anlaşılmazlıq olubmuş, sən demə… Sualda «Çeqo nenavidiş?», yəni «nəyə nifrət edirsən?» yazılmışmış. Bədbəxt «dostum» isə öz qırılmış barmaqları ilə müharibəyə nifrətini bildirmək üçün oraya uzaqmənzilli raket şəkli çəkibmiş. Mən isə raketi Kremlin qülləsinə oxşatmışam və anketdə həmin sualın cavabında Kremlin qülləsini çəkmişəm, sən demə…

***Avqust, 2009- cu il***

## NAZİR ANASI

*Xəstə üçün ən şəfaverici dərman*
*şəfqət bacısının təbəssümüdür.*

Xəstəxanada çaxnaşma yaranmış, həkimlər, tibb bacıları, laborantlar, sanitarlar bir–birinə dəymişdi. Hamı o yan–bu yana qaçışırdı. Səbəb xəstəxanaya hipertonik kriz ilə ağır xəstənin daxil olması idi. Bu xəstə adi Azərbaycan vətəndaşı deyildi. Bu xəstəyaşı səksəni haqlamış nazir anası idi. İlkin olaraq Yapon aparatı ilə xəstənin təzyiqi ölçüldü. Elektron şkala təzyiqin yuxarı həddinin 210 olduğunu göstərdi. Xəstəxananın bütün hə–kimlərinin birgə məşvərətindən sonra xəstəni bütün müayinələrdən keçirməyi qərara aldılar. Ürəyini exokardioqrafiya, beynini maqnitrezonans tomoqrafiyası, agciyərlərini kompüter to–moqrafiyası, daxili üzvlərini ultrasəs müayinəsi etdilər. Heç bir orqanda dəyişlklik və patologiya aşkar olunmadı. Qanın avtomatik analizatorlar vasitəsi ilə aparılan ümumi və biokimyəvi analizlərində də hər bir şeyin norma daxilində olduğu müəyyənləşdirildi. Xəstəni VİP palataya yerləşdirərək bütün reanimasiya tədbirlərini gördülər…

Xəstəxananın darvazası taybatay açılmışdı. Farağat komandası vəziyyətində nazirin gəlişini gözləyən rəhbər heyət ildırım sürəti ilə xəstəxanaya daxil olan nazir maşınının qabağına cumdular. Az qala baş həkimin müavininin əl–ayağı do–laşıb maşının altında qalacaqdı. Xəstənin

vəziyyətinin kritik olduğu, bütün reanimasiya tədbirlərinin görülməsinə baxmayaraq təzyiqin hələ də düşmədiyi haqda nazirə məruzə edildi. Nazirin göstərişi ilə respublikanın səhiyyə sisteminin bütün baş mütəxəssisləri və başbilən həkimləri dəvət olundu, yenidən məşvərət keçirildi. Təyinatlara korreksiya və əlavələr edildi. Ən bahalı dərman preparatları alındı. Respublikada tapılmayan dər–man preparatları xarici ölkələrə sifariş olundu. Xəstəxanada fövqəladə vəziyyət elan edildi. Baş həkimdən adi sanitara qədər hamı səhəri gözüaçıq açdı. Səhərə qədər görülən bütün reanimasiya tədbirləri nəticəsində xəstənin təzyiqi vurtut 20 vahid aşağı düşüb 190 olmuşdu ki, nazir arvadının palataya girişi ilə təzyiq yenidən 210–a qalxdı. Gəlin qaynanasını gözüaçıq gördü. Səhərə qədər xəstənin gözünə yuxu getməmişdi. Manitora nəzər yetirəndə artıq təzyiq 220 göstərirdi. Əl telefonunu götürüb ərinə zəng edəndə xəstənin təzyiqi 230–a qalxdı… Rusca: «Burdakılar həkim deyil, qoyundurlar, –dedi.

– Bir sutkadır anan burdadır, ancaq arvadın təzyiqini salmaq əvəzinə daha da qaldırıblar. Əli–nin altında o böyüklükdə imkanların var. İzraildən həkim dəvət etmək lazımdır!!! Yoxsa anan iflic olacaq. Mənim…»

Nazir arvadının qəzəblənməsindən qorxuya düşmüş həkimlər yenidən məşvərətə toplaşdılar. Başdan ayağa zər libasa bürünmüş nazir arvadını kinayə ilə süzən baş tibb bacısı həkimlərdən ayrıldı və sanitarı yanına çağırdı. Köməkləşib xəstəni təzəcə alınmış *«xəstə yıkama stolu»na* əyləşdirdilər. Əynindəki paltarları çıxardılar. Onu ılıq su ilə və ətirli sabunla çimizdirdilər. Yağlovçaya dönmüş saçını iki dəfə şampunlayıb yudular. Uzanmış əl və ayaq dırnaqlarını tutdular. Qulaqtəmizləyən ilə qulaqlarını, *«ağız bakım seti»* ilə ağzını və dişlərini təmizlədilər. Sonra ona təmiz xəstəxana paltarı geyindirib çarpayısına uzatdılar. Baş tibb bacısı cibindən darağını çıxarıb xəstənin saçlarını nənəsinin saçlarını darayırmış kimi daradı, hörük hördü. Sonra alnını sığalladı. Qoca nənəsinin alnından öpdüyü qaydada alnından öpdü. Xəstənin gözlərindən iki gilə yaş

gilələnib sifətində dayandı. Baş tibb bacısı nəm salfet götürüb əvvəlcə nazir anasının göz yaşlarını, sonra isə öz göz yaşlarını silərək otağına keçdi. Ananı məsum körpə təkin yuxu apardı…

Təyinata yeni əlavələr edərək məşvərətdən qayıdan həkimlər manitora nəzər salarkən hamını təəccüb bürüdü. Xəstənin bütün göstəriciləri 20 yaşlı gənc qızın göstəriciləri kimi idi. Təzyiqi də, ürək döyüntüləri də…

***Sentyabr, 2012-ci il***

## BAŞKƏSƏNLƏR



Nəhayət ki, vaxt ötdü, vədə yetişdi, itirilmiş müstəqilliyimiz yenidən bərpa olundu. Qayıdan müstəqilliyimizi ilk tanıyan, o vaxt müstəqilliyimizi itirməklə bərabər itirdiyimiz Türk qardaşlarımız oldu və yenidən anladıq ki, sən demə, biz elə bir millət, iki dövlətik. Dilimiz bir, dinimiz bir. Bir sözlə, müstəqilliyimiz imkan yaratdı ki, bir–birimizlə daha sıx əlaqə yaradaq, bir əsrə yaxın iraq düşdüyümüz qohumlarımızı axtarıb tapaq. Biz getdik, onlar gəldilər, yenidən qaynayıb–qarışdıq. Hərdən bəzi anlaşılmazlıqlarımız da oldu. Bu da təbii idi. Çünki o vaxt «türkün sözü» kimi ifadə etdiyimiz sözlər yaddan çıxmışdı. Odur ki, ara açılandan sonra Türkiyəyə ilk səfər edənlərdən biri Nuriyyə xanımı İstanbulda qarşılayan qohumu «Sizi Türkiyədə görməkdən çox mutluyam» deyəndə xanımımız bir balaca duruxmuşdu və sonradan «mən də elə ondanam» deməklə anlaşılmazlığa son qoymuşdu. Başqa nə deməli idi ki? Elə əsl həqiqətdə onlar kimdirsə, biz də oyuq. Mövlanə Cəlaləddin Rumi demişkən: «Mən sənəm, sən də mənsən»…



Uzun sözün qısası, o qədər şirinləşdik ki, qız verib qız almağa başladıq. Başa düşdük ki, həm onlar, həm biz baş kəsib, qan töküb, ad qazanan nəsilik, yəni «Dədə Qorqud» nəsliyik. Bu nəsildə də qız verib qız almaq adətdir. Baxmayaraq ki, bizim «Dədə Qorqud» nəsli olmağımıza

Qarabağ müharibəsi vaxtı türklərdə şübhə yaranmışdı və bizdən bir balaca incik düşmüşdülər. Sonra bu məsələyə də aydınlıq gətirildi və məlum oldu ki, Qazan xanın igidləri sayda şəhidlərimiz var bizim. Qarabağ döyüşlərində baş kəsib, qan töküb, tarixlərini qanları ilə yazan şəhidlərimiz...

Azəri türk qızı ilə eyni universitetdə oxuyan Anadolu türk ərəni də bunu bilirdi artıq. Hətta parta arxasında yanaşı oturduğu azəri qızının Qarabağda döyüşən qardaşının göndərdiyi şəkli də görmüşdü, ermənininin kəsilmiş başını və həmin şəkli Anadoludakı anasına da göndərmişdi ki, o da azəri türklərinin qəhrəmanlıqlarından agah olsun.

Xülasə, nə başınızı ağrıdım, vaxt yetişdi, zaman ötdü, həmin Azəri türk qızı ilə Anadolu türk ərəni universiteti oxuyub qurtardılar, qız öz kəndlərinə–Daşkəsənə, oğlan isə öz biznesmen qardaşının yanına–Rusiyaya yollandı. Ancaq ayrılmamışdan əvvəl əhd–peyman etdilər ki, evlənəcəklər. Qız kəndlərində Azərbaycan türkcəsindən dərs deyib cehiz yığmağa, oğlan isə Rusiyanın Saratov vilayətində biznes əlaqələri qurub toy tədarükü üçün pul toplamağa başladı. Hələ bir sarısaç metis oğlanı da özünə həm tərcüməçi, həm də vəkil tutdu. Sarısaç rus oğla–nına da, müəyyən mənada türkün yerlisi demək olardı. Çünki onun babası Rusiya–Türkiyə müharibəsində yaralanaraq İstanbulda qalan rus döyüşçüsü, nənəsi isə Osmanlı imperiyasının ən gözəl rəqqasələrindən sayılan erməni rəqqasəsi olmuşdu. Oğlan özü isə ağ rusların mərkəzi şəhəri sayılan Minskdə doğulmuşdu. Odur ki, türklə bir–birini yaxşı anlayırdılar. Aralarında bircə anlaşılmazlıq var idi ki, o da İstan (m)bul sözündəki «n» və «m» hərfləri idi. Çünki türk «n»ənə deyirdi, metis isə «m»ama…

…Oğlan toy tədarükü topladıqdan sonra vəkilini və böyük qardaşını da götürüb Anadoluya yollandı və anasına dedi ki, «anacan, hazırlaş, gedirik Azəri yurdundan, Daşkəsəndən gəlinini gətirməyə». Ancaq oğlan haradan başa düşə bilərdi ki, anası D hərfini B kimi eşidib və Başkəsən kəndinə yollandıqlarını zənn edib. Niyə də başqa

cür zənn etsin? Hələ indiyə qədər həmin kəndin ən gözəl qızı olan Selcan xatunun qardaşının çəkdiyi, erməninin kəsilmiş başının şəklini evlərində saxlayırdı və ona baxıb Çanaqqala döyüşünü, Şamaxı döyüşünü xatırlayırdı. Axı türk annəsinin də atası və əmiləri həmin döyüşlərdə baş kəsib, qan töküb ad qazanmışdılar və qəhrəmanlıqla şəhid olmuşdular...

Dəxi, Bakıya çatar–çatmaz azəri türklərinin toy adətlərini öyrəndilər və o da bəlli oldu ki, qız evinə başı xınalı qurbanlıq qoç da aparılmalıdır. Özlərini imkanlı göstərmək üçün Gəncədən 3 qoç aldılar, başlarını xınaladıb, ayaqlarını bağladılar və türkün gəncəli tələbə dostunun «Toyota» markalı maşınına atıb, Daşkəsənə yollandılar. Daşkəsən, türk annəsinin təbirincə, Başkəsən həqiqətən çox səfalı yer idi. Lap oğuz igidlərinin at oynadıb, ox atıb, kəl yıxıb başını kəsdikləri yerlərə oxşayırdı bu yerlər. Böyük hörmət və izzət ilə qarşılandılar. Toy başlandı, nə başlandı. Öküzlər kəsildi, manqallar alışdırıldı, qazanlar asıldı, süfrə bütün nazi–nemətlə bəzədildi və türklər gördülər ki, bəli, azərilər də çox imkanlıdırlar. Bir dəm–dəsgah başlandı ki, gəl görəsən. Gətirilən qoçların isə ayaqlarını açıb qahala buraxdılar və qabağına ot–ələf qoydular ki, toy günü onlar da bir günlük kef etsinlər. Onsuz da sabah başları kəsiləcək. Çünki qurbanlıqdı. Yeyib–içmək başlandı. Kababın və çaxırın ardı–arası kəsilmirdi. Çaxır da nə çaxır. Yeddiillik Şəmkir çaxırı. Qazan xanın tuluqda içib yeddi gün yuxuya getdiyi çaxır kimi. Sarısaç rus balası da bu çaxırın Saratovda az qala valyutaya satılan və iyi ağızdan deyil, adamın üstündən yeddi gün getməyən «Ağdam» çaxırına bənzəmədiyini hiss etmişdi. Bu çaxır çaxırdan çox, çoxdandır içmədiyi Ermənistanın 7 ulduzlu konyakına bənzəyirdi. Odur ki, yaxşı dəmlənmişdi və əcdadlarının belə səfalı yerlərdən didərgin düşmələrinə təəssüflənirdi...

–Arkadaş, biz partladıq, yetər artıq, bu qədər yemək olurmu?–nəhayət ki, bəyin böyük qardaşı dilləndi.

Bəyin gəncəli tələbə yoldaşı:

–Lələ, heç darıxma, indicə qalxıb «Xaşbulağ»ın suyundan bir stəkan içərik, elə bilərsən ki, heç nə yeməmisən.

–«Xaşbulaq» nəmənə?–anlamadı türk qardaş.

–Xaç bulaq, yəni «krest»noy bulaq, –söhbətə aydınlıq gətirmək istədi dəmlənmiş tərcüməçi metis oğlan.

–Nə krest, ay oğlan, ermənisən?–Gəncəli balası qə–zəbləndi.

Gəlinin qardaşı tez aranı sakitləşdirdi:

–Yox, ay balam, «Xoşbulaq», yəni xoş gəlmisiniz. Durun, gedək bulaq üstünə, suyundan için. O qədər xoş olacaq ki, onda biləcəksiniz ki, xoş bulaqdı bu bulaq…

Onlar atlara minib xoş, xaş və xaç bulağa yollandılar. Əsl həqiqətdə isə bu bulağın adı nə xoş, nə xaş, nə də xaç bulaq idi. «Arxac» bulaq idi bir vaxtlar bu bulağın adı; çobanların arxac yeri olduğu üçün «Arxacbulaq» deyərmişlər bu bulağa. Sovet hökuməti qurulandan sonra çobanlar arxac sözündəki "ar" sözünü özlərinə ar bildiyi üçün tullamış və bulağın adı indiki mügənnilərimizin bəziləri kimi lüt qalıb «Xac» bulaq olmuşdu. Lüt qaldığı üçün də, hərə bir ad qoymuşdu həmin bulağa: xaş, xaç və xoş bulaq demişlər «Arxac» bulağa...

Oğuz igidləri «Arxac» bulağa yollanmaqlarında olsunlar, mən isə sizə deyim Türk annəsindən. O da cənnətə düşmüşdü. Qadınların süfrəsində də qu südündən tutmuş nə desən var idi. Hətta Daşkəsənli rus babulyaları üçün çaxır da qoyulmuşdu süfrəyə və hər dəfə onlar əllərinə qədəh alanda Türk annəsi yaşmağını üzünə çəkir və qızın anası Tomris ananın qulağına nə isə deyirdi. Yanaşı oturduqları 2 saat ərzində Tomris ananın da adının mənasını öyrənmişdi və xəyallara dalmışdı: «Sən demə, elə Başkəsən kəndinin bütün sakinləri qəhrəman–başkəsən imişlər. Tomris ana da qaniçən İran padşahı Kirin başını kəsib rus babulyalarının ləzzətlə içdiyi çaxıra bənzər qan dolu tuluğa salmışımış». Türk annəsi öz xəyal aləmində idi ki, əlində iri qəmə tutan lopa bığlı, cəllad simalı qəssab Məmməd kişi içəri daxil oldu və Tomris anaya yaxınlaşaraq

qulağına astadan nə isə dedi və Tomris ana ayağa qalxıb onunla bərabər həyətə çıxdı. Tomris anadan başqa özünə həmdəm tapa bilməyən Türk annəsi Burla xatun da darıxdığını hiss etdi. Odur ki, həm havasını dəyişmək, həm də oğlanlarına bir daha baş çəkmək üçün eyvana çıxdı. Oğlanlarının oturduğu masa boş idi. Bu dəm əlində iri bir bıçaq tutmuş cocuq harasa tələsirdi. Türk annəsi onun qolundan tutdu və aşağı əyilərək astaca soruşdu:

–Cocuğum. ƏRKƏKLƏR nərdə?

Uşaq sevinclə:

–Erkəkləri apardılar kəsməyə ay nənə, mən də ora gedirəm. Dedilər, get iti bıçağı gətir.

Burla xatunun rəngi ağardı:

–Nasıl kəsməyə, cocuğum? Bu nə demək?

–Başlarını kəsməyə, ay nənə. Kabab edəcəklər, təndir kababı. Sizə də verəcəklər yeməyə,–deyərək uşaq Burla xatunun əlindən qopub qaçdı.

Burla xatunun bir anlığa dünya başına fırlandı, kəsilmiş erməni başı, qaniçən Kirin başı, həyətdən asılmış öküz başları, Qazan xanın şişə çəkilən Tural oğlu canlandı bir anlığa xəyalında və «vay ərkəklərim» deyərək huşunu itirib yerə yıxıldı. Məclis bir–birinə dəydi. Kimisi həkim dalınca, kimisi isə «Arxac» bulağa oğlanlarının dalınca qaçmağa başladı. Oğlanlarının gəlişi ilə həkimin gəlişi eyni vaxta düşdü. Həkim kəskin iyli naşatır spirti ilə isladılmış pambığı Türk annəsinin burnuna tutdu. Burla xatun ayıldı və oğlanlarını gözünün qabağında gördü. Amma elə zənn etdi ki, bu onların ruhlarıdır. Odur ki:

–Ruhunuza qurban, ərkəklərim, nə idi sizin suçunuz?–deyərək ağladı.

–Hansi suç, annəcan? Nə suç işlətmişik biz axı? Bir balaca çaxır içmişik, başqa heç nə…

Söhbətdən hali olan, vaxtilə bir millət, iki dövləti bir–birindən aralı salaraq dillərində anlaşılmazlıq yaradan millətin nümayəndəsi–sarısaç rus balası indi onların bir–birini anlaması üçün vasitəçilik edirdi. Özü də qımışa–qımışa:

–Annə, bunlarda «ƏRKƏK» qoyuna, qoça, barana deyirlər, sizin oğullarınıza yox…

Yavaş–yavaş həm məsələ aydınlaşırdı, həm də annə özünə gəlirdi. Məsələni dolaşdıran Türk cocuğu isə sürüşüb aradan çıxmaq istəyirdi. Ancaq şeyxor Əhməd həmişəki kimi qapının ağzında kefsiz dayanaraq yolu kəsmişdi…

Həm yol yorğunu olan, həm yeyib–içməkdən yorulan, həm də bizlərin «erkəy»ə «baran» deməyimizdən bir az dilxor olan türklər dinclərini almaq üçün qızın qardaşına yaxınlaşdılar və:

–Yorulduq, əfəndim. Yeyib–içdiyimiz yetər. Artıq gecdir. Bəlkə bir az uyuyaq.

«Uyuyaq» sözünü eşidən şeyxor Əhmədin elə bil gözlərinə işıq gəldi, dodaqları qaçdı və sürüşüb aradan çıxmaq istəyən cocuğun qolundan yapışdı və türkcə:

–Cocuğum, tez qaç, meyxanaçı əmiləri çağır. Deynən otlarını da gətirsinlər. Türk arkadaşlarımız uyumaq istəyir…

Yaxında dayanan Minskli rus vəkili bu anlaşılmazlığa da aydınlıq gətirə bilərdi. Ancaq nədənsə bunu etmədi…

***Oktyabr, 2009- cu il***

## XASAY BAYRAM
(1968)



**Xasay Bayram** (Bayramov Xasay Bayraməli oğlu) 1968-ci ildə Lerik rayonunun Nücü kəndində anadan olmuşdur. 1986-cı ildə Nücü kənd orta məktəbini bitirdikdən sonra 1986–1988-ci illərdə hərbi xidmətdə olmuşdur. 1989–1995-ci illərdə Azərbaycan Tibb Universitetində təhsil alıb.

Hal–hazırda Sumqayıt şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasında həkim vəzifəsində çalışır.

Ədəbi yaradıcılığa orta məktəb illərində başlamışdır.

***

Boynubükük tənha ocaq,
Səni kim qocaltdı belə?
Kimlər səndə ömür sürdü,
Sonra kimlər atdı belə?

Dərdin nədir deyəmməzsən,
Dözümün nə?–Əyilməzsən.
Sən əzən,səni kəsən
Zaman neçə qatdı belə?

Boynubükük tənha ocaq,
Daşın qırış, üstün açıq,
İçin bomboş, çölün yazıq,
Üzün yüz–yüz çatdı belə.

Keçmiş gözəl dəmlər səndən, –
Dəmlər səndən, qəmlər səndən...
Pərvaz etdi kimlər səndən
Muradına çatdı belə?

Əvvəlin şən, sonun –gördüm,
Ürək sıxan günün gördüm.
Səni döyən məni döydü, –
Bu da bir həyatdı belə...

***(1995)***

***

Qayğılı–qayğısız günlər ötüşüb,
Ayların, illərin naxışı sınar.
Sənin yaddaşında necə var qalıb
Gedirəm ömrümün son payızına...

Bu yarpaq əllərim, bu–bulud saçım,
Əllərim göyərmiş, saçım dolaşıq.
İllər qovur məni, –ha yana qaçım?–
Gedirəm ömrümün son payızına.

Dinləyə bilərəm bu lal sükutu
Özümü, sözümü–səni unudub.
Daha tənhalığın əlindən tutub
Gedirəm ömrümün son payızına.

Gedirəm, bu yollar boransa, qarsa,
Gedirəm, –bu tale bəxtim açarsa...
Bir payız vurğunu məni anırsa
Gedirəm ömrümün son payızına.

***(1998)***

***

Gənc çağım, mən səni harda itirdim,
Axtardim gəzdiyim yerdə tapmadım?
Dağların çiçəkli yamaclarında,
Qışın ayazında, qarda tapmadım.

Mənlə bir böyüyən uşaqların da
Adım unudulub dodaqlarında.
Onları da kəndin clgırlarında,
O eldə–obada, yurdda tapmadım.

O bulaq başında bu gününəcən
Dizinə söykənib gözü yol çəkən.
Bir qızın qəlbində tapardım bəlkə, –
Yaxşı ki, o qızı orda tapmadım....

***(2016)***

***

Əzizlərəm kədərimi
Səndən qalan sehir kimi.
Nəğmə kimi şeir kimi
Adın qalıb xəyalımda.

Qulağımda səsin kövrək,
Gözlərimdə əksin ürkək.
Bir ilk bahar meyvəsi tək
Dadın qalıb xəyalımda.

Gecə yuxularda ötən,
Gündüz qayğılarda itən.
Yana–yana il–il artan
Odun qalıb xəyalımda.

Duyğularımın günahı,
Çox röyalarımın şahı.
İsmi əziz, bir ilahi
Qadın qalıb xəyalımda...

***(2013)***

***

Özünlə apardın yuxularımı–
yuxusuzam indi,
Sənlə olmaq idi "günahım",
günahsızam indi...
Yazılası varaq kimiyəm,
dil açmamış uşaq kimiyəm, –
"təmizəm" indi.
Ana bilib sığınmışam xəyallarına,
o anama əzizəm indı...
O, uşağın qəlbı

sevgi və nifrətlə
dolana qədər,
o ağ varaq qaralanıb
yazılana qədər
“xoşbəxtəm”.
Qirğıdan qurtulub,
qəfəsə salınan bülbül kimi
“ azadam”, –
sənsizəm indi...

***(2015)***

***

Bu şəhərdə insanların
Yarısı döyüküb qalıb.
Cavanı cızıqdan çıxıb,
Qarısı döyüküb qalıb.

Gün ötürüb, ömür sürüb,
Batıb günəş, çöküb qürub...
Bağ–bağçanı xəzan vurub,
Barısı döyüküb qalıb.

Dünya öz yaranışından
Ayırıb yazı qışından.
Bəndə tanrı arzusunda, –
Tanrısa döyüküb qalıb...

***(2010)***

***

Əlin əlimdəydi, adın dilimdə,
Bahar təbiəti oyadan zaman.
Biz birgə dünyanı, baharı sevdik,
Durna qatarları qayıdan zaman.

Bizə elə gəldi ürəyimizdən
O ilin yayi da hərarət aldı.
Sonra da ayrılıq qəfildən düşdü,
Fəsillərin gözü bərələ qaldı.

Bir gün xatirəyə dönəcək o yay,
Sonra da son bahar çəkəcək köçü.
Yağışlar mövsümü qayıdacaqsan,
Gəlib görəcəksən durnalar köçüb...

***(2016)***

***

İnsanlardan çox
küçələr vəfalı imiş.
Getdi sevdiyim insanlar da,
sevənlər də.
Küçələr qaldı amma.
Gecə görüşləri də,
gözlədiyimiz
səhərlər də,
sevincli, kədərli xəbərlər də
getdi, –
Gecələr qaldı amma...
Bütün yollar yerində, –
Ətrafında
meşələr,
güllər,
çiçəklər.
Üstündən insanlar keçdi,
və keçir sola, sağa...
Nə axşamların
əvvəlki cazibəsi yox,
nə səhərlərin.
Sən də
az–az düşürsən yadıma daha.
Deyəsən
öyrəşirəm ayrılığa....

***(2016)***

***

Bu şəhər də sənə qalsın,
Bu səki də, bu küçə də.
Mən özümü unudacam
Səni andığım gecədə.

Sonra da danaram səni,
Yaddan yad sanaram səni.
Son dəfə anaram səni
Son misrada, son hecada.

Günlər kəsər, illər yorar,
Ötən ömür üzüyola…
Xatirələr hesab sorar
Bir qarıdan, bir qocadan...

***(2017)***

# RƏNA HACIYEVA
(1968)



**Rəna Fərrux qızı Hacıyeva** 10 sentyabr 1968-ci ildə Gədəbəy rayonunda anadan olmuşdur. Orta məktəbi 1985-ci ildə Bakı şəhərindəki 240 saylı məktəbdə bitirərək 1986–1987-ci illərdə 19 saylı şəhər polikilinikasında kiçik tibb işcisi vəzifəsində çalışmışdır. 1987–cī ildə Azərbaycan Dövlət Tibb Universtitetinin pediatriya fakültəsinə daxil olmuş, 1993–cū ildə həmin təhsil müəssisəsini bitirərək hәkim ixtisasına yiyələnmişdir. 1995-ci ildən Bakı şəhəri, Uşaq Nevroloji Xəstəxanasında həkim–nevropatoloq kimi çalişır.

Ədəbi yaradıcılığa tələbəlik illərindən başlayan Rəna Hacıyeva müxtəlif mövzularda şeirlər, esselər qələmə almışdır. İlk yaradıcılıq nümunələri əsasən "Kredo" qəzetində çap olunmuşdur.

Ailəlidir, iki övladı var.





## YUXUMA GƏLƏN MƏLƏK

Yuxuma gələn mələk, –
Al yanaq, üzü göyçək.
Göylərdən enib yerə
Mənə xəbər verəcək.

Düz yolunu azanı,
Düzə quyu qazanı,
Cildə girən şeytanı,
Haqqı yeyən insanı
İttiham da edəcək...
Yuxuma gələn mələk
Sonra uçub gedəcək.

Yerdəki şər–böhtanı,
Tökülən nahaq qanı,
Dağılan bu dünyanı
Göylərə ərz edəcək.
Bir boxca dərd yığıbdı, –
İndi uçub gedəcək.

İnsanlığa ləyaqət,
İsti nəfəs, hərarət,
Yüksəklikdən mərhəmət
Bir imdad istəyəcək.
Yerə şəfqət, məhəbbət
Səpib, töküb gedəcək.
Yuxuma gələn mələk
Mənə xəbər deyəcək.
Yuxuma gələn mələk
Mənə müjdə verəcək.
Sonra, uçub gedəcək....

## ƏGƏR DƏYSƏN QƏLBİMƏ

Qısılıb öz dərdinə
Elə lap üzülərsən,
Dərdin boz örpəyinə
Ruhunla bürünərsən.
Kədərin mürəkkəbi
Dağılar əllərinə...
Ağrının gələn təbi
Yazilsa da sinənə,
Əgər dəysən könlümə,
İnadından dön, demə!
Təkliyi qucaqlayıb
Ürəyinə basarsan.
Fikirləri calayıb
Təskinliyi taparsan.
Etmə ki, üzüm dönə!–
Sən arxamca baxasan.

İçimdə işiq sönə, –
Elə bilmə yol asan...
Nifrətə tərif verib,
Etmə... sənə yollayım.
Bir qucaq kədər dərib
Köksümə cilovlayım.
Əgər dəysən könlümə,
İnadindan dön demə!..

## GÖZÜMƏ DÜŞƏN ƏZAB

Ağrı çökdū qəlbimə,
Əzab dūşdū gözūmə, –
Ağrıları yumağa
Yaş axıtdı köksūmə.
O yaşlar dəryalandı,
Ağrılarda bulandı.
Axa–axa damlalar
Sinəmdə od qalandı.

## SEHİRDİ GECƏ…

Zərli örpəyini yenə xəfifcə
Sərir yer üzünə qaranlıq gecə.
Atıbdı səmaya öz duvağını
Örtūbdə Gūnəşin göz qapağını.
Dolaşıb işığın şūalarına,
Basıbdı göyləri gecə bağrına...
Sandım Ayı taxsa Göy yaxasına,
Sevdalar bürünməz bu qara dona.
Būkubdū nə varsa, qaranlığına,
Göylərin duvağı buluddan betər!.
Bir sirdi, sehirdi, nağıldı gecə,
Eh! Səhər açılar bu ömür bitər…

## YAĞIŞLAR YAĞIR

Yenə kövrəlib hava, yenə yağır yağışlar,
Sular süzülür yenə, pəncərəmdə naxışlar.
Ovuşdurub gözünü, buludlar yerə baxır,
Dünyanın yanağından, yenə damlalar axır.

Ağlayan gözüm kimi, bir əl yoxdur çatacaq, –
Buludları ovudub, istisinə qatacaq…
Yenə səbirsizlənir, ruhum içimdən gedir,
Bulud köçüb gözümə, sular gözümdən gedir...

## VİDALAŞDI TƏLƏBƏLİK

Şirin yuxu oyananda bitən kimi,
İllər belə nə tez ötdü, itən kimi.
Şirinini, acısını dərk etmədik,
Sona çatdı, vidalaşdı tələbəlik.

Bir səs gəldi, haray qopdu ürəyimdə,
Pərdələndi bulud oldu gözlərimdə.
Yanağıma süzüləndə bir kövrəklik,
Sona çatdı, vidalaşdı tələbəlik.

Neçə qışın şaxtasının fəryadında,
Çin olmayan sevdaların göz yaşında
Bir gözəlin hüzun dolu baxışında..
Sona catdı, vidalaşdı tələbəlik.

Ovuclanmış su kimiydi, bir içimlik,
Ömrümüzdə hissə idi əzìz, kiçik.
Sevincləri bizdən uzaq, bizdən incik, –
Sona çatdı,vidalaşdı tələbəlik.

## İNCİYİB YER ŪZŪNDƏN

Hər şeydən ūz cevirib,
Öz içimdən uçaram.
Göylərə dūşūb qərib,
Səmaya yol tutaram.
Arzulardan qoparam,
Buludlara hoparam,
Dönūb yağış olaram,
Leysan kimi yağaram.
Sūzūlərəm göylərdən, –
Torpaqla barışaram.
İnciyib yer ūzūndən
Torpağa qarışaram.

## OVQATIN FƏSİLLƏRİ

Ovqatı qarışan fəsillər kimi
Gah qışda qaliram, gah yaz oluram.
Səmayla danışan dəlilər kimi
Dūnyanı dolaşan səyyah oluram.

Fikirlər sūrūyūr qanadlarında,
Daşlara çırpılıb torpaq oluram.
Həyatın qaranlıq dalanlarında
Yanıram yenə də, çıraq oluram.

Ūşūyūb bəzən də soyuq olanda,
Kimsəsiz sozalan uşaq oluram.
Durulub, saflaşıb duyğularımda
Qaynayan dumduru bulaq oluram.

## DUYĞULAR

Yağışda islanan çiçəklər kimi
Yaşlarla yuyulur yanaqlarım da.
Imdada yetişən mələklər kimi
Dualar dolanır dodaqlarımda.

Sıxılıb darılıb qayğılarım da,
Sıxıram ūmidi ovuclarımda.
Zaman budadığı arzularım da,
Boy verib, cūcərir alın yazımda.

Varımda, yoxumda bir nida–şūkūr!
Bulanıq sular da durulur, çōkūr
Bu ömrün yolları qayalar aşır, –
Arzular dayanıb göz yaşı tökūr.

Bəzən də içimi boz duman alır,
Ruhumu sərgərdan çöllərə salir...
Gūnəşin şūasi azalır sanki, –
Cismimdə sozalan lal sūkut qalır.

# XATİRƏ ZƏRGƏRLİ
(1968)



**Xatirə Zərgərli (**Kərimova Xatirə Nəsrullah qızı) 1968-ci il dekabrın 6–da Şəki şəhərində anadan olmuşdur.

1976- cı ildə Şəki 10 saylı orta məktəbin 1-ci sinfinə qəbul olunmuş, 1986- cı ildə həmin məktəbin 10-cu sinfini bitirmişdir. 1986–1989-cu illərdə Şəki BUX–ın 2 saylı uşaq poliklinikasında kiçik tibb işçisi kimi çalışmışdır. 1989- cu ildə N.Nərimanov adına Azərbaycan Tibb Universitetinin pediatriya fakultəsinə daxil olmuş və 1995-ci ildə təhsilini başa vuraraq həmin pediatr ixtisasına yiyələnmişdir. Hazirda Şəki Tibb Kollecində həkim–müəllimdir.

Ailəlidir, bir övladım var.

## BİR DƏNİZ ƏFSANƏSİ
(hekayə)

Küləklə dəniz dost idilər. Daima bir yerdə olar, heç ayrılmazdılar. Ən çox sevdikləri oyun da sahilə hansının birinci çatacağı idi. Dənizin dalğaları irəlidə olmağa çalışsa da, külək onu qabaqlayar, pərişan ləpələr yenə süzülüb sulara qarışardı. Beləcə günlər keçirdi.

Bir gün dəniz söylədi ki, uzaq çaylardan axıb gələn sular o sahillərdə daha maraqlı həyatın olduğundan danışırlar. Bu küləyi düşündürməyə başladı. Qərara aldı ki, gedib oraları gəzib dolaşsın, hər şeyin özü şahidi olsun və gördüklərindən dənizə də xəbər gətirsin.

Ayrılarkən külək dostuna heç kimlə ünsiyyət etməməyi, onu gözləməsini xahiş etdi və tez qayıdacağını vəd edərək ayrıldı.

Günlər keçirdi. Küləkdən bir xəbər yox idi. Dəniz təklikdən darıxmağa başlamışdı. Bu zaman sahildə insan göründü. Yaş qumun üzərində yalın ayaqlarını izləri qalırdı. Dərdli, pərişan görkəmi vardı. Dənizə ayaqları ləpələrə toxunacaq qədər yaxınlaşaraq oturdu. Uzaqlara–dənizin ənginliklərinə baxaraq xəyala daldı.

Təklikdən yorulmuş dənizin ləpələri insana doğru can ataraq suları ilə onun ayaqlarına sığal çəkməyə başladı. Sanki dərdini azaltmaq,ovundurmaq istəyirdi.

–Niyə pərişansan? Dərdini mənə danış, ürəyini boşalt,yüngülləşərsən. – söylədi dəniz.

İnsanin həqiqətən onu dinləyə biləcək həmsöhbətə ehtiyacı vardı. O dənizin səmimiyyətinə inanırdı. Lakin onun küləklə dostluğunu bilirdi. Odur ki, soruşdu:

–Sirrimi heç kəsə açmazsan ki?

–Mənə etibar edə bilərsən. – söylədi dəniz.

–Hətta dostun küləyə də?..

–Hətta ona da danışmaram. Narahat olma, söz verirəm.

İnsan qəlbinin təlatümünü dənizə danışdı. Danışdıqca da yüngülləşdi, sakitləşdi. Elə bil ki, dərd yükünü xeyli azaltmış oldu.

İnsanın dənizlə ünsiyyətdən çox xoşu gəldi. Sonralar da yolunu sahildən saldı–qəlbini ovundurmaq, rahatlıq tapmaq üçün. Dəniz də hər dəfə onu dinlədi, sirlərini qoynunda gizlətdi, susdu, susdu...

Zaman keçdi. Külək uzaq diyarlardan geri qayıtdı və köhnə dostunun görüşünə tələsdi. Çox darıxmışdı onun üçün. Dənizin başına dönüb dolandı, dolandı.. Dəniz çox məyus idi.

–Sənə nə olub? Sən əvvəlki dəniz deyilsən, susqunsan, şənliyin də azalıb. – dedi.

–Yox.yox mənə heç nə olmayıb. Mən sənin qoyub getdiyin dənizəm.

–Heç deməzdim ki, belədir. Bax, sahildə də ayaq izləri var. Yoxsa sən insanla söhbət etmisən? Axı sənə söyləmişdim ki, onlarla ünsiyyət etmə. De görüm, insan sənə

nə danışıb ki, onu ürəyinə yaxın buraxıb bu qədər pərişan olmusan? Sanki şənliyin, şuxluğun itib, yorğun görünürsən.

Dəniz insana verdiyi vədi xatırlayaraq susdu, küləyə heç nə söyləmədi. O, sirləri qoynunda gizlətməyi yaxşı bacarırdı.

Külək qəzəblənərək ondan küsəcəyini, bu dostluğu poza biləcəyini söylədi. Dostunu itirəcəyindən qorxuya düşən dəniz çalxalandı. Şahə qalxan dalğalar qəzəbli küləyi qucaqlamağa, sakitləşdirməyə çalışırdı...Sonra biçarə halda sulara çırpılaraq qərq olurdu.

Dənizin danışmayacağını görən külək ondan incidi, bir daha dönməyəcəyini vəd edərək uzaqlaşıb getdi.

Lakin külək də dənizi çox sevirdi. Odur ki, zaman–zaman geri qayıdaraq vıyıldayır, uğuldayır, dənizin başına fırlanaraq insanın sirrini öyrənməyə və öz köhnə dostu ilə barışmağa can atırdı. Dəniz də küləyi görcək təlatümə gəlir, coşub daşır, lakin onun tələbini yerinə yetirmirdi. O zamandan külək dənizə çıxan insanlara kin bəsləyir, onların dənizi dərdli edib qocaltdığını düşünürdü. Odur ki, gəmiləri, qayıqları aşırmaq, sulara qərq etmək istəyirdi.

Bu əfsanə Yer üzü ilə birlikdə yaranıb və bu gün də yaşayır. Bunun şahidi olmaq istəyirsənsə həm sakit, həm də küləkli havalarda sahilə get. Xəfif bir mehin belə əsmədiyi günlərdə yorğun, fikirli, pərişan dənizi seyr et. Hətta dənizlə söhbət edən insanı da görəcəksən. Tufanlı günlərdə isə küləklə dənizin əbədi mücadiləsinin şahidi olacaqsan.

## TAXTA QAŞIĞIN HEKAYƏSİ

(Hekayə)

Bacarıqlı əllər taxta parçalarına quruluş verib yonaraq sığal çəkdi, hamarladı, qaşıq düzəltdi, –taxta qaşıq. Naxışlarla da bəzədi onu. Sonra satışa çıxardı. Piştaxtanın üstünə qoyulan ağappaq, yaraşıqlı taxta qaşığa ötüb keçənlər laqeyd qala bilmədilər. “Necə də qəşəngdir” deyə ox-

şadılar və tərəddüd etmədən aldılar. Çünki qiyməti də dəmir, gümüş qaşıqlardan çox–çox sərfəli idi.

Mətbəxə gətirdilər taxta qaşığı, bir ilgəkdən asdılar. O da sakitcə sallanıb başqa qaşıqların işinə tamaşa etməyə başladı.

Dəmir qaşığı qaynar xörək qazanının içinə salıb qarışdırdılar. Qarışdırdıqca qaşıq haray saldı, “danq–dunq” edərək gördüyü işi aləmə bəyan etdi, hünərindən danışdı. Qazanın dibini də cızaraq “mən buralarda olmuşam” anlamına gələn dəsti–xəttini qoydu.

Əllər dəmir qaşığı unudaraq qaynar qazanın içində saxladı. O da hikkəsindən qızaraq qazanı qarışdıranın əllərini yandırdı. Əllərin sahibi “sən məni lap təngə gətirdin” deyərək dəmir qaşığı atıb, taxta qaşığı götürdü və qazana saldı.

Taxta qaşıq səs, haray salmadan sakitcə öz işini gördü. Nə qazanın dibini cızdı, nə də qarışdıranın əlini yandırdı, çünki heç qızmadı da. Əllərin sahibi həmişə ondan razı qaldı.

Beləcə zaman keçdi. Taxta qaşıq öz həyatını yaşamaqda davam edirdi. Heç kimi harayı ilə yormur, heç kəsin əlini yandırmırdı. Bəli, heç nə dəyişməmişdi. Hər şey əvvəlki kimi idi. Dəyişən isə yalnız taxta qaşığın yaraşıqlı görüntüsü idi. Qaynar qazanlar yandırıb qaraltmışdı onu. Əvvəlki halından əsər–əlamət də qalmamışdı. Hətta bir gün davam gətirə bilməyib çatladı da. O zaman onu mətbəx üçün yararsız hesab edib görüntüsünə ağız büzərək divar sobasının yanındakı quru odun parçalarının üstünə atdılar.

Əllər soyuqdan üşümüş, barmaqlar donmuşdu. Sobadakı nəm odunların zəif istisi əlləri isitmirdi. O zaman qapqara qaralmış, qurumuş taxta qaşıq gözə dəydi. Əllər cəld onu götürdü, sobaya atdı. Oda düşən kimi alovlanan qupquru taxta qaşığın istisi əlləri isidərək barmaqlarının göyərmiş rəngini çəhrayı ilə əvəz etdi. Əllər xoş bir duyğu ilə təsirləndi. Həyatı tədricən zəifləyən alov dilimləri ilə tamamlanmaqda olan taxta qaşıq isə heç nədən şikayət et-

mir, son mövcudluğunda yenə əllərin sahibinə yararlı olmaq xoşbəxliyi ilə yaşamına "əlvida" deyirdi.

Əllər kiçik taxta parçalarını yonaraq, sığal çəkir, qaşıq düzəldirdi–yaraşıqlı, yararlı taxta qaşıqlar. Qarşıda onları bir taxta qaşığın taleyi gözləyirdi.

## AFAQ ŞIXLI
(1969)



**Afaq Şıxlı** (Şıxlinskaya) - həkim, şair, tərcüməçi.

Azərbaycan, Rusiya və Avrasiya Yazarlar birliklərinin, Azərbaycan Jurnalistlər birliyinin, Beynəlxalq Yazıçılar və Publisistlər Assosiasiyasının üzvü, Rusiya Poeziya Akademiyasının müxbir üzvü, AYB–nin Moskva bölməsinin katibi, "Nicat"– Azərbaycan irsinin dirçəlişi cəmiyyətinin təsisçisi və həmsədri.

Afaq Şıxlı 1969- cu il 25 iyunda Azərbaycan SSR–in Bakı şəhərində ziyalı ailəsində dünyaya gəlib.

1984- cü ildə Bakı şəhəri 12 saylı orta məktəbi (on beş yaşında) qızıl medalla və 15 saylı musiqi məktəbini (fortepiano sinfi) əla qiymətlərlə bitirib.

1990-cı ildə Nəriman Nərimanov adına Azərbaycan Tibb İnstitunun II müalicə–profilaktika fakültəsini "həkim–terapevt" ixtisası üzrə tamamlayaraq Azərbaycan Respublikasında ikinci ən gənc həkim olmuşdur. 2000-ci ilədək Bakı şəhərində 8 saylı BŞX–da həkim–terapevt işləmişdir. 2000-ci ildə ailəsilə birgə Rusiya Federasiyasının Moskva şəhərinə köçmüşdür.

Burada yaşadığı illərdə Moskva Şəhriyar Ədəbi Məclisinin üzvü kimi fəaliyyət göstərmiş, müxtəlif ölkələrdə keçirilən konfranslarda, poeziya seminarlarında iştirak etmişdir.

2018-ci ildə Moskva Ədəbiyyat institutunun Ali Ədəbiyyat kurslarını əla qiymətlərlə bitirmişdir. Hazırda Rusiya Federasiyasının Moskva şəhərində, "İdrak" BGM Azərbaycan dili və ədəbiyyatını tədris edir.

Ailəlidir. İki övlad anasıdır.

Çoxsaylı şeirlərin, hekayə və publisistik yazıların, eləcə də, rus ədəbiyyatı və qazax, qırğız, tatar və b. türk xalqları ədəbiyyatından bədii tərcümələrin müəllifidir.

Əsərləri Türkiyə türkcəsinə, rus, ingilis, fransız, yapon dillərinə, eləcə də türk xalqlarının dillərinə tərcümə olunub; bir çox dünya ölkələrinin mətbuatında yayımlanmaqdadır. Onlarla mahnının (söz və musiqi) müəllifidir.

Türk Akademi Şiir Ailesinin Onur belgisi, Ümumrusiya Azərbaycan Konqresinin fəxri diplomu, AYB–nin M. Muşfiq adına mükafatı, Dədə Qorqud fondunun "Mehriban Ana" ordeni, Şahmar Əkbərzadə adına Beynəlxalq mükafatla təltif olunmuşdur.

"Qəlbimin dedikləri" (2003), "Sevərsənmi..." (2005), "Məndən uzaqda" (2008), "Səni düşünürəm" (2011), "Ömrümün beşinci fəsli" (2013), "Dostlarım, bana da bahar gönderin!" Türkiyə türkcəsində. (2013. Şiir vakti. Türkiye), "Bədii tərcümələr" (2014. Saratov), "Sənə demədiklərim" (2015), " "Sakura dueti" İngilis və yapon dillərində (2017, Yaponiya), "V poiskax sebya" Rus dilində (Moskva) kitabların müəllifidir.

## ƏZİZLƏNMƏK ÜÇÜNDÜR ANALAR!

Analar
oxşanıb əzizlənməyimiz üçündür,
dünyadan inciyəndə...
Analar
sinələrində gizlənməyimiz üçündür,
üşüyüb titrəyəndə...

Analar
qucaqlarında özümüzü,
qəlblərində qəm yükümüzü daşıyırlar.
Analar
kişi qeyrəti çəkib
qadın ömrü yaşayırlar.

Gözlərilə qor götürüb
ömrümüzün çırağını yandırırlar analar.
Saflıqda, paklıqda
göylərdən enmiş mələyi andırırlar analar.
Dar gündə Nüşabə, Həcər olurlar,
Xoş gündə–Nigar...
Süd qoxusu, layla səsi,
bir də məhəbbət qoyurlar yadigar.

Analar
müdrik baxışlarında
günahlardan təmizlənmək üçündür!
Analar
sonsuz məhəbbətlə sevilib
əzizlənmək üçündür!

## CANIM VƏTƏN!

Canım Vətən, qollarımı açmışam,
Şəfqət eylə qucağına sığınım.
Keçənlərdə əlim səndən üzülüb,
Qismət ola bu çağına sığınım.

Qar ələnib gözdən itən izimə...
Qınaqlıyam, soyuq baxma üzümə.
Səndən ayrı yer tapmıram özümə,
Bir bucaq ver bucağına sığınım!

Bircə yol da qəribinə "canım" de!
Övladınam, "ürəyim" de, "qanım" de!
Odlar yurdu! Atəşində yanım, de,
Külün olum, ocağına sığınım!

## AZƏRBAYCAN BAYRAĞI

Mən nə heykəl,
Nə də bir bez parçasıyam!
Mən sabahın,
Azadlığın carçısıyam!

Neçə şəhid məzarının
“Vətən" deyən harayıyam!
Anaların oğullardan gözlədiyi
Xoş qələbə sorağıyam!
Mərd əlində dalğalanıb
Hələ misli görünməmiş
Elə Zəfər çalasıyam -
Tarixlərdə qalasıyam!

Zəfər üçün doğulmuşam!
Arzunun Zəfər çağıyam;-
Mən müqəddəs,
Yerəenməz
Azərbaycan bayrağıyam!

## OVUCUNDAYIQ

Ömür daş qəlibdə, günlər qanadlı,
Yenilməz bir dağın yamacındayıq.
Dərd var içimizdə – ayrılıq adlı,
Hərəmiz dünyanın bir ucundayıq.

Həyat var, sevinci sığır bir ana,
Sevinc var, dar gəlir cümlə-cahana.
Yaşayıb dözürük çox imtahana,
Kim bilir, Tanrının nə sucundayıq?!.

Arzular, istəklər duranda üzə,
Tükənən ümidlər baxmaz ki sözə!
"Azad ol" desə də xəyallar bizə,
Taleyin açılmaz ovucundayıq!

**XƏYALIMA YAĞIŞ YAGIR...**

Xəyalıma yağış yagır...
Elə yağır... görünməyir ümidim səması da.
Bir zamanlar səadətdən don geyinən duyğuların
Tutulubdu çılızlaşan siması da.

Damlaların sıxlığından baglanıbdı arzuların qapıları...
Bu yay günü,
Sevincim də, üz tutubdu qışa sarı.
Məhəbbətin şəfəqləri gizlənibdi buludların arxasında,
Günəş batır ötüb keçən gözəlliklər sırasında...
Xəyalıma yağış yağır...
Damlaları köz rəngində!
Həsrətindən cadar–cadar olan qəlbim köks ötürür
Damlaların ahəngində.
Bu günümün üzərinə dumanvarı çökür kədər.
Sahildəki qumlar kimi narın–narın yuyulurlar
Sənlə bağlı xatirələr.
Qulağıma bir səs gəlir–
Sevgimizin pik nöqtəsi anı kimi.
Şeir səsi uçur göyə,
Həyatına vida deyən bir insanın canı kimi.
Bircə günün saatları nə çəkilməz!
Dəqiqələr daşdan agır!
Payızlaşan arzularım saraldıqca,
İlğım kimi,
Xəyalıma yagış yagır...

## BU GECƏ YUXUDA GÖRDÜM BƏXTİMİ...

Bu gecə yuxuda gördüm bəxtimi,
Elə gözəl idi, elə maraqlı...
İllərdi yarına həsrətlər kimi
Mən onu gəzirdim əli çıraqlı.

Bəxtim söyləyirdi mənə nələri, -
Qəlbində bir dünya sözü var idi.
Üzündə nə həsrət nişanələri,
Nə də qəribliyin izi var idi.

İlk dəfə duyurdu ömrün yazını,
Sevinci ilk dəfə çiçəkləyirdi.
“Ata” çağırırdı öz atasını,
Və öz anasına “ana” deyirdi.

Asana dönürdü işin çətini
Qara qələmində, ağ xalatında.
Görürdü tanrının səxavətini
Şair qismətində, həkim adında.

Bəyaz ümidləri deyildi yorğun.
Ögeylik ömründən uzaq qaçalı, –
Heç nədən gileyi yox idi onun,
Nə də darıxmağa vardı macalı.

Gəzirdi dünyanı qayğısız, azad,
Öpürdü doyunca göy dənizləri.
Ondan uzaq idi, hər şeyə inad,
Sevgidən xəbərsiz sevgi sözləri.

...Oyandım, yox oldu gördüyüm ilğım,
(Yuxuma gələnlər başıma gəlsə).
Kimin qismətiydi mən yaşadığım,
Əgər mənim bəxtim belə gözəlsə?

## NECƏ DÜŞÜM YADINA

Yadından çıxdıqca mən
yada dönür bədənim.
Fikrimizdən keçməyən
nə sənindi, nə mənim.

...Necə düşüm yadına,
barı bir yolu olsa!
Yada düşmək adına
bir sağı, solu olsa!

Yaddaş adlı sarayın
pilləsi yox enməyə.
Nə bəhanə arayım
gözünə görünməyə?

Qəlbinə daşınmadım–
köçəndəyada düşəm.
Ya da, söhbətdə adım
keçəndə yada düşəm.

Qismətdə bu da varmış,
dözə bilirsənsə döz!
Belə yaddan çıxarmış
isti nəfəs, tanış üz...

Tale–yollar arası,
geri dönməz gedənim.
Unudulmaq sırası
ya sənindir, ya mənim...

## TƏƏSSÜF

İnsanları sınamağı sevmirəm,
Amma hərdən qınağıma düşürlər.
Göz üstündə saxladığım dostlarım
Gözlərimdən yanağıma düşürlər.

Yandırırlar yanağımı od kimi,
Hər damlada bir iniltim, bir acım.
Ümidlərə tapındıqca əlacsız,
İtgin düşür "dost" sözünə inancım.

Düşüncəmdə sovrulduqca küləklər,
Ürəyimdə təəssüflər baş alır;
Çəkilirəm öz qınıma yenidən,
Köksüm altda bir dost yeri boşalır.

## ÖMRÜM PAYIZA DOĞRU

Həkim, sağatma məni!
Sağalmağa qorxuram.
Dönüb ruh ağrısına
Çoxalmağa qorxuram.

Durma başımın üstdə
Sabah açılanadək.
Yenidən doğulmağa
Bir daha dözməz ürək.

Bir də alışsam əgər,
Bir daha sönmək də var.
Ömrüm payıza doğru–
Xəzələ dönmək də var.

Soyuq qıran gözümü
Yumum günəş varikən.
Əlimi burax, gedim
Yollarım hamarikən.

Sarsıntılar almamış
Gücümü, qüvvətimi
Qoy aparım özümlə
ÖZ boyda xiffətimi.

Mənim göylədi işim,
Sürünməklə yox aram!
Həkim sağaltma məni,
Yaşamağa qorxuram!

## BƏXTİN QÜRBƏT ADLI SÜRGÜNLƏRİNDƏ

Başını dik tutub elə yaşa ki,
Hər kəs səndəkini dəfinə bilsin!
Nə dostlar üzülsün çətinliyinə,
Nə də ki, düşmənlər sevinə bilsin.

Ağrıyan belini əymədən yeri
Nə qədər gəlsə də üstünə həyat,
Yorğunluq sıxsa da çiyinlərindən
Ağrı–acıları misralara at.

Qamqalaq edərək arzularını
Yolunda od çatsa xəbis adamlar,
Yansa da ayağın, şux tut özünü
Elə bilsinlər ki, qanadların var.

Həsrətin əliylə qapa gözünü
Məhəbbət zamansız qismət olanda.
Şaxtaya, borana şeirlər oxu
Bir günəş nuruna həsrət olanda.

İsti yaşlarını görən olmasın
Qəmli günlərində, dar günlərində.
Desinlər, necə də xoşbəxt yaşayır
Bəxtin qürbət adlı sürgünlərində.

Həmişə ulduz ol, həmişə parla,
Arxanca sürünsün qoy acıdillər.
Başını dik tut ki, şair ömrünün
Dəhşət olduğunu düşünməsinlər!

# NAZİLƏ GÜLTAC
*(1969)*



**Nazilə Gültac** (Hüseynzadə) 1969- cu ildə Qərbi Azərbaycanın Karvansara (indiki İcevan) rayonunda ziyalı ailəsində anadan olub.

Azərbaycan Dövlət Tibb Universitetini bitirib. İxtissca terapevtdir.

AYB–nin və CASCFEN təşkilatının üzvüdür. Prezident təqaüdçüsüdür.

"Suya yazılan sevda", Yaşıl pıçıltı", "Qəlbdən dodağa", " Ben gönlümü bilmezmiyim" şeirlər, " İtin payı" povesti və hekayələr kitablarının müəllifidir.

Türk ədəbiyyatından çevirmələr edir. Bu yaxınlarda türk xalqları ədəbiyyatının Azərbaycanda təbliğinə və ədəbi uğurlarına görə Mahmud Kaşkari adına Beynəlxalq Fondun " Şan Yarlığı" mükafatın layiq görülüb. Ankarada çıxan " Nəfəs" dərgisinin azərbaycan üzrə təmsilçisidir.



## AÇILMAYIB KAİNATIN BƏLƏYİ



Arzularım yaman durub qəsdimə,
Alt–üst edir divanə tək hər şeyi,
Dolaşır uzaqda, gəlir üstümə.
Qonur xəyalıma sevda mələyi.

Uzağam qeybətə, şərə böhtana,
Mürgüləyib ömür boyu yatana,
Yaxşıları hey calayır yamana,
Bəxtimizdə şeytanların kələyi.

Tale yollarımız göydə yazılıb,
Ürəyimə qəbir orda qazılıb,
Bizim ulduzumuz yolunu azıb,
Yazıb ayrılığı durna lələyi.

Gültacın pənahı öz dünyasıdır,
Qəlbini yaşadan söz dünyasıdır.
Bu dünya əzəldən döz dünyasıdır,
Açılmayıb kainatın bələyi.

## XƏZƏLDİ DÜNYA

Açıbdı könlümün al çiçəklər,
Qalmasın qoy məndə al, çiçəkləri.
Götür naxış–naxış ürəyin üstə
Bir güllü yaylıq tək sal çiçəkləri.

Sənsən ürəyimin şahı, sultanı,
Yazmısan könlümdə sevgi dastanı,
Arayır gözlərim, yoxsan. Bəs hanı?
Noola, xatırlasan əhdi, peymanı.

Sığmayır ürəyim yenə cahana,
Qışı da bahardı, onu duyana,
Bir yanı dərədi, bir yanı dağdı,
Nə qədər dönsək də, o yan bu yana.

Görmək istəyənə, gözəldi dünya,
Hər şeydən ucadır, əzəldi dünya.
Gör neçə sevdası vədəsiz soldu,
Sonunda bir ovuc xəzəldi dünya.

## OVUNAR

Əsər xəzan yeli ömrüm üstünə,
Tökər yarpağını səbrim üstünə,
Yol alıb bir payız qəbrim üstünə,
Gəlsə, dəli sevdam onda ovunar.

Olanım, olmazım pərən–pərəndi,
Nəğmələr dilimdə " Yanıq Kərəmdi",
Vüsalı, hicranı bəndi–bərəmdi,
Gəlsə, dəli sevdam onda ovunar.

Deməsin aylarım, ilim qabaqda,
Dünyanın işləri tərs dolanmaqda,
Gedişin gəlişi hey yubanmaqda,
Gəlsə, dəli sevdam onda ovunar.

Min ildi Gültacın qəlbi yaralı,
Yollar ayrıcında yardan aralı,
Boylana–boylana qalıb qübarlı,
Gəlsə, dəli sevdam onda ovunar.

***

Hərdən qoxusu gəlir burnuma
xoşbəxtliyin.
Yağmurdan sonra açan çiçəyin.
İşığı qonur gözlərimə,
tufandan sıyrılan şimşəyin.
Zamanın xəlbirindən süzülən,
qəlbimin aynasında güzgülənən
şirin təbəssüm kimi.
Sadəcə qoxusunu görürəm.
Özü bir xəyal kimi....

***

Səhvlər çoxmərtəbəli bina kimidi,
çoxaldıqca, qalxırsan
uzaq və əlçatmaz olursan.
buludlar arxanca su səpir.
kölgən yerdən göyə qədər uzanır.
Sən özünə xəyal kimi görünürsən,
səhvlər səni səndən alır, düzəltmir.
Səhvi düzəltməyə bir ömür yetmir.

## GEDİRƏM

Buza dönmüş əllərindən
qar götürüb, gedirəm.

Odu sönmüş ürəyindən
qor götürüb, gedirəm.

Gözlərimdən göz yaşımı
dər, götürüb gedirəm.

Uzun, incə bir yolu
yar götürüb, gedirəm.

## İNANDIM AYRILIĞA

Boylandım sola, sağa,
Başı dümanlı dağa,
Döndüm sarı yarpağa,
Inandım ayrılığa.

Göz yaşımda gülüşdü,
Yanağımdan sürüşdü,
Durna teli tək düşdü,
İnandım ayrılığa.

Sevgi özü də güldü,
Ləçək–ləçək töküldü,
Sonda bir ovuc küldü,
İnandım ayrılığa.

## QAR YAĞMIŞDI...

Bir bahar günüydü,
Çobanaldadan yağış
Mənə gəl–gəl söylədi.
Çobanyastığı gülü
gözəl–gözəl gülürdü.
Olacaq, olmayacaq deyərək,
üzdüm çiçəkləri ləçək–ləçək.
Ümidləri verdim yelə,
geri döndüm.
Gördüyüm,
görə bilmədiyim hər şeyə
qar yağmışdı...

***

Şirin istəklərin yuvasıydı,
qəlbim bomboşdu indi.
Ürəyimə yaxınım,
gözümdən uzaqdı.
Üzüaşağı axan bulaq
yuyub aparır məni.
Qəbim bomboşdu tamam.
Boşluqda bir hayqırtı,
o səsdən qorxuram, anam.
İçimin çölündə tozanaq gəzir.

## İÇİMDƏKİ SÜKUT

Kordu küləklər, kor.
Hara gəldi, çırpır özünü.
Qara dirəklərə dəyir,
uğuldayır.
Uçuruma yıxılır,
ufuldayır.
Dərələrdə ağlayır.
Kardı küləklər, kaar!
Tufanlarda dolaşır,
Kor, kar küləklər
nə məni görür,
nə də eşidir.
Sökür içimdəki
tənhalıq sükutunu
yalquzaq ulartısı.

## SARI

Solanda ağ gül də saralır.
Hər rəngin içində
bir sarı rəng.
Hər rəngin özündə bir ahəng.
İstədiyinə vermədilər
Sarı gəlini.
Dərddən ağardı teli.
Sazın sarı simində
Yandı "Yanıq Kərəmi ".
Ağappaq arzularım
çiçəklədi sapsarı.
Ürəyimdən su içir,
sarı–sarı çiçəklər.
Dəli sevdam
üzünü qoyub
çiçəklərə, hönkürür.

## HARAY

Dağlar boydadı dərdim,
aşa bilmirəm.
Dərəm çox dərindi,
daşa bilmirəm.
Yığım yollarını gözümə bəlkə.

Çox–çox uzağam özümə.
Getdiyin yol kəsib yolumu
Gələ bilmirəm özümə.

Yağır payız yağışı,
İslanıb üst başım.
Qarışıb yağışa
gözümün yaşı.
Harayım zildən yuxarı,
Hayın bəmdən aşağı.
Çəkim yollarından gözümü bəlkə.

# QALİB ŞƏFAHƏT
(1973)



**Qalib Şəfahət** (Bağırov Qalib Xanoy oğlu) — şair, nasir, publisist, həkim. Azərbaycan Yazıçılar Birliyinin üzvü.

Tanınmış şair Qalib Şəfahət 22 mart 1973- cü ildə Gədəbəy rayonunun Parakənd kəndində ziyalı ailəsində anadan olub. 1990- cı ildə Gədəbəy rayonu Parakənd kəndinin orta məktəbini bitirib.

1990- cı ildə Azərbaycan Kənd Təsərrüfatı İnistituna daxil olub. Uşaqlıqdan həkim sənətinə böyük həvəsi olduğuna görə, bu institutdan sənədlərini geri götürüb və1991-ci ildə N.Nərimanov adına Azərbaycan Tibb Universitetinin 1-ci Müalicə–proflaktika fakultəsinə daxil olub, 1997-ci ildə Tibb Universitetini bitirib. 1999–2009-ci illərdə ordu sıralarında xidmət edib.

Ələt və Füzuli hərbi hospitallarında şöbə rəisi vəzifəsində çalışıb. Ehtiyatda olan tibb xidməti kapitanıdır. Hal–hazırda həkim–kardioloq vəzifəsində çalışır.

Hələ orta məktəb illərindən ədəbiyyata böyük həvəsi olub. Gədəbəy rayonunun “Tərəqqi” qəzetində tez–tez şeir və məqalələri dərc olub.

Qalib Şəfaət tələbəlik illərində də yaradıcılığını çox uğurla davam etdirib. Şeirləri "Təbib", "Şəhriyar", "Çağ", "Ədəbiyyat" qəzetlərində, “Ulduz” və “Azərbaycan” jurnallarında mütəmadi olaraq çap olunub. Hal–hazırda da dövrü mətbuatda tez–tez şeirləri və hekayələri dərc olunur.

"CƏSARƏTLİ QƏLƏM", "İBN SİNA" diplomlarına layiq görülüb.

Əsərləri: 1."Mənə ürək verin", şeirlər, Bakı, 2010.. 2."Əllərindəki göyüzü", şeirlər, Bakı, 2013.

3. "Kırık merdiven" (hekayələr) Türkiyə, 2017.

## QIZIL İNƏK
(Hekayə)

Dünyanın düz vaxtları idi. Bir-birimizin kəndinə-kəsəyinə, hələ üstəlik evinə-eşiyinə də rahatca gedib gəlir, xeyrində, şərində yaxından iştirak edirdik.

Onda kim idi səndən soruşan – "haraya gedirsən və nə üçün gedirsən"? Kim idi sənə – "gözün üstə qaşın var"! – deyən. Deyən tapılsaydı belə, sən də bir az səsinın tonunu qaldırıb ağzının alımını verərdin. "Sən kimsən? Sənə nə var ki, mən hara gedirəm və hardan gəlirəm? Kefimin ağasısan? – deyərdim. – Kimin nə hünəri var ki, kirvəmgilə gedib gəlməyi mənə qadağa qoysun".

Sonra o yollar elə bağlandı ki... Nə mən o kəndə gedə bildim, nədə ki, kimsə mənım qarşımı kəsib soruşdu: – "Hara gedirsən və niyə gedirsən?"

İndiki düşüncəmlə belə fikirləşirəm – "Əgər gedəsi olsaydım, kimsə məndən soruşsaydı, onda mən ona heç nə deyə, nə də cavab qaytara bilməzdim. Durub yazıq-yazıq üzünə baxardım". Hansı üzlə, necə deyə bilərdim ki, "kirvəmgilə gedib gəlirəm".

Söz yox, adını belə qoymuşdum, "kirvəmgilə gedirəm!" Əslinə qalsa onlara getməyimin əsas səbəbi Suzanna idi.

Kəndlərimiz çox yaxın olduğuna görə qonşu kəndə gedəndə ata, eşşəyə o qədər də ehtiyac duyulmurdu, çox vaxt elə bir-birimizin evinə piyada gedib gəlirdik.

***

Atamla Alberd əmi yaxın kəndlərdən olsa da əvvəllər bir-birini tanımamışdılar. Bəlkə də uşaq olanda adamlar bir-birinə o qədər əhəmiyyət vermirlər. Müəyyən bir zaman kəsiyi lazımdır ki, insanlar bir-birini yaxından tanıya bilsınlər. Həm də belə bir deyim var, – "çətin günlər insanı bir-birinə yaxınlaşdırır da, uzaqlaşdırır da". Əsas məsələ odur ki, sən o zamanın sınağından üzüağ çıxa biləsən.

Əsgərlikdə bir yerdə xidmət eləmişdilər. O vaxtdan isti münasibətlər səmimi dostluğa çevrilmişdi. Mən özümü

dərk eyləyəndən ailəlikcə mehriban dostluğumuzun şahidi olmuşdum.

Dostluqlarının səbəbini nənəmin dilindən eşitmişdim. Nənəm o zamanlar deyirdi, – "a bala, erməni olanda nə olar? Erməni də insandı, onların da yaxşısı-yamanı, mərhəmətlisi-qanacaqlısı, dostluqda sədaqətlisi olur. Fərqi yoxdu, yaxşı elə hər yerdə yaxşıdı. İstər erməni olsun, istər də müsəlman. Gözümün ağı-qarası olan bircə oğlum erməninin hesabına bu gün sağ-salamat gözümün qabağındadır. Yoxsa, Allah bilirdi aqibəti necə olacaqdı".

Onu da deyim atam nənəmin son ümid, son sığınacaq yeri olub. Nənəm deyirdi, ondan başqa məni həyata bağlıyan kimim-kəmsəm yox idi.

Evimiz Araz çayından çox da uzaq deyildi; ağlım kəsəndən nənəm məni də yanına alıb tez-tez Araz çayının qırağına gedərdi. Çayın qırağında dayanıb həsrət-həsrət çaydan o yana, Cənubi Azərbaycan tərəfə baxardı. Elə ofuldanardı, elə ofuldanardı ki, yağı görsə ona yazığı gələrdi.

Əvvəllər nənəmin ofuldanmağına o qədər də əhəmiyyət verməzdim. Başına gələn əhvalatı mənə danışandan sonra ona yazığım gəlir, çox ağrıyıb-acıyırdım. Nənəmin yanında özümü toxtaq tutsam da, nənəmdən xəlvət onun dərd-sərini düşünüb hönkür-hönkür ağlayıb ürəyimi boşaldardım. Danışırdı – "Onda cavan qız idim. Bilmirəm nə məsələ idi, atam anamı, qardaşımı və məni götürüb Cənubi Azərbaycanı gecəylə tərk edib bu tərəfə – Şimalı Azərbaycana (onda bu tərəflərə "şurəvilər" deyirdilər) köçdü. Beş ilə qədər burda ac-yalavac, bir qarın ac, bir qarın tox yaşasaq da, qulağımız dinc, başımız sakit idi, bir təhər başımızı girələyirdik. Mən artıq ərgən qız idim. Baban mənə elçi düşdü. Evləndik. Aradan bir il keçməmişdi, yuxarıdan göstəriş gəldi. Bizimkilər yenidən İrana qayıdası oldu. Bayaq dərdimiz bir idi, indi birə-beş artdı. Mən də ailəli, necə bir-birindən ayrılasan, öz doğmalarından uzaq olasan? Çox ölçüb-biçdik, axırda atam belə qərara gəldi: – "Sən ailəlisən qal, – dedi. –

Sağlıq olsun, İranla məsafə o qədər də uzaq deyil. Tez-tez gəlib gedərik”. Başqa əlacımız da yox idi. O ayrılıq, bu ayrılıq, öz doğmalarımdan bu günə qədər də xəbər-ətər tuta bilmirəm. Başlarına nə iş gəldi, necə getdilər, sağ-salamatdırlarmı, hələ də heç nədən xəbərim yoxdu”. Nənəm yenə ofuldanıb sözünü davam etdi:

– Deməк, a bala, mənim bağrım daşdan imiş, mən bu boyda dərdə-azara tab gətirib dözə bilmişəm. Hələ də gözlərim yollardan yığılmayıb. Elə bilirəm ki, bu gün, sabah qapını döyüb içəri girəcəklər.

Mənə belə gəlirdi nənəmin bu baxışları o baxşlardan deyildi. Əzizlərinin timsalında bütün həsrətlərə acı-acı baxıb, ayrılıqlara dözüm nümayiş etdirirdi. – Araya çökmüş sükutdan sonra dərin köks ötürüb dedi: – Eh, a bala! Hələ bununla yaxamı həsrətin, ayrılığın əlindən qopara bilsəydim nə dərdim olardı ki! Sonra da müharibə başladı. (Böyük Vətən Müharibəsi nəzərdə tutulur). Onda atanın heç bir yaşı tamam olmamışdı. Kişi müharibəyə getdi. Birtəhər başımızı girələyə-girələyə neçə illər də onun yolunu gözlədik. Söz yox, müharibədən sonra qayıtdı. Yenicə Allahımıza şükür oxuyurduq ki, aradan üç il keçməmiş kişi yatıb ayılmadı. O gündən sonra bütün ümidlərimi atana bağladım. Atan mənim yeganə təskinlik, ümid yerim oldu.

***

Bildiyimə görə nənəmin əvvəllər ermənilərdən xoşu gəlmirmiş. Niyəsini dəqiq bilmirəm. Yəqin, bildiyi bir şey, bir səbəbi varmış. Amma onu bilirəm ki, həmişə deyirmiş, “erməniyə etibar yoxdu, ermənilər murdar millətdi”.

Əsgərlikdən sonra Albert əmi bizə gəlibmiş. Nənəm ağız buzüb atama deyib ki, “bu erməninin bizim evdə nə işi var”? Atam onda başına gələn hadisəni nənəmə danışıb, deyib, – “Ay ana, bu erməni olmasaydı sağ tikəm ələ gəlməzdı”. Nənəm təlaşla nə olduğunu soruşanda atam başına gələn hadisəni danışıb. – “Ay ana, əsgərlikdə “av-torotada” xidmət edirdik. İşimiz-gücümüz qırıq-salxaq maşınları remont etmək idi. Onda texnika o qədər də

inkişaf etməmişdi. Hər şey əl gücünə, qol gücünə görülürdü. Zİl markalı maşının altına daş, taxta yığıb yuxarı qaldırmışdıq. Maşının altına girib təmirlə məşgul olurdum. Bir də gördüm kimsə mənim ayağımdan tutub dartdı. Elə dartıb kənara tulladı ki, maşından hardasa 5 metr aralıya düşdüm. Özümü toplayıb demək istəyirdim ki, – Niyə belə etdin? Məqsədin nədir? – Söz ağzımdan çıxmamış məni dartıb kənara atan adam dilləndi:

– Ara, maşının altında qalıb öləcəkdin.

Çox həyacanlı görünürdü. Sözünü tamamlamamışdı ki, kubikin dağılıb maşının yerə sərildiyini gördüm. Dilim-ağzım qurumuşdu. Ana, o anda ölümdən qorxmadım, sənin yalqız qalacağın məni yaman qorxutdu. Maşın məni xıncım-xıncım edib öldürəcəkdi".

Bu hadisədən sonra atamla Albert əmi öz aralarında əhd-peyman bağlayıblar ki, ölüncə bir-birlərinə qardaşdan artıq olacaqlar. Bilmirəm, o inanc nə qədər doğrudu; hər ikisi barmaqlarını çırtıb qan alıblar, sonra da o qanı bir-birinə qarışdırıblar. Qan qarışanda insanları bir-birinə daha da bağlayırmış. Hələ onu da zarafata salıb beynimə yeritmişdilər ki, Albert əminin qızını sənə alacağıq. Albert əmi də arada, kefinin saz vaxtı gülə-gülə deyirdi:

–Ara, kürəkən, birdən qızı almazsan, bizı biabır edərsən haaa...

Dinmirdim. Başımı yerə dikirdim. Nə deyəcəkdim? Daha deyə bilmirdim ki, "almamaq nədi, qızdan ötrü canım da çıxır". Üstəlik də nənəm gülə-gülə nə desə yaxşıdı:

– A bala, siz göbəkkəsdi, yəni deyikli olmusunuz. Adətə görə göbəkkəsdi olanlar nişanlı kimi bir şeydi.

Bu göbəkkəsdinin – deyikli olmağın – nə olduğunu o qədər də başa düşmürdüm, amma orasını bilirdim ki, nəsə bu yaxşı sözdü. Mənə sərf edirdi axı. Sevinirdim.

Düzünə qalsa, qızdan ötrü qanım elə qaynayırdı ki, dəli-divanə idim. Ürəyim gedirdi. Üzünü görmək bir yana, adını eşidəndə dizlərim əsim-əsim əsirdi. Utanmasam deyərdim – Alıram, elə indicə gedib gətirin. Yaxud bizdə olanda qolundan tutub deyərdim – "daha evnizə qayıtdı

yoxdu, mənimsən ki, mənimsən, mənimlə bir yerdə qalmalısan”. Həmişə çalışırdım bir bəhanə tapıb onlara gedim. Evdə başa düşsələr də üstünü vurmurdular. Düzdü, bir-birimizə eşqimizi elan etməmişdik. Bunu deməyə ehtiyac da yox idi. Xoş münasibətimizdən, davranışımızdan bir-birimizi başa düşürdük. Valideyinlərimiz yarı zarafat, yarı ciddi bunları tez-tez elan edirdilər. Bu elan bizim çox xoşumuza gəlirdi. Bu elandan özümüz də nə utancağlıq, nə çəkincəklik hiss etmirdik. Uşaqlıqdan belə bir mühit yaradılmışdı. Biz də “belə də olmalıdır”, ideyası ilə könüllü olaraq razılaşmışdıq. İkicə gün ondan ayrı qalanda darıxırdım. Elə bilirdim nəsə çatışmır. O da məni görən kimi çoxdandır yaxın adamını görməmiş kimi üstümə qaçıb deyirdi – “Harda idin, sənsiz yaman darxırdım”!

***

Albert əmiyə evimizdə hamının hörməti vardı. Təkcə Albert əmiyə yox, elə onun arvadı Rozanna xalaya da, qızı Suzannaya da. Evimizdə onları hamı yaxın adam kimi qəbul edirdilər.

Ya biz onlara gedəndə, ya da onlar bizə gələndə elə bilirdin hər iki ailədə toy-bayramdı. Nənəm Suzannanı daha çox istəyirdi. “Gəlinimdi” – deyib həmişə boynunu oxşardı. Bu da mənə xüsusi bir ləzzət verərdi. Nənəm hər belə dedikcə mən özümlə qürrələnər, özümü ailə-uşaq sahibi, yetkin bir kişi hiss edərdim.

Suzanna da nənəm belə dedikcə elə əzilib büzülürdü, özünü elə naza qoyurdu, elə bilirdin tam yetişmiş bir qızdı, bu gün-sabah toy edib gəlin köçürəcəklər.

***

O inəyi Albert əmidən mən istəmişdım. Əhvalat belə olmuşdu. Uşaq idim, ağlım o qədər də kəsmirdi. Bəlkə də saflıqdan irəli gəlirdi. Uşaqlar saf olur axı. Zaman-zaman həyat özü insanı rəndələyib formaya salır. Həm də kənddə yaşadığımıza görə mala, heyvana çox həvəs göstərirdik. O inəkdən çox xoşum gəlirdi. Heyvanların da yaraşıqlı, gözə gəlimlilərinə rast gəlmək olur. Nə olsun heyvandır? Onların da arasında seçilənləri olur. İnək də olsa elə bil

Tanrı ona xüsusi bir yaraşıq vermişdi. Yerişində, duruşuda özünə xüsusi olaraq fikir verən qadınlar kimi ağayanalıq, özündən razılıq duyulurdu. Həm də başqa inəklərdən fərqli olaraq üstündə bir mısqal da olsun çirk, palçıq görə bilməzdin. Kənardan baxanda elə bilirdin gözəl-göyçək bir qadın özünə sığal çəkib yar görüşünə tələsir.

Tükləri qızılı-sarı rəngə çalırdı. Kənardan baxanda parıltılı görünürdü. Günəş şəfəqləri üzərinə düşəndə elə bilirdin qızıldı parıldayır. Bilmirəm məhsuldarlığına görə, ya tüklərinin qızılı-sarı rəngə çaldığına görə, adına "qızıl inək" deyirdilər.

Bir neçə dəfə yanımda o inəyi yaman tərifləmişdilər. Mənim də qəribə bir xasiyyətim vardı. Yaxşı nə görürdümsə istəyirdim ki, mənim olsun. Elə istəyirdim o inək bizim inəyimiz olaydı.

Bir gün onlara getmişdik. Atam Albert əmi yeyib-içirdilər, kefləri saz idi. Biz də Suzannayla bir tərəfə çəkilib oynayırdıq – öz uşaqlıq aləmimizdə idik. Birdən ağlıma gələni dilimə gətirdim:

– Albert əmi, o qızıl inəyi mənə verərsənmi? – dedim.

Kişi tərəddüd etmədən, gülərək:

– Ayıb deyilmi, kürəkən! İnəyi də, bu qızı da sənə verəcəm. Gedəndə apararsan – dedi.

Atam:

– Əşşi uşaqdı, dediyinə fikir vermə, durub sənin qapından inəkmi aparacam, a canı sağ olmuş? – desə də, Albert əmi iki ayağını bir başmağa dirədi ki, – "Yox! Mənim ağzımdan söz çıxdısa eləməliyəm. Vəssalam! Mən bu uşağın sözünü heç vaxt yerə salmaram. Bu uşaq indiyə qədər məndən heç nə istəməyib. Birinci dəfədir, onu gərək mütləq yerinə yetirim, – dedi.

Gecə evimizə qayıdırdıq. Düzdü, qalsaydıq çox sevinərdim, amma atamın xasiyyəti idi, nə vaxt olur-olsun, mütləq evə qayıtmalı idi. Biz həyətə düşəndə inək tövlədən çıxarılıb həyətdəki dirəyə bağlanmışdı. Həyətdə atamla Albert əmi xeyli cəhli çəkdilər. Axırda Albert əmi dedi:

– Aparmırsan aparma! Özüm sizinlə söhbət edə-edə aparıb qapınıza bağlayıb qayıdaram – deyib inəyin ipindən çəkə-çəkə yola düşdü.

Atam onun ciddiliyini görüb çarəsiz razılaşdı:

– Görürəm inadından əl çəkmirsən. Yaxşı, sən qayıt, İlkin özü aparar, mən də kömək edərəm.

Yol boyu atam məni danladı:

– Bizi biabır etdin, səndə bu nə xasiyyətdi, başqasından nəsə istəyirsən? Qapımızda mal-heyvanmı əskikdi?

Dillənmədim. Elədiyim hərəkətə görə həm sevinirdim, həm də peşman olmuşdum. Bəlkə də atam danlamasaydı o qədər də peşman olmazdım.

Sonralar yarizarafat, yarıciddi, "Qızın cehizi indidən gəlib. Cehizi gəlibsə özü də mütləq gələcək. Fərasətli oğul bax belə olar!" – deyirdilər.

***

Məndən böyük iki bacım var idi. Onlardan sonra iki oğlan uşağı doğulsa da qalmayıblar. Nənəm bəzən mənim dünyaya gəlməyimdən danışırdı. Anam mənə hamiləykən yuxuda ona agah olub ki, uşağın kirvəsi erməni olsa atamın oğlan uşağı olacaq, özü də mütləq sağ qalacaq. Elə o günlərdə Albert əmi bizə gəlibmiş, söhbət əsnasında deyib:

–Ara, qardaş, sənin oğlun olacaq, onun da kirvəsi mən olacam. Ondan sonra uşağınız duracaq. Axı siz türklərdə belə inanclar, inamlar çoxdur. Ürəyimə damıb, mənim də qızım olacaq. Qızımı da oğluna alarsan qohum olarıq!

Nənəm deyirdi, "Elə bil bu söz lap yerinə düşdü, ürəyimcə oldu. Atandan qabaq mən dilləndim:

– Düz deyirsən, Albert. O uşağın kirvəsi səndən artıq adam olacaq? Ağıllı fikirdi. – Sonra da gülərək dedim: – elə kirvəsinin də qızını oğlumuza alarıq.

Nənəm zarafatla deyirdi – "Elə bil canı yanmamışın ağzı fal imiş, necə demişdisə eləcə də oldu. Bircə qalıb qızı gətirməyimizə, sağlıq olsun, o da inşallah, qismət olar. Tez böyü, ağrın alem, tez böyü, toyunu görməmiş ölüb-

zad eyləyən deyiləm. Gərək oğlumun toyunu görüm ki, mən də rahat ölə bilim".

Suzanna ilə mən isə elə həvəsdə idik ki, əlacımız olsaydı həmişəlik bir yerdə olmaq üçün lap tez böyüyərdik.

***

Münaqişə təzə-təzə alovlanırdı. Arada eşidirdik, ermənilər belə bir təxribat törədiblər. Türklər də (yəni bizimkilər) cavabını gecikdirməmişdi, həmin andaca cavablarını qaytarmışlar. Düzdü bizimkilərdə silah olmasa da sağlam ruh var idi, Vətən istəyi, vətən sevgisi var idi. Hərə əlinə keçən nə vardısa – quş tüfəngi, lapatka, yaba ilə, heç nəyi olmayan dişi ilə, caynağı ilə silahlanırdı.

Məlum hadisələrdən sonra, açığı məndə Suzannagilə əvvəlki gedib-gəlmək həvəsi qalmamışdı. Qanadı qırılmış quş kimi həyətdə-bacada çox həvəssiz, könülsüz davranırdım. Həm də evdən tapşırmışdılar, "amanın bir günüdü bala, bir müddət getmə, görək nə olur, gedərsən bizi yazıq edərsən".

Nənəm neçə ildən sonra bir vaxtlar boğçasında gizlətdiyi sözü yenidən işə salmışdı. "Erməni alçaq millətdi, erməniyə etibar yoxdu".

Hadisələr başlayandan sonra bir gecə Albert əmi Suzannanı, Rozanna xalanı götürüb xəlvəti bizə gəlmişdi. Bu gəliş əvvəlki gəlişlər kimi deyildi. Könülsüz, ürəksiz gəlmişdilər; gəlişləri ilə otağa ölü bir sükut çökmüşdü. Davranışlarında, hərəkətlərində, baxışlarında, duruşlarında əməlli-başlı soyuqluq hiss olunurdu. Bu gəliş vida gəlişi idi.

Hamı günahkar kimi bir-birinin üzünə baxmağa utanırdı. Mən də Suzannanın qarşısında günah iş tutmuş adam kimi gözümü gözündən qaçırırdım. Onun da mənim kimi hisslər keçirdiyini duyurdum.

Albert əminin gözləri dolmuşdu, üzünü atama tutub dedi:

– Bilirsən qardaş, bir vaxtlar rahatca gəlib getdiyim evə indi xəlvətcə gəlmişəm. Allah mərdimazarın evini

yıxsın. Butün münasibətimiz, arzularımız puç olub getdi. Sabaha umud yoxdu, sabah necə olacaq!

Onda elə istəyirdim ki, Süzanna ilə əl-ələ tutub gözdən-könüldən çox uzaq bir yerə gedək, orda qalaq. Arzularımızın çiçək açacağı bir məkan olsun yerimiz. Orda heç kəs bizə dəyib dolaşmasın.

Mən bu arzumu Suzannaya deyə bilmədim. Onu da bilmədim ki, o da mənim kimi fikirləşirdi, yoxsa yox!

O gündən sonra təsəlli yerim qızıl inək oldu. O inək sanki mənim ümid yerim idi. O inəyi hər gördükcə, elə bilirdim hər şey düzəlcək. Hər şey əvvəlki öz məcarasına düşəcək.

***

Anamın qardaşı erməni gülləsindən şəhid olmuşdu. Evimizdə qanqaraçılıq hökm sürürdü. Zarafat deyildi, dağ kimi oğul bir namərd gülləsinə qurban getmişdi. O gündən anam mənim qızıl inəyimə qənim kəsilmişdi. "Düşməndən qalan mirasdi!" – deyirdi.

Sanki hər şeyin səbəbkarı mənim qızıl inəyim idi, o bizim qapımızda olmasaydı bu müsibət də anamın başına gəlməzdı. Heç bir dəfə də o inəyi sağmadı. Deyirdi, "düşmənin murdar əli dəyib onu məməsinə!" Nənəm məcbur olub gedib özü sağırdı. Anama heç nə demirdi. Amma xəlvətdə gileylənirdi, "bu dilsiz, ağızsız heyvanın nə günahı var?! İnəkdi, kimin qapısında olur olsun, yaxşı baxsan yaxşı süd verəcək, baxmasan baxımsız qalıb əldən düşəcək". Nənəmin sözündə həqiqət var idi. Amma anam elə bir durumda idi ki, söz deyiləsi deyildi.

Atam da hardasa nənəm kimi mənim sarı inəyimi, dolayısıyla keçmiş dostu Albert əmini müdafiə edirdi: – "Bu yaramazların pis əməllərinə Albert və Albert kimi düşünənlərin nə cavabdehliyi var, nə də məsuliyyəti. Onlar da o namərdlərin əməllərinin qurbanı olublar; neynəsinlər, yuxarı baxırlar bığdı, aşağı baxırlar saqqal, – deyirdi. – Ondan mən pislik görmədim, məni ölümün cəngindən qurtardı. Qəlbində qara niyət olsaydı, deyərdi, "cəhənnəmə ölsün. Mərdlik etdi. Həm də o inəyi bizə pis niyətlə ver-

məmişdi. O nə bilsin ki, sonralar belə bir həngamə qopacaq”.

Elə bil inək ona qarşı edilən biganəliyi, laqeyidliyi duymuşdu. İnəyin hərəkətləri qəribə idi. Həyatda, bacada küskün gəlin kimi hərlənirdi.

Bir axşam inək həyətə qayıtmadı. Çox axtardım. Əsgərlərimiz ermənilərin sərhəddə inəyin alnından vurduğunu dedilər. Pis oldum. O vəhşilər inəyi güllələyəndən sonra ümüdlərimin qapısı tamam bağlandı. Qızıl inəyimə atılan güllə mənim arzularıma, istəklərimə atılan sonuncu güllə oldu.

Suzanna daha mənlik və mənimki deyildi!

## ÇƏMƏN XALA

(Hekayə)

Əmim arvadı Sənəm xala səsini başına atmışdı:

- Köpəqqızı, harda görmüsən, düzünü de, yoxsa səni qaz kimi yolub, tükünü buralarnan bir eləjjəm!

Yazıq Çəmən xala udquna-udquna qalmışdı:

-Aaz, vallah, bir söz idi, ağzımdan çıxdı, hara var, harda görəjəm ki?

-Yox eyy, deməsən, bu dəyqə səni buralarnan sürüyəjəm...

Əslnə qalsa sürüyə bilməzdi. Çəmən xala ondan canlı-cəsədlı idi. Özü baş qoşmaq istəmirdi. Çünki öz dilinin bəlasına düşmüşdü. Mən də çox toxunurdu, Çəmən xala onun qabağında günahkar kimi dayanıb, dinib-danışmırdı.

Əmim arvadından çox onun xətrini istəyirdim. Çox şırındil, mehriban qadın idi. Qonşu kənddən gəlin gəlmişdi. Mənimlə çox mehriban danışıb, gülürdü. Arada başımı sinəsinə sıxıb, saçımı sığallayırdı. Nəfəs aldıqca döşləri başıma sıxılırdı. Hər mənə toxunduqca elə bilirdim ruhum canımdan cıxacaq. Bədənim tir-tir əsirdi. Bəlkə özü də hiss edirdi bunu. Zarafata salıb, qiz istəyirsənmi-deyirdi.

Mən də özümü utancaq kimi göstərib, başımı aşağı salırdım, cavab vermirdim.

O:

- İstəyərsən-istəyərsən, inanmıram istəməyəsən! Əmisi kimi yaraşıqlı, boylu-buxunlu oğlan heç qız istəməzmi?! Gör neçə qız dərdindən öləcək?! -deyirdi.

Belə şirin sözlər mənə xoş gəlirdi. Onda 16 yaşım var idi.

O, ətli-qanlı, gözəl-göycək qadın idi. Şux yeriyirdi. Yeriyəndə yanları titrəyirdi. Dolu sinəsi qabağa qabarırdı. Tünd-qara saçlarını səliqə ilə darayıb kürəyinə tökərdi. Ağbəniz, cəlbedici sifəti var idi. Yanaqlarında zərif qızartı müşahidə olunur, sifətinə xüsusi yaraşıq verirdi. Gözləri ağ sifətdə qara karandaşla rənglənmiş rəssam tablosuna bənzəyirdi.

Düzünə qalsa, ondan xoşum gəlirdi. Görnüşü bir an belə xəyalımdan çəkilmirdi. Gecələr tez-tez yuxumu qarışdırır, özümü onun qolları arasında görüb xoşbəxt olurdum. Hələ başqa şeyləri demirəm, ayıbdır! Hərdən gördüyüm yuxulardan utanırdım. Gör məndən neçə yaş böyükdür? Həm də Şahinin anası idi. Eşitsə nə deyərdi mənə? Başqa məhəllə uşaqları ilə dava-dalaş olanda Şahinə görə onların gözünün yağını alırdıq.

***

Bizim ev Çəmən xala ilə əmimgilin evinin arasında yerləşirdi. Çox mehriban qonşuluğumuz vardı. Hay deyəndə bir-birimizin köməyinə çatırdıq.

Şəmən xalanin əri Tapdıq çoxdan rəhmətə getmişdi. Tapdıq əmimin uşaqlıq dostuymuş, bir-birinə çox mehriban olublar. Neçə il bir yerdə işləyiblər.

Sonra qəflətən Tapdıq gecə yatıb, səhər ayılmayıb. Heç dərdini də bilən olmayıb. Deyirlər çox gümrah adam olub. Bir yaşlı oğlu Şahin, anası Çəmən xalanın himayəsində qalıb.

İnsafən, əmim dostluğa çox sədaqətli adam idi. O gündən dostunun da evinə hayan olub. Nə çətinlikləri olsa əl uzadıb, köməklık göstərib.

Yadımdadı bir-iki dəfə məhəllə arvadları Çəmən xalaya məsləhət bildilər ki, a bala, cavan qadınsan, neynəyək, taleyin belə gətirdi, ömrünü-gününü niyə çürüdürsən? İstəyən olsa, birini bəyən, get.

- Yox, mən Tapdıqdan sonra heç kəslə bir yastığa baş qoymaram! Tapdığın yurdunu kimə tapşırım, yadigarını kimə etibar edim?!

Daş atıb, başını tuturdu. Əmim uzun müddət idi ki, kolxoz sədri işləyirdi. Çox zəhmətkeş, qayğıkeş adam kimi tanıyırdı hamı onu. İşgüzarlığına söz ola bilməzdi. Bu vəzifəyə birdən-birə gəlməmişdi, əmim. Cavanlıqda Tapdıqla kolxozun kəllərinə baxıblar. Sonra təsərrüfat briqadiri işləyib. Bacarıqlı adam olduğuna görə kolxoz sədri seçmişdilər.

Bir sözünü iki eləyən olmamışdı. Söz ağzından çıxdı, baş üstə deyib, yerinə yetirərdilər. Özündən 3-4 yaş kiçik olsa da, atam da əmimin məsləhətinə qulaq asardı. Nə başınızı ağrıdım, əmim belə kişi idi. Arada atam deyirdi:

- Əmin də, mən də babana çəkmişik.

Mən də bununla qurur duyurdum. Babam, deyilənə görə, qollu-budaqlı, boylu-buxunlu, səsindən yer titrəyən, sözü ötkəm kişi olub. Atam sakit təbiətli insan idi. Çox şeyə qarışmırdı.

***

O vaxtlar, yadımdadır qonşu arvadları birlikdə həftədə bir-iki dəfə sacda yuxa salardılar, ya çörək bişirərdilər.

Yazın əvvəlləri idi. Havalar isinməyə başlamışdı. Ağacların çoxu çıçəkləmişdi. Çol-bayır yamyaşıl xalıya bürünmüşdü. Havadan gələn xoş ətir adamı bihuş edirdi. Təsərrüfat işlərinin qızğın vaxtı idi. Hər ikisi yaylıqlarını çiyinlərinə atıb, şirin-şirin söhbət edə-edə, sacda yuxa salırdılar. Əmimin beş yaşlı kiçik oğlu İbrahimin (biz onu əzizlədiyimizdən İbo deyib çağırırdıq) şalvarının ortası partlayıb, hər şeyi çöldə qalmışdı. Yazıq uşağın özündən xəbəri yox idi. Birdən Çəmən xalanın gözü ona sataşdı:

- Ədə, ədə, ay İbo, özündən xəbərin varmı, biabır oldun... – dedi, qəh-qəhə çəkib, ürəkdən güldü.

***

Sənəm xala əsib-coşurdu. Səsinə xeylı adam yığılmışdı. Elə bil tamaşaya baxırdılar.

Əmimin atı kişnəyəndə hamı çevrilib yola baxdı. (Kənddə hamı əmimin atını kişnəməsindən tanıyırdı). Elə bil qurbağa gölünə daş atdılar, səs kəsildi. Mən heç nə anlamadım. Bunlar birdən-birə niyə qızışdılar və qəflətən də ortaya lal sukut cökdü.

Əmim evə yaxınlaşanda əmim arvadı tez-tələsik gedib atın yüyənindən tutdu.

Əmim ayağını üzəngidən çıxarıb ağır-ağır, atın belindən yerə endi...

## SOLMAZ QƏRİBEL
(1973)



**Solmaz Qəribel** - Solmaz Bəhlul qızı Həsənova 25 yanvar 1973-cü ildə Ağdərə rayonunun İmarət Qərvənd (Kərəmli) kəndində anadan olmuşdur. İkinci sinfədək Şuşa şəhərində 4 saylı orta məktəbdə oxumuş, sonra öz doğma kəndində orta təhsil almış, 1991-ci ildə bu məktəbi əla qiymətlərlə başa vurmudur. Həmin il N. Nərimanov adına Azərbaycan Tibb Universitetində pediatriya (uşaq həkimliyi) ixtisası üzrə ali təhsil almışdır. 1997-ci ildə Universiteti bitirmiş, 1998-ci ildən 2003-cü ilə qədər Bakı şəhərinində həkim pediatr vəzifəsində çalışmışdır. Hal-hazırda Rusiyanın Həştarxan (Astraxan) şəhərində yaşayır. Burada Astraxan Dövlət Tibb Universitetini həkim-nevroloq ixtisası üzrə bitirmişdir. İndi həmin şəhərdə həkim-nevroloq vəzifəsində çalışır.

3 övladı, iki oğlu, bir qızı var. Övladlarından qızı anasının yolunu davam etdirir. Bədii yaradıcılığa altıncı sinifdə oxuyarkən başlayan Solmaz iki dəfə Vətənsiz qaldığı üçün özünə Qəribel təxəllüsünü götürmüşdür.

Solmaz Qəribelin şeirlərində sevgi və vətən həsrəti aparıcı mövqedədir. Şeirlərini əsasən sosial şəbəkələrdə paylaşır.

”Məni məndən alan dünya” adlı poetik toplusu çap olunub.

### ÖMRÜMÜ

Daşan sellər sular yudu, apardı,
Çırpdı qayalara qalan ömrümü.
Bir köklü ağacdım əydi, qopardı,
Onsuz da kökündən qopan ömrümü.

Körpə uşaq kimi aldatdı məni,
Yalan vədləriylə ağlatdı məni.
Nə dostu tanıtdı, nə də düşməni,
Taladı talanmış qalan ömrümü.

Zamanın acısı üzdü qəlbimi,
Büküb yumaq etdi,o şux qəddimi.
Yoluma keçilməz çəkdi səddini,
Qoymadı tərpənə qalan ömrümü.

Elə bil, dünyanı tutub duracam,
Yıxılmış dünyamı təzdən yıxacam.
Bir gün dönüb soyuq daşa baxacam,
Qoymadı yaşayam yalan ömrümü,
Taladı talanmış yalan ömrümü.

## NECƏ ATIM MƏN?

Səni ürəyimdən necə atım mən?
Qorxulu yuxusan, duram danışam?
Gözümü açmaqla yox olasan sən,
Bu bir yuxu imiş, deyib alışam.

Səni ürəyimdən necə atım mən?
Bu ürək sevməsə yaşaya bilməz.
Sevgiylə bir ürək döyünməyirsə,
Yaxşını yamandan ayıra bilməz.

Səni ürəyimdən necə atım mən?
Kəsdiyim çörəyi, duzu atımmı?
Mən sənə canımsan demişdim axı,
Ürəkdən dediyim sözü atımmı?

Səni ürəyimdən necə atım mən?
Qurana, kitaba and içdin axı.
Mən "şeytan "deyiləm Allahsız olam,
Səni sevdiyimə and içdim axı!

Səni ürəyimdən necə atım mən?
Nə bir izi qalsın, nə bir yarası.
Təzədən sevgiyə inanım bir az,
Qəlbimdən çəkilişin sevgi ağrısı.

Səni ürəyimdən necə atım mən?
Bəlkə ürəyimi söküm, qoparım?!
Deyim ki, sevgidən anlamadın heç,
Üstündən xətt çəkim, büküm, aparım

Qorxuram bunun da faydası olmaz,
Qanıma, canıma çökmüsən artıq.
Sevgimin yoluna duman, çən çəkib,
Görən gözlərimi tökmüsən artıq.

Səni ürəyimdən necə atım mən?
kaş ki, kor olsaydım səni görəndə!
Çəkil yollarımdan, vicdanın olsun,
Ürəyim bulanır, səni görəndə!

## NARAHAT KÖNLÜM

Nədəndir bilmirəm, tələsir yaman,
Yer tapmır özünə narahat könlüm.
Elə bil, dünyadan bezib, qocalıb,
Yer tapmır özünə narahat könlüm.

Yuvasından perik quşa dönübdür,
Çağlamır, ağlamır, daşa dönübdür.
Yanaqda quruyan yaşa dönübdür,
Yer tapmır özünə narahat könlün

Dost-yoldaş yolunda yandı kül oldu,
Dünyanın dərdini qandı, kül oldu.
Açmadı qönçə gül, yandı kül oldu,
Yandı öz -özünə narahat könlüm.

Bir yola çıxıbdır sonu bilinməz,
Bir həsrət çəkir ki,sonu görünməz
Əhdinə, andına sadiq, bölünməz,
Düz oldu sözünə narahat könlüm.

Hərdən elə susur, sanki danışmaz,
Üz qarsan alovdan, yanımaz, alışmaz.
Heç zaman gerçəyi gizlədib danmaz,
Hər zaman sözünə narahat könlüm.

## YASƏMƏNLƏ SÖHBƏT

**Mən dedim:**
Ey sevgi şairi, əlini saxla,
Sevginin tərifin, düsturun söylə!
İlham pərisinin söylə adı nə?
İnsafsızlıq etmə, gəl insaf eylə!

Sevmək gözəl şeydi, bilirəm mən də ,
Hey sevib tuş oldum vəfasızlara.
Bəlkə sevə bilmir biçarə bəndə?
Siz yazıb bir namə, göndərin yara.

Eylə tərif edib don geydirdiniz,
Gözlərim az qaldı yerindən çıxa.
Yoxsa bu sevgini siz uydurdunuz,
Bəlkə kor olmuşam, görmürəm daha?!

İnsanı yaşadır sevgi, bilirəm,
Amma bu sevginin adı yar deyil.
Bir ömür zülmətin içindədirsə,
Ona işıq saçan "günəş", ay deyil!

Ey sevgi şairi, əlini saxla,
Yar vuran yaranı təzələmə sən.
Yaz gülün ömrünü Xarı Bülbülə,
Olub keçənləri, çözələmə sən.

**Yasəmən də bunu dedi:**
Sevgi düsturundan gəl deyim bir az,
Oxu, səhvlərimi düzəlt, el qızı.
Hər nə var, xəlq edən o uca ALLAH,
Sevgiylə yaratdı hər birimizi.

Sevgi o deyil ki, eşqdən yanasan,
Ana sevgisindən üstün nə olar?
Gözəlim, sən özün gözəl anasan,
Balanı sevərsən, gözlərin dolar.

Körpələr göz açar, dünyaya gələr,
Ana qucağında rahat uyuyar.
Sevgiylə öpülər balaca əllər,
Bu öpüş çevrilər, sevgi qoxuyar.

Təbiət sevgisi bir yana qalsın,
Qozanı gör necə sevir hər dələ.
Şeirə sevgin çox sənin, el qızı,
Böyük yurd sevgini demirəm hələ.

Solmazım, sevgini ucuz tutmayaq,
Sevgi müqəddəsdir başdan, binadan.
Pak sevgi yaşayan hər bir insanı,
Sevgiylə qoruyur uca yaradan.

## TƏNHAYAM MƏN

Ürəyimlə tənhayam mən,
Fikirlərim dolaşıqdı.
Dağı arana daşıyır,
Fikirlərim qarışıqdı.

Ürəyimlə tənhayam mən,
Söz qoşuram sözlərimə.
Xəyallarimın içində
İz gəzirəm izlərimə.

Hərdən azır, izim itir,
Dil dolaşır, sözüm itir.
Ürəyimdə dözüm itir,
Döz deyirəm ürəyimə.

Ürəyimlə tənhayam mən,
Ruhum dağları dolaşır.
Giribdir qəsdimə mənim,
Xəzan tək bağı dolaşır.

## OXU

Həzin nəğmə oxu mənə,
Zildə deyil, bəmdən oxu.
Alsın məni qollarına,
Dəmdən deyil, qəmdən oxu.

Ürəyimə yolunu çək,
Sal boynuma qolunu çək.
Pərvazlansın qoy bu ürək,
Həzin-həzin bəmdən oxu.

Yola düşüm xəyalınla,
Sənə gəlim ayağımla.
Oxşa məni öz qayğınla,
Arada bir dəmdən oxu.

Bax üzümə sakit dayan,
Var-gəl eylə, oyan-buyan.
Sevdiyini eylə bəyan,
Gözlərində nəmdən oxu.

Baxıb sənə naz eyləyim,
Qış ömrünü yaz eyləyim.
Sevgimi sazla söyləyim,
Pərvazlanıb zildən oxu.

## SÖHBƏT

Danış mənlə
mənim əksim,
nədən belə gözlərində
sual dolu baxırsan sən?
Nədən belə ürəyimi
yandırırsan, yaxırsan sən?
Yoxsa mənə
heç deməyə sözün yoxdu?
Bəlkə çoxdu,
vaxtın yoxdu?
Danış mənlə,
mənə baxan, mənim əksim.
Söylə mənə,
gözündəki sualları,
qorxma məndən,
mən özünəm.
Dərdlərini gizlədəcəm,
Heç bir kəsə deməyəcəm.
Danış mənlə,
mənim əksim.
Söylə mənə,
olanları, qalanları,
Bu həyatda,
üzə gülən yalanları,
səni səndən alıb,
sonra dananları.
Söylə əksim,
sakit baxıb durma belə,
gözlərində sual dolu!
İkimizin bir yolu var,

haqqın yolu!
Təkrarlama etdiyimi,
mənə baxıb,
Gözlərinin yaşın silmə,
mənə baxıb.
Sən özünü
lap özümə yaxın bilmə,
Sən də bir gün ürəyimə
dağ çəkəcəksən,
Baxıb sənə,
sızlayaraq ah çəkəcəyəm.
Ay vəfasız, qocalmışam,
mən deyəcəyəm.
Mənə baxıb durma belə,
Təkəbürlük edib yenə,
sözlərimi danma mənim.
heç olmasa,
Danış mənlə, danış mənlə!
Baxa-baxa, alış mənlə,
Yan mənimlə.



## MƏN SƏNİ UNUTDUM...



Mən səni unutdum, istəməsəm də,
Tənha qaranlığa çəkib özümü.
Daş asıb könlümə, tapdım dözümü,
Mən səni unutdum istəməsəm də.

Sən gedən yollara baxmaz gözlərim,
Od tutub alışmaz, yanmaz sözlərim,
Uzanmaz sən gedən yola əllərim,-
Mən səni unutdum , istəməsəm də.

Yalan ayaq tutar, yeriyə bilməz,
Dolaşan ayaqlar yürüyə bilməz!
Düşünmə, ürəyim başqasın sevməz,
Mən səni unutdum istəməsəm də.

Oyun nə, sevgi nə, anlamayan kəs
Bu sevən könlümə hakim kəsilməz!
Ümid et... Allahdan ümid kəsilməz,
Mən səni unutdum istəməsəm də.

Solmazam, fitnədən, yalandan uzaq,
Gətirdin ömrümə boran, çən, sazaq,
Sənə sevilməyi edirəm yasaq...
Mən səni unutdum istəməsəm də.

## BİR ÖMÜRÜN QATARI

Yola düşüb bir ömürün qatarı,
Nə fit çalır, nə də xəbər eyləyir.
Yola düşüb bir ömürün qatarı,-
Artıq susub, yaman qəhər eyləyir.

Yola düşüb bir ömürün qatarı,
Fikirləşir, min fikirlə yol gedir.
Artıq bilir dayanacaq qalmayıb,
Yavaş-yavaş son mənzilə, bil, gedir.

Yola düşüb bir ömürün qatarı,
Keçdiyi yollara təzədən baxır.
Bu ömürdə nə qazanıb bilməyir,
Sakit durub itirdiklərin sayır.

Yola düşüb bir ömürün qatarı,
Qəlbində qəm, gözündə nəm gedir o.
Bu ömürdə bəxt gülməyib üzünə,
Üzü soyuq, arzusu kəm gedir o..

***06 .11.18***

## HABİL VƏLİYEV
(1974)



**Vəliyev Habil Çərkəz oğlu** 1974- cü il oktyabr ayının 26–da Naxçıvan MR Babək rayon Güznüt kəndində ziyalı ailəsində anadan olub. 1992-ci ildə Babək rayon Güznüt kənd orta məktəbii bitirib. Elə həmin ildə N.Nərimanov adına Tibb İnstitutunun 2-ci Müalicə–profilaktika fakultəsinə daxil olub. 1998-ci ildə Tibb Universitetini bitirib.

Şeirləri vaxtaşırı dövri mətbuatda çap olunur. "İki duyğu arasında" adlı bir kitab müəllifidir.

Ailəlidir, üç övladı var.

### DAHA NƏ GÖZLƏYİRDİK Kİ?..

Sən məndən görəsən nə gözləyirdin?
Bu dünya sabahdı, mənsə gecəydim.
Ruhumun geyimi nimdaşdı, bozdu,
Sən axı bilirdin ki, hər necəydim.

Üzümdə, gözümdə nə nağıl vardı,
Çoxdan aparmışdı atımı zaman.
Özüm öz içimdə payi–piyada
Dolanan dərvişdim, Allaha güman.

Nə uçan xalçada dolanan halım,
Nə də dağ başında sarayım vardı.
İlahi eşq ilə yanan ürəyim,
Dişimdə boğulan harayım vardı.

Vədlərim... Vədlərim nəydi bilirdin,
Demişdim ismimi verəcəm sənə.
Yansan göz yaşımı, qəfil üşüsən,
Çıxarıb çismimi verəcəm sənə.

Demişdim qəlbimdə uçmuş sarayı,
Söküb sənin üçün taxt düzəldəcəm.
Pozub ikimizin alın yazısın,
Qalan sətirlərdən bəxt düzəldəcəm.

Bu dünya büsbütün ucuzdan–ucuz
Xəyaldı, baha nə gözləyirdin ki?
Eh qadın, canımı qurban verirdim,
Sən məndən daha nə gözləyirdin ki?

**ÖLDÜ XƏBƏRİ ÇIXIB**...

Sıxıb dişini dişinə,
Buludların təri çıxıb.
Neçə gündür yağış yağır,
Bu dünyanın kiri çıxıb.

Göylər düşübdür inada,
Yer də ki salmayır yada,
Cismim qalıbdı havada,
Ruhum sudan quru çıxıb.

Dedim qoy dünyam dağıla,
Bəlkə yenisi doğula,
Dərdləri atdım boğula,
Bir də gördüm diri çıxıb.

Bu yağışı hay göndərib,
Qış gətirib, yay göndərib,
Dünən Rəbbim pay göndərdib,
Əcəlin əlləri çıxıb.

Ada vardı, sahil vardı,
Kamil vardı, cahil vardı,
Yadındamı, Habil vardı,
Bəs, öldü xəbəri çıxıb...

## AÇIN BU QAPILARI!

Nə yaman dəyişibdi küçəmizin görkəmi,
Qapıdakı söyüdü kəsibdilər deyəsən?
Gözümə kimsə dəymir, nə bir səs var, nə də iz,
Qonşular bir–birindən küsübdülər deyəsən.

Qapımızın önündə arxdan su axır yenə,
Görən növbə kimindir günün günorta çağı?
Qoy çatım evimizə, həyətə də açaram,
On ildir sulamıram atam saldığı bağı.

Kimsə qarşılamadı bu dəfə kəndimizdə,
Səsini çıxarmadı qonşunun iti belə.
Zamanmı çox keçibdi, mənmi çox dəyişmişəm?
Yarpağın tərpətmədi ağacı, otu belə.

Ay sizə qurban olum bu mənəm, tanımadız?
Bir az saçım ağarıb, bir azca qocalmışam.
Alnıma qırış düşüb, gözümə kədər çöküb,
Boyum balaca idi, bir azca ucalmışam.

Mən burda böyümüşəm, şahiddi qonşular da,
Bu yol mənim açdığım cığırlardı, yadında?
Qapımızın üstünə asdığım bir üzərlik,
Barımızda əlimin izi vardı, yadında?

Bu da bizim qapımız, səbrim çatmayır daha,
Bax indi anam görüb tez qoynuna sıxacaq.
Atam əlində kətmən "Nadirin qızı, kimdir?"
Deyib, eyvana sarı boylanacaq, baxacaq.

Əl verib görüşəcəm,” xoş gəlmisən a bala”,
Əyilib yanağımdan öpəcək bircə kərə.
Sonra qardaşım, bacım sarılacaq boynuma,
Ailəm süfrə önündə yığışacaq bir yerə.

Sonra… nə olub görən? qapılar niyə bağlı?
Axı hara gediblər, nə dinən var, nə gülən.
“Ana, ana, ay ana, ay sənə qurban olum,
Açın bu qapıları, mənəm Habildi gələn.

Odun bitib ay ata? niyə yanmir bu ocaq,
Bir ömür yol gəlmişəm, ürəyimi buz kəsib.
Bacı mənəm gəlmişəm çörək gətir, çox acam,
Bu dəfə gec qayıtdım, qardaşım məndən küsüb?

Bir daha getməyəcəm, söz verirəm inanın,
Yox daha istəmirəm bu yuxudan oyanam.
Mənə görə deyilmiş getdiyim o şəhərlər,
Ayağının altında ölməyə gəldim anam…



**QAYIDAYDI KAŞ!**

Bu gecə ulduzlar nağılsız yatdı,
Nədənsə gizlənib susmuşdu ay da.
Tək məni sıxmırdı sənin yoxluğun,
Belə gedişindən küsmüşdü ay da.

Tutub gözlərinə ağ buludları,
Sıxmaq istəmirdi yerin üzünə.
Demişdin döncəm, o da mənim tək,
Yaman inanmışdı sənin sözünə.

Birdən qəzəbləndi, göy guruldadı,
Sıxdı əllərində, bulud ağladı.
Düşdü yanağıma yağış damlası,
Ağrıyıb içimdə ümid ağladı.

Çəkdi işığını cığırlar üstdən,
Dedi yığ gözünü yollardan daha.
Dedi düşünməyək, gecdir gəl yataq,
Cavabsız suallar qalsın sabaha.

Gizlicə boylandım yollara sarı,
Gördüm ki ağarır dan yavaş–yavaş.
Səssiz dua etdim, ay eşitməsin,
Nə olar, günəşlə qayıdaydı kaş.

## BAX BELƏ…

Gec ayıldın bu yuxudan, kimsə yox,
Tək qalmısan, çıxıb gedib
Vaxt belə.
Çox düşünmə, görmədiyin yuxudur,
Nə fərqi var, yozan yozub…
Bax belə…

Cəlladı var, ömür kəsir, vaxt adlı,
Yalanı var, zirvə adlı, taxt adlı,
Hər kəsin öz nağılı var bəxt adlı,
Tanri deyib, mələk yazıb…
Bax belə…

Ömrün boyu bəlkə pənah yeriymiş,
Gəzdiyin sirr dünyanın öz sirriymiş,
Sirri bilən ölüm deyə biriymiş,
O da gəlib sonda çözüb…
Bax belə…

Bilmədin heç bura niyə gəlmisən?
Xəyalları özünə ev bilmişən,
Demə elə bətnindəykən ölmüsən,
Məzarını anan qazıb...
Bax belə...

## ASDI…

Qar, boran kəsəndə hey yollarını,
Küləklər apardı xəyallarını,
Bu adam öldürüb arzularını,
Bir gün kipriyindən, gözündən asdı.

Heç vaxt bar vermədi əkdiyi zəmi,
Yavanlıq elədi qüssəni, qəmi,
Göz yaşı islatdı dərdi, ələmi,
Həyat da qurudub üzündən asdı.

Dünya kitabında o bir kəlmədi,
Yükü ağır oldu, yerə gəlmədi,
Bəxti görəndə ki, yıxa bilmədi,
Qaldırıb yaranı dizindən asdı.

Baxdı ki bu dünya adi xəyaldı,
Dünən qələmini əlinə aldı,
Nöqtəni mismar tək vərəqə çaldı,
Özün son cümlədə sözündən asdı.

## ƏLVİDA, ƏLVİDA...

Darıxma, bir sabah səni,
Özümdən yola salacam.
Cığır açıb yanağımda,
Gözümdən yola salacam.

Axı kimin nə işinə,
Kim nə deyər, nə düşünə,
Qoşacam sön gülüşümə,
Üzümdən yola salacam.

Gah səni sənə gətirən,
Gah səndən mənə gətirən,
Bizi bu günə gətirən,
İzimdən yola salacam.

Gerçəklərmiş uçurduğun,
Boş xəyal imiş qurduğun,
Dün axşam yerə vurduğun
Dizimdən yola salacam.

Cümləmin sonunda bir nida
Dilimin ucunda son vida,
Əlvida, əlvida... Əlvida
Sözümdən yola salacamNə deyim?

Tutduğum yol məni bura gətirdi,
Seçim mənimkiydi, baxta nə deyim?
Hər keçən yolçunu mehman elədim,
Kim gəldi oturdu, taxta nə deyim?

Yolumda durmaqdan yoruldu daş da,
Nə sevgim yanımda, nə ağıl başda,
Bir də baxıb gördüm ömür də, yaş da,
Məndən keçib gedir, vaxta nə deyim?

Viran eləmisən çoxdan sən məni,
Yəqin anlayarsan indi sən məni,
Dünən dedilər ki, sevirsən məni,
Bu mənəm, bu eşqim, bax da, nə deyim?

## HƏLƏ Kİ...

Nəfəsində bahar ətri olsa da,
Baxışın buz, əllərin qar hələ ki.
Bu tufandan qəlbim viran qalsa da,
Yaşamağa səbəbim var hələ ki,

Sükut gülür, ələ salır gümanı,
Çən gətirir, yola salır dumanı,
Gözləyirəm, yetişəcək zamanı,
Ümidimdə qalıbdı bar hələ ki.

Ürəyinə göz ağardır, kəs deyir,
O çırpınır, bu durmadan küs deyir,
Nə olsun ki ağlın elə sus deyir,
Dilindədi o ahu–zar hələ ki.

Cığırlara yağıbdı qar, bilirəm,
Ümidimdə qalıbdı bar, bilirəm,
Eşqin kimi bələdçim var, bilirəm,
Sənə gedir bütün yollar hələ ki.

## YUXUMA GƏLƏN MƏKTUB

Kəndimiz yuxuma girmişdi ana,
Duman içindəydi, çən içindəydi.
Taxta qapımızın önündə duran
Atamın gözləri qəm içindəydi.

Payız xəzanıydı, yağış yağırdı
Çılpaq divarların daş sifətinə.
Yalın ayaqları batıb qalmışdı,
Islanmış yolların yaş sifətinə.

Uzaq bir səfərdən gəlmişdi sanki,
Alın qırışında bitən tər idi.
Qoynuna sıxdığı ovuclarında,
Vərəqi islanmış məktub var idi.

Bir az aralıda mən dayanmışdım,
Taqətim yox idi yaxına gəlim.
Mənə uzadırdı, al, oxu deyə,
Göz yaşım qoymurdu oxuya bilim.

Baxıb gözlərimə sonuncu dəfə
Getdi, arxasınca boylandım, baxdım.
Dizlərim büküldü, çığırdım, ata,
Özüm öz səsimə oyanıb qalxdım.

Daha sabahlara nifrət edirəm.
Qaranlıq atamın sirrin gizləyir.
Yata da bilmirəm oxuya bilim,
Yuxumda o məktub məni gözləyir.

## QƏNİRƏ PAŞAYEVA
(1975)



**Qənirə Ələsgər qızı Paşayeva** – tanınmış jurnalist, hüquqşünas, həkim, yazıçı, Azərbaycan Respublikası Milli Məclisinin üzvü.

1975-ci il martın 7–də Tovuz rayonunun Düz Qırıqlı kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Tibb Universitetinin pediatriya fakültəsini və Bakı Dövlət Universitetinin beynəlxalq hüquq fakültəsini bitirmişdir. Türkiyə türkcəsini, rus və ingilis dillərini bilir.

1998-ci ildən ANS televiziya şirkətinin Xəbərlər xidmətində reportyor, müxbir, redaktor, aparıcı redaktor, baş aparıcı redaktor, baş redaktorun müavini, Xəbərlər redaksiyası baş redaktorunun müavini vəzifələrində çalışmışdır. Heydər Əliyev Fondunun İctimaiyyətlə əlaqələr departamentinin rəhbəri olmuşdur.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvüdür. Azərbaycan–Gürcüstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan–Hindistan, Azərbaycan–Türkiyə, Azərbaycan–Yaponiya parlamentlərarası əlaqələr üzrə işçi qruplarının, Avropa Şurası Parlament Assambleyasında Azərbaycan milli nümayəndə heyətinin üzvüdür.

30 sentyabr 2011-ci il tarixində "İslahatçı Gənclər" İctimai Birliyi Qənirə Paşayevanı hər il ənənəvi olaraq təqdim etdiyi "Xəzər" Milli Mükafatının qaliblərindən biri elan edib.

"İslahatçı Gənclər" İctimai Birliyi tərəfindən 2013-cü ildə Azərbaycanda reallaşdırılan dövlət gənclər siyasətinə verdiyi dəstəyə və bu siyasətin təbliğindəki xidmətlərinə görə Qənirə Paşayevanı Fəxri Diplomla təltif edilib

Gürcüstanın fəxri vətəndaşıdır

"Nobel mükafatlı qadınlar" (Bakı: "Elm və təhsil", 2009. 456 səh. 1000 nüsxə), "Tarixə adını yazan qadınlar" (3 cilddə. Bakı: Ozan, 2011), "Xocalı soyqırımı" (26 fevral 1992, şəhidlərin dilindən. H. Məmmədova ilə birgə, Bakı: "Elm və təhsil", 2011) və başqa kitabların müəllifidir.

Filmləri; "Eləcə də Apreldən əvvəl may... Azərbaycan Xalq Cümhuriyyəti" (film, 2001), "Erməni soyqırımı, Türkün sözü" (film, 2001), "Mənə inanın!" (film, 2007), "Ruhum qarabağlıdır" (film, 2012) və s.

(Mənbə: Vikipediya)

## ANA

Bu gecə yata bilmədim, ana,
36 yaşın qorxusu vardı içimdə.
Məni 37–yə aparan gecənin
səhərində soyuq var
Üşüdüm, ana!
Bütün gecə
Səsin gəldi qulaqlarıma–
Keçmişdən səsin gəlirdi:
"Böyü, qızım,
Yeri, qızım,
Dil aç, qızım!"–deyirdin...
Böyüdüm, ana,
Tarixin ən amansız illərində böyüdüm.
Dil açdım, ana,
Həyatın ən çətin yollarında
Yeridim, ana!
Amansızca vuran oldu,
Yıxılıb–qalxdığım oldu...
Qalxdım qalxmağına,
amma canım çox ağrıdı,
Qəlbim çox ağrıdı, Ana...
Sən mənə bu dünyada
Qadın olmanın,

Belə çətin olduğunu,
Deməmişdin axı...
Ayaqların üstündə durmaq,
Namusunla yaşamaq,
Haqq bildiyini söyləmək istəsən,
Qadın olmanın bədəli çox ağırmış, ana!
Sən mənə belə deməmişdin axı...
Heç kimə göstərmədim göz yaşlarımı,
İçimə axıtmağı öyrəndim, ana,
Xoşbəxtliyi oynamağı...
Ürəyim ovcumdaykən
Başım dimdik gəzməyi.
Məni vuranları sevindirməmək üçün,
Yıxılmamağı öyrəndim, ana!
Yalandan gülməyi elə öyrəndim ki,
Gülməyin əslini unutdum.
Xoşbəxtliyi oynamagı elə öyrəndim ki,
Xoşbəxtlik necə olur əslində–unutdum...
Bu gecə
Səsin gəlirdi qulaqlarıma–
Mənə nağıl danışırdın,
Xeyirin həmişə Şərə qalib gələcəyini deyirdin.
Mən düz 36 il Xeyirin qələbəsini gözlədim,
Şər qalib gələndə ağladım, ana!
Sənin nağılların belə qurtarmırdı axı...
Səni dinləyirdim, ana,
"Biri vardı, biri yox” deyirdin.
Mənim nağılımda
"Biri yoxdu”lar daha çox oldu, axı...
Böyüdüm, ana,
Daha o qız deyiləm,
Ağrı və göz yaşlarıyla
Böyüyən qadınam...
Yadındamı, ana,
Kəbə yolu gedirdik,
Sən sakitcə dua eləyirdin.
Birdən səndən

Kimə dua elədiyini soruşdum.
Üzümə baxıb:
"Ana olanda anlarsan"–dedin.
Mən ana olmadım, ana...
Amma səni az da olsa, anlaya bilirəm...
Arxadan vuran dostları,
Qəlbimi verdiyim sevgilinin
Ögey baxışlarını görəndə,
Anladım, ana,
Sən söykənə biləcəyim
Tək varlıqsan...
Sevincimi bölüşdüm səninlə,
Amma üzülməyəsən deyə
Kədərimi bölüşmədim, ana.
Kədərimdən əzilməyəsən, deyə.
Əslində kədərimi tək sən gördün,
İlk sevdam daşa dəyəndə,
Məni təkcə sən anladın.
Mən səndə gördüm insanı anlamağın necə səssiz olduğunu...
Sevdiyim mənə
–Sən mənim heç nəyimsən!–
Deyəndən beşcə dəqiqə sonra,
Sən mənə
–Sən mənim hər şeyimsən!–demişdin.
Sən mənə bunu deyəndə,
Mən sənin deyil, onun hər şeyi olmaq istəyirdim.
Amma həmişə belə oldu,
Yanımda həmişə sən oldun, ana...
Sənin gözlərində
Qəzəblərin ən gözəli olurdu,
Kimlərsə məni ağladanda.
Gözlərində alovların ən qaynarı olurdu,
Kimlərsə məni aldadanda...
Qaçqınların yurd həsrətini,
Atılmış körpələrin göz yaşlarını

İçimdə hiss elədim.
Taledən yarımayanların, ürkək baxışlarını
İçimdə hiss elədim.
Savaşda itirdiyim dostlarımın,
Gözlərini, arzularını, xəyallarını
Heç unutmadım, ana..
Məni ağrılar büyütdü,
Daha güclü oldum, ana!
Gəncliyin, eşqin, sevdanın dadı,
ağrılarda, savaşlarda itib getdi.
Sonra sevgini tanıyanda
O artıq məndən qaçırdı...
37 yaşıma çatdım, ana,
Tonqala atılan Jannadan,
Vətən ugrunda Kirin başını kəsən Tomrisdən,
İsgəndərə ədalət dərsi keçən Nüşabədən,
Sevgi şəhidi Leylidən
Daha çox yaşadım, ana!
Amma nə Tomris ola bildim,
Nə Nüşabə, nə Janna,
Leyli də ola bilmədim, ana...
Əvəzində sənin hər şeyin oldum,
Məni uşaqlığıma apar, ana,
Sonu xoşbəxtliklə qurtaran nağıllar danış.
"Biri var"ları çox olsun,
37 yaşımın ilk sabahını
Sənin nağıllarına inanaraq açmaq istəyirəm.

## SƏNSİZ NECƏ YAŞAYIM?
**"Ruhum Qarabağlıdır" silsiləsindən**

1
Yuxum ərşə çəkilib
Görmədiyim gündən səni
Gözümün yaşı kəsmir
Sənə gəlməyəndən bəri
Canım parçam–parça, ruhum pərişan
Diriykən ölüyəm
Sənsiz, Qarabağ!
Mənim yaralı atam,
Mənim bəlalı anam,
Qarabağ!
Türk torpağı, türk yurdu,
Gözlərimi yaş yudu.
Sənsiz niyə yaşayaq?!
Sənsiz necə yaşayam,
Qarabağ?!
Düşmən tapdağında qoymarıq səni,
Kafir caynağında qoymarıq səni,
Həsrətin qoynunda qoymarıq səni,
Müqəddəs andımız, ruhum,
Qarabağ!
Sənsiz qala bilmərəm!
Sənsiz ola bilmərəm!
Sənsiz ölə də bilmərəm,
Ölsəm, qibləm Qarabağ!

II
Yetər, Dünya!
Bir gör artıq
Günahlını,
Günahsızı;
Qantökən,
Axar qanı;
Əsir olan cocuqları.

Girov qalan anaları;
Viran olan yuvaları, xanaları...
Yetər, Dünya!
Bir duy artıq
Öz yurduna həsrət
Qalan milyonların
Ərşə qalxan naləsini.
Yetər, Dünya!
Bir gör artıq
O günahsız qadınların, cocuqların
Axıdılan pak qanını.
Köçkünlüyə məhkum olmuş milyonların,
Boynubükük cocuqların
Gözlərini, o gözlərin kədərini,
Dillənməyən Ürəklərin çağırışını,
ağrısını.
Yetər, Dünya
Bir gör artıq
Əsir, girov qadınlara, körpələrə
O edilən zülmləri.
Duy, onların fəryadını, harayını!
Yetər, Dünya!
Anla artıq
"Bircə dəfə öz evimi görə bilsəm
Öz evimdə ölə bilsəm;
əzizimin məzarına
üz–gözümü sürtə bilsəm"
deyənlərin həsrətini, ağrısını, acısını...
Yetər, Dünya!
Bir gün artıq
O günahsız qadınların, cocuqların,
köçkün olan, qaçqın olan yüz minlərin,
Öz evinə gedəmməyən insanların
Boynu bükük arzuları çarpar sizi!
Yetər, Dünya!
Dünya gərək dada yetsin!
Qaçqınların hay–harayı

Hər doğmaya, yada yetsin!
Varsa əgər bu dünyada
ən adil insana yetsin!
Yetər, Dünya!
Bir gör artıq
Zülm eləyən zülmkarı
Bu dövrdə, bu zamanda
Ölüm saçan ölümkarı...
Bir gör artıq,
Bir duy artıq,
Anla artıq,
Yetər artıq,
Artıq yetər!
Eşit, Dünya!
Yüz minlərlə nərəsini–
"Haqq!" bağıran haqq səsini

III
Qarabağ düşmən əllərdə!
Duysun düşmən, bilsin hamı:
Qalmayacaq bu ah yerdə!
Qalmyacaq qan yerdə!
Qarabağım yad əllərdə!
Qarabağım düşmən əldə!
Dönəcəyik evimizə,
Dönəcəyik yurdumuza,
Sökəcəyik biz bu yolda,
Qarşımızda hər nə varsa,
Dönəcəyik Qarabağa!
Qarabağım!
Anam mənim, canım mənim,
Balam mənim, yarım mənim.
Duyurmusan bu səsləri:
Milyonlarla övladının
Yer üzünün hər yanından
Sən Qarabağ nərəsini, haqq səsini?!

Harda olsaq fərqi yoxdur
Qibləmizsən, xan Qarabağ!
Harda olsaq fərqi yoxdur,
Səninləyik, can Qarabağ!
Sən canımız, sən qanımız,
Sən ən qutsal amalımız,
Sən ən böyük sevdamızsan,
can Qarabağ!

IV
Qarabağım!
Güneyliyik, Quzeyliyik,
Təbrizdənik, Bakındanıq,
Borçalıdan, Dərbənddənik,
Anadolu, Kərkükdənik.
Türküstandan, Altaydanıq
Fərqi yoxdur biz hardanıq,
Fərqi yoxdur biz hardayıq,
Uzaqdayıq, yaxındayıq.
Biz hamımız üzümüzü
sənə tutduq!
Biz hamımız sözümüzü
sənə tutduq!
Sözümüzdə səni tutduq!
Qarabağim!
Heç qalarmı günah yerdə?!
Qalmayacaq bu ah yerdə!
Qalmayacaq bu qan yerdə!
Qarabağım yad əllərdə!
Qarabağım düşmən əldə!
Öləcəyik sənin üçün, Qarabağım!
Qanımızdır sənə fəda, Qarabağım!
Öləcəyik sənin üçün, Qarabağım!
Canımızdır sənə fəda, Qarabağım!
Qəm yeməynən,
Keçəcəkdir acı günlər,
Qəm yeməynən,

Bitəcək xarı bülbüllər,
Ötəcək sarı bülbüllər.

***

Əyan olsun qoy hamıya,
Bəyan olsun qoy hamıya,
Qoy and olsun Xocalıya!
Sənsiz bizə haram olsun
bu gen dünya!
Dönəcəyik sənə bir gün,
QARABAĞIM!
QARAM, AĞIM

V
Ruhuma vətənsən, gözümə torpaq!
Gözəl Qarabağ!
Xar tutmuş gülümsən,
xarı bülbülüm,
Səndədir, sənlədir
sanım, Qarabağ!
canım, Qarabağ!
Mənim qibləm Qarabağ!
Qibləm qara bağlıdır...
Mənim ruhum, Qarabağ!
Ruhum Qarabağlıdır!
Qaram, ağım!
Qara ağım!
Ay Qarabağ!
Sən elə bir sevdasan,
Sən nə Günəş, nə Ay, Qarabağ!
Sənin kimi Eşq doğurmaz
İnsan olan Eşqsiz olmaz.
Eşqim mənim!
Taleyimdə
ən silinməz nəqşim mənim
Düşünən türk səni deyir, səni anır.
Ürək sizə yaxın uzaq

Ürəkliyə uzaq yaxın!
Sevgimizi göndəririk axın–axın
sənin üçün,
Qarabağım!
Qaram, ağım!
Qara ağım!

## SƏN VƏTƏNSƏN...

Gözlərimi açdığımda ilk gördüyüm
İlk addımı atdığım...
Həyəcan sarmışdı büsbütün məni–
Sanki yer qaçacaq ayağım altdan…
Amma sən möhkəm dayanmışdın və...
“qorxma! möhkəm dayan, mən burdayam!”
deyirdin…
Sən Vətənsən..!
Məni doyurmaq üçün bolca məhsul
yetirdin…
Sən Vətənsən…
Ana südü qoxuyan havan mənə nəfəs oldu,
Suyundan dirilik aldım.
Məni mehinlə oxşadın.
Sən Vətənsən.
Mənə anamı verən
Ana Vətən dediyim.
Sən Vətənsən.
Üzərində yürüdüyüm
Sevinclə atılıb–düşdüyüm
Sevincim tək, kədəri də bölüşdüyüm

Gözyaşımı torpağına axıtdığım…
Sən Vətənsən...
Bəxtiyarkən,
Bəxtsizkən…
Uğurda və uğursuzluqda…

Hər zaman yanımda olan…
Sən Vətənsən..!
Günahlarıma baxmadan…
Məndən əlüzməyən
Gözlərimi yumduğumda
İsti qoynuna basan
Və “xoşgəldin, övlad!” deyən…
Sən Vətənsən…
Bəzən çox acı versəm də…
Qoynuna aldığında
Ana bətnindəki kimi rahat uyuduğum…
VƏTƏNSƏN SƏN! VƏTƏN!

## SƏNMİSƏN?

Sənmisən hər gecə yuxuma gəlib,
Səhər xəyalımdan oyanıb gedən.
Sənmisən hər gecə pəncərələrdən,
Kölgə tək üzümə boylanıb gedən.

Hər səhər günəşin şəfəqləriylə,
Yuxudan oyadan söylə, sənmisən?
Hər axşam göylərdən mənlə danışan,
Ay adam, ay adam söylə sənmisən?

Mənə ilham verən, mənə can verən,
Söylə, içimdəki nəfəs sənmisən?
Ən böyük sevgidir dünyada, –deyən,
Ruhumu dolaşan o səs sənmisən?

Dəli bir həsrətlə darıxdığımda,
Mənimçün üzülən, söylə, sənmisən?
Hıçqıra–hıçqıra ağladığımda,
Gözümdən süzülən söylə, sənmisən?

Mənim eşq ulduzum, yanar taleyim,
Mənim Tanrı payım yoxsa, sənmisən?
Bir cüt göz illərlə axtarsa məni,
Arxamca boylanıb–baxsa, sənmisən?

İllərlə arayıb, həsrət çəkdiyim,
Yolun gözlədiyim, söylə sənmisən?
Səninlə ölüm də gözəl dediyim,
Mənim qara sevdam, söylə sənmisən?

Ruhuma yayılan sevda havası,
Gözümə görünən işıq sənmisən?
Yolunda başımı qurban dediyim,
O Yusuf simalı aşiq sənmisən?

(Mənbə: Big.az, Modern.az,
Doğruxeber.com saytları)

## PƏRVANƏ MƏMMƏDOVA
(1978)



**Məmmədova Pərvanə** Şirəli qızı 1978-ci ildə Şəki şəhərində anadan olmuşdur. Məktəbə qədər təhsili aldıqdan sonra 1984- cü ildə Şəki şəhər Rəşid bəy Əfəndiyev adına 10 saylı tam orta məktəbin 1-ci sinfinə daxil olan Pərvanə Məmmədova 1995-ci ildə həmin məktəbi bitirmişdir. Eyni zamanda 1987–1994-cü illərdə Şəki şəhər 3 saylı uşaq musiqi məktəbində fortepiano üzrə musiqi təhsili almışdır. 1995-ci ildə Şəki Tibb Kollecinin "Müalicə işi" şöbəsinə daxil olmuş, 1998-ci ildə kolleci fərqlənmə ilə başa vuraraq "Feldşer" ixtisasına yiyələnmişdir. 2001-ci ildə Sumqayıt Dövlət Universitetinin "Kompüter texnikası və texnologiyaları" fakültəsində təhsilini davam etdirərək 2006- cı ildə "Kompüter mühəndisi" ixtisası üzrə fərqlənmə diplomu ilə subbakalavr dərəcəsi almışdır. Yaradıcılığa orta məktəb illərindən başlayan Pəvanə vaxtaşırı dövri mətbuatda öz hekayələri ilə çıxəş edir.

1998-ci ildən Şəki Tibb Kollecində kadr işləri üzrə mütəxəssis vəzifəsində çalışır.

Ailəlidir. 2 övladı var.





## VƏTƏNİN BAŞLANDIĞI YERDƏ
(Hekayə)

Onun xidmət etdiyi sərhəd zastavası dağların qoynunda yerləşirdi. Gündüzlər kəndin gözəl, təmiz havasını ciyərlərinə çəkə–çəkə ətəklərinə gül–çiçəklərdən sanki əlvan naxışlı xalı sərilmiş yamyaşıl dağlara, onun qarı yayın qızmar aylarından belə əriməyən zirvələrinə baxmaqdan doymaz, gecələr əsgərlərlə birlikdə sübhə kimi növbə çəkərdi. Yaxınlıqda sakitcə axıb gedən, yaz aylarında isə

suyu artdığından coşub–çağlayan çayın səsi gecənin səssizliyində lap aydın duyulurdu. Quşların civiltisi, yarpaqların xışıltısı, suyun şırıltısı kimi təbiətin ecazkar musiqisinə o qədər məftun olmuşdu ki, onlara qarışan hər hansı yad səsi bir sərhədçi sayıqlığı ilə dərhal ayırd edə bilirdi. Şəhər yerində böyüyüb boya–başa çatdığı üçün bu gözəlliklər ona zamanın hədiyyəsi kimi gəlirdi. Ruhunu təzələyən belə duyğulu anlarında əllərini geniş açaraq çox sevdiyi bir nəğməni astadan oxumaq istəyərdi:

***Bura Vətəndir,***
***Gülü bitəndir,***
***Əlim çatandır,***
***Ünüm yetəndir,***
***Bura Vətəndir...***

Sonra da, səsi olmadığına təəssüf edərdi və xəyallar onu bu məqama gəlib çatana qədər keçdiyi o qədər də uzun olmayan, amma uşaqlıq arzularını həyata keçirə bildiyi ömür yoluna nəzər salmağa çəkib aparardı.

Hələ uşaq yaşlarında sərhədçi əsgər olmağı arzu edən, dostları ilə "atışma" oynayan Elman orta məktəbi yaxşı qiymətlərlə bitirsə də ali təhsil almaq üçün sənəd vermədi. Çünki əvvəl Vətən qarşısında borcunu yerinə yetirməyi qərara almışdı. Hərbi xidmətdə olarkən özünü doğrulda bilmiş, silahlardan istifadə etməyi və hərbin sirlərini öyrənməyə çalışması, atıcılıq hazırlığı,maneələrin dəf edilməsi və həmlə bacarığı rəhbərliyin gözündən yayınmamışdı.

Elman həqiqi hərbi xidməti yenicə bitirib Bakıya qayıtdıqdan sonra Ali Birləşmiş Komandirlər Məktəbinin nəzdində tağım komandiri məktəbini fərqlənmə diplomu ilə başa vurdu və özünü peşəkar hərbçi kimi formalaşdırmaq üçün durmadan çalışdı. Uşaqlığının ən böyük arzusu– Sərhəd qoşunlarında xidmət edib, vətənpərvərlik, sərhədsevərlik nümunəsi göstərmək arzusunu həyata keçirməyi planlaşdırdı.

Elə belə də oldu. Sərhəd Diviziyasında, " N" saylı sərhəd zastavasında artıq on ildən yuxarı idi ki, Vətənə şərəflə xidmət edirdi. Ondan harada işlədiyini soruşanda qürurla " Vətənin başlandığı yerdə" deyərdi.

Elman bir anda xəyal aləmindən ayrılıb yaşının üstünə yaş gəldiyini düşündü və nənəsinin sözlərinni xatırladı:

–Can oğul, bəlkə bu barədə fikirləşmirsən, ancaq istəyirəm ki, biləsən–bu ağbirçək nənən sənin toyunda qol açıb oynamaq istəyir. Könlündə biri varsa, gedim o gözəli sənə alım. Ağrın alım, məni namurad qoyma.

Atasını vaxtsız itirdikləri üçün hər kəsin ümidi Elmana idi. O da, hələ ki, evlənmək istəyənə oxşamırdı.

Nənəsinin nürani siması gözləri önünə gələndə Elman, gülümsünərək öz–özünə pıçıldadı:

–Ah, nur üzlü nənəm, mən axı hər bir şeyi sevgi ilə etmək istəyirəm. Bax, sevdiyim işim var. Ailəmi də sevərək qurmaq istəyirəm. O da ki, Allahın qismətidir, gərək qabağına çıxara.

Düşüncələrə dalmağa son verən Elman gecə növbədə ayıq qala bilmək üçün yatıb dincəlməyə qərar verdi.

Gecənin qaranlığında hənirti eşidildi. Dəfələrlə apardıqları əməliyyatlar nəticəsində sərhəd pozucularını yaxalayan əsgərlər bu dəfə də sərvaxt olmağa çalışdılar. Onlar mərkəzə məlumat verərək səs gələn tərəfə getdilər. Elman irəlidə idi və birdən arxadan nəriltiyə oxşar bir səs gəldi. Geri çevriləndə əsgərin ağacın arxasından çıxan ayıya müqavimət göstərdiyini gördü. Havaya atəş açdı və ayı gecənin zülmətində gözdən itdi. Əsgər isə qan içində idi. Yaralıya ilk yardım göstərsə də ayının hücumuna məruz qalan əsgərin vəziyyəti pis idi. Dəstək üçün gələn əsgərləri postda qoyub yaralını tez həkim məntəqəsinə apardı. Məntəqədə işləməyə gələn həkim qızın ciddi səyi, cəldliyi, yardımı əsgəri həyata qaytarı. Cavan olmasına baxmayaraq onun səriştəli tibb işçisi olması hiss olunurdu.

Elman səhərə kimi əsgərin başı üstündə durdu. Bu arada ona yardım edən həkim qızın adının Şəhla olduğunu da öyrəndi.

Sübh tezdən gözlərini açan yaralı əsgərin artıq vəziyyətinin qənaətbəxş sayıldığı, lakin hələ bir neçə gün həkim nəzarəti altında qalmalı olduğu məlum oldu.

Elman vəzifə başına geri döndü. Sabahısı gün isə əsgəri yoluxmağa gələndə dağ çiçəklərindən bir dəstə bağlayıb minnətdarlıq əlaməti olaraq həkimə gətirdi.

Həkim çiçək dəstəsinin ona ünvanlandığını gördükdə gülümsündü və yanaqları xəfifcə qızardı.

Bir müddət sonra yaralı əsgər tam yaxşılaşıb çıxsa da artıq Elmanın ürəyi sanki həkim məntəqəsində qalmışdı. Asudə vaxtlarında tez–tez bura gələ bilməsi üçün hər dəfə bir bəhanə axtarıb tapırdı. Və bir gün gülümsünərək öz–özünə etiraf etdi: “Deyəsən mənim sevgim də buradan başlandı–Vətənimin başlandığı yerdən.”

Həkim qız Elmanın həyatına yeni rəng qatmışdı. Vətən üçün döyünən ürəyində yeni vurğu hiss edir, həkimi ağlından çıxara bilmirdi. Qızın munis bağışları, Elmanı görəndə allanan yanaqları onda xoş ümidlər yaradırdı. Nəhayət, ona məktub yazmağı qərara aldı. Məktubunda ona qarşı duyduğu öz təmiz, səmimi hisslərindən söz açdı və onun da müsbət rəyi olarsa böyüklərini valideynlərinin yanına göndərməkdə qərarlı olduğunu bildirdi.

Həkim qızın cavab məktubu özünü çox gözlətmədi. Şəhla da məktubunda ona qarşı biganə olmadığını söyləmişdi. Bu sətirləri oxuyanda Elmanın uçmağa qanadı olmadı, gözlərində sevinc qığılcımları parıldadı. Lakin məktubun ardını oxuduqca  üzünün ifadəsi dəyişdi və məyus bir görünüş aldı. Həkim qız burada müvəqqəti işlədiyini, tezliklə Bakıya təyin ediləcəyi, daimi iş yerinə gedəcəyini bildirmiş, gur şəhər həyatından kənarda yaşamağın onun üçün çox şətin olduğunu vurğulamışdı. Sonra məktubunun sonunda onların birgə həyat qurmalarının mümkünlüyü üçün Elmanın öz iş yerini dəyişib Bakıya

getməsi şərtini qoymuşdu. Ondan öz qəti seçimini edib onu da xəbərdar etməsini xahiş etmişdi.

Əlbəttə, Elman “ hansını seçim?” deyib tərəddüd içində çaşıb qalmamışdı. Çünki, öz qətiyyətli seçimini çox illər bundan əvvəl etmişdi və bu amala ömürlük sadiq idi.

Lakin ən zərif duyğularına hakim kəsilən bu qızdan tezliklə ayrılacağı fikri onu pərişan edirdi.

Elman şıx hərbçi geyimində səhər erkəndən tibb məntəqəsinə gəldi. İş saatı hələ başlamadığından həkim qız hələ görünmürdü. Tibb bacısı otağı xəstə qəbulu üçün hazırlayırdı. Elmanı görcək:

–Həkim indi gələcək, xahiş edirəm bir az gözləyin– dedi.

Elman isə cavabında:

–Yox, mən gözləyə bilmərəm. Sizdən bir xahiş etsəm, ona çatdırarmısınız?

–Əlbəttə, buyurun–söylədi tibb bacısı.

–Deyin ki, Elman öz seçimini edib.

***

Günlər Elman üçün üzüntülü bir şəkildə gəlib keçirdi. Şəhlanı unutmaq çətin olsa da, zamanın bütün yaralara məlhəm olması fikrinə ümid etməli olurdu. Bir gün hər şeyin dəyişə biləcəyi ağlına belə gəlmirdi.

O günü axşamın alatoranlığında dağın yamacındakı dar cığırla az qala hər daşın, hər kolun arxasını gözdən keçirə–keçirə asta–asta irəliləyirdi. Birdən ona elə gəldi ki, yaxınlığında daha kimsə ehtiyatla addımlayır, o durduqda isə dayanır və nəfəsini belə gizlətməyə çalışır. Elman cəld çevrilib ətrafı gözdən keçirdi. Heç nə gözə dəymir, yarpaqların xışıltısından başqa heç bir səs eşidilmirdi. Bir neçə addım irəliləyib dayandı. Yenə ətrafa baxdı və mərkəzlə əlaqə yaradan cihazını dodaqlarına yaxınlaşdıraraq gur səslə:

–Geri qayıdıram, sakitlikdir, şübhəli heç nə yoxdur– söylədi və bir qədər də gedib ətrafını kol–kos basmış iri qaya parçasının arxasında gözdən itdi.

Əks tərəfdən, sıx böyürtkən kollarının arxasından qara geyimli və əlində polietilen iri qara torbası olan bir kişi çıxdı və ehtiyatla o tərəf–bu tərəfə boylanaraq kəndə yönələn cığırla getmək üçün üzüaşağı sürətlə yeriməyə başladı. Lakin arxadan:

–Dur, geriyə dön, yoxsa atəş açaram!–komandasını eşidib dayandı, əl–ayağı titrəməyə başladı. Geriyə çevriləndə gizləndiyi yerdən–qarşıdakı qaya parçasının arxasından çıxan və silahını hazır vəziyətdə ona tuşlayan Elmanı gördü. Elman:

–At yükünü yerə, tez! Əllər boyun ardına, arxaya! De görüm kimsən?

Kişi yazıqlanmış görkəm alaraq yarıbükülü halda əyilib dili topuq vura–vura:

–Ay bala, heç kimlə heç bir işim yoxdur, düz yolumu gedirəm–söylədi. Ləhcəsindən bu yerlərin adamı olmadığı aydın görünürdü.

–Eləmi? Nə olar, ayırd edərik. Amma onu yalan dedin, yolun düz deyil əyridir. Düş qabağıma!

Kişi yalvarmağa başladı:

–Ay bala, məni heç yerə aparma. Burax gedim. Bax, o torbanın içindəkini pula çevirsən heç bilirsən necə varlanarsan?! Qocalana kimi keyf içində yaşayarsan.

–Kəs səsini, murdar. Yürü!

–Yox, sən söz anlayana oxşamırsan. Yaxşı, onda qoy bir anlıq nəfəsimi dərim, gedək–deyə kişi dizlərini ovxalayırmış kimi büküldü və birdən cəld qalxaraq uzunboğaz çəkməsindən çıxardığı bıçağı Elmana atdı. Bıçaq Elmanın qolunu yuxarı hissəsinə bazu sümüyünün başına saplandı. Ona elə gəldi ki, gözlərindən alov çıxdı, ağrı bütün vücudunu silkələdi, bədənini soyuq tər basdı, lakin dişlərini qıcıyaraq özünü toparladı və silahını hazır tutaraq:

–Yürü, yoxsa beynini dağıdaram–deyə əmr verdi. Bu zaman başının arxasına soyuq bir dəmir parçasının toxunduğunu hiss etdi və bunun silah olduğunu anladı.

Önündə bayaqdan bükülüb dayanan sərhəd pozucusunun üzü güldü. Arxadan başqa bir kiçi səsi gəldi.

–Sənə var–dövlət təklif elədik, istəmədin. Siz, sərhədçilər, hamınız beləsiniz. Şərəf, namus, vətən sevgisi, nə bilim, müqəddəs amallar kimi sözlər milyonlarla puldan üstündür sizin üçün. Bunu başa düşə bilmirəm.

Elman qolunun ağrısını gizlətmək üçün özünü sıxaraq:

–Əlbəttə, sən bu anlayışların dəyərini nə bilərsən ki...

–Bilmərəm. Amma sənə bir yaxşılıq daha edə bilərəm. Öldürmərəm səni, at silahını yerə, çıx get, qoy biz də yolumuzla gedək. Nə sən bizi görmüsən, nə biz səni. Qazancın da həyatın olar. Bax, yarandan qan axır, yardım olunmazsa bayılacaqsan, burda, gecənin qaranlığında qurda quşa yem olacaqsan. Indi ağıllı ol, tulla silahını, get.

Kişi danışdıqca Elmanın da diqqəti axşamın alatoranlığında qarşısındakı ağacların arxasında gizlənib dayanan heyvanın görünən tüklü quyruğunda idi. Onun hansı heyvan olduğunu təyin etmək istəyirdi. Yadına düşmüşdü ki, balaca olanda bir ay kənddə babasıgildə qalmışdı. Babası da onu tez–tez kəndin ətrafındakı meşəyə gəzməyə aparardı. Orada ona ovçuların bəzi sirlərini öyrətmişdi. Belə ki, müxtəlif qəribə səsləri çıxardıqda heyvanlar qorxub gizləndikləri yerdən çıxıb qaçırlar. Indi bu sirr Elmanın karına gələ bilərdi. O güya silahını atırmış kimi onu qolundan çıxara–çıxara birdən dodaqlarını büzüb qəribə bir fit səsi çıxardı. Bu zaman ağacın dalında gizlənən heyvanı elə bir qırmancla vurdun. Cəld irəli atılaraq qaçdı. Silahını Elmanın başına dayayan sərhəd pozucusu nə baş verdiyini anlamadığı üçün diksindi və diqqəti yayındı. Bundan istifadə edən Elman cəld çevrilib fənd işlədərək onun silah tutan qolunu burub qatladı və bütün gücünü toplayaraq onu vurub yerə yıxdı. Sonra silahını götürüb hər ikisinin pəncəsinə dəqiq atəş açdı. Sərhəd pozucuları ayaqlarını tutub yerdə ağrından qıvrılırdılar. Elman havaya da bir neşə xəbərdaredici atəş açdı və silahını kişilərə tərəf tuşlayaraq arxasındakı quru

kötüyün üstündə oturdu. Ağrıdan və qan itirdiyindən gözləri qaralır, bədənini soyuq tər basır, boğazı quruyurdu. Getdikcə halsızlaşdığını hiss etsə də tezliklə ona dəstək gələcəyinə inanır, o vaxtacan huşunu, müvazinətini itirməməyə çalışır, hədəfi nişan aldığı silahını əlində möhkəm tuturdu.

Çox keşməmiş it hürməsi və sərhədçi dostlarının onu haraylayan doğma səslərini eşitməyə başladı. Havaya daha bir atəş açdı. Lakin gecənin zülməti sanki birdən birə daha da qatılaşdı və qulaqlarında yaranan küy onun köməyinə yetişən sərhədçilərin səsini eşitməyə imkan vermədi...

Gözlərini açanda özünü ağappaq bir lövhənin önündə gördü. Bir azdan anladı ki, bu tibb məntəqəsindəki palatanın tavanıdır. Sonra bu lövhənin önünə artıq xəyallarında yaşayan doğma bir sima keçdi və ona baxaraq gülümsəməyə başladı. Bu Şəhla həkim idi.

Elman gözlərinə inanmadı:

–Bəs sən daimi iş yerinə getməmişdin?

–Mən artıq daimi iş və yaşayış yerindəyəm–qəhrəmanların, cəsur sərhədçilərin yaşadığı yerdə, Vətənin başlandığı yerdə. Öz seçimimdə də qərarlıyam.

## AMAL

(Hekayə)

İbrahim türkçülük və azərbaycançılıq ideyası ilə alışıb yanırdı. O, tarixçi kimi Azərbaycanın orta əsr mədəniyyət abidələrinin öyrənilmiş materialları əsasında sərgilər təşkil edirdi. Beləliklə də, xalqın, gələcək nəsillərin öz tarixi keçmişinə marağını artırır, onlarda vətənpərvərlik hissini gücləndirirdi. O, çıxışlarında xürafata, mövhumata və geriliyə qarşı çıxırdı. Ziyalılar və dostları ona dəstək olsa da, İbrahimə qarşı çıxanlar da az deyildi. O, şəhər axundu və bəzi şəxslər tərəfindən dəfələrlə təzyiqə məruz qalsa da, öz amalından dönməmişdi.

İbrahim qonşu qızı Gülnara olan uşaqlıq sevgisindən də qətiyyən əl çəkməmişdi. Gülnar da ona qarşı laqeyd

deyildi. Onlar böyüdükcə gizli məhəbbətləri də böyümüşdü.

Valideynlər də bu işə razılıq verdiyi üçün, onlar ailə qurdular. Ancaq bu xoşbəxtliyin ömrü çox az oldu. İbrahim həyat yoldaşını uzun sürən xəstəlikdən sonra itirdi. Onun bir qızı və bir oğlu var idi. Qızı Əzizə çox savadlı, məsuliyyətli, qoçaq idi. Anasının arzusu qızının savadlı tibb işçisi olduğunu görmək idi. Oğlu Tural anasının vaxtsız ölümündən sonra böyük sarsıntı keçirdiyi üçün dərslərdə bir qədər geri qalırdı. Ancaq Əzizə qardaşına ana tək qayğı göstərir, hər işdə ona köməyə qaçır, dərslərində dəstək olurdu. Əzizə atasını da təsəlli edirdi.

İbrahim Əzizə və Turala Vətənpərvərliyin mahiyyətini, Vətənə məhəbbət və öz şəxsi maraqlarını Vətən yolunda qurban verməyi öyrətmişdi.O, ailəsi ilə bərabər yarıac,yarı tox günlər keçirməyə razı olsa da, övladlarını təhsilli olmalarını arzu edirdi.

İbrahim qızını Şəkidə fəaliyyət göstərən «Nina» qızlar məktəbinin əsasında yaradılmış qızlar gimnaziyasına, oğlunu isə oğlanlar üçün açılmış gimnaziyaya yazdırdı. Əzizə və Tural qarşılarına məqsəd qoymuşdular ki, atalarının onlara olan etimadını doğrultsunlar. Onlar dərslərində fəallığı ilə digər uşaqlardan seçilirdilər. Müəllimləri övladları haqda xoş söz, tərif deyəndə İbrahimin qəlbi dağa dönürdü.

İbrahim də xalqın milli mənlik və ümumxalq mədəniyyətinin qorunması üçün zəruri ideyaları haqda fikirlərini qələmə alır,onun «Açıq söz» qəzetində vətənpərvərlik ruhunu və istiqlal uğrunda mübarizəni özündə əks etdirən məqalələri dərc olunurdu.

Hər nəfəsində vətən deyən İbrahim C.Cabbarlının Azərbaycan istiqlaliyyətini alqışlamış «Azərbaycan bayrağı» şeirini hər məclisdə əzbər deyirdi.

İbrahim eşidəndə ki, Azərbaycan Parlamentinin binasında «İstiqlal» muzeyi açılıb dar günə topladığı pulla Şəkidə məşhur olan faytonçu Göyüşlə muzeyə getdi. Burada tariximizi, dinimizi əks etdirən eksponatlar–

məişət əşyaları, silahlar, əlyazmalar toplanmışdı. O, ulu nənəsindən yadigar qalmış, anasının göz bəbəyi kimi saxladığı xalçanı da anasının icazəsi ilə həmin muzeyə hədiyyə vermək üçün özü ilə aparmışdı. Onun bu hədiyyəsini muzeydə böyük sevinclə qəbul etdilər. O, Şəkidə də 1938-ci ildə ilk memorial muzeyin yaradılmasında rol göstərdi.Onun bu yöndə olması və fikirlərini bir qədər gizli saxlaması bədxahların qısqanclıq yaradan yerli–yersiz tənqid atəşindən, İbrahimi "sovet quruluşunun düşməni" adından uzaq tutdu.

Azərbaycançılıq məfkurəsi, vətən–torpaq sevgisi Turalın ideyalarının, arzularının qayəsini təşkil edirdi. Bu düşüncə və duyğunu sözlə ifadə etmək üçün o gimnaziyanı bitirdikdən sonra "Avropa ilə Asiyanın qovşağında yanan bir məşəl" adı qazanmış Bakı Dövlət Universitetinin Tarix–Filologiya fakultəsinə qəbul oldu. Əzizənin tibb sahəsinə meyli, anasının xəstəliyinin müalicəsini tapmaq istəyi onun Bakı Dövlət Universitetinin Tibb fakultəsinə qəbul olmasına səbəb oldu.

1920-ci il aprel ayının 28–də Xalq Cümhuriyyətinin süqutu, bolşeviklərin hakimiyyəti əllərinə keçirməsi Bakı Dövlət Universitetinin də tarixində çətin olaylarla zəngin bir səhifə açsa da. Bakı Dövlət Universiteti bu kimi çətinliklərə davam gətirdi, uzun illərin tarixi mübarizə sınağından şərəflə, alnıaçıq çıxdı.Görkəmli şəxsiyyətlər yetirmiş bu elm məbədgahı daim Azərbaycan xalqının qeyrət, namus mənbəyi olmuş universiteti yüksək qiymətlərlə bitirən, amallarına öz zəhmətləri ilə çatmış bacı–qardaş Şəkiyə çox böyük ümidlərlə qayıtdılar.

Mərhum həyat yoldaşı Gülnarın və özünün arzusuna çatmış, göz yaşlarına hakim olmayan İbrahimin sevincinin həddi–hüdudi yox idi.

## PƏRVİN ABBASLI
(1987)



**Pərvin Abbaslı** (Abbasova Pərvin Elçin qızı) 26 sentyabr 1987-ci ildə Ağcabədi şəhərində anadan olmuşdur. 2005-ci ildə həmin şəhərin 1 saylı orta məktəbini bitirmişdir. Hələ 11 yaşinda şeirlər yazmağa başlamışdır. Daha sonra mənsur seirlər, esselər və mənalı sözlər səklində duyğularını ifadə edə bilmişdir. 2005-ci ildə "Vəfa" ədəbi məclisinin üzvü olmuşdur. 2007-ci ildə "Aran" qəzetində "Deyiləm", "Necə də bənzəyir göz yaşlarıma", "Hacıkənd" ve s. şeirləri dərc edilmişdir.

2012-ci ildə Odlar Yurdu Universititetinin "Mualicə işi" fakültəsini bitirərək həkim ixtisasina yiyələnmişdir. 2015-ci ildə Ağcabədi şəhərinə qayıtmış və Rayon Mərkəzi Xəstəxanasında işləmişdir. Hazırda Respublika Narkoloji Mərkəzdə həkim–narkoloq rezident kimi çalışır və təhsilini davam etdirir.

Elə həmin ildə gənc həkim–yazarın ilk şeirlər kitabı olan "Rəngarəng Həyat" işıq üzü görmüşdür. Kitabın bir neçə yerdə təqdimatı keçirilmişdir. 2016- cı ildə şeir və esseləri həkim–yazarların yaradıcılığının ilk toplusu olan “Həkimlərin söz dünyası” kitabında yer almışdır.

Gənc yazar bu yaxınlarda esseləri, şeirləri daxil edilmiş yeni kitabı ilə oxucuların görüçünə gələcək.

## ATA, SƏNSİZ BÖYÜDÜM...
(Esse)

Sənsiz yasadim həyatimi. Çətinliklərdən keçdim. Yanımda olmadin.Sevgiyə ən çox möhtac olduğum anlarda yox idin... mənimlə deyildin. Başqaları məni incidərkən

sәni daha cox axdardim. Basqalarını ataları әzizlәyәrkәn mәn sәnin isti әllәrini saclarimda xәyalәn hiss elәdim, ata!.. Amma sәn yox idin. Uzaqlarda… kim bilir haralarda idin... Qızın sәnin üçün o qәdәr darıxırdı ki… Lap burnunun ucu göynәyirdi...Ele bil uzun yollarda dumanın içindә qalmışdım...Soyuqlarda, yağmurlarda tәkliyә qapanıb isti bir adyala bürünәrdim. …Pәncәrәdәn uzaqlara baxar, sanki elә bu dәqiqә atam gәlәcәkmis kimi yolunu gözlәyәrdim. Sәnsizlik daha çox sevdirirdi sәni mәnә, ata. İnan, çox sevmisdim… Bilirsәn....daha öyrәşdim. Hәr halımla bele tәkliyi qәbul elәmişdim…

…Bir gün gәlib çıxdın. Cox dәyişmişdin. Elә bil mәnә olan sevgin dә azalmışdı...Bir bilsәn necә kovrәlmişdim. Sarılmışdım boynuna...Әl çәkmәk istәmirdim...Amma ürәyimә dammışdı yenә gedәcәksәn. Yenә uzaqlara...Mәn isә sәnsiz bu hәyatı belә yaşamağamen elә nifrәt edirdim ki… Atası yanında olan uşaqları görәndә sәninlә bir zamanlar necә mehriban, xoşbәxt günlәrimiz olduğu yazıma düşәrdi… Sәn dә mәni çox sevәrdin...Elә sevәrdin ki…Danlamağın da şirin idi mәnә… Küsdürәndәn sonra bağrına basıb öpәrdin.

İndi hardasan, ata? Qurban olum, cavab ver....Sәni yenә görmәk, boynuna sarılmaq istәyir balaca qızın… Mәn dәyişmәmişәm...Sәnin әrköyün balan... Sәn ise.... Boğazım qәhәrdәn kilidlәnir…

… Mәzarına gül qoyarkәn…әllәrim qırılaydı kaş ki… Sәni hәr dәfә incitdiyim üçün…indi özümә nifrәt edirәm. İkimiz dә günahkarıq, ata. Mәn sәnin yanımda olmağını istәrkәn, axı sәnsiz böyüdüm…

## OLMUSAN

Zaman gәldi keçdi, illәr ötüşdü,
Eşitdim evlәnib xoşbәxt omusan.
Gözәl–göyçәk qızın gәlib dünyaya,
Nәhayәt, sәn dә bir ata olmusan.

Keçmişə qayıtdım fikirlərimdə,
Gördüm uduzmuşam,sənsə udmusan.
Vidalaşmışam mən istəklərimlə, –
Sən bir başqasına qismət olmusan.

Unuda bilmədim heç zaman səni, –
Qəlbimdə əbədi bil ki, qalmısan.
Gözdə axıradək deyirdin məni...
İndi öz sözündən dönən olmusan!

## SƏNSİZ KEÇMİR...

Mənə soyuqdur elə bil,
Qışda, boranda qalmışam.
Elə bil illərlə belə
Tənha və yalqız qalmışam.

Hanı sevincin səbəbi, –
Hanı o ürkək baxışlı, isti nəfəsli sevgili?
Hanı mənim göz işığım,
Hanı gəncliyimin şahı?

İndi sözlər, həqiqətlər
Kimə edirlər lənətlər?
Səni məndən alan o kəs. –
kirli və qatil əllər…
Bir də qaytara bilərmi,
mənə geri gətirərmi?

Para ürək heç dözərmi yaşamağa, alışmağa,
Öz–özüylə barışmağa?
Xəyanətlə savaşmağa,
Güc gələrmi
Səni sənsiz yaşamağa?

İndi soyuq…üşüyürəm,
Amma bəzən közərirəm…

Bax, yenə də mən dözürəm, gözləyirəm.
Mənə soyuqdur gecələr…
Baxışların əskik gəlir.
Hərdən tək qalırdım, amma
İndi günlər keçmək bilmir.

Ən uzun həsrət də bəzən
Bir neçə saat çəkirdi.
İndi yoxsan, ey nəfəsim,
Llay–lay deyir qəm–kədərim…

Bizimki qeyri–adi hiss, –
Görəsən axı nə idi?
İlk baxışdan sevgi... amma
Çoxunu sevindirmədi...

## DÜNƏN

Dünən gecə səni gördüm yuxuda,
Gözlərin dolmuşdu, baxırdın mənə.
Titrəyən əllərin, dodaqların da
Yadlaşıb bir özgə olmuşdu mənə.

Dünən gecə illər əvvələ döndüm,
Külə dönüb dağılmışıq beləcə.
Olub keçənlərə...bizə üzüldüm,
Yaşamamış məhv olmuşuq beləcə.

İtkini anladım bax dünən gecə, –
Yoxluğun dar gəldi o anda mənə.
Qıydım bu qismətə... sənə... mən necə?
Çətin baxa bilə gözüm gözünə.

## SAVAŞ KÖRPƏSİ
(Esse)

Mən muharibə illlərinin körpəsiyəm...Kasıb bir ailənin hər cür əzab–əziyyətinə dözmüş, üzü muharibənin hisinə batmış günahsız şahidiyəm.

Mən Vətən həsrətiyəm!.. Gozlərində torpaqların əksi qalan qisas baxışlı biriyəm! Ağlamaq yaddir mənə. Əsla fikirlərindən geri dönməyəcək biriyəm...Bəlkə sabahın ümidiyəm, amma bu gün kölgədəyəm.

Bəlkə gələcək sülhlərin, bəlkə də gələcək daha acı müharibələrin gələcək şahidiyəm... Cocuğam... tökülən qanlar görmüş gözlərim. Cocuğam–vaxtından tez böyüməyə məhkum bir cocuq!.. Bəlkə ata həsrəti çəkən, bəlkə ana sevgisi gəzən... başqasının qınağında qalan köləyəm. Sabaha ümidsiz, bu günə fikirsiz. Qəddarlığa məcbur edilmişlərdənəm... Uşaqlığını yaşamayan hardan bilər bunun nə oldugunu?.. Qayğıdan məhrum bir isti qucaq görməyən necə bilər yaşamağın nə oldugunu? Bütün bunlardan sonra adi insan olmağı bacara bilərmi? Əsla yox!

Mən savaşların sürgünüyəm, qaçqınıyam... Əslində mələk qədər günahsız, amma günahlar içində qalan cocuğam. Hər şeyi əlindən alınmış yuvadan məhrum!.. Bu həyatda təkəm... Bəlkə savaşlarin sonu, bəlkə də, hələ başlamamış bir qırğının varisiyəm...

Mən Vətən həsrətiyəm! Gozlərində torpaqların əksi qalan qisas baxışlı biriyəm!..

## DİLŞAD ZÜLFÜQAROVA
(1994)



**Zülfüqarova Dilşad** İlqar qızı 1994-cü il sentyabrın 10-da Moskvada anadan olmuşdur. 2009-cu ildə musiqi məktəbini əla qiymətlərlə, 2012-ci ildə isə ortya məktəbi qızıl medalla bitirmişdir.

Müxtəlif mövzulara həsr olunmuş onlarla şeirin müəllifidir. Şierlərini rus dilində yazır.

2015-ci ildə Moskvada keçirilən Gənc Aərbaycanlı Şairlər müsabiqəsinin qalibi olmuşdur.

Moskva Şəhriyar Ədəbi Mədəni cəmiyyətinin üzvüdür.

A.İ. Yevdakimov adına MDTU-nun sonuncu kurs tələbəsidir.

(Rus dilindən tərcümə etdi: Afaq Şıxlı)

### ANAMA

Əllərin qucaq yerimdir,
Ürəyin ocaq yerimdir.
Baxışların - sakit dəniz.
Oxşayışın necə əziz!

Duaların qalxan kimi
Hər bəladan qorur məni.
Təkcə sənsən can həmdəmi,
Sənsiz həyat yorur məni.

İncidirəm səni hərdən, -
Gah yaxınam, gah da uzaq.
Mələk üzlüm, küsmə məndən,
Uşağam da, hələ, uşaq.

***2015***

***

Sevginizi dilinizə almayın,
Eşidərlər, nəzər dəyər sevgiyə.
Sözgəzdirən kəmfürsətlər nə çoxdur,
Hərə gəlib bir söz deyər sevgiyə.

Sevginizi dilinizə almayın,
Görməsinlər aranızda ülfəti.
Duyğuları aşkar etmək asandır,
Bir sirr kimi bəsləməksə çox çətin.

Sevgi gizli dəfinəyə bənzəyər,
Nişanıdır o, günəşin, həm ayın.
Sevənlərə körpə kimi göz dəyər,
Sevginizi dilə-dişə salmayın.

***2015***

***

Sənə yenə rastlayacam
Uca dağın zirvəsində.
Ürəyimiz döyünəcək
Şəfəqlərin istisində.

Gecə boyu şərq nəğməsi
Oxuyacaq bizə quşlar.
Əziz, doğma diyarımda
Sübh çağının öz yeri var.

Yel qanadlı buludları
Seyr edərik tələsmədən...
Bir cənnətdi biz tərəflər!
Bir cənnətdi Ana Vətən!

***2013***

## BAKI

Könlümün saz nəğməsi, ürəyimin səsidir
Xəzriylə nəfəs alan Bakı – qədim şəhərim!
Al şəfəqli Günəşi sahilləri isidir,
Geri səsləyir məni Abşeron küləkləri.

Burada necə doğma, nur üzlüdür adamlar,
Ulu tariximiz tək insanlar da uludur!
Milyonların içində Bakının öz yeri var,
Bakıya gedən yollar – xoşbəxtliyin yoludur!

Vidalaşa bilmirəm gözəl şəhərimlə mən,
Xəzəri ürəyimdə aparıram qürbətə.
Uşaqlıq ətri gəlir şirin xatirələrdən,
Bakım üçün hər zaman duaçıyam qismətə!

***2015***

***

Sənə bir şərf toxuyaram,
Şaxtalarda qorur səni.
Həm ətrimi salar yada,
Həm sarar çiyinlərini.

Üzərində yol çəkərəm
Sənin üçün, bəyaz sapla...
O saxlasın səni dardan,
Sən qəlbində məni saxla.

Sarı rənglə - nurlu səhər,
Mavi rənglə - firavanlıq.
Həyatında olmasam da,
Yada düşüm qoy bir anlıq.

Günəş kimi isti, zərif
Şərf hörərəm sənə yundan.
Qalxan olar hər ilməsi
Sərt küləklər əsən zaman.

***2015***

***

Nə öz məktublarımla, nə də şeirlərimlə
Kiminsə yuxusunu istəmirəm dağıdam.
Bilirəm ki, qəlbində həmsöhbətdir mənimlə
Varlığını sirr kimi gizlədiyim o adam.

Bir-birinə bağlısa sevənlərin ürəyi
Əlavə eyhamlara, söhbətlərə nə hacət?
Gözlərimə baxınca anlayacaq hər şeyi,
Bütün sükunətlərə güc gələcək məhəbbət!

***2014***

## ULDUZLARI SAYA-SAYA...

Ulduzları saya-saya
Unutma ayı, əzizim!
Kim yoluna işıq çilər,
Nur paylayar, uğur dilər
Ondan savayı, əzizim!

İtirmə etibarını,
O sənə Tanrı payıdır.
Keçilməz ki, belə yardan, -
Simurq kimi alovlardan
Dönüb yanına qayıdır.

Sənə açmış ürəyini,
Onu oxşa, əzizlə sən.
Gülüşünə canından keç,
Ömrün boyu ayırma heç
Əllərini əllərindən!

***2014***

## MÜNDƏRİCAT:


1. Bitməyən söz xəzinəsi ................................................ 3
2. Eskulapın və Yebterpanın izi ilə ................................ 5
3. Ağrıların dərmanı söz ................................................ 9
4. Mirzə Əlixan Ləli (1845–1907) ................................ 27
5. Əlibəy Hüseynzadə (1864–1940)................................ 30
6. Nəriman Nərimanov (1870–1925 ) ............................ 33
7. Abbas Səhhət (1874– 1918)........................................ 36
8. Qantəmir (1888– 1944)............................................... 40
9. Tağı Şahbazı Simurğ (1892– 1937) ............................ 43
10. Məhəmmədhüseyn Şəhriyar (1906–1988) .................. 46
11. Mir Kazım Aslanlı Sarəng (1912–1975) .................... 50
12. Əliheydər Qənbər(1918 – 1991) ................................ 57
13. Həkim Qəni (1918–2008) ........................................... 59
14. Xanımana Əlibəyli (1920– 2007)............................... 64
15. Nadir Həkim (1935–1980) .......................................... 66
16. Ramiz Duyğun (1938) ................................................ 68
17. Yusif Əfmədov (1939–2012)...................................... 78
18. Tamilla Şəfəq (1940) ................................................. 91
19. Ramiz Mövsüm (1940) ............................................... 98
20. Zakir Ağdamlı (1946) ............................................... 104
21. Rafiq Tağı (1950–2011) ........................................... 112
22. Fəxrəddin Davud (1950–2018) ................................. 115
23. Paşa Qəlbinur (1952) ................................................ 118
24. İntiqam Bağırov (1952)............................................. 127
25. Tofiq Nurəli (1953)................................................... 132
26. Fəxrəddin Ziya (1953) .............................................. 143
27. Manafağa Feyzullayev (1953) .................................. 155
28. Rafiq Vəlizadə (1953) .............................................. 163
29. Sərdar Kərimli (1954–2003) .................................... 166
30. Cabir Umud (1954– 2015)......................................... 181
31. Əfrahim Hüseynli (1954)........................................... 189
32. Asif Kəngərli (1954).................................................. 199
33. Rəfiqə Qasımqızı (1954) .......................................... 207
34. Firdovsi Ələmoğlu (1954) ......................................... 215
35. Hümbət Quliyev (1955) ............................................ 222
36. Ramiz Əkbər (1956) ................................................. 238
37. Şahnaz Şahin (1956) ................................................. 255
38. Malik Xəlil Ağagüloğlu (1956)................................. 263
39. Süleyman İsmayıl (1958)........................................... 276

40. Hafizə Məmmədova (1960) ........................................ 282
41. Musa Urud (1960) ...................................................... 289
42. Süleyman İsmayıloğlu (1960)..................................... 301
43. Məmmədyar Məmmədyarlı (1961) ............................. 310
44. Zəkiyyə Elruh (1962).................................................. 318
45. Şahin Musaoğlu (1963)............................................... 326
46. Azadə Taleh (1964) ................................................... 338
47. Elman Rüstəmov (1966) ............................................ 346
48. Xasay Bayram (1968) ................................................. 356
49. Rəna Hacıyeva (1968) ............................................... 362
50. Xatirə Kərimova (1968).............................................. 368
51. Afaq Şıxlı (1969) ....................................................... 373
52. Nazilə Gültac (1969) .................................................. 383
53. Qalib Şəfahət (1973) .................................................. 390
54. Solmaz Qəribel (1973) ............................................... 404
55. Habil Vəliyev (1974) ................................................. 413
56. Qənirə Paşayeva (1975).............................................. 422
57. Pərvanə Məmmədova (1978) ..................................... 435
58. Rərvin Abbaslı (1987) ............................................... 445
59. Dilşad Zülfüqarova (1994).......................................... 450

***«Elm vя тящсил»* няшриййатынын директору:**
***професcор* Надир МЯММЯДЛИ**

Дизайн: ***Zahid Məmmədov***
Техники редактор: ***Рювшаня Низамигызы***

Чапа имзаланмыш **05.02.2019**
Шярти чап вяряги **28,5.** Сифариш **№ 54**
Каьыз форматы **60x84 1/16.** Тираж **250**

*Китаб **«Elm vя тящсил»** няшриййат-полиграфийа мцяссисясиндя*
*səhifələnib чап олунмушдур.*

***E-mail: elm.ve.tehsil@mail.ru***
*Тел: 497-16-32; 050-311-41-89*
*Цнван: Бакы, Ичяришящяр, 3-ъц Магомайев дюнэяси 8/4.*